**XALƏDDİN İBRAHİMLİ**

# P O L İ T O L O G İ Y A

***Dərslik***

*Azərbaycan Respublikasının Təhsil Nazirliyi Elmi Metodik Şurasının "Sosial-siyasi" bölməsinin 29.11.2011-ci il tarixli iclasının qərarına (pr.№07) və Təhsil Nazirinin 16.01.2012-ci il tarixli 10 saylı əmrinə əsasən çap olunur.*

**BAKI - 2012**

**Elmi redaktor:** Füzuli Qurbanov,
Fəlsəfə elmlər doktoru

**Rəyçilər:** Rəna Mirzəzadə,
Fəlsəfə elmlər doktoru

PhD Şahin Bağırov

Şirinxanım Eyvazova,
Fəlsəfə elmlər namizədi, dosent

*Ali məktəb tələbələrinin xidmətinə təqdim olunan bu kitab bir sıra cəhətləri ilə fərqlənir. Birincisi, dərslikdə müasir politoloji konsepsiyaların təhlilinə üsütnlük verilib və son illər dünyada nəşr olunan dərsliklərdəki mütərəqqi müddəalar nəzərə alınıb. İkincisi, dərslik Azərbaycanda gedən siyasi islahatlarin, yeniləşmənin məntiqinə uyğun hazırlanıb. Mövzuların əksəriyyətində Azərbaycanla bağlı müddəalar, şərhlər var. Nəhayət, bu nəşrdə Azərbaycanın da qoşulduğu Bolonya prosesinin ali məktəb dərslikləri ilə bağlı tövsiyyələri nəzərə alınıb.*

*Dərslikdə 15 mövzu təqdim edilir. Bu qeyri-ixtisas bakalavriatlar üçün optimal bir bölgüdür. Hər mövzunun ayrıca planı və əsas dərslikləri, elimi ədəbiyatları var. Azərbaycan, türk, ingilis, rus dillərindəki bu əsas ədəbiyyat həm müasirdir, həm də konkret problem üzrədir. Sonda isə ümumi ədəbiyyat siyahısı verilmişdir.*

*Kitabdan ali məktəb tələbələri, müəllimləri, araşdırmaçılar, eləcə də geniş oxucu auditoriyası yararlana bilər.*

© $\frac{19478321601212}{1957(P)418242}$ - 2012

## *Ön söz*

*Politologiya siyasət barədə xüsusi bir elm sahəsi kimi daim təkmilləşir və yeniləşir. Onun demokratik – liberal dəyərlərin bərqərar olduğu dövlətlərdə inkişaf istiqamətlərində oxşarlıq var. Eyni zamanda, dünyada Politologiyanın tədrisində də unifikasiya prosesi gedir və Bolonya prosesinin coğrafiyası genişləndikcə bu unifikasiyanın istiqamətləri də artır. Demək olar ki, indi Qərb dövlətləri üçün siyasət elmləri ilə bağlı ümumi tədris standartları formalaşıb. Bütün bu amillər hər bir ölkədə Politologiya sahəsində ardıcıl axtarışlar aparılmasını və ali məktəblərdə tədris olunan dərsliklərin müntəzəm yeniləşməsini tələb edir.*

*Azərbaycan ali məktəbləri üçün Politologiya dərsliyinin nəşri sahəsində dinamika dünyadakı və ölkəmizdəki yeniləşmə tempinə sinxron deyil. Gənc Azərbaycan dövləti get-gedə daha sürətlə demokratik dünyaya – Qərbə inteqrasiya olunur. Ölkənin Bolonya prosesinə qoşulması, Avropa Şurasında fəaliyyət keyfiyyətinin artması, əməkdaşlığın «Yeni Qonşuluq Siyasəti» adlanan növbəti vektorunun meydana gəlməsi, NATO ilə əlaqələrin yeni mərhələyə qədəm qoyması, eyni zamanda, daxildə aparılan islahatlar – hakimiyyət bölgüsünün, MSK-nın, Seçki Qanununun, Siyasi partiyalar, ictimai hərəkatlar haqqında Qanunun, idarəçiliyin təkmilləşdirilməsi, siyasi hakimiyyətlə cəmiyyət arası münasibətlərin sivil məcraya yönəlməsi siyasət elmlərinin də təkmilləşməsini, ali məktəblər üçün müasir dərsliklərin nəşrini zərurətə çevirir. Digər tərəfdən, müasir Azərbaycan vətəndaşı siyasi cəhətdən daha yetkin olmalı, dünyada gedən mürəkkəb və çoxşaxəli proseslərin mahiyyətini dəyərləndirməyi və düzgün yön seçmyi bacarmalıdır. Demokratiya yüksək siyasi mədəniyyət, siyasi şüur, pozitiv vərdişlərə*

*yiyələnmə tələb* edir. *Siyasi* şüuru *və mədəniyyəti inkişaf etmiş* yetkin *vətəndaş isə* effektli *maariflənmə sayəsində formalaşır.* Bu keyfiyyətlərə sahib ola *bilməyən cəmiyyətin üzvləri gerçək* demokratiyaya *kənardan baxır, tərəqqidən geridə qalırlar.*

Ali *məktəb tələbələrinin xidmətinə təqdim* olunan bu *nəşr əvvəlkilərdən bir sıra cəhətləri ilə fərqlənir.* Birincisi, bu *nəşrdə müasir* politoloji *konsepsiyaların təhlilinə üsütnlük* verilib *və* son *illər dünyada nəşr* olunan *dərsliklərdəki mütərəqqi müddəalar nəzərə alınıb. İkin*cisi, *dərslik Azərbaycanda gedən* siyasi islahatlarin, *yeniləşmənin məntiqinə uyğun hazırlanıb. Mövzuların əksəriyyətində Azərbaycanla bağlı müddəalar, şərhlər* var. *Nəhayət,* bu *nəşrdə Azərbaycanın* da *qoşulduğu* Bolonya prosesinin ali *məktəb dərslikləri* ilə *bağlı müəyyənləşdirdiyi tələblər nəzərə alınıb.*

*Ümid edirik ki, təqdim olunan dərslik Azərbaycanda yetkin vətəndaşların formalaşdırılması prosesinə və syasət elmlərinin inkişafına öz töhfəsini verəcək.*

## I. Politologiyanın predmeti, strukturu və əhəmiyyəti.

- *Politologiyanın yaranması*
- *Politologiyanın predmeti, subyekti və obyekti*
- *Siyasi elmlərin funksiyaları, strukturu və əhatə dairəsi*
- *Politologiyanın tədqiqat metodları*
- *Politologiyanın əhəmiyyəti*

### Ədəbiyyat


1. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
2. Вебер М. Избранное произведение. Москва, 1990
3. Марченко М. Политология. Москва,1999
4. Лавриенко В.Н. Политология. Москва, 2006
5. Jain M.P. Political theories. Kaveri Printers ltd., New Dehli, 1993
6. Varma. S. P. Modern politikal theories. Dehli 1999
7. Siyasi biliklərin əsasları. Bakı,1999
8. Сиделникова Т. Т., Теминков Д. А., Шарагин И. А. Политология. Москва,1999
9. Şirəliyev H. İ. Politologiya. Bakı,1993


- **Politologiyanın yaranması**

***Siyasətlə məşğul olmamaq istəyi, heç kimi onun nəticə - lərindən azad etmir (Bismark)***

Politologiyanın bir elm kimi qavranılması politikanın (siyasətin) nə olduğunu anlamağı, onun təbiətini öyrənməyi tələb edir.

«Politika» qədim yunan sözüdür. Qədim Yunanıstanda «polis» (şəhər-dövlət), «politikos» (dövlət xadimi), «politeya» (konstitusiya) kimi müxtəlif ifadə formalarına malik olan «politika» dövlət, hakimiyyət münasibətlərinin tənzimlənməsi, insanların, cəmiyyətin idarə olunması barədə elm hesab

olunurdu. İngilis dilində isə «policy» idaretmə anlamını verir. V. Dalın lüğətində («Tolkovıy slovar jivoqo velikorusskoqo yazıka») politika «dövlət idarəçilik elmi» kimi xarakterizə olunur. Müasir «Politoloji lüğət»-də isə terminin müəyyənləşdirilməsi daha dəqiqdir: «politika cəmiyyətin siyasi sferadakı fəaliyyətidir, başlıcası olaraq hakimiyyətin əldə olunmasına, saxlanmasına, möhkəmləndirilməsinə və idarə edilməsinə yönəlib».

Siyasətin daha universal dəyərləndirilməsi də mövcuddur: *«Siyasət-kiçik və böyük sosial qruplar (partiyalar, hərəkatlar, siniflər, millətlər, dövlətlər) arasındakı münasibətlər sferasında siyasi hakimiyyətin qurulması və hərəkətə gətirilməsi, ictimai əhəmiyyətli tələb və sifarişlərin gerçəkləşməsi üçün bir fəaliyyət növüdür».*

Aristotel yazırdı: «insan sosial varlıq olduğundan siyasət sosial varlıq kimi onun təbiətində kök salıb. Çünki o cəmiyyətdə, kollektivdə yaşamağa, başqaları ilə ünsiyyətdə olmağa məhkumdur. İnsan öz təbiətinə görə həm də siyasi varlıqdır». Deyilənlərdən belə nəticə çıxır ki, siyasətin tarixi insanlığın tarixi ilə yaşıddır. Bu mülahizə ilə əlaqədar bir lətifə daha aydın mənzərə yaradır:

*Cərrah, memar və siyasətçi kimin peşəsinin qədim olduğu ilə bağlı mübahisə edirlər.*

*- Cərrah deyir: Həvva Adəmin qabırğasından yaradıldı. Belə məsələlər cərrah peşəsi ilə bağlı olduğundan, cərrahlığın birinci peşə olduğunu söyləmək mümkündür.*

*- Memar deyir: bizim peşə daha qədimdir-çünki Allah bu dünyanı xaosdan yaradıb, deməli memarlıq sənətinə müraciət edib.*

*- Siyasətçi deyir: unutmayın ki, xaosun özünü də yaratmaq kiməsə lazım idi.*

Siyasət başqa sahələrdən fərqli olaraq daha universaldır, demək olar ki, dövlətin problemlərindən tutmuş şəxsiyyətin problemlərinə qədər ictimai həyatın bütün qatlarına təsir göstərir. Siyasət deyildikdə cəmiyyətdə nizam yaratmaq,

stabilliyi təmin etmək, eyni zamanda, başqa daha vacib məsələlərin həlli üçün arxasında hakimiyyət və şəxsiyyət dayanan proses başa düşülür. Bir sıra alman hüquqşünaslarının fikrincə, siyasət maraqların bir nöqtədə cəmləşmə dərəcəsinin artdığı, insanlar və təşkilatlar arasında antoqonizmin, qütbləşmənin dərinləşdiyi yerlərdə meydana gəlir. Bu zaman proseslərin motivləri dini, milli, iqtisadi, sosial, kulturaloji, yaxud da bunlardan bir neçəsinin vəhdəti ola bilər.

Siyasətin mahiyyəti zamandan, konkret tarixi şəraitdən, cəmiyyətdəki hakim ideologiyadan, dövrün əxlaqi və dini normalarından, insanların mədəni inkişaf səviyyəsindən çox asılıdır. İnsan, cəmiyyət, hakim siyasi institutlar mahiyyət baxımından nə cürdürsə, siyasət də təxminən onlara adekvat olur. Siyasətin məzmunu aparıcı sosial qrupların, zümrələrin maraqları əsasında müəyyənləşir. Aparılan siyasətin mahiyyəti bu qrupların, siniflərin məqsədlərində, proqramlarında, qarşıya qoyduqları vəzifələrdə təzahür edir.

Xarakterinə görə siyasət tənzimləyici rola malikdir. Siyasətin yönəldiyi məcra, hakimiyyətin hansı vasitələrdən, üsullardan istifadə etməsi hər bir cəmiyyətin inkişaf dərəcəsindən, onun sosial strukturundan, zümrələrarası münasibətlərdən, adət-ənənələrdən, mədəniyyətdən asılıdır.

Siyasətin bünövrəsində ya insanlar, təşkilatlar arsında əməkdaşlıq, qarşılıqlı yardım, yaxud da qarşıdurma, düşmənçilik, zor dayanır.

Siyasət növlərinə və istiqamətlərinə görə differensialdır, yəni daxilə və xaricə yönəlikdir. Eyni zamanda sosial, iqtisadi, milli, dini, elmi, mədəni, ekoloji, hüquqi, hərbi və s. istiqamətləri əhatə edir.

Siyasət çox qədim peşə olsa da, bu sahə ilə bağlı xeyli kitablar, yazılsa da, *Politologiya (Siyasətşünaslaıq)* bir elm sahəsi kimi xeyli cavandır.

XVIII əsrin ortalarından sonra təbiət elmləri, əxlaq elmlərindən fərqləndirilməyə başlandı. XIX əsrdə əxlaq elmləri birmənalı

şəkildə ictimai elmlər adlandırılırdı. Siyasət haqqında elm isə ictimai elmlərin bir qolu kimi təşəkkül tapmağa başladı.

Təhsil sistemində Politologiya bir fənn kimi ilk dəfə ABŞ-ın Kolumbiya universitetində 1880-ci ildən tədris olunur. Fənnin tədrisinə başlanandan həmin universitetdə Politologiya fakultəsi də yaradıldı.

Politologiya elminin sürətli inkişafı XX əsrin əvvəllərinə təsadüf edir. 1903-cü ildə Amerika Siyasi Elmlər Assosiasiyası (ASEA), 1949-cu ildə isə YUNESKO-nun nəzdində Beynəlxalq Siyasi Elmlər Assosiasiyası yaradıldı, politoloji tədqiqatların coğrafiyası genişləndi və keyfiyyəti xeyli artdı.

İkinci Dünya müharibəsindən sonra Qərbdə sosial elmlər sahəsində təlatümlər baş verdi və Politologiya elmi ciddi mübahisələr predmetinə çevrildi. Müharibədən sonra cəmiyyətin və insanın psixoloji durumu, gələcək həyatı barədə maraqlı disskusiyalar gedir, yeni-yeni fəlsəfi görüşlər və təlimlər yaranırdı (pozitivizm, biheviorizm və s.). Az sonra məlum oldu ki, bütün bu təlimlərdə birtərəflilik var. Nə pozitivizm, nə də ki, biheviorizm (davranış) siyasi proseslərin rəngarəngliyini tam əks etdirmək gücündə deyil. Ancaq təcrübə və sınaq yolu ilə təsdiq edilənlərin düzgün olduğunu bəyan edən pozitivistlər dünyagörüşləri və ideologiyalarla bağlı müddəaları bir kənara ataraq, onları Politologiyadan uzaqlaşdırmağa çalışırdılar. Elə buna görə də tətbiqi sosiologiya, sosioloji pozitivizm siyasi elmlərin əsas komponenti olmuşdu.

Siyasi elmlərin bu cür riyaziləşməsi Qərb politoloqlarını narahat etməyə başladı. 1970-ci illərdə belə fikirlər ortaya atıldı ki, pozitivizmin prinsipləri nəzəri xarakter daşımır və konseptual məzmundan məhrumdur. Bu illər Politologiyada «ruhların axtarışı» dövrü adlanır. Yəni mütəxəssislər, artıq, siyasətin mənəviyyatla, ideologiya ilə sıx bağlı olduğunu iddia edirdi. Qeyd olunurdu ki, dövlət təkcə rasional elmlərlə deyil fərdin, toplumun psixoloji xüsusiyyətləri, insanların halı və

ovqatı ilə, dəyərlər sistemi və ölçülərlə (normalarla) idarə olunur. Beləliklə pozitivistlərlə yanaşı mənəviyyata üstünlük verən mütəxəssislərin də mövqeyi gücləndi.

Sovetlər dövründə Politologiya sosialist düşərgəsinə daxil olan ölkələrdə inkişafdan qaldı.

Azərbaycanda isə Politlogiya müstəqil elm sahəsi kimi 1991-ci ildən, yəni milli müstəqillik bərpa olunduqdan sonra tədris edilir.

- **Politologiyanın predmeti, subyekti və obyekt**

***Siyasi elmlər hakimiyyət haqqında elmdir (N. Makiavelli)***

Hazırda Politologiya elminə iki cür yanaşma özünü büruzə verir.

*Birinci:*

- Politologiya dövlət haqqında elmdir
- Siyasətin subyekti dövlətdir
- Politologiya siyasət haqqında yeganə elmdir

*İkinci:*

- Politologiya hakimiyyət haqqında elmdir
- Siyasətin subyekti-dövlət, sinif, etnos, partiya, hərəkat, qrup və fərddir.
- Politologiya siyasət haqqında elmlərdən biridir.

Siyasətin əhəmiyyətli cəhətlərindən biri də siyasətin subyektəri və onların fəaliyyəti məsələsidir. Siyasətin subyektləri-fəal, azad və müstəqil fəaliyyət göstərən siyasi proses iştirak-çılarıdır. Onların özünəməxsus maraqları və tələbləri var. Siyasi səhnədə daim fəaliyyət göstərən siyasi subyektləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- fərdlər (sıravi vətəndaşlar, siyasi liderlər);
- sosial qruplar (zümrələr, millətlər, xalqlar, etnik qruplar, konfessional icmalar, istehsalçılar və s.);
- siyasi institutlar (dövlət, siyasi partiyalar, siyasiləşmiş ictimai təşkilatlar və hərəkatlar).

Onların fəallığı və siyasi proseslərə təsir dərəcəsi müxtəlif olsa da, bütün subyektlər öz maraqlarını gerçəkləşdirməyə çalışır.

Siyasi subyektlərə elitlər və bürokratlar da daxildir. Bir çox hallarda vacib siyasi məsələlər məhz bu subyektlər tərəfindən hazırlanıb həyata keçirilir. Elitlər kəmiyyət baxımından az olsalar da mütəşəkkildir, vacib qərarlar vermək, onları həyata keçirmək, siyasi inkişafın məqsəd və strategiyasını müəyyənləşdirmək səlahiyyətlərinə və imkanlarına malikdir. Bürokratlar isə elitlərlə cəmiyyətin digər hissəsi arasında vasitəçi rolunu oynayırlar.

Siyasət subyektlərinin fəaliyyəti ya siyasi hakimiyyətin əldə olunmasına, möhkəmləndirilməsinə, ya da başqa subyektlərlə bir yerdə hakimyyətə sahib olmaq huququna yiyələnmyə yönəlib. Siyasətin subyektləri üçün əsas bu və ya digər dərəcədə siyasi hakimiyyətə sahib olmaq, hakimiyyət strukturlarında təmsilçilik hüququ əldə etmək və beləliklə, hakimiyyət səlahiyyətlərini icra etməkdir. Hakimiyyətin öz səlahiyyətlərindən və vasitələrindən istifadə etməsi, güclənmək və öz maraqlarını effektli müdafiə etmək istəyi təbiidir. Çünki hakimiyyətə sahib olan qüvvələr öz məqsədlərini həyata keçirmək üçün daha böyük imkanlara sahib olurlar. Siyasətin subyektləri arasında dinamik münasibətlər sistemi, tabe olma və özünü tabe etdirmə, asılılıq və avtanomiya mövcuddur.

Siyasətin obyekti-ictimai həyatın müxtəlif tərəfləri, sosial qruplar, ayrı-ayrı şəxslər, nisbi müstəqilliyə malik olan ictimai-siyasi güclər və hərəkatlardır. Siyasət subyektlərinin fəaliyyəti siyasətin obyektinə istiqamətlənir. Siyasət subyektlərinin özləri, eyni zamanda, siyasətin obyektləri kimi çıxış edir.

Politologiyanın predmeti-siyasi hakimiyyətin, siyasi sistemin dəyişməsi, fəaliyyəti və bərqərar olma qanunauyğunluqlarıdır.

- **Siyasi elmlərin funksiyaları, strukturu və əhatə dairəsi**

Cəmiyyətin siyasi həyatının müxtəlifliyini və rəngarəngliyini əks etdirən Politologiya bir sıra funksiyaları yerinə yetirir: qnoseoloji funksiya, dünyabaxışları funksiyası, praktiki-proqnostik funksiya. Bu funksiyalar sıx şəkildə qarşılıqlı əlaqədə olsalar da, özəl xüsusiyyətlərini də saxlayırlar.

*Qnoseoloji,* yaxud nəzəri funksiya siyasi gerçəklikləri öyrənir. Politologiya cəmiyyətin siyasi həyatının inkişaf ənənələrini, baş verən siyasi prosesləri və hadisələri, onların təbiətini araşdırır, insanların siyasi fəaliyyətlərinin müxtəlif tərəflərini, qarşılıqlı münasibətlərini təhlil edir. Empirik araşdırmaların tətbiqi imkan verir ki, siyasi fəaliyyət, bu fəaliyyətin qanunauyğunluqları barədə yeni bilgilər əldə edilsin, siyasətlə bağlı təsəvvürlər konkretləşsin, genişlənsin, bütövlükdə cəmiyyətin inkişaf istiqamətlərinə aydınlıq gətirilsin.

Qnoseloji funksiya ilə sıx bağlı olan *dünyabaxışları* funksiyası cəmiyyətin siyasi inkişafının bütöv mənzərəsinin yaradılmasında, əsas sferalarda (iqtisadi, hüquqi, mənəvi) siyasətin yerinin və rolunun dərk edilməsində öz ifadəsini tapır. Hazırda Azərbaycan insanı üçün ətrafda baş verən hadisələri düzgün qiymətlədirmə, müstəqil qərarlar qəbul etmə bacarığı vacib keyfiyyətdir. İndiki siyasətdə səhvlərin bədəli ağır olur. Belə səhvləri minimuma endirmək üçün vətəndaşların da dünyabaxışlarının mükəmmələşməsi, inkişafı çox vacibdir.

Politologiyanın *praktiki-proqnostik* funksiyası elmi biliklərə əsaslanır. Bu funksiya: cari siyasi proseslərin, müxtəlif sosial-iqtisadi proqramların gerçəkləşməsi üçün siyasi nəticələrən tənqidi təhlilinin aparılmasına; dövlət və siyasi partiya proqramlarının siyasi ekspertizasına; siyasi hadisələrin inkişafının mümkün və arzuedilən ssenarilərinin hazırlanmasına; siyasi proseslərə effektli rəhbərlik etmək üçün

tövsiyyə və təkliflərin, proqnozların hazırlanmasına imkan verir.

Dünyada siyasi proseslərin inkişaf dinamikası artıb, insanların dünyagörüşləri, düşəncələri, ovqat və siyasi meylləri tez dəyişən olub. Bu baxımdan siyasi hadisələrin və insan davranışlarının proqnozlaşdırılması məsələsi get-gedə aktuallaşır və politologiyada əsas sahələrdən birinə çevrilir.

Politologiya elmi hansı strukturlara malikdir?

*Siyasi maraq*-siyasi davranışın insanın daxili aləmində dərk olunmuş qaynağı kimi insanları müəyyən məqsədlərə və konkret siyasi hərəktlərin gerçəkləşməsinə həvəsləndirir. Siyasi maraq siyasi münasibətlər zamanı təkmiləşşib konkretləşir.

*Siyasi təşkilatlar*-ictimai proseslərin idarəolunma və tənzimlənmə mərkəzi kimi hakimiyyət institutlarının rolunu əks etdirir.

*Siyasi fəaliyyət*-öz siyasi maraqlarını gerçəkləşdirən subyektlərin çeşidli sosial fəallığıdır.

*Siyasi şüur*-insanların siyasi həyata şüurlu münasibətdən asılılığını xarakterizə edir.

*Siyasi münasibətlər*-ictimai qrupların öz aralarında və hakimiyyət institutları ilə qarşılıqlı əlaqələrinin dayanıqlılığını ifadə edir. Cəmiyyətdəki kiçik və böyük sosial qruplar, zümrələr, siyasi partiyalar öz siyasi tələblərini ödəməyə cəhd göstərərkən qarşılıqlı şəkildə əlaqəyə girirlər. Belə siyasi münasibətlər çərçivəsində tərəflərin siyasi maraqları formalaşır. Siyasi münasibətlər davamlı tənzimlənmə tələb edir. Bunsuz siyasi proseslərin və cəmiyyətin inkişafını və stabilliyi təmin etmək çətindir.

Siyasi elmlərin əhatə dairəsi müxtəlif ölkələrdə müxtəlif cürdür.

*İsveçdə* siyasi tədqiqatlar aşağıdakı sahələri əhatə edir: İsveçin Siyasəti; İctimaiyyətə Münasibətdə Siyasət; Sosial Nəzəriyyələr; Beynəlxalq Münasibətlər; «Üçüncü dünya»

Ölkələrinin Problemləri; Seçki Kampaniyası Zamanı Davranış; Yerli İdarəetmə və İdarəçilik və s.

*Almaniyada* Politologiyanın Elmi-metodoloji Konsepsiyaları; Dövlət Fəlsəfəsi; Ailə və Dövlət Hüququ ilə bağlı Konsepsiyalar; Siyasi Təsisatların Sosiologiyası və s.

*Fransada* Siyasi Nəzəriyyə; Siyasi Təsisatlar; Beynəlxalq Münasibətlər; Beynəlxalq Təşkilatlar və s.

*ABŞ-da* Siyasi Fəlsəfə; Siyasi Fikir Tarixi; Amerika Siyasətinin Araşdırılması; Müqayisəli Politologiya; Siyasi Elmlərin, Beynəlxalq Münasibətlərin Siyasi Təhlili və s.

Bu təsnifat onu göstərir ki, siyasi elmlərin sərhədləri mücərəddir. Obrazlı ifadə olunsa Politologiyanın sərhədlərini hər dövrün öz mütəxəssisləri müəyyənləşdirir.

Son zamanlar Politologiya başqa elmlərlə qarşılıqlı əlaqədə öyrənilir. Politologiyanın on iki elmlə sıx bağlılığı var:

*Fəlsəfə (Siyasətin Fəlsəfəsi*). Bu sahə siyasəti bütöv, yəni şəxslərarası münasibətləri, cəmiyyət, hakimiyyətdaxili münasibətləri öyrənir. Politologiya siyasi problemlərin öyrənilməsində Fəlsəfənin dünyanın dərki təlimindən istifadə edir.

*Sosiologiya (Siyasətin Sosiologiyası).* Vətəndaş cəmiyyətinin hakimiyyətin bölüşdürülməsinə təsirini öyrənir. Fəlsəfə kimi Sosiologiya da Politologiyaya münasibətdə metodoloji funksiyanı yerinə yetirir. Siyasi təhlillərdə bir qayda olaraq sosioloji amillər (kütlələrin ovqatı, fərdlərin, sosial qrupların, zümrələrin, partiyaların, etnik qrupların davranış motivasiyaları və s.) nəzərə alınır.

*Tarix (Siyasi Tarix).* Tarix cəmiyyətin siyasi həyatının qavranılması üçün bir açardır. Cəmiyyətin tarixi inkişaf təcrübəsini öyrənən Politologiya siyasi inkişaf haqqında da mühakimələr irəli sürmək imkanı qazanır. Cəmiyyət həyatının bütün tərəflərini öyrənən Tarixdən fərqli olaraq Siyasi Tarix siyasi həyatı öyrənir. Siyasi Tarix siyasi nəzəriyyələr,

dünyagörüşləri, institutlar, onların xronologiyası, bir-birləri ilə əlaqələri haqqında elmdir.

*İqtisadiyyat.* İqtisadi münasibətlər siyasi münasibətlərin inkişafına əsaslı təsir göstərir. Siyasət də öz növbəsində iqtisadiyyata əsaslı təsir göstərmək imkanlarına malikdir. Bu qarşılıqlı əlaqə həm siyasət, həm də iqtisadiyyat elmlərində öz əksini tapır.

*Psixologiya (Siyasətin Psixologiyası).* Siyasi davranışın subyektiv mexanizmini, ona insan emosiyalarının, iradəsinin, şüur və şüuraltının təsirini öyrənir.

*Antropologiya (Siyasi Antropologiya, yaxud Etnoqrafiya).* Siyasətin əsas insani tələblərdən-qida, geyim, təhlükəsizlik, ev və s. məsələlərdən asılılığını öyrənir.

*Kulturologiya (Siyasi Kulturologiya).* Hakimiyyət münasibətlərinin genezisini, siyasi ənənələri, dəyərləri və normaları öyrənir.

*Hüquq (Siyasi və Hüquqi Normalar Nəzəriyyəsi).* Dövlətlə hüququn yaranma qanunauyğunluqlarını, inkişafını və fəaliyyətini, onlar arasında qarşılıqlı əlaqələri öyrənir.

*Siyasətin Ümumi Nəzəriyyəsi (xüsusi nəzəriyyə də var).* Bu Politologiyadır. Bu elm siyasi hakimiyyətin fəaliyyətinin bərqərar olmasını və onun inkişaf qanunauyğunluqlarını, müxtəlif sosial sistemlərdə, subyektlərdə və mexanizmlərdə qarşılıqlı əlaqə və təzahür xüsusiyyətlərini öyrənir.

*Siyasi Coğrafiya (Geopolitika).* Siyasi proseslərin təbiət, coğrafiya, ərazi və digər amillərlə bağlılığını öyrənir

*Siyasi Astralogiya.* Kosmosun, ulduzların düzülüşünün siyasi hadisələrə və insan davranışlarına təsirini öyrənir.

- **Politologiyanın tədqiqat metodları**

1. İnstitusional metod-yəni əsas diqqət analiz etmə və düzgün qərar qəbul etmə yolu ilə siyasi institutların (hüquq, dövlət, siyasi partiya, hərəkat və s.) qarşılıqlı münasibətlərinin öyrənilməsinə yönəlir.

2. Tarixi metod-dövlətin tarixini, tarixi şəxsiyyətləri xarakterizə edir. Onun köməyi ilə siyasi hadisələrin ümumi inkişaf qanunauyğunluqlarını, siyasi hadisələrin rolunu, özəlliklərini müəyyənləşdirmək mümkün olur. Eyni zamanda, tarixi metodda əsas diqqət siyasi normaların dəyişməsinin müqayisəli təhlili yolu ilə siyasi hadisələrin və proseslərin tarixinin, coğrafiyasının öyrənilməsinə yönəlir.

3. Normativ metod-tarixi hadisələrin cəmiyyət və şəxsiyyət üçün əhəmiyyətini öyrənir və müəyyənləşdirilmiş normaların köməyi ilə bu hadisələrin dəyərini verir. Normativ metod bütün növ proqnozların hazırlanması zamanı tətbiq edilir. O öyrənilən obyektin dəyişmə parametrlərini müəyyənləşdirməyə, normativ (ideal) variantın ortaya çıxma ehtimalını qiymətləndirməyə, məqsədə çatmağın yol və vasitələrini tapmağa kömək edir.

4. Müqayisəli metod-eyni tipli siyasi hadisələrin müqayisəsini aparmağa və müvafiq nəticələr çıxarmağa, müxtəlif xalqların, ölkələrin siyasi həyatlarındakı oxşar cəhətləri, siyasi proseslərin inkişafındakı ümumi qanunauyğunluqları və ənənələri aşkar etməyə, siyasi rejimlərin spesifik xüsusiyyətlərini dəyərləndirməyə, hakimiyyətlərin fəaliyyət effektliliyinin artırılmasına kömək edir.

5. Struktur-funksional metod-müxtəlif səpgili sosial dəyişmələrin kəmiyyət dəyərləndirməsini aparır. Bu cür dəyərləndirmə mövcud siyasi sistemin qorunma vasitələrini öyrənmək üçün çox vacibdir. Siyasi sistem nə etməlidir? O hansı strukturların köməyi ilə hansı funksiyaları yerinə yetirməlidir? Struktur-funksional metod bu suallara cavab tapmaq üçündür. Bu metod amerikan sosioloqları R. Merton və T. Parsons tərəfindən işlənmiş, az sonra isə Q. Almond və D. İston tərəfindən təkmilləşdirilmişdir (XX əsrdə).

6. Sosioloji metod-yəni əsas diqqət siyasətin sosioloji amillərdən (iqtisadiyyat, ideologiya, mədəniyyət və s.) asılı olduğunun öyrənilməsinə yönəlir.

7. Biheviorist metod-yəni əsas diqqət sistemli müşahidələr əsasında təhlil aparmaq yolu ilə şəxslərin davranışının öyrənilməsinə yönəlir.

8. Psixoloji metod-yəni əsas diqqət siyasi davranışın (arzu, istək, cəhd və s.) subyektiv mexanizmlərinin öyrənilməsinə yönəlir.

9. Sistem metodu-yəni əsas diqqət siyasətin bütövlüyünə və onun ətrafla, əhatə dairəsi ilə qarşılıqlı münasibətlərinin xarakterinin öyrənilməsinə yönəlir.

- **Politologiyanın əhəmiyyəti**

Rus mütəfəkkiri İ. A. İlin yazırdı: «İnsalığın bütün tarixini izləmək və hansı mülahizələrin, hansı bilgilərin müasir siyasi uğurlara gətirib çıxardığını öyrənmək fövqəladə maraqlıdır». Gerçəkdən də arxada qalan minilliklərdə toplanan bilgilərə və təcrübələrə rəğmən müasir insanların siyasətşünaslıq sahəsində maariflənmək imkanları çoxdur. İndi bəşər sivilizasiyasının işləyib hazırladığı sınanmış vasitələrdən düzgün istifadə etməklə milli dövlət quruculuğu prosesininin effektliliyini təmin etmək çətin deyil. Hazırda müstəqilliyin möhkəmləndirilməsi dövrünü yaşayan Azərbaycan dövlət quruculuğunun daha da təkmilləşdirilməsinə və dünya praktikasında mövcud olan mütərəqqi ənənələrin, modellərin mənimsənilməsinə ehtiyac hiss edir. Bütün bu proseslərin uğuru siyasi münasibətlərin, siyasi fəaliyyətin düzgün məcraya yönəldilməsindən, siyasi şüurun və mədəniyyətin inkişaf səviyyəsindən az asılı deyil. Bu isə öz növbəsində Politologiyanın öyrənilməsi, onun qanunauyğunluqlarının və tələblərinin praktikaya dürüst tətbiqi ilə sıx bağlıdır. İndi dünyanın əksər ölkələrində Politologiya tədris olunur. Qərb ölkələrində sosial elmlərlə bağlı tədqiqatlar sırasında

Politologiya birinci yeri tutur. Qərb demokratiyası əldə etdiyi uğurlara görə həm də bu elm sahəsinə minnətdar olmalıdır.

Azərbaycanda da siyasi proseslərin sivill məcraya yönəlməsi, dövlət institutlarının təkmilləşdirilməsi, siyasi mədəniyyətin, siyasi şüurun inkişafı, toplumun və fərdlərin siyasi davranışının effektlilik dərəcəsi siyasi maarifçiliklə sıx bağlıdır. Bu baxımdan respublikamızda siyasət elmlərinin inkişafına, təkmilləşməsinə  böyük ehtiyac var.

## II. Siyasi fikir tarixi

- *Qədim Şərqin siyasi fikir tarixi*
- *Qədim Yunanıstanda və Romada siyasi fikir*
- *İntibah dövrünün siyasi konsepsiyaları*
- *Çağdaş siyasi təlimlər*

### Ədəbiyyat


1. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
2. An introduction to modern political philosophy, Lesley A. Jacobs, Prentice-Hall Inc., 1997
3. Аристотел. Политика. Москва, 1911
4. Лавриенко В. Н. Политология. Москва, 2006
5. Марченко М. Политология. Москва,1999
6. Платон. Госудорство. Сочинения в 3-х томах. Москва, 1971
7. Сиделникова Т. Т., Теминков Д. А., Шарагин И. А. Политология. Москва,1999
8. Локк С. О государственном правлении. И.Ф.П.;2. Москва, 1960
9. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi. Bakı, 2000
10. Nizamülmülk. Siyasətnamə. B,1989


- **Qədim Şərqin siyasi fikir tarixi**

***Əsas mütəfəkkirlər: Hammurapi, Zərdüşt, Konfutsi, Şen Buhay, Şan Yan, Artxaşastra***

*Qədim Misirdə* Siyasi fikir mifik formada təzahür edirdi. İnsanlar hakimiyyətin ilahi mənşəyə malik olduğu qənaətində idi. Misir hökmdarı, həm də Misirin rifahı üçün çalışan Allah hesab edilirdi. Misir hökmdarı *Firon* milli Allah sayılır və dövlətin bütün funksiyalarını (sahiblik, nəzarət, cəzalandırma,

mükafatlandırma, yedizdirmə, müdafiə etmə və s.) həyata keçirirdi.

*Mesopotomiyada da (İkiçayarası)* siyasi görüşlər mifik xarakter daşıyırdı. Qədim Şumerlərdə *Şamaş* adlı Allah ədalətin müdafiəçisi sayılırdı. Şumer və Babil hökmdarları, qanunvericiləri öz hakimiyyətlərinin, qanunlarının ilahi xarakter daşıdığını iddia edirdilər. Miladdan öncə III minillikdə İkiçayarası kiçik siyasi vahidlər olan şəhər dövlətlərdən ibarət idi. Bu dövlətlərin iki əsas funksiyası var idi: ölkə daxilində qayda-qanun bərqərar etmək; ölkəni xarici hücumlardan qorumaq.

*Qədim Hindistanda* miladdan öncə I minillikdə yazılan *vedalarda* əxlaq və qanun məsələlərinə xüsusi yer ayrılmışdı. Bu hind vedalarında *Rita* adlanan konsepsiyaya xüsusi önəm verilirdi. Deyilirdi ki, Rita bütün dünyaya nüfuz edən elə qanundur ki, bütün allahlar və insanlar ona tabe olmalıdır. M. ö. V-VI əsrlərdə Hindistanda *Buddizm* dini meydana gəldi. Şər ilə fəal mübarizə aparmaq bu dinin əsas qayəsi idi. Dünya fəlsəfi fikrinin inkişafına böyük töhvələr verən Buddizm kasta (sinfi təbəqələr) quruluşunun əleyhinə çıxmırdı.

*Qədim Çində* siyasi fikirlər daosizm, leqizm təlimlərində və böyük mütəfəkkir *Konfutsinin* mülahizələrində öz əksini tapır. Konfutsi dövləti böyük ailəyə bənzədirdi: yəni kiçik böyüyə tabedir, ancaq münasibətlərdə zorakalıq olmamalıdır. Onun fikrincə cəmiyyət *«etika qanunları»* ilə idarə olunmalıdır. O göylərin əmrini (taleyi) insanın və təbiətin taleyini müəyyənlişdirən ali mənəvi qüvvə hesab edirdi.

- **Qədim Yunanıstanda və Romada siyasi fikir**

***Çox az adam siyasətçi ola bilər, lakin sasətçilərinəməllərinə qiymət verməyə hamının haqqı var (Perikl)***

*Yunanıstan***.** Şəhər dövləti adlanan *Polis* (Politika sözü şəhər anlamını verən Polis sözündən götürülüb) başlanğıcdan

sona qədər yunan cəmiyyətinin dövlət quruluşu olmuşdur. Polis quruluşu olmayanları yunanlar Barbar hesab edirdilər.

Miladdan öncə VII əsrdə Afinada aristokratlarla demokratlar arasında başlanan mübarizə 460-cı ildə demokratlar partiyasının qələbəsi ilə nəticələndi. Görkəmli siyasətçi və sərkərdə *Perikl* bu partiyaya 32 il başçılıq etmişdi. M.ö. 431-ci ildə Sparta Afinaya, yəni aristokratlar demokratlara qalib gəldi.

Qədim Yunanıstanda təkcə siyasətin mahiyyəti və təbiəti haqqında deyil, dövlət və hakimiyyət, bu hakimiyyətin siyasi tipologiyaları haqqında fəlsəfi-politoloji görüşlər meydana gəlməyə başladı.

Bu mənada *Platon* (m. ö. 427-347) qədim Elladada birinci idi. Onun on kitabdan ibarət olan «Dövlət» əsəri dövlətin var olmasının sosial-siyasi və mənəvi əsası kimi ədalət problemi ilə başlayır, elə həmin məsələ ilə də tamamlanır. O yazırdı: «Ədalət xeyirxahlıq və müdriklikdir», insanlar bir-birlərinə və dövlətə münasibətdə bu ruhda tərbiyə olunmalıdır. Ədalətsizlik və ədalətsiz insanlarla mübarizə aparmaq lazımdır. Əgər onlar hakimiyyətə sahibdirlərsə bu mübarizə daha şiddətli olmalıdır. Çünki belə adamlar hakimiyyətdən öz məkrli məqsədləri üçün istifadə edirlər. Nəticədə, «böyük güc, azadlıq və hakimiyyət ədalətin deyil, ədalətsizliyin tərəfində dayanmış olur». Platon insanların ədalətli birgəyaşayışını ehtiva edən nəzəri ideal dövlət modeli yaratmışdı. Bu model üç təbəqənin qarşılıqlı əlaqəsi və təsirini özündə əks etdirirdi: dövlət işlərini idarə edən müdriklər-filosoflar; dövləti daxili və xarici düşmənlərdən qoruyan hərbçilər və keşikçilər; mövcud dövlətin vətəndaşlarının güzəranını təmin edən əkinçilər və sənətkarlar. Platona görə dövlət müdriklik, mərdlik, mühakimə, ağıl və ədalət prinsipləri ilə idarə olunmalıdır. Onun sükanı arxasında filosoflar dayanmalıdır. Yuxarıda göstərilən təbəqələşmə dövlətin məhz bu prinsiplərlə idarə olunmasına imkan yaradır. Yəni, birinci təbəqə müdriklər, ikinci təbəqə

cəsurlar, üçüncü təbəqə isə ağıl və mühakimə sahibləridir. Bunların hər üçü ədalət nöqtəsində birləşir və «ideal dövləti» yaradır. Dövlət modeli kimi Platon aristokratik (yunanca aristos-yaxşı, kratos-hakimiyyət) respublika quruluşuna üstünlük verir, aristokratik monarxiyanı isə təqdir edirdi. O əsli-nəcabəti olmayanların hakimiyyətdə təmsil olunmasına pis baxırdı. Platona görə timokratiya, oliqarxiya, demokratiya və tiraniya eybəcər dövlət quruluşlarıdır. O dövlət quruluşlarının bir-birlərini əvəzləməsinə məntiqi ardıcıllıqla aydınlıq gətirərək qeyd edirdi ki, aristokratik idarəçilik zəifləyəndə timokratiya yaranır. Bu zaman müdriklik və ağıl öz yerini rəqabətə, şöhrətpərəstliyə verir. Beləliklə, hakimiyyət hərbçilərin əlinə keçir, «xeyir şərə qarışır, qəzəbli insanların hakimiyyəti başlayır». Nəticədə bir qrup iddialı insan zənginləşir və timokratik dövlət quruluşu forması oliqarxiya (yunanca azlığın hakimiyyəti) ilə əvəzlənir. Bu dövlət quruluşunda hakimiyyətdə zənginləşmiş azlıq, yəni oliqarxlar təmsil olunur, kasıblar isə idarəçilikdə iştirak imkanlarını itirir. Cəmiyyətin varlı və kasıblara bölünməsi son nəticədə sosial qütbləşmənin və ziddiyyətlərin yaranmasına gətirib çıxarır. Belə şərait xalqın hakimiyyətə sahib olmasına yol açır və demokratik dövlət quruluşu forması meydana gəlir. Platonun demokratiya barədə fikri belə idi: bu quruluşda bərabər olanları və olmayanları bərabərləşdirən qəribə bir bərabərlik var. Demokratiyanın əsas dəyəri azadlıqdır. Lakin Platona görə xalq bu dəyərdən ağıl və bacarıqla istifadə edə bilmir, «əldə etdiyi azadlıqdan məst olur». Demokratiyanın yorulmadan çalışdığı məqsəd axırda onun özünü dağıdır. Nəticədə cəmiyyətdə anarxiya və xaos başlayır, tiraniyanın bərqərar olması üçün əlverişli şərait yetişir. Tiraniya zamanı azadlıqlar maksimum həddə qədər məhdudlaşır, elə buna görə də bütövlükdə cəmiyyətin yaradıcılıq imkanları və qabiliyyəti azalır.

Platona görə dövlətin gücü qanunlardadır. «Qanunlar» (on iki kitab) əsərində o yazırdı ki, çoxluğun mənafeyini əks

etdirən qanunlara bütün cəmiyyət tabe olmalıdır. «Mən, qanunun gücü olmayan və kiminsə iradəsinə tabe olan dövlətin məhvini görürəm». Bu ideya müasir *hüquq dövlətinin* məhək daşıdır.

Fəlsəfi baxışlarda bir sıra məqamlarda ziddiyyətli mövqelərdən çıxış edən Platon və *Aristotel* (m. ö. 384-322) sosial-siyasi görüşlərində, əsasən oxşar fikirləri və prinsipləri müdafiə edir. Platon kimi Aristotel də hesab edirdi ki, dövlət «insaları rifaha çatdırmaq üçündür». Platon kimi Aristotel də demokratiyanın deyil, monarxiyanın, aristokratik dövlət quruluşunun tərəfdarı idi. O dövlət quruluşu formalarını «düz» və «səhv» formalar kimi təsnif edirdi. «Düz» dövlət quruluşu forması kimi monarxiya, aristokratiya və politiyanı qəbul edir, «səhv» dövlət quruluşu formasına isə tiraniya, oliqarxiya və demokratiyanı aid edirdi. Aristoteldəki politiya Platonun tez-tez istinad etdiyi timokratiyaya bənzəyir. Hər ikisində hakimiyyətdə hərbçilər olur. Lakin politiyanın fərqli xüsusiyyətləri də var. Belə ki, Aristotelə görə bu dövlət quruluşu formasında aristokratiya, oliqarxiya və demokratiyanın elementləri birləşir.

Aristotel də Platon kimi israrla bildirirdi ki, heç bir dövlət quruluşu forması insanın fəaliyyət və inkişaf imkanlarını məhdudlaşdırmamalıdır. Bu fikir *insan azadlığı* ideyasının məhək daşıdır. Filosofa görə ən yaxşı dövlət quruluşu insanın fəaliyyətinə və xoşbəxt yaşamasına imkan yaradan dövlətdir. Belə dövləti Aristotel «xoşbəxt» dövlət adlandırırdı.

*Sokrat* daha çox dövlətlə hüququn əxlaqi təbiətini xarakterizə etməyə çalışırdı. O, dövrün ən mükəmməl dövlət quruluşu kimi Spartanın quruluşunu bəyənirdi, yəni aristokratiya tərəfdarı idi. Sokrat ifrat demokratiyaya mənfi münasibət bəsləyir, eyni zamanda tiraniyaya antipatiyasını da gizlətmirdi. O, 70 yaşında allahsızlıqda və gənclərin tərbiyəsini korlamaqda suçlanaraq edam edildi.

*Qədim Romada* siyasi fikrin formalaşmasına Yunanıstan siyasi mühiti ciddi təsir göstərmişdi. Romada xristianlığın təşəkkül tapması ilə din hakimiyyət və dövlət haqqında olan düşüncələrə əsaslı təsir göstərdi.

*Mark Tulliy Siseron* (m. ö. 106-43) görkəmli filosof, natiq və siyasi xadim idi. Onun siyasi görüşləri «Respublika», «Dövlət haqqında», «Qanunlar haqqında» əsərlərində öz ifadəsini tapır. Platon və Aristotel kimi Siseron da, belə qənaətdə idi ki, dövlət xalqın rifahı üçün yaradılır. O yazırdı: «Dövlət xalqın sərvətidir, ümumi maraqlar və insanların birgəyaşayış tələbatı əsasında meydana gəlir». Siseron hesab edirdi ki, dövlətin başlıca təyinatı ayrı-ayrı fərdlər və cəmiyyətin müxtəlif təbəqələri arasında harmoniya yaratmaqdır. Ancaq belə şəraitdə insanlar öz tələbatlarını ödəyə bilər. Platon və Aristoteldən fərqli olaraq Siseron dövlət quruluşu formalarından heç birinə xüsusi üstünük vermir, əksinə onların hər birisinin mənfi və müsbət cəhətərə malik olduğunu vurğulayırdı. Onun siyasi görüşlərində qanunlara və qanunçuluğa xüsusi önəm verildiyi aydın nəzərə çarpır. Siseronun-«Qanunlar ədalətli olmalıdır və yaşayış qaydaları bu ədalətli qanunlar əsasında müəyyənləşməlidir» fikri bu gün də öz aktuallığını saxlamaqdadır. Onu da qeyd etmək lazımdır ki, Platonun, Aristotelin, Sokratın və Siseronun siyasi görüşləri sonrakı dövrün mütəfəkkirlərinin dünyagörüşlərinə əsaslı təsir göstərmişdi.

*Stoiklər* (Zenon, Seneka, Avqustin Avreli) etikanı həat üçün əvəzolunmaz bir dəyər sayırdı. Zenona görə dünya tale ilə idarə olunur. Seneka insan həyatının başlıca amilini ruhun azadlığında axtarırdı. Onun fikrincə kainat özünəxas təbii hüququ olan dövlətdir, təbiət qanunlarına görə insanlar bu dövlətin zərrəcikəridir. Yaranan dövlətlər isə təsadüfün nəticəsidir və ayrı-ayrı insanlar tərəfindən yaradılır.

*Avqustin Avreli* (354 – 430) imperator idi. O belə düşünürdü ki, şüuru olanın məqsədi öz dövlətinin ağıllı

qanunlarına əməl etəkdir. A. Avreli hakimiyyətin iki növdən – kilsə hakimiyyəti və dünyəvi hakimiyyətdən ibarət olduğunu göstərir və Allahdan gələn kilsə hakimiyyətini ali, hər şeydən üstün hesab edirdi.

*Foma Akvinski* də (1225 – 1274) hesab edirdi ki, dövlət öz başlanğıcını Allahdan götürür. O sosial bərabərlik ideyasına qarşı çıxırdı: «Allahın və təbiətin qanunlarına görə tabe olan ali məqama tabe olmalıdır». Akvinskiyə görə insanların həyat və fəaliyyətləri yaradanın prinsipləri ilə tənzimlənir. Bu prinsiplər «əbədi haqqı» yaradır ki, bütün digər haqlar ondan törəyir. Akvinskinin siyasi görüşləri xristian siyasi məfkurəsinin formalaşmasına ciddi təsir göstərdi.

Beləliklə, qədim Yunanıstan və Roma siyasi təlimlərində:

- siyasi görüşlər mifik çalarlardan uzaqlaşır;
- dövlət quruluşunun təhlili verilir, müxtəlif quruluşlar barədə mülahizələr meydana gəlir, idaretmənin ən effektli formaları axtarılır;
- siyasətə insan fəaliyyətinin başlıca sivill növü kimi baxılır.

- **İntibah dövrünün siyasi konsepsiyaları**

***İntibah dövrünün mütəfəkkirləri: Nikkolo Makiavelli, Martin Lüter, Tomas Mor, Tomas Hobbs, Tomazzo Kampanella, Con Lokk, Frensis Bekon, Tomas Münser, Benedikt Spinoza, Jan-Jak Russo, Deni Didro, Helvetsi, Volter, Jan-Pol Marat, Tomas Cefferson, Kant, Hegel, Aleksis Tokvil, Adam Smit.***

Bu dövrün mütəfəkkirlərinin əksəriyyəti bütün neqativ hadisələrə görə kilsəni suçlayır, xalqı, onun ən yaxşı və ləyaqətli hissəsini hakimiyyətin əsas mənbəyi hesab edirdi. İntibah dövründə siyasi nəzəriyyələr daha çox humanist çalar alır, teologiyadan sürətlə uzaqlaşır, insan hüquq və azadlıqları, qanunçuluq, demokratiya prinsipləri ön plana çıxırdı.

1215-ci ildə ingilis azadlıqlarının böyük toplusu-*Maqna Karta* adlı 63 bəndlik bir sənəd imzalandı. Bu sənəd insan

haqları barədə müddəalardan, kral hakimiyyətinə qarşı qoyulmuş məhdudiyyətlərdən, hüquq, norma və prosedurların siyahısndan ibarət idi. Bir sıra mütəxəssislərin fikrincə təkcə Maqna Kartaya görə İngiltərəni liberalizmin vətəni saymaq olar.

*Nikkolo Makiavelli* (1469-1527) siyasi elmlər tarixində dövlətin və hakimiyyətin təbiəti, mahiyyəti, dövlət idarəçiliyinin formaları, hakimiyyətin idarə olunması, çeşidli siyasi problemlərin həll edilməsi yolları və üsulları barədə *ilk dəqiq, sistemli və dərin təhlillər aparan mütəfəkkir* hesab olunur. N. Makiaelliyə görə siyasət insanlar arasında ictimai münasibətlərdir. İnsanlar müsbət xüsusiyyətlərlə yanaşı, şöhrətpərəst, hakimiyyətpərəst, paxıl, ikiüzlü, yalançı xüsusiyyətlərə də malik olduqlarından, belə neqativ əlamətlər onların həyat və fəaliyyətlərində özünü büruzə verir, yəni toplumda daim ədavət, düşmənçilik yaradır. Elə bu baxımdan insanların neqativ əlamətlərinin cilovlanması, ictimai münasibətlərin tənzimlənməsi üçün dövlət aparatı yaradılmalıdır. Ancaq dövlət aparatı yaradıldıqdan sonra cəmiyyətdə qayda-qanunu və sülhü bərqərar etmək mümkündür. O dövlət idarəçiliyinin üç formada olduğunu iddia edirdi: monarxiya, aristokratiya, xalq hakimiyyəti. Monariya və aristokratiyada bir nəfər, yaxud bir qrup xalqı idarə edir, xalq hakimiyyətində isə xalq özü özünü idarə edir. Lakin Makiavelli xalq hakmiyyətinin tərəfdarı deyildi. O hesab edirdi ki, belə hakimiyyətlərin ömrü, onu yaradanların ömrü qədər olur. Makiavelli dövləti insanlara bənzədirdi: dövlətlər yaranır, tərəqqi edir və bir müddətdən sonra tənəzzülə uğrayırlar. O çoxlarından fərqli olaraq cəmiyyəti dinsiz təsəvvür etmirdi. «Hökmdar» əsərində Makiavelli, ideal dövlətdən deyil, real dövlətdən bəhs edir, mövcud olanı necə qorumaq sualına cavab axtarır.

Onun uzun illərdən bəri mübahisələrə səbəb olan siyasi tövsiyyələrindən bəzilərinə diqqət yetirək:

1. Ağıllı hökmdar verdiyi vədlərin hamısını yerinə yetirməməlidir, çünki təbələr öz vəzifələrini yerinə yetirməyə tələsmirlər.

2. Hakimiyyəti qazanmaq üçün xeyirxah, onu saxlamaq üçün qəddar olmaq lazımdır.

3. Pis işləri tez, yaxşı işləri isə tədricən etmək lazımdır. Mükafat gec və az olanda adamlar ona yüksək qiymət verir, cəzanı isə böyük və geniş ölçüdə həyata keçirmək mümkündür.

4. Hökmdar vədini pozmaq üçün həmişə bəhanə tapmalıdır.

5. Vəziyyət tələb edərsə əxlaqa zidd hərəkət etmək olar, ancaq bunun qüsursuz və xeyirxah bir iş olduğunu sübut etməyi bacarmaq lazımdır.

6. Hökmdar yaxşı və xeyirxah görünməyə çalışmalıdır, ancaq pis olmaqdan da çəkinməməlidir.

7. Hökmdar həm daxili, həm də xarici düşmənlərlə əhatə olunub, ona görə də heç kimə inanmamalıdır.

8. Tələni görmək üçün mütləq tülkü, canavarı məhv etmək üçünsə aslan olmalısan

9. Məqsəd vasitəyə haqq qazandırır və s.

Fransız mütəfəkir *Jan Boden* (1530-1596) Politologiyada «dövlət suverenliyi» anlayışının müəllifi kimi tanınır. J. Boden *«suverenlik*» təlimini, demək olar ki, mükəmməl şəkildə işləyib hazırlaya bilmişdi. «Respublika haqqında altı kitab» əsərində o, dövlətin təbiəti, funksiyaları, formaları, eləcə də cəmiyyətin siyasi həyatının çeşidli problemləri haqqında maraqlı mülahizələr irəli sürür.

Öz dövrünün mütəfəkkirlərindən fərqli olaraq *Tomas Mor* dini islahatlara qarşı çıxır, xristian dünyasının bütövlüyü uğrunda mübarizə aparırdı. O bütün bəlaların kökünü şəxsi mülkiyyətdə görürdü. «Utopiya» əsəri *kommunizm* təliminin bünövrəsində dayanan ideyalar sistemidir. T. Mor kralın despotik hakimiyyətinə qarşı çıxdığına görə 1535-ci ildə edam edildi.

İngilis filosof *Tomas Hobbs* (1588-1679) mərkəzləşdirilmiş hakimiyyət yaradılmasının tərəfdarı idi. Lakin o sələflərindən fərqli olaraq belə hakimiyyətin *ictimai müqavilə* əsasında yaradılması ideyasını ortaya atmışdı. İngiltərədə vətəndaş müharibəsindən sonra (1640-1660) yaranan xaos Hobbsu belə qənaətə gətirmişdi ki, vətəndaşlar müqavilə ilə öz hüquqlarının müəyyən hissəsini mərkəzi hakimiyyətə verməlidir. Hobsa görə dövlət «hamını bir simada birləşdirən şeydir». Bu sima monarx da, aristokrat da, demokratik respublika da ola bilər. Dövlət hakimiyyəti mütləqdir, ölkənin bütün vətəndaşları qeyd-şərtsiz ona tabe olmalıdır. Dövlət də öz növbəsində vətəndaşlar üçün normal şərait yaratmalı, daxildən və xaricdən onların təhlükəsizliyini təmin etməlidir. Hobbs əmin idi ki, bu vəzifələrin öhdəsindən mütləq monarxiya daha yaxşı gələ bilər. O dövlətin zəifləməsinin və çökməsinin səbəblərini də göstərirdi. Bu səbəblər sırasında Hobbs səbatsız idarəçilik formasına, mənasız təsisatların mövcudluğuna, dövlətin kasıblamasına, xəzinə oğurluqlarına, idarəçiliyi çətinləşdirən iri şəhərlərin çoxluğuna və qiyama xüsusi diqqət yetirməyi tövsiyyə edirdi.

*Con Lokk* (1632-1704) vətəndaş cəmiyyətinin var olmasının əsas prinsipi sayılan *fərdi azadlıq və burjua liberalizmi* ideyalarının müəllifi sayılır. XVII əsr İngiltərə inqilabının əsas nailiyyəti o oldu ki, yerli burjuaziya monarx hakimiyyətinin bərqərar olması müqabilində qanunla sahibkarlıq, siyasi və s. vacib azadlıqlar əldə etdi. Bu Maqna Kartadan sonra İngiltərədə liberal dəyərlərin bərqərar olmasına doğru atılan ikinci böyük addım idi. Lokk İngiltərə inqilabından sonra ölkədə formalaşan konstitusiyalı monarxiyanı nəzəri cəhətdən əsaslandırmaqla yanaşı, dövlət institutlarının fəaliyyətinin liberallaşmasının, vətəndaşların konstitusion haqlarının genişlənirilməsinin zəruriliyini də qeyd edirdi. Lokkun liberal görüşlərinin metodoloji əsasını təbii haqlar və ictimai müqavilə ideyası təşkil edir. O hesab edirdi

ki, yaşamaq, azadlıq, mülkiyyət haqqı insanların təməl haqlarıdır. Lokka görə dövlət vətəndaşların təbi haqqlarını və azadlıqlarını qorumaq üçün yaradılır. İnsanlar dövlətə səlahiyyət verir ki, ümumi rifaha cavab verən və hər bir kəsin maraqlarını təmin edən qanunlar hazırlasın və bu qanunları icra etsin. Vətəndaşlar isə dövlətə, qanunlara tabe olmaqla öz vəzifələrini, borclarını yerinə yetirir, onun var olmasını təmin edirlər. İctimai müqavilənin mahiyyəti bundan ibarətdir və dövlət məhz bu prinsiplər əsasında təsis edilir. Göründüyü kimi ictimai müqavilə məsələsində liberal prinsiplərə söykənən Lokk Hobbsa nisbətən bir qədər qabağa gedir.

İlk dəfə *hakimiyyətin bölünməsi* fikrini ortaya atan da Lokkdur. Lokka görə qanunverici hakimiyyət parlamentə, ali icraedici hakimiyyət məhkəmə və orduya, federal hakimiyyət, xarici siyasət krala və onun nazirlərinə məxsusdur. O siyasi hakimiyətin mənbəyi hökuməti deyil, xalqı hesab edir və bildirirdi ki, hakimiyyət xalqın tələblərini, maraqlarını yerinə yetirə bilməyəndə xalq onu devirə bilər. C. Lokk konstitusiyalı monarxiya tərəfdarı idi və Hobbsdan fərqli olaraq mütləq monarxiyaya qarşı çıxırdı.

*Spinoza* sübut edirdi ki, heç bir cəmiyyət dövlət və hüquq olmasa yaşaya bilməz. O *mülkü hüququ* vətəndaşın şəxsi azadlığının əsas atributu hesab edirdi. Lakin Spinoza bununla kifayətlənməyərək, insan azadlığı fəlsəfəsində daha da qabağa getmişdir. İnsan azadlığı məsələsində önəmli olan fikrin sərbəst ifadə azadlığı, yəni söz azadlığıdır. Cəmiyyət belə azadlıqdan məhrum edildikdə inkişafdan qalır, ictimai münasibətləri isə nizamlamaq mümkün olmur. Söz azadlığının boğulması bir tərəfdən ictimai nəzarət imkanlarını məhdudlaşdırır, digər tərəfdən insanlarda, bütövlükdə isə cəmiyyətdə aqressiya yaradır. Bu mülahizələrə əsaslanan Spinoza deyirdi: «Azad dövlətdə hər kəs istədiyi kimi fikirləşə, fikirləşdiyi kimi də danışa bilər». Bu, *söz azadlığı* barədə çox mükəmməl və faydalı bir tezis idi.

*Jan-Jak Russo* (1712-1778) Fransa inqilabı başlamamışdan bir qədər əvvəl ictimai müqavilə barədə təhlillər apararaq, Hobbsun və Lokkun ideyalarını xeyli inkişaf etdirdi. 1789-cu il *Fransa inqilabı* isə «insanın və vətəndaşın hüquqları haqqında bəyannamə» elan edərək siyasi fikrin inkişafına böyük təkan verdi. Bu bəyannamədə deyilirdi:

- vətəndaşın azadlıq, təhlükəsizlik və zülmə müqavimət hüququ var;
- qanunla qadağan olunmayan hər şeyə icazə verilir;
- xalq mahiyyətcə suveren hakimiyyətin mənbəyidir;
- azadlıq başqasına ziyan yetirmədən hər şeyi etmək imkanıdır;
- mülkiyyət toxunulmaz və müqəddəs hüquq olduğuna görə heç kəs ondan məhrum edilə bilməz;
- hər bir kəs günahı elan edilənə qədər günahsız sayılır *(günahsızlıq prizumpsiyası)*.

Nəhayət, Fransa inqilabı Avropaya *respublika* adlanan yeni tipli bir idarəçilik forması verdi.

1776-cı ildə ABŞ-da *istiqlaliyyət bəyannaməsi* elan olundu. Az sonra ölkədə *din dövlətdən ayrıldı*. Bu dövlət və cəmiyyət həyatında yeni bir hadisə, irəliyə doğru böyük addım idi və Qərb demokratiysının inkişafına önəmli təsir göstərdi. 1787-ci ildə dövlətin siyasi həyatını tənzimləyən *ABŞ konstitusiyası* qəbul edildi. XIX əsrin ikinci yarısında isə *köləlik ləğv edildi*. Amerika qitəsində yeni meydana gələn Amerika Birləşmiş Ştatları dünya siyasi praktikasına və fikrinə yeni-yeni töhvələr verməyə başladı.

XIX əsrin birinci yarısında *Aleksis Tokvil* (1805-1859) *liberal demokratiya* təlimini sistem şəklinə salaraq siyasi elmlərin inkişafını bir az da qabağa apardı. A. Tokvilin yaradıcılığına Fransa inqilabı və ABŞ-da dövlətçiliyin bərqərar olması prosesi ciddi təsir göstərmişdi. «Amerikadakı demokratiya bardə» kitabında o, gənc burjua dövlətinin siyasi həyatını təhlil edərək belə qənaətə gəlir ki, ABŞ-dakı

demokratiyanın əsas uğuru bərabərlik və azadlıq probleminin həll olunmasına bağlıdır. Digər bir vacib məsələ isə *azadlıq ruhu ilə dinin bərqərar* olmasından ibarətdir. O ABŞ-da demokratiyanın bərqərar olmasında protestantçılığın böyük rol oynadığını iddia edirdi: «Protestantçılıq vasitəsiylə və protestantçılıqda Yeni Dünyada azadlıq inkişaf etdi». *Siyasətlə dinin, siyasətlə hüququn arasınakı razılaşma böyük xarüqələr yaratdı.* İnsan azadlıqarının və bərabərliklərinin müdafiəsini A. Tokvil «demokatiyanın əsas məqsədi» adlandırırdı. O hakimiyyət bölgüsü ideyasını təhlil edərək belə qənaətə gəlir ki, bu məsələ məhkəmə hakimiyyətinin çox güclü olduğu ABŞ-da yaxşı həll olunub. O hesab edirdi ki, «ABŞ-da hakim böyük siyasi hakimiyyəti olan çox vacib siyasi gücdür». A. Tokvil dövlət ierarxiyasında Ali Məhkəmənin yerini xüsusi qiymətləndirir və bildirirdi ki, onsuz ABŞ Konstitusiyası ölü olardı. A. Tokvil ABŞ demokratiyasının uğurları ilə yanaşı nöqsanlarını da təhlil etməyi unutmamışdı. Ona görə ABŞ demokratiyasının zəif və nöqsanlı cəhətləri aşağıdakılardır: çoxluqlar tərəfindən azlıqların hüquqlarının yetərli müdafiə edilməməsi; ifrat dövlət məsrəfləri; dövlət aparatının, əsasən də icra aparatının böyüklüyü; qanunların tez-tez dəyişməsi ilə qanunvericiliyin dayanıqlı olmaması; prezidentin dəyişməsi ilə administrasiyanın dəyişməsi və bu sahənin də qeyri-dayanıqlılığı və s. Bütün bu nöqsanlara baxmayaraq, A. Tokvil hesab edirdi ki, ABŞ-dakı demokratik idarəçilik formasını qoruyub saxlamaq lazımdır. ABŞ-da demokratiyanın inkişafına, bu ölkənin get-gedə qüdrətlənməsinə *«milli ruhun formalaşması»* da (patriotizmin) ciddi təsir göstərdi. Hazırda *siyasi psixologiyanın* predmeti olan bu məsələ də A. Tokvilin diqqətindən yayınmamışdı. A. Tokvilin liberal demokratiya konsepsiyası Qərbi Avropanın və Amerikanın bir çox siyasətçiləri və siyasət nəzəriyyəçiləri tərəfindən ciddi dəstək qazanmışdır.

XIX əsr Rusiyada da siyasi görüşlərin inkişaf etdiyi dövrdür. Bu dövrün əsas mütəfəkkirləri P. İ. Pestel, konstitusiyalı monaxiya tərəfdarı N. M. Muravyov, V. Q. Belinski, inqilabçı demokratlar A. İ. Gertsen və N. P. Oqaryov, fərdin sosial və siyasi azadlıqlarını müdafiə edən N. Q. Çernışevski və N. A. Dobrolyubov, inqilabı tərəqqinin vacib elementi sayan P. L. Lavrov, «hər şeyi öz təbii axarına buraxmağa» çağıran anarxist M. A. Bakunin və N. P. Tkaçev sayılır.

XIX əsrdə K. Marks və F. Engels tərəfindən əsası qoyulan kommunizm təlimi meydana gəldi və XX əsrin əvvəllərində V. İ. Lenin tərəfindən Rusiyada siyasi praktikaya gətirildi.

- **Çağdaş siyasi təlimlər**

Müasir siyasi təlimlərin inkişafını xarakterinə görə 3 mərhələyə bölmək olar:

- XİX əsrin sonu, XX əsrin birinci yarısı. Bu mərhələdə siyasi hakimiyyət və onun sosial əsaslarının araşdırılmasına diqqət yetirilir (A. Bentli, M. Veber, R. Mixles, Q. Lassuel).
- XX əsrin ortalarından 70-ci illərə qədər olan mərhələdə demokratiya haqqında yeni nəzəriyyələr meydana gəlir, siyasi həyatın liberallaşmasına diqqət xeyli artır (İ. Şumpeter, K. Makferson, B. Barber).
- 70-ci illərdən bu günə qədərki mərhələdə Qərb dövlətlərinin və cəmiyyətin müasir inkişafına adekvat hakimiyyət konepsiyaları və modelləri yaranır, dünya dövlətlərinin vahid futuroloji konsepsiyası, informasiyalı cəmiyyət konsepsiyası, milli maraqlar konsepsiyası hazırlanır (Klark, R. Aron, Z. Bzejinski, Q. Morqentau, F. Fukuyama, S. Hantiqton və b.)

XİX əsrin sonlarında kapitalizmin sürətli inkişafı azadlıq və bərabərlik ideyalarını sınağa çəkdi. Yaradıcı adamlar demoratiyanın yaratdığı bərabərlikdən, azadlıqdan gileylənərək

«fövqəlinsanın» hüquqlarının müdafiəsinə qalxdılar. Belə insanlardan biri *F. Nitsşe* idi. Onda dinə və burjuaziya cəmyyətinin mənəvi dəyərlərinə qarşı antipatiya var idi. O ərəb mədəniyyətini özünüaldatma mədəniyyəti adlandırır, ləyaqəti itaət və mütiliklə eyniləşdirən xristian əxlaqının isə insanın intellektual imkanı qarşısında əngəl olduğunu iddia edirdi. «Allah ölüb» deyən Nitsşe insanın yaradıcılıq erasının başlandığını, bərabərliyin istedadsızları artırdığı dövrün sona çatdığını bildirirdi.

*M. Veber* cəmiyyətin inkişafı üçün həyata münasibətdə rasional və tənqidi baxışa, əməyin kapitalist etikasına yiyələnməyə çağırırdı. O, yazırdı: kapitalist münasibətləri Qərbdə uydurulmayıb, lakin əməyə münasibət protestantlarda tamam fərqlidir. O yazırdı: *«İnsan yaşamaq üçün işləyir, protestantlar isə işləmək üçün yaşayır»*. Bu K. Marksın «şüuru maddi varlıq təyin edir» məşhur müddəasını alt-üst edən yeni tezis idi. M. Veber israrla iddia edirdi ki, Qərb ölkələrinin maddi inkişafını təmin edən protestantçılıq məfkurəsdir.

XX əsrdə meydana gələn siyasi təlimləri qısa şəkildə aşağıdakı kimi təsnif etmək olar:

*Normativizm*. Bu siyasi təlimin tərəfdarları hüquq sahəsində əsas norma kimi konstitusiyanı götürür, siyasi sahədə isə cəmyyətin siyasi sisteminin normal modelinin tapıldığını və bu normanın ABŞ demokratiyası olduğunu iddia edirdilər.

*Plüralist demokratiya*. Bu təlim cəmiyyətdə müxtəlif, bəzən də zidd qüvvələrin, qrupların, partiyaların, cəmiyyətlərin siyasi proseslərdə heç bir məhdudiyyət qoyulmadan sərbəst iştirak etəsini nəzərdə tutur.

*Müvazinət, münaqişə t*əlimi cəmiyyətin müvazinət və inteqasiya modelləri əsasında stabilləşdiyini, fəaliyyətin konsensusa söykənən zaman effekt verdiyini əsas gütürür.

*Elita* (seçilən adamlar). Bu nəzəriyyəyə görə siyasət birbiri ilə qarşı-qarşıya duran iki sinfin mübarizəsidir: hakimiyyətdə olan azlıq (elita), idarə olunan çoxluq (xalq).

*Nasional-sosializm, faşizm.* Bu ideologiya korporotiv dövlət modelinə üstünlük verir. Onlar sinfi mübarizə nəzəriyyəsinin əksinə olaraq millətlərin və irqlərin özünü qorumaq, yaşamaq hüququna malik olduğunu iddia edirlər.

*Konvergensiya.* Belə cəmiyyətlərdə siniflər tamamiylə öz mahiyyətini itirir, yəni konversiya-qaynayb qarışma, bir nöqtədə birləşmə baş verir.

*Solidarizm.* Cəmiyyətdə sosial ədalət, bərabərlik, həmrəylik, təsanüd haqqında nəzəriyyədir.

*Qloballaşma.* Bu bütün dünyanın ümumi problemlərinin həlli üçün kollektiv çalışmaların zəruriliyini nəzərdə tutan təlimdir.

Hazırda dünyada müxtəlif sahələr üzrə ixtisaslaşan dörd politoloji məktəb var:

1. *İngilis-amerikan məktəbi*: əsasən siyasi modernləşmə, stabillik, xarici siyasətdə siyasi münaqişələrin həlli problemləri ilə məşğul olur.

2. *Alman məktəbi:* siyasi sistemlərin müqayisəli analizini, hüquq dövlətinin və vətəndaş cəmiyyətinin fəaliyyət problemlərini işləyir.

3. *Fransa məktəbi:* siyasi sistemlərin tipologiyası, legitimlik, partiya infrastrukturları problemləri üzrə ixtisaslaşıb.

4. *Polşa məktəbi:* cəmiyyətin siyasi həyatının, siyasi sistemin demokratikləşdirilməsinin konseptual istiqamətlərini işləyir.

## III. Azərbaycanda siyasi fikir

- *Qədim dövrün siyasi fikirləri*
- *İntibah dövründə siyasi fikir*
- *Azərbaycan siyasi fikri XİX əsrdə və XX əsrin əvvəllərində*
- *Çağdaş Azərbaycanda siyasi fikir*

### Ədəbiyyat


1. Azərbaycanın türkçülük və azərbaycançılıq problemləri. Bakı, 1998
2. Demokratiya: gediləsi uzun yol. Antologiya. Bakı, 2002
3. İbrahimli H. Deyişen Avrasiyada Kafkasiya. Ankara: ASAM, 2001, 96 səh
4. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı, 1996
5. Кныш А. Мусулманский мистицизм. Москва, 2004
6. Mehdiyev R. İnkişafın Azərbaycan modeli. Bakı, 2011
7. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992
8. Rəsulzadə M.Ə. Milli təsanüd. «Azərbaycan» (Ankara), 1953, N 12
9. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi. Bakı, 2000
10. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002
11. Xəlilov. S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Bakı, 2006
12. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005

- **Qədim dövrün siyasi fikirləri**

***Siyasi fikir mifoloji xarakter daşıyır. Siyasət, dövlət və hüquqla bağlı sistemli düşüncələr özünü hələ büruzə vermir. Tanınmış mütəfəkkirlər: Zərdüşt, Mani, Məzdək, Avesta, Dədə Qorqud***

İslama qədərki siyasi görüşlərin formalaşmasında *Zərdüştlük* önəmli rol oynayıb. M.ö. VII-VI əsrlərdə meydana gələn Zərdüştlükdə dualizm mövcuddur. Yəni dünya əksliklərin mübrizəsi üzərində qurulub: xeyirlə şər, qaranlıqla işıq, gecə ilə gündüz, sükunətlə hərəkət, materiya ilə ideya arasında arası kəsilməyən mübarizə var və bu mübarizədən inkişaf, tərəqqi törəyir. Bunlardan heç biri yox olmur, yaxud bunlardan heç biri digərini birdəfəlik məhv edib sıradan çıxarmır. Zərdüştlük dünya qaydalarının xeyirlə şərin mübarizəsindən yarandığını iddia edirdi. Bu təlimə görə dünyanın əsasını təşkil edən işıq və zülmət hakimiyyət uğrunda daim mübarizə aparır. Zərdüştlüyün dini kitabı olan Avestada ən yaxşı dövlət forması monarxiyadır. Sonralar bu təlim Şərqdə müxtəlif formalarda (manixeyçilik, işraqilik və s.) inkişaf etdirildi.

*Manixeyçilik və Məzdəkçilik.* Manixeyçiliyin banisi Mani (216-273) olmuşdur. O da əksliklərin mübarizəsi və vəhdəti qanunndan çıxış edərək, dünyanın əsasında dualizmin (inyan) dayanığını bildirirdi.

V yüzildə yaşayan Məzdək isə tamam başqa bir təlim ortaya qoydu. O, Allah nemətlərinin bərabər bölünməsini iddia edirdi. Məzdək inanırdı ki, mübarizələrlə bərabərsizliyi aradan qaldırmaq mümkündür. Məzdəkçilik IX əsrdə Hürrəmdinliyə də əsaslı təsir göstərdi.

*Dədə Qorqud* dastanlarında da dövlət quruluşu haqqında maraqlı məlumatlar var. Ölkə inzibati ərazi kimi xanlıqlara bölünür. Bu xanlıqların hamısı xanlar xanına tabedir. İnsanlar azad fikir söyləyə, hətta xanlar xanının qüsurlarını onun özünə deyə bilirlər. Bu sözügedən dövrdə fikir azadlığının var

olmasından xəbər verir. Dastanlarda idarəçilik üçün əsas dəyərlər, əxlaq kodeksi ədalət və fəzilətdir.

- **İntibah dövründə siyasi fikir.**

***İslam dini dövlət, hüquq və qanun anlayışlarına müəyyən aydınlıq gətirilməsinə və bu sahədə təhlillərin aparılmasına təkan verdi. Hökmdarlar, hakimiyyətlər, hakimiyyətin əldə olunması və idarə edilməsi barədə əsərlər meydana gəldi. İnsan haqqında mükəmməl təlimlər ortaya çıxdı. Sufilik dini-fəlsəfi təlim kimi ictimai-siyasi fikrin inkişafına əsaslı təsir göstərdi. İntibah dövrünün tanınmış nümayəndələri: Ş. Sührəvərdi, Ə. Fərabi, Nizamülmülk, S. Urməvi, N. Tusi, İ. Sina, Fəqih, Nizami, Nəsimi, Füzuli və b.***

*İslam dini.* Bu dində siyasi və hüquqi anlayışlar «şəriət» adı altında cəmləşdirilib. Şəriət sözü qanuniləşdirmək, məcburi olan mənasını ifadə edir. Bu məntiqə görə İslamın universal xarakter daşıdığını qeyd edən mütəxəssislər haqlı olaraq belə nəticəyə gəlirlər ki, İslam eyni vaxtda həm din, həm də hakimiyyət deməkdir. İslam dini qədim Şərqdə siyasi görüşləri sistem şəklinə saldı. Dövlət və hüquq barədə mükəmməl elmi nəzəriyyələrin meydana gəlməsinə rəvac verdi. Bu dövrün görkəmli Azərbaycan mütəfəkkirləri Ş. Sührəvərdi, Ə. Fərabi, İ. Sina, N. Tusi, Nizami, Nizamülmülk, Fəqih, Urməvi, Nəimi, Nəsimi, Füzuli öz yaradıcılıqlarında ədalət, ədalətli hökmdar, ədalətli dövlət, eləcə də cəmiyyətdə qayda-qanunun, nizamın bərqərar olması, insan azadlıqları, hakimiyyəti əldə etməyin, saxlamağın və möhkəmləndirməyin yolları barədə maraqlı fikirlər, mülahizələr irəli sürmüş, bir sıra ümumiləşdirmələr aparmışlar.

*S. Urməvi,* ölkə başçısının adamlarla məsləhətləşməsinin iki formasını göstərirdi: açıq və gizli. Açıq məsləhətləşmədə padşah öz rəyini əvvəlcədən bildirmir. O hamını dinlədikdən sonra qərar qəbul edir. Gizli məsləhətləşmədə isə hökmdar istədiyi adamla təkbətək görüşür və onların rəyini öyrənir. O,

dövlətin, xalqın təhlükəsizliyinin təmin olunması üçün cəza tədbirlərinin tətbiq olunmasına da xüsusi əhəmiyyət verirdi. Tanınmış filosofun fikrincə ölkədaxili asayişin qorunması xarici siyasətə pozitiv təsir göstərir. Əgər daxildə qarışıqlıq, özbaşınalıq baş qaldırsa, hər an xaricdən hücum ola bilər.

*N. Tusi* siyasətin aşağıdakı növlərini göstərirdi:

- fəzilətli siyasət, buna imamət də deyilir ki, belə siyasətin məqsədi xalqı kamilləşdirməklə fəzilətə çatdırmaqdır;
- naqis siyasət, buna zorakalıq da deyilir. Belə siyasətin məqsədi xalqın müqavimət gücünü sarsıtmaq, onu kölə halına salmaqdır. Naqis siyasətin nəticəsi faciələr, bədbəxtçiliklər, fəlakətlər olur.

N. Tusi göstərirdi ki, ölkəyə başçılıq etmək istəyənin 7 keyfiyyəti olmalıdır: atalıq, alicənablıq, mətinlik, kişilik əzmi, səbirli olmaq, sadiq və işgüzar işçilərə malik olmaq. Qeyd edək ki, bu keyfiyyətlər sonrakı siyasətşünaslar tərəfindən bir qədər sistemləşdirilərək liderə xas əlamətlər kimi təsnif olunur. N. Tusiyə görə sadalanan keyfiyyətləri özündə cəmləşdirən hökmdarlar müdrik və ədalətli olur, xalqın malına tamah salmır. Siyasi görüşlərində N. Tusi qədim Şərqdə geniş yayılmış *nəfs* kateqoriyasından çıxış edirdi. N. Tusi qeyd edirdi ki, dövlət *birlik və ittifaq* üzərində qurulur. Əgər birlik və ittifaqa səbəb olan amillər ortadan qalxıbsa, deməli dövlətin dağılması üçün şərait yetişib. N. Tusiyə görə insanların həyatı dövlət həyatı ilə həmahəngdir. İnsan dövlətin yardımına, dövlət isə insanların aktiv fəaliyyətinə möhtacdır. Dövlət və fərd bir-birinin qarşısında məsuliyyət daşıyır. O birlik və ittifaq dedikdə təkcə toplum daxilində fərdlərin və zümrələrin birliyini deyil, eyni zamanda hakimiyyətlə cəmiyyətin birliyini nəzərdə tuturdu. Qərb siyasi düşüncəsində bu ideya «ictimai müqavilə» formulunda öz ifadəsini tapır. Yəni N. Tusinin «birlik və ittifaq» ideyası ilə, T. Hobbs və C. Lokkun «ictimai müqavilə» ideyası arasında oxşar cəhətlər çoxdur.

*Sufilik* təlimi insanı müqəddəs varlıq hesab edirdi. «Vəhdəti vücüd» fəlsəfəsində tanrı ilə insanın vəhdətinə işarə edilir. İnsana bundan artıq dəyər vermək bəlkə də mümkün deyil.

Sufilərin dünya siyasi fikrinə böyük töhfələri var. Məntiq və etikada Aristotelin, sosial görüşlərdə isə Platonun ideyalarına üstünlük verən *Fərabi* siyasi sosiologiya sahəsində sistemli araşdırmalar aparmış, ciddi uğurlar qazanmışdır. O, Platonun «dövləti filosoflar idarə etməlidir» fikrini inkişaf etdirərək göstərirdi ki, dərin biliklərə yiyələnmək və hətta peyğəmbərlik missiyası adil hökmdar olmağın əsas şərtləridir. O cəmiyyətin «ədalət prinsipi» ilə qurulması ideyasını müdafiə edirdi. Bəzi mütəxəssislərin fikrinə görə Nizami «ədalətli cəmiyyət», «adil şah», «xoşbəxt ölkə» ideyalarının təbliğində Əl - Fərabidən bəhrələnmişdi.

Sufilərdə ideyaya sədaqətin, sözə verilən dəyərin, azadlığın ölçüsü yoxdur. *Mənsur əl- Həllac, Şihabəddin Yəhya Sührəvərdi və İmadəddin Nəsimi* yaydıqları fikirlərə görə ölüm hökmü ilə üzləşdilər. Tarixdə fikir və söz azadlığına sədaqətin, onun bərqərar olması üçün göstərilən əzmin, iradənin, inadın, fədakarlığın belə örnəkləri çox azdır. Onlar insanı «yer üzünün əşrəfi», yaradılmışların «ən alisi» adlandırmaqdan, insanın tanrı ilə bir vücudda birləşdiyini iddia etməkdən, «həqq mənəm» söyləməkdən çəkinməmişlər. Bu böyük şəxsiyyətlər üçün maddi dünyanı tərk etmək heç vaxt qorxu, vahimə yaratmamışdı. Sufilik təkcə fəlsəfi təlim deyil. O eyni zamanda bəlli adətlərin, ayinlərin icrasını tələb edən, davranış üçün normalar müəyyənləşdirən sosial-siyasi cərəyandır. Zaman-zaman siyasi hakimiyyətlərlə sufilər arasında ziddiyyətlərin yaranmasına bu amil də əsaslı şəkildə rəvac verirdi.

Dahi Azərbaycan şairi *Nizaminin* əsərlərində əsas məqam hökmdarı ədalətə, fəzilətə səsləməkdir. İskəndərnamədə utopik sosialistlərin 600 il sonra arzuladıqları, dövlətin ölüb getdiyi, hakimiyyətə ehtiyacın qalmadığı bir cəmiyyətdən söhbət açılır.

*Füzulinin* yaradıcılığında da hakimiyyətin idarə olunması ilə bağlı maraqlı məqamlar var. O deyirdi ki, dövran o zaman dözümlü olur ki, hökmdar xalqın dərdləri ilə maraqlanır. Əks təqdirdə cəmiyyət «aşiqlərin ürəyi kimi viran olur və dağılır». Əgər bir ölkənin hökmdarı adil olsa «kəndli quru torpağa arpa dənəsi səpib, buğda biçər».

Onu da qeyd edək ki, sufilikdəki azadlıq ideyası Qərbdəki «insan azadlığından» bir qədər fərqlidir. Qərbdəki insan azadlıqları daha çox ictimai-siyasi məna kəsb edir, konkretdir, Sufilikdəki (bütövlükdə isə Şərqdəki) insan azadlığı isə daha çox fərdidir. Yəni Şərqdə «fərdi mən», Qərbdə «ictimai mən» birincidir. Şərq yüzilliklər boyu «fərdi mənin» kamilləşməsi yollarını axtararaq, pisliklərlə dolu dünyanı paklaşdırmaq haqqında düşünmüşdü. Sufilərə görə bu yol maddi başlanğıcdan ruhun dərkinə, Allaha, Mütləqə qovuşmağa doğru aparan yoldur. İnsanın ruhani azadlığı məsələsində sufilərin yaratdığı təlimdə görünən (maddi) dünyaya münasibət etinasızlıqlarla doludur. «Tərki dünyalıq» maddi olandan uzaqlaşmaq, mənəvi olana qovuşmaqdır. Maddi dünyaya biganə olan sufilər bədənlərinə (cismə) tam nəzarət etmək üçün bəzi təmrinlər icra edir, hətta bir çox qidalardan belə imtina edirdilər. Onların gillə qidalandıqları da söylənir. Bu düşüncələrdə və əməllərdə aşırılığın olduğu göz qabağındadır. İnsan təkcə ruhani varlıq deyil, həm də cismani varlıqdır. O, həm özünün iç dünyasında, həm də cəmiyyətin içərisində yaşayır, başqaları ilə, bütövlükdə isə maddi dünya ilə təmasdadır. Nə mənəvi dünyanı, nə də maddi dünyanı bir kənara qoymaq, ancaq birinə tapınmaq mümkün deyil. İnsan bu iki dünya arasında «qızıl ortanı» tapıb yaşamalı, fəaliyyət göstərməlidir. Qərb renessansı bu dəngənin zəruriliyni dərk etdi və siyasəti dindən ayırmağa başladı. Lakin bu ayrılmanın məsafəsi böyük olduğundan, praqmatizm aşırı həddə çatdığından Qərbdə də Şərqdəki böhranın əksi yarandı və artıq XX əsrdə Qərb fəlsəfəsi yenidən «ruhların axtarışına»

başladı.İslam renessansı dövründə ideya, elm sürəkli inkişaf etsə də onların nəticələrinin praktikaya tətbiqində Qərbdən fərqli nəticələr ortaya çıxdı, fərqli mənzərələr yarandı. Sonrakı dövrlərdə Azərbaycan mütəfəkkirlərinin bu fərqlilikləri aradan qaldırmaq uğrunda mübarizə apardıqları aydın görünür.

- **Azərbaycan siyasi fikri XIX əsrin sonu XX əsrin əvvəllərində**

Bu dövrdə Azərbaycan siyasi fikrinə Qərb mühiti əsaslı şəkildə təsir göstərməyə başlayır. Artıq Qərb müsəlman Şərqinin örnək ideyalarını ətraflı öyrənmiş və dövlətin dindən ayrı olması qənaətinə gəlmişdi. Qərbdə dövlət ədalət və fəzilət prinsipləri ilə deyil, bu prinsiplərə dayanan qanunlarla idarə olunmağa başlamışdı. Şərqdə isə intibah dövründən sonra din dövlətdən ayrılmadı və get-gedə xuruafat məzmunu və şəkli aldı. İctimai inkişafa mane olan bu amil mütərəqqi adamları narahat edir və onların kəskin reaksiyalarına səbəb olurdu. Şərqdə Şərqin tənqidi, Qərbin təqdirinin səbəbi bu idi. Dövrün böyük mütəfəkkirləri üzünü Qərbə tutmuş, yüksək təhsil almaq istəyənlərin istiqaməti dəyişmişdi. Bu dövrün əsas mütəfəkkirləri Ş. C. Əfqani, M. F. Axundov, M. Kazımbəy, H. Zərdabi, Ə. Topçubaşi, Ə. Ağaoğlu, Ə. Hüseynzadə, M. Rəsulzadə, H. Cavid, C. Cabbarlı olmuşdu.

*Şeyx Cəmaləddin Əfqani* İslam aləmində, türk dünyasında, bütövlükdə isə Şərqdə Yeni Dövrün bünövrəsini qoyan nəhəng fikir adamlarındandır. O bütün ömrünü İslam dünyasının geri qalma səbəblərini öyrənməyə və bu geriləmənin ortadan qaldırılması yollarını axtarıb tapmağa həsr etmişdi. 1891-ci ildə «Mançestr qardian» qəzetinə verdiyi mühasibədə «İslama yeni və demokratik ruhu necə aşılamaq olar?» sualına Ş. C. Əfqani belə cavab verir: «Quranın həqiqi ruhu azadxah və eləcə də müasir fikirlərə uyğun gəlir. İndiki nizam-intizamsızlığın İslam qanunlarına qətiyyən dəxli yoxdur. Bunlar nadan və cahil təfsirçilərin İslama etdikləri əlavələrdir.

Tarixi təkamül və inkişaf onların bu səhvlərini islah edəcək. Deməli, bir müsəlman alimi Avropa demokratik məfkurəsinə bələd olsa o, Quranın təlimlərinə əsaslanaraq xalqı müasir mütərəqqi demokratik məfkurələrlə tanış edə bilər. Bu iş isə Lüterin üzləşdiyi maneələrlə üzləşməz». İlkin İslama qayıtmaq istəyən Ş. C. Əfqani, ilk növbədə, bu dini sonralar əlavə olunmuş xürafat örtüyündən azad etmək, müasir tələblərə uyğunlaşdırmaq fikrini irəli sürürdü. Bu İslamın yeni, başqa sözlə müasir, demokratik modelinin yaradılması istiqamətinə ilk təşəbbüs sayıla bilər.

Ş. C. Əfqani «İslami-birlik» fikrini ortaya atmaqla *panislamçılıq* təliminin də bünövrəsini qoydu. O, «dəryada sükansız gəmiyə bənzəyən İslam dünyasının» dərdinə çarə tapmaq üçün bütün müsəlman dövlətlərini kollektiv fəaliyyətə səsləyirdi. Lakin Əfqani bu birliyə aşağıdan deyil, yuxarıdan nail olmağın mümkünlüyü qənaətində idi. Elə bu məqsədlə də o, Osmanlı sultanı Əbdülhəmidlə və İran şahı Nəsrəddin şahla görüşərək İslam ölkələrinin problemlərinin həlli üçün vahid bir qurumun, bir nəfərin-xəlifənin iradəsinə tabe edilməyən *Konqresin* (XX əsrdə yaranan İslam Konfransı Təşkilatının nəzəri təməli bu ideyadadır) yaradılması ideyasını irəli sürür. Ş. C. Əfqaninin niyyəti bütün müsəlman dövlətlərini bir bayraq altına yığmaq deyildi. O, hər bir millətin ayrılıqda inkişafı fikrini irəli sürür, bir fərd üçün onun millətinin inkişaf səviyyəsini qürur meyarı kimi götürürdü. Məşhur Şərq islahatçısı bir az da qabağa gedərək millətin inkişafında *dil* amilinə xüsusi diqqət yetirir, milli şüurun formalaşmasında onun rolunu dəyərləndirirdi. Deməli Ş. C. Əfqani siyasi görüşlərinə görə təkcə panislamçı deyil, eyni zamanda millətçi idi.

Ş. C. Əfqani bir çox sosioloqlar kimi belə qənaətdə idi ki, milli tərəqqi cəmiyyətin harmonik inkişafına bağlıdır. O, cəmiyyəti aşağıdakı ictimai təbəqələrə bölürdü: ziyalılar; hüquqşünaslar; insanların əxlaqını saflaşdıran nəsihətçilər;

xalqın ruhunu oyadan və gücləndirən ədiblər və şairlər; sənayeçilər; əkinçilər; iqtisadiyyat qanunları ilə millətin ticarət yollarını arayıb tapan tacirlər. Onun fikrincə, hər hansı bir cəmiyyətdə bu təbəqələr olmasa millətin fərdləri arasında məişət və həyati əhəmiyyətli əlaqələr qırılar və məmləkət məhv olar.

Ş. C. Əfqani Əfqanıstanda, İranda, Ərəbistanda ciddi mətbuat orqanlarının yaradıcısı hesab olunur. O, belə mətbuat orqanlarına İranın xüsusi ehtiyacı olduğunu bildirir və bu ölkədə dərc olunan qəzetləri ciddi mətbuat nümunələri saymırdı (M. F. Axundov da bu düşüncədə idi). Ş. C. Əfqani İran mətbuatı ilə Qərb mətbuatını müqayisə edərək yazırdı: «Qərbin tərəqqisinə səbəb olan vasitələrdən biri mətbuat azadlığıdır. Bu azadlıq hakimlərin yaxşısını, pisini istisnasız olaraq aləmə yayır. Heç kəs mətbuat azadlığına etiraz etmir. Mətbuat tərəfindən təhqir olunmuş şəxsin haqqı vardır ki, özünün tapdanmış hüququnu məhkəmə yoluyla tələb etsin. Lakin İranda hər şey tərsinədir. Onlar yaxşı işdən yaxşı danışırlar, pis işdən də yaxşı danışırlar. Yaxşı ilə pis arasında meyar yoxdur. Əmirlər və hakimlər isə qəzetləri islah etmək haqqında düşünmür».

Onu da qeyd edək ki, Ş. C. Əfqani müsəlmanların mənəvi birliyini siyasi birlikdən önəmli hesab edirdi. Əslində bu ideyanın mahiyyətində dinin dövlətdən ayrılmasının elementləri yox deyil. Şərqdəki «mütləqiyyəti tərəqqinin düşməni» elan edən Ş. C. Əfqani konstitusiyalı monarxiya tərəfdarı idi. O bildirirdi ki, güclü və ədalətli monarxın hakimiyyəti dövlətin idarə edilməsi işində xalqın iştirakını təmin edən konstitusiya və parlament kimi təsisatlarla tənzimlənməlidir.

*Mirzə Fətəli Axundov* fransız maarifçilərinin, rus inqilabçı-demokratlarının, dekabristlərin mütərəqqi fikirlərini Şərqə (konkret olaraq Azərbaycana) təqdim etməyə, Şərqlə-Qərb arasında körpü yaratmağa çalışırdı.

M. F. Axundovun «Məktublar»-ı faydalı fəlsəfi-sosioloji tədqiqatlardandır. Əsərdə o, ictimai mühitin reallıqları ilə yanaşı, bu reallığa adekvat olan kütləvi şüurun da təhlilini verir. İctimai şüurun rolu məsələsinə «Aldanmış Kəvakib» əsərində də toxunulub. Əsərdə deyilir ki, millətin ümumi şüur səviyyəsi aşağı olanda, hər-hansı bir təsadüf nəticəsində hakimiyyət ədalətli bir insanın əlinə keçsə belə, bu millət üçün xilas yolu olmur. Başqa sözlə hakimiyyət forması siyasi şüura adekvat olur, hər bir cəmiyyət özünə layiq hakimiyyət yaradır. M. F. Axundov Avropadakı dövlət quruluşlarını Azərbaycanda da arzulayırdı. O, Qərb və Şərqdəki siyasi quruluşlar, siyasi terminlər haqqında ilkin bilgilər verir. Şərqdə ilk *politoloji lüğəti* tərtib edən də məhz M. F. Axundovdur. O insan, başlıcası da qadın haqları, konstitusiya islahatları, əlifba islahatları kimi vacib siyasi, kulturoloji məsələlər üzərində fikirləşir, bir sıra hallarda isə praktiki addımlar atırdı.

Eyni dövrdə yaşamalarına baxmayaraq Ş. C. Əfqanidən fərqli olaraq M. F. Axundov İslama qarşı radikal mövqe tutur, Şərqin Qərbə nisbətən çox geridə qalmasının səbəblərini məhz dində axtarırdı. M. F. Axundov öz mübarizəsində bəzən ifrata varırdı. Materialist dünyagörüşünü, sağlam şüuru əsas tutan M. F. Axundov ictimai problemlərlə bağlı mülahizələrində nə qədər haqlı olsa da, ruhani dünyaya münasibətdə realizm mövqeyindən çıxış etdiyinə görə, dinə münasibətdə qüsurlara yol verirdi.

*Mirzə Kazımbəy* müsəlman hüququnu ətraflı təhlil edərək, alqı-satqı, müqavilə, borc, girov, vərəsəlik, nigah və s. hüquqları barədə geniş məlumatlar verir. Bu, müsəlman Şərqində şəriət qanunları ilə dünyəvi hüququn sintezini yaratmaq, cəmiyyət həyatının vacib sahələrini qanunlarla tənzimləmək istiqamətində atılan ilk addımlardan hesab oluna bilər. M. Kazımbəy inqilablara neqativ yanaşır, onu bir qrupun xalqı aldadaraq hakimiyyətə gəlmək üçün törətdiyi hadisə

hesab edirdi. O, monarxiya tərəfdarı idi və təəssüf ki, çarizmin müstəmləkəçilik siyasətinə də bəraət qazandırırdı.

*Həsən bəy Zərdabi* təhkimçilik hüququnu tənqid edir, onu ictimai inkişaf yolunda ciddi maneə və insan haqlarını pozan əsas şərt sayırdı. Ş. C. Əfqani kimi H. Zərdabi də dil və din məsələsinə eyni prinsiplərdən yanaşırdı. O «Din və dil» məqaləsində hər bir milləti irəli aparan vacib amillərin din və dil olduğunu göstərir və bildirir ki, bunlardan biri itiriləndə millət öz simasını, hər ikisi itiriləndə isə varlığını itirir və başqalarına qarışıb yox olur. Mətbuatın rolunu yüksək qiymətləndirən H. Zərdabi maarifçiliyi, fikir azadlığını onsuz təsəvvür etmirdi. Demokratik cəmiyyətin təməl prinsiplərindən olan üç məsələnin Azərbaycanda parktiki həlli də ilkin olaraq H. Zərdabinin adı ilə bağlıdır. O, maarifçiliyin, fikir və söz azadlığının əsasını təşkil edən mətbuatın, Qərb dəyərləri ilə fəaliyyət göstərən xeyriyyə cəmiyyətinin, müasir tipli məktəbin banisi sayılır. Zərdabi bürokratiyanı pisləyir, rüşvətxorluğa, müstəmləkiçiliyə qarşı çıxırdı.

*Əli bəy Hüseynzadə* xalqların müxtəlif siniflərə bölünməsinin əleyhdarı idi və dini, bir qədər sonralar isə milli birliyi ön plana çəkirdi. O bütün müsəlmanların və dini mənsubiyyətindən asılı olmayaraq bütün türklərin birliyinə çalışırdı. Ə. Hüseynzadə «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək!» tezisinin müəllifidir. Sonralar bu tezis müstəqil Azərbaycanın bayrağında maddiləşərək öz ifadəsini tapdı.

Əli bəy inqilabın heç də bütün xalqlar üçün zəruri olmadığı qənaətində idi. O inqilabı xəstəlik adlandırır, 1918-ci ildə üç ideologiyanın dünyanı lərzəyə saldığını göstərirdi: «imperializm, nasionalizm, sosializm».

Ə. Hüseynzadənin siyasi və geopolitik görüşləri «Siyasət və fürusət» əsərində öz ifadəsini tapır. Əsərdə Rusiya və Avropanın İran ətrafında qurduqları siyasi oyunlar, İranın daxilindəki ictima münasibətlər təhlil olunur.

O da bir həqiqətdir ki, Ş. C. Əfqaninin ictimai-siyasi, dini görüşləri dövrün başqa mütəfəkkirləri kimi Ə. Hüseynzadənin də yaradıcılığına əsaslı təsir göstərmişdi.

*Əhməd bəy Ağaoğlu* Şərqdə və Avropada yaxşı tanınan bir fikir və hərəkat adamı idi. M. Ə. Rəsulzadə onu «Yaxın Şərqdəki tarixi avropalaşma hərəkatının ən səmimi ideoloqu» adlandırırdı. 1900-1901-ci illərdə Ə. Ağaoğlu «İslam və Axund», «İslama görə və İslam aləmində qadın» adlı iki kitab çap etdirdi. Bu kitablarda o da C. Əfqani kimi müsəlman xalqlarının nicatını dini hərəkatda görür və bu hərəkatda *qadın azadlığı və əlifba islahatı* məsələlərinə xüsusi diqqət yetirilməsini tələb edirdi. Bir çox mütəxəssislər bu qənaətdədir ki, Azərbaycanda və Türkiyədə sözügedən sahələrdə islahatların həyata keçirilməsinə Ə. Ağaoğlu əsaslı təsir göstərmişdir. O, Fransa inqilabının «Azadlıq, Bərabərlik, Qardaşlıq!» şüarını Şərqə gətirənlərdən biri idi. Ə. Ağaoğlu cəmiyyətdə ictimai münasibətlərin bu prinsiplər əsasında qurulmasını istəyir və Quranda, konkret olaraq Nisa surəsində qadın və kişi bərabərliyinin təsbit olunduğunu qeyd edirdi. Onun xüsusi önəm verdiyi məsələlərdən biri də *milli şüur* məsələsi idi. Ə. Ağaoğlu Azərbaycan ziyalılarını xalqın arasına getməyə, maarifləndirmə işi aparmağa və bütün bu işləri ana dilində görməyə çağırırdı. Bu məqamda o, Ş. C. Əfqanidən fərqli olaraq aşağıların dəyişdirilməsi fikrini müdafiə edirdi: «Mənə inanın, heç vaxt təkamül yuxarıda baş verə bilməz, o həmişə aşağılarda-bazar və meydanlarda, məscidlərdə, kütlənin dolaşdığı, xalqın əhvali-ruhiyyəsinin, mənəvi aləminin formalaşdığı gur yerlərdə baş verir».

Ə. Ağaoğlu birinci dünya müharibəsinin baş verməsinə görə pula həris və tamahkar xristian dünyasını suçlayaraq yazırdı: «Türkiyə xristian məmləkəti olsaydı heç bir müharibə olmazdı». Buna baxmayaraq o, müsbət olanları da təqdir edir, Qərbin inkişafını azadlığa dayanan cəmiyyətin mövcudluğu ilə əlaqələndirərək, hürriyyəti demokratiyanın təməli sayır,

demokratik dövlət sistemində siyasi partiyaların əhəmiyyətinə xüsusi önəm verirdi.

Onun rəhbərliyi ilə 1905-ci ildə Azərbaycanda *ilk millətçi siyasi partiya* sayılan «Difai» (Müdafiə) yaradıldı. «Qafqaz xalqları arasında səmimi qardaşlıq və birlik yaratmağı» başlıca məqsədi elan edən bu təşkilat sonralar Azərbaycanda daha mükəmməl siyasi təşkilatların qurulmasında çox önəmli rol oynamışdı.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda Ə. Ağaoğlu qədər dinamik bir elm və siyasət adamı təsəvvür etmək çətindir. Onun İranda, Rusiyada, Türkiyədə, Avropada çoxlu ziyalı, siyasətçi dostları var idi. Bu ölkələrə tez-tez səfər edən Ə. Ağaoğlu fars, fransız, türk dillərində qəzetlər dərc etdirir, dövrü mətbuatda mükəmməl bildiyi beş dildə aktual məqalələrlə çıxış edir, opponentləri ilə siyasi polemikalar aparırdı. Ə. Ağaoğlu ictimai-siyasi həyatın, mədəniyyətin müxtəlif problemlərinə həsr olunmuş iyirmi kitabın müəllifidir.

*Əlimərdan bəy Topçubaşi* 1905-ci ildə Novqorod şəhərində «Rusiya Müsəlmanlar İttifaqı» adlı siyasi partiya yaratdı. Onu təkcə Azərbaycanın yox, bütün Rusiya müsəlmanlarının lideri sayırdılar. Sonralar Ə. Topçubaşi də Ş. C. Əfqani kimi bu qənaətə gəldi ki, müsəlmanların birliyi siyasi birlik deyil, mənəvi birlik ola bilər. Siyasi birlik isə millətçilik ideyasının maddiləşməsindən sonra mümkündür. Ə. Topçubaşi Azərbaycanda kültür hərəkatının siyasi hərəkata çevrilməsində böyük xidmətləri olan nəhəng şəxsiyyətlərdəndir.

*Məhəmməd Əmin Rəsulzadə* Topçubaşinin fikirlərini inkişaf etdirərək belə qənatə gəldi ki, müstəqil olmaq üçün əsas şərt milli məfkurənin formalaşmasıdır. Ümmətçiliklə deyil, millətçiliklə milli dövlətlər qurula bilər. O, C. Əfqaninin «İslami birlik» ideyasını bəyənsə də, onun praktikada federativ şəkildə reallaşmasının mümkünlüyünü düşünürdü. Bu səbəbdən də bildirirdi ki, Rusiya müsəlmanlarının hər biri öz

yaşadıqları bəli coğrafi hüdudlar çərçivəsində öz milli dövlətlərini qurmaq uğrunda mübarizə aparmalıdır. Bu, Şərqdə milli azadlıq hərəkatının ümmətçilikdən millətçiliyə keçməsinin nəzəri və praktiki əsası idi.

XX əsrin əvvəllərində Rusiyada mütləq kollektivçiliyi müdafiə edən kommunizm, Qərbdə fərdiyyətçiliyi müdafiə edən liberal demokratiya populyar təlimlər sayılırdı. Liberal demokratiyanın bir sıra məqamlarda aşırı şəkil alması Qərb dövlətlərində sosial-siyasi problemlər yaratmışdı. M. Ə. Rəsulzadə Qərb və Rusiya mühitinin Azərbaycana ciddi təsir göstərməsinə baxmayaraq, hər iki qütbdən fərqli bir təlimin tərəfdarı idi: «Madam ki, biz millətçiyik, milli dövlət ideologiyasını müdafiə edirik, o halda nə kosmopolit liberalizm, nə də kommunizm bizim üçün caiz ola bilməz. Bizcə müdafiə edəcəyimiz yeganə sistem milli təsanüd sistemidir». Onun fikrincə «sinifləri əsas hesab edən kommunizm kimi, fərdləri əsas hesab edən liberalizm də kosmopolit və internosionaldır. Solidarizm (təsanüd, həmrəylik) isə millidir». Bu təlim milləti vahid bir vücudda birləşdirən orqanlar kimidir. Həmrəylikdəki bu milliliyin mənəvi dayaqlarını, birləşdirici gücünü M. Ə. Rəsulzadə dil, din, tarix, və ümumiyyətlə kültür və ortaq ideal kimi amillərdə görürdü. Onun rəhbərliyi ilə 1917-ci ildə yaradılan sosial-demokratik tipli Müsavat (Bərabərlik) partiyası da məhz bu cür təsanüd - həmrəylik prinsiplərinə dayanırdı.

M. Ə. Rəsulzadə təkcə fikir adamı, ideoloq deyildi. O, Azərbaycan milli hərkatının lideri, azadlıq ideyalarını praktikaya gətirən ictimai-siyasi xadim idi. XIX əsrdən başlayaraq aparılan gərgin ideologi işin və praktiki fəaliyyətin nəticəsi kimi 1918-ci ildə «İnsanlara hürriyyət, millətlərə istiqlal!» şüarı ilə Şərqdə ilk demokratik dövlət-Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Bu dövlət «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək!» və bu üçlüyün məcmusunu ifadə edən azərbaycançılıq təliminə dayanırdı. 1918-ci ildə Parlamentin

açılış çıxışında M. Ə. Rəsulzadə deyirdi: «Sağdan bizə deyirdilər ki, azərbaycançılıq şüarı ilə müsəlmanları parçalayırıq və azərbaycançılıq bayrağını yüksəltməklə biz-allah göstərməsin-islamiyyətin təməlini pozuruq. Soldan isə bizə deyirdilər ki, Azərbaycana müstəqillik istəməklə birləşmiş demokratik cəbhəni (Rusiya demokratlarının birləşmiş cəbhəsi nəzərdə tutulur-X. İ.) pozuruq». Lakin müsavatçılığın timsalında Azərbaycan üçün gerçəkdən mükəmməl bir milli təlim yaradılmışdı və bolşeviklər onilliklər boyu onu insanların düşüncəsindən çıxara bilmədi. Mühacirət dövründə bu təlim xeyli təkmilləşdirildi, milli ideoloji sistem şəklini aldı və yenidən 1980-ci illərdə Azərbaycanın müstəqiliyinin bərpası uğrunda aparılan mübarizənin təməlinə gətirildi.

- **Çağdaş Azərbaycanda siyasi fikir**

Milli azadlığı və milli dövləti milli mədəniyyət, bu mədəniyyətin gücü, tarixdən gələn enerjisi doğurur. Millət öz mədəni varlığını dərk edəndə, onun başqa millətin, yad mədəniyyətin basqısı altında qalması ilə barışmır və bu varlığa sahib duran dövlətin qurulması haqqında düşünür. XIX əsrin ikinci yarısında Azərbaycanda başlanan hərəkatın təyinatı da bu idi. Görkəmli fikir adamları ilkin olaraq milli varlığın əsas atributlarından sayılan din haqqında düşünməyə başladı. Bu dönəmlərdə İslamın gerçək mahiyyəti üzərindən cəhalət pərdəsini götürmək, müsəlmanların birliyinə nail olmaq istiqamətində maarifləndirmə işi aparılırdı. Sonrakı dönəmlərdə milli varlığın təkcə dinlə müəyyənləşmədiyi məlum oldu və dinlə yanaşı dil uğrunda mübarizə başladı. Bütövlükdə kültür (həm də maarifçilik) hərəkatı mahiyyəti daşıyan və siyasi çalarların zəif özünü büruzə verdiyi bu mərhələ panislamçılıq təliminə dayanan ümmətçilik mərhələsi idi. Din amili ilə yanaşı dil amilinə də xüsusi önəm verilməsi az sonra, «dünyada müsəlmanlar çoxdur və onların hər birisinin öz dili var və bəlli bir coğrafi ərazidə yaşayırlar-bəs biz kimik?» sualını ortaya

çıxardı. Bu zaman Azərbaycanda ümmətçilikdən millətçiliyə keçidin-pantürkçülüyün və panturançılığın meydana gəlməsinin şahidi oluruq. Dövrün mütəfəkkirləri belə qənaətə gəlir ki, bütün müsəlmanların bir bayraq altında birləşdirilməsi mümkün deyil. Bu səbəbdən də hər bir millət öz yaşadığı tarixi ərazidə öz milli dövlətini qurmalıdır. Bu artıq kültür hərəkatının siyasi hərəkata çevrilməsi idi. Lakin müstəqillik üçün bu da kifayət etmir, toplumdakı bütün təbəqələrin maraqlarını özündə birləşdirən, Qərbdəki aparıcı təlimlərin mahiyyətinə uyğun gələn sintetik təlim tələb olunurdu. Elə bu səbəbdən də ümmətçiliyin, millətçiliyin və müasirliyin sintezi olan «Türləşmək, İslamlaşmaq, Müasirləşmək!» tezisi ortaya atıldı və bu tezis Azərbaycanın milli müsəqillik mübarizəsinin ideya silahına çevrildi. Milli müstəqillik məhz bu üçlü düsturun köməyi ilə gerçəkləşdi  və tarixi, kulturaloji, coğrafi mənalarda işlənən «Azərbaycan» sözü 1918-ci ildə dövlətin adına gətirildi, siyasi-hüquqi məna da kəsb etməyə başladı. «Türləşmək, İslamlaşmaq, Müasirləşmək!» Azərbaycanın müstəqilliyi uğrunda mübarizə silahı olduğundan mahiyyət etibariylə bu üçlük vəhdətdə *azərbaycançılıq* anlamını verir ki, yuxarıda qeyd olunduğu kimi bu da əsrin əvvəllərində ideoloji-siyasi səhnəyə gətirildi.

Sözügedən təlimlər Azərbaycanda hansı siyasi təşkilatların meydana gəlməsinə rəvac verdi? Ölkədə yaranan ilk siyasi təşkilatlardan biri «Ümmət»-dir. Sonralar sol-radikal təmayüllü bir partiyaya çevrilən «Ümmət» adından da göründüyü kimi yaranışının ilkin dönəmlərində dini ideyalarla silahlanmışdı. 1905-ci ildə yaranan «Rusiya müsəlmanları ittifaqı» da «İslami-birlik» ideyasını, panislamçılığı müdafiə edirdi. Erməni qırğınlarından qorunmaq üçün millətin gücünü səfərbər etməyə, başqa millətin aqressiyasının qarşısını almağa çalışan «Difai» artıq millətin fiziki varlığını müdafiə edən  bir partiya kimi səhnəyə çıxır və təbii ki, millətçi təşkilat sayılmalıdır.

«Müsavat» isə konkret siyasi tipologiyaya malik olan və Qərbdəki siyasi təşkilatların qurulma prinsipləri ilə yaranan sağ mərkəzçi (sosial demokratiya yonümlü) bir partiya idi. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən və bolşevik repressiyası başlandıqdın sonra Müsavatın siyasi tipologiyasında dəyişmələr baş verir. Mühacirətdə olan bu partiya sol mərkəzçi bir partiyaya çevrilir.

1920-1991-ci illər sovet dönəmlərində Azərbaycanda birpartiyalı (kommunist partiyası) siyasi idarəçilik forması bərqərar olur. Lakin XIX əsrin sonu, XX əsrin əvvəllərindəki kültür hərəkatının və milli hərəkatın, bu dövrdə yaranan ideoloji-siyasi, tarixi-kulturaloji irsin, cəmi iki il müstəqillək həyatı yaşamış milli dövlətin enerjisi o qədər güclü idi ki, 70 illik sərt və amansız kommunst rejimi müstəqillik və azadlıq ruhunu məhv edə bilmədi. Sovet dönəmlərində azadlıq və milli müstəqillik ideyaları bədii ədəbiyyatın dərin qatlarına keçdi. H. Cavid, C. Cabbarlı, Ə. Cavad, A.Yıldırım, M. Müşfiqdən başlanan bu gizli mübarizə 1991-ci ilə, milli müstəqillik yenidən bərpa olana qədər enmələr və qalxmalarla, şəkil dəyişmələrilə davam etdi.

1980-ci illərdə milli azadlıq hərəkatı yenidən baş qaldırdı. Müsavatçılıq ideologiyasına dayanan yeni ictimai-siyasi hərəkat-Əbülfəz Elçibəyin rəhbərlik etdiyi Azərbaycan Xalq Cəbhəsi meydana gəldi. 1990-cı illərdə müasir tipli siyasi təşkilatlar-Milli İstiqlal Partiyası, Sosial Demokrat Partiyası yaradıldı, Müsavat Azərbaycnda fəaliyyətini yenidən bərpa etdi. Bu dövrdə Azərbaycanın müharibəyə sürüklənməsi, ölkə daxilində stabilliyin pozulması, bölgədə separtçılıq əhvali-ruhiyyəsinin güclənməsi, siyasi kataklizmlər və sürəkli hakimiyyət dəyişmələri siyasi proseslərlə yanaşı milli ideologiyaya da öz təsirini göstərir. «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək!» tezisi tədricədən arxa plana, «Azərbaycançılıq» ön plana keçir. İdeoloqu və qurucusu Heydər Əliyev olan Yeni Azərbaycan Pariyası da yeni

interpretasiya olunan bu idelologiyaya-etnik və dini mənsubiyyətindən, harada yaşamasından asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarının mənəvi, ideoloji, siyasi vəhdəti anlamını verən azərbaycançılığa dayanır.

## IV. Siyasi ideologiya və din

- *İdeologiya və siyasət*
- *Liberalizm*
- *Konservatizm*
- *Sosializm və sosial-demokraiya*
- *Radikal ideologiyalar*
- *Siyasi mmünasibətlərin dində təzahürü*
- *Dinin siyasətə təsiri*
- *Vicdan, fikir azadlıqlarının funksiyaları*

### Ədəbiyyat


1. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
2. Гаджиев К. С. Введение политическую науку. Москва, 1997
3. Varma. S.P. Modern politikal theories. Dehli 1999
4. Лавриенко В.Н. Политология. Москва, 2006
5. Марченко М. Политология. Москва,1999
6. Mümtazer Türküne. Siyaset. Ankara, 2011
7. Fatmagül Bektay. Politikanın Çağrısı. İstanbul Bilgi İniversiteti, 2010
8. Jain M.P. Political theories. Kaveri Printers ltd., New Dehli, 1993


- **İdeologiya və siyasət**

İdeologiya yunan sözüdür-*«ideyalar haqqında təlim»* deməkdir. Bu termini elmi ədəbiyyata ilk dəfə XIX əsrin əvvəllərində fransız maarifçisi *Destyut de Trasi* gətirmişdir. «İdeologiyanın elementləri» əsərində o ideologiyaya, insanın hissi təcrübəsindən törəyən qanunlar barədə elm kimi baxırdı. İdeologiya termini yaranan kimi ciddi tənqidlərlə üzləşdi. Bu dövrdə xüsusi nüfuz sahibi olan Napoleon Bonapart

ideologiyanı mənasız və əhmiyyətsiz bir şey hesab edir, ictimai maraqların inkişafında onun təzahür etmədiyini bildirirdi.

İdeologiya haqqında fikirlərin inkişafına *K. Marks və F. Engelsin* təsiri böyük olub. «Alman ideologiyası» əsərində sosializmin baniləri ideologiyanı aldadıcı bir düşüncə hesab etsələr də, marksizmi proletariatın sinfi mübarizəsi, yəni sosializmin elmi nəzəriyyəsi sayırdı. *K. Popper* yazırdı ki, K. Marks insanların mütləq əksəriyyətinin həyatını yaxşılaşdıran mübarizə üçün elmi silah düzəltmək istiqamətində böyük zəhmət çəkdi. Bu yöndə K. Marksın vacib kəşfinin olduğunu da unutmaq ədalətsizlikdir. O deyirdi ki, hər bir ictimai təlimin arxasında müəyyən maraqlar dayanır. İdeya isə sosial və həyati maraqlarla şərtlənən bir fenomendir. K. Marks, eyni zamanda banisi olduğu təlimi, yəni marksizmi ideologiya kimi qəbul etmək istəmirdi. O ideologiya ilə elmi bir-birindən fərqli sahələr hesab edir və onları qarşı-qarşıya qoyurdu. Başqa sözlə, ideologiyanı elm, sosializmi isə ideologiya hesab etmirdi.

Siyasi nəzəriyyədə ideologiya hansısa maraqlara xidmət edən ideyalar sistemi kimi başa düşülür. Elmdən fərqli olaraq ideologiya siyasi şüurlara kütləvi şəkildə hakim kəsilir. Siyasi ideologiya qrupların, siniflərin, etnosların, millətlərin nəzəri müdafiə mexanizmini müəyyənləşdirir. İdeologiyanın birləşdirici və təşkilatlandırıcı gücü var. Onun köməyi olmadan ictimai hərəkatların kütləviləşməsini təsəvvür etmək çətindir. Siyasi ideologiyalar özündə tarixin elementlərini, rəmzlərini, dəyərlərini əks etdirir. İdeologiya yaradıcıları, hərəkat liderləri bir qayda olaraq tarixin müxtəlif dövrlərindəki bu rəmzlərə, elementlərə, qəhrəmanlıq səhnələrinə və qəhrəmanlara müraciət edir, kütlələrin hisslərinə, emosiyalarına təsir göstərməyə çalışırlar. Tarixdən gələn ideyaların, dəyərlərin insan emosiyalarına təsiri, konkret dövrün hökmdarlarının təsirindən güclü olur. İdeologiya siyasi fəaliyyətin tərkib hissəsi kimi siyasi prosesdə vacib funksiyaya malikdir. İdeologiyanın siyasətə ciddi təsir imkanlarına malik olması,

siyasətin avtonomluğu barədə də ciddi düşünməyi zərurətə çevirir.

İdeologiya öz inkişafında müxtəlif mərhələlrdən keçib. Onun mövcud olub-olmaması ciddi mübahisələrə meydan açıb. XX əsrin 60-cı illərində Amerika sosioloqu *E. Şils* «ideologiyanın sonu» şüarını irəli sürdü. Bir qədər sonra «deideologizasiya», yəni ideologiyasızlaşma tərəfdarlarının sayı artdı və bu sıraya məşhur Raymond Aron da qoşuldu. 80-ci illərdə alman politoloqu *U. Mats* belə bir fikir irəli sürdü ki, ideologiya ciddi siyasi böhranlar zamanı səhnəyə çıxan dəyərlər sistemidir. U. Mats ideologiyanın ideal növlərini təklif edirdi: liberalizm, pozitivizm, sosializm, kommunizm, nasional-sosializm. Konservatizmi o bu sırada görmürdü. Alman politoloqu hesab edirdi ki, konservatizm öz-özünə qarşı dayandığından ona müstəqil ideyalar sistemi kimi yanaşmaq düzgün deyil. Matsa görə ideal ideologiya aşağıdakı əlamətlərlə fərqlənir: dini motivasiya, inqilabilik, tərəqqipərvərlik, ideoloji prinsipin avtoritarlığı.

Politoqların fikrincə ideoloji dəyərlərə xas olan xüsusiyyətlər aşağıdakılardır:

1. Möhtəkirlik (qarşıya böyük məqsədlərin qoyulması). Bu zaman ideya real problemin fövqünə yüksəldilir. Ümumi işə xidmətdə insan özünün dəyərli olduğu qənaətinə gəlir.

2. Doqmatiklik (ideala inam). Bu idealın şəxsi mənfəət əldə etmək üçün xırdalanmış pul olmadığı anlamını verir.

3. Apoloqetiklik (ideala sadiqlik, bağlılıq). Nəyin bahasına olursa-olsun sahib olduğun ideyanı, «həqiqəti» müdafiə etmək, ondan üz çevirməmək.

4. Avtoritarlıq (tələbkarlıq). İdeologiya tələblərlə çıxış edir. Onun daşıyıcıları qarşısında arası kəsilməyən tələblər qoyur.

Bütün bunlarla yanaşı unutmaq olmaz ki, ideologiya dəhşətli bir gücdür. Cəmiyyət həyatında onun qədər çoxsaylı təlatümlər yaradan ikinci bir nəzəri-siyasi sahə yoxdur. Nə

qədər ki, ideolojiya ictimai həyatda qalır, o qədər də onun nəzəri analizi davam edəcək. İdeologiyalar isə hələ ki, həyatda qalır və siyasətə, ictimai həyata əsaslı təsir gücünü saxlayır.

- **Liberalizm**

Liberalizm termininin müəllifi C.de Stol (XIX əsrin əvvəlləri) sayılır. «Liberalis» latın sözü olub «azadlığa toxunan» mənasını verir.

Politoloq E. Heyvud yazır ki, «hər cür siyasi ideologiyanın təsnifatı liberalizmdən başlamalıdır». Heç şübhəsiz, bu fikirlərdə həqiqət yox deyil. Müasir liberalizmin təməlində tarixi burjua liberalizmi dayanır ki, onun da yaradıcıları C. Lokk, A. Smit, Ş. Monteskyö, A. Tokvil, T. Cefferson, T. Peyn və b. sayılır. Liberalizmin əsas prinsipləri aşağıdakılardır: vətəndaş cəmiyyəti, plüralizm, parlament demokratiyası, hakimiyyət bölgüsünün tam həyata keçirilməsi, qanunun aliliyi, şəxsiyyətin toxunulmazlığı, fikir və söz azadlığı və s. Liberalizm həm maarifçilik, həm də mütləqiyyətin kontrmoedeli olan bir ideologiyadır. Dini görüşlərdəki «təbii hüquqlar» (bütün insanların azadlığı və bərabərliyi) prinsipinə əsaslanan liberallar bu prinsipləri «şəxslərin əsas hüquq və azadlıqları» səviyyəsinə qədər genişləndirdilər. İnsan hüququnun dövlət hüququndan yuxarıda dayandığını iddia edən liberallar dövləti sadəcə bir «gecə gözətçisi» adlandırırlar. Onlara görə ən yaxşı dövlət ən az hiss olunan dövlətdir.

Liberalizm siyasi doktrin kimi XII-XIII əsrlərdə Qərbi Avropada kilsə hakimiyyətinə qarşı etirazlar əsasında meydana gəlmişdi. 15 iyun 1215-ci ildə Rannimid adlanan yerdə İngiltərə kralı Yohan Plantagenit arxiyepiskop Stevan Layktonun başçılıq etdiyi qiyamçı feodalların təzyiqi ilə *Böyük Azadlıqlar Toplusu (Maqna Karta)* adlı sənəd imzaladı. Bu tarixi sənəddə deyilirdi: «Heç bir azad insan, onunla bərabər hüquqlu insanların qanuni hökmündən və ya ölkə

qanunlarından savayı başqa bir əsasla tutulub həbs edilə, yaxud mülkiyyətindən məhrum oluna bilməz». Monarxın hüquqlarını məhdudlaşdıran 63 maddəlik bu sənəd siyasi fikir tarixində ilk liberal sənədlərdən biri kimi dəyərləndirilir. Bu toplu yeni hakimiyyət tipinin-konstitusiyalı hakimiyyətin əsasını qoydu. 1689-cu il inqilabı nəticəsində isə İngiltərədə yeni dövlət quruluşu-konstitusiyalı monarxiyanı bərqərar edən növbəti liberal sənəd-*«Hüquqlar Haqqında Bill»* qəbul edildi. Bu zamandan etibarən qanunverici hakimiyyətin-parlamentin fəaliyyət tarixi başlanır.

Sonrakı dövrlərdə liberal görüşlər xeyli təkmilləşdirildi. Ş. Monteskyö «təmsiledici demokratiya» (seçilmiş nümayəndələrin formalaşdırdığı xalq hakimiyyəti), T. Hobbs, və J. J. Russo ictimai müqavilə (könüllü müqavilə əsasında yaranan dövlət), C. Lokk hakimiyyətin bölünməsi prinsiplərini hazırladı. Az sonra ABŞ Konstitusiyası meydana gəldi və ictimai-siyasi fikri inkişaf etdirdi, siyasi praktikaya örnək təcrübələr verdi. XX əsrdə liberalizmlə bağlı yeni-yeni nəzəriyyələr meydana gəldi.

Hazırda bir çox siyasi fikir adamları liberalizmin bir neçə tipinin olduğunu iddia edir: iqtisadi liberalizm, yəni iqtisadiyyatın liberallaşmasına xüsusi önəm verənlər; hüquq dövləti tərəfdarlırı; böyük çoxluğa maksimal imkanlar yaradan radikal liberalizm; sosial liberalizm tərəfdarları və s.

XX əsrdə yeni bir konsepsiya-*neoliberalizm* meydana gəldi. Bu konsepsiya tərəfdarları liberal iqtisadiyyatın (azad bazar iqtisadiyyatının) inkişafını, dövlətin iqtisadiyyata müdaxiləsinin azaldılmasını zəruri sayırlar. Neoliberalizmin görkəmli təmsilçiləri Avstriya iqtisadçısı Fridrix fon Hayek (1899-1992), ABŞ iqtisadçısı Milton Fridmandır (1912). F. Hayek bildirir ki, fərd iqtisadi cəhətdən azad deyilsə, siyasi cəhətdən də azad ola bilməz. Demokratiya «fərdiyyətçi institut» kimi xarakterizə olunur və şəxsi mülkiyyət, azad rəqabət prinsiplərinə dayanır. «Cəmiyyətə kollektivçilik ovqatı

hakim kəsiləndə, demokratiyanın sonu çatır». M. Fridman da «Kapitalizm və azadlıq», «Seçki azadlığı» əsərlərində F. Hayekin ideyalarını inkişaf etdirərək yazır ki, müasir liberalizmin məqsədi dövlət sərhədlərinin aradan qaldırılmasıdır. Bu kapitalist bazarının öz özünü tənzimləməsinə, iqtisadi azadlıqların çiçəklənməsinə, iqtisadiyyatın effektliliyinin artırılmasına, nəhayət azad bazar seçiminə gətirib çıxarır.

Lakin heç də bütün neoliberallar dövlətə münasibətdə bu fikirləri bölüşmür. Yəni, barışdırıcı mövqedən çıxış edənlər də az deyil. Məsələ burasındadır ki, vaxtilə sənaye kapitalizmi çoxsaylı insanları «bazarın ümidinə» buraxdı və onlar bu şəraitə uyğunlaşa bilmədilər. Belə vəziyyət sinfi münasibətlərin kəskinləşməsinə və sosial gərginliyin artmasına gətirib çıxarır. Ona görə də neoliberalların bir qismi («sosial liberalizm», «ümumi rifah liberalizmi») insanların sosial müdafiəsi barədə fikirləşməyi zəruri hesab edir ki, belə mövqe dövlətin iqtisadiyyatın tənzimlənməsinə nisbi müdaxiləsinin məqbul sayıldığını deməyə əsas verir. Beləliklə, müasir liberalizmdə iki əsas cərəyan özünü büruzə verir. Onlardan biri tam mənada bazar azadlığını və dövlətin bu sahəyə müdaxilə etməməsi fikrini, digərləri isə daha böyük sosial ədalətin bərqərar olması üçün dövlətin sosial-iqtisadi proseslərə nisbi müdaxiəlsinin zəruriliyi fikrini müdafiə edir.

Son zamanlar qloballaşma tərəfdarları kimi də məhz daha çox liberallar çıxış edir. Frensis Fukuyama da liberalizmi ümumdünya dövlətinin qurulması barədə nəzəriyyə hesab edir.
İlk liberal partiya XIX əsrdə meydana gəlib. Liberal partiyalardan ən böyüyü və dünyada populyar olanı 1828-ci ildə ABŞ-da yaranan Demokratlar partiyası, 1832-ci ildə İngiltərədə fəaliyyətə başlayan liberallar partiyasıdır.
Hazırda dünyanın 89 ölkəsində 100-ə yaxın siyasi partiya liberalizm ideologiyasının daşıyıcısıdır

*Azərbaycan siyasi fikir tarixində liberal görüşlərin təzahürlərinə XIX əsrin ikinci* yarısında M. F. Axundovun yaradıcılığında təsadüf olunur. M. F. Axundov yazırdı: «Cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə və onları ata-babasının qərar verdikləri şeylərlə kifayətlənməyə və bunlardan kənara çıxmamağa məcbur edərsə, bu halda onlar dəyirman atlarına bənzərlər».

1918-ci il mayın 28-də Tiflisdə müstəqilliyi elan olunan Azərbaycan Xalq Cumhuriyyətinin «İstiqlaliyyət Bəyannaməsi»ndə də liberal dəyərlərə önəm verilirdi:

«...Azərbaycan Xalq Cümhuriyəti millət, din, sinif, silk və cins fərqinə varmadan hüdudu daxilində yşayan bütün vətəndaşların siyasi və vətəndaş hüquqlarını təmin edir; AXC ərazisi daxilində yaşayan bütün millətlərə sərbəst inkişaf üçün geniş imkan verir...”

- **Konservatizm**

«Konservatizm» terminini ilk dəfə fransız yazıçısı Fransua Şatobrian (1768-1848) işlədib. Liberalizm kimi konservatizm də müasir burjua siyasi fikririnin əsas cərəyanlarındandır. Bu təlim, bir növ, Fransa burjua inqilabına cavab olaraq meydana gəlmişdi. Konservatizmin tərəfdarları burjua liberalizminin əsasında dayanan «təbii hüquqlar» və «ictimai müqavilə» ideyalarına qarşı çıxırdılar. Onu da qeyd edək ki, ilkin dönəmlərdə konservaizm təliminin yaradıcılarının görüşlərində ziddiyyətli məqamlar az deyildi. Fransa konservatoru Jozef de Mestra aşırı dərəcədə reaksionist idi, yeni meydana gələn ideyalara kəskin reaksiya verirdi. İngiltərəli Edmund Berk isə konservatizmin həyat qabilli bir təlim olmasını istəyir, «əskisi kimi qalmaq üçün dəyişmək lazımdır» prinsipindən çıxış edirdi.

Bir ideologiya və nəzəriyyə olaraq konservatizmin əsas mahiyyətini aşağıdakı prinsiplər müəyyənləşdirir: insan həyatının mənası aktiv fəaliyyətdə deyil, daxildəki dini

barışıqdadır; fərd atdığı hər bir addımını mövcud qaydaqanunlara və adətlərə uyğunlaşdırmalıdır; cəmiyyət müqavilə ilə deyil, Allahın kəraməti ilə yaranır («hər bir millət özü üçün, Allah hamı üçün»); vətəndaş cəmiyyətinə münasibətdə dövlət mənəvi-dini əsaslara malik olan ikinci amildir; siyasət əxlaqa tabedir; insan hüquqlarının ən əsası mülkiyyət hüququdur.

Konservatizmdə önəm verilən əsas dəyərlərdən biri *ənənəviçilikdir*. Bu tarixin sınaqlarından keçən və cəmiyyətdə stabilliyin, təhlükəsizliyin möhkəmlənməsinə kömək edən ənənələrin qorunmasını özündə ehtiva edir. Digər bir mərkəzi dəyər sayılan *praqmatizm* isə parktiki tələblərə uyğun davranmağa əminliyi ifadə edir. Konservatizmdəki digər bir dəyərə görə *insan kamil* deyil. Eqoizm, xəsislik, hakimiyyət hərisliyi, şöhrətpərəstlik onların təbii əlamətləridir və cəmiyyətdə müxtəlif problemlər yaradır. Ona görə də nizam-intizam üçün dövlət aparatı formalaşdırılmalı, qayda-qanunlar güclü, cəzalar sərt olmalıdır. Digər bir dəyər sayılan *ierarxiyaya* görə insanlar təbii və sosial imkanlar baxımından bərabər deyillər. Bu səbəbdən də cəmiyyətdə tabeçilik, ierarxiya olmalıdır. *Hakimiyyət və nüfuz* isə aşağıdan deyil yuxarıdan gəlir. Bu dəyərin məntiqinə görə hakimiyyətə əsl liderlər gəlir və onlar həmin keyfiyyətə malik olmayan digər insanları idarə edirlər. O da qeyd olunur ki, nüfuz və liderlik bu gün bilik və təcrübə əsasında qazanılır. *Şəxsi mülkiyyət* konservatizmdə ən əhəmiyyətli dəyərdir. O insanlara azadlıq, müstəqillik və təhlükəsizlik gətirir.

Müəllifi Bencamin Dizraeli (1804-1881) olan paternalist konservatizmdəki ideyalar da kifayət qədər maraqlıdır. B. Dizraeli İngiltərədəki varlı, həm də idarəedici qüvvəni kasıblara əl tutmağa çağırır, ölkəni iki qütbə parçalayan yoxsulluğu aradan qaldırımağa can atırdı. O deyirdi ki, belə sosial ədalətsizlik və parçalanma yuxarıdan öz həllini tapmasa, aşağılar nə isə edəcək, başqa sözlə inqilab baş verəcək. Sosial

ədalətin bərqərar olması «vahid millətin» formalaşması deməkdir

Sonrakı mərhələdə konservatizm xeyli inkişaf etdi, azadlıq, təhlükəszlik («dövlətin stabilliyi haqqında yox, daha çox dövlətin müdafiəsi haqqında fikirləşmək lazımdır») barədə fikirlər təkmilləşdirildi. İkinci cahan savaşından sonra konservatizm ideologiyasına dayanan çoxsaylı partiyalar meydana gəldi və bu partiyaların böyük əksəriyyəti 1970-80-ci illərdə hakimiyyətə gəldi. Bir cərəyan kimi *Neokonservatizm* meydana gəldi. Onlara bəzən antietatistlər də deyilirdi. Yəni neokonservatorlar liberallar kimi dövlətin iqtisadi azadlıqlara müdaxiləsinin maksimum azaldılmasını istəyirdilər. Neokonservatorlar etnik, milli münasibətlərə yeni baxışlar sistemini ortaya qoydular. Onlar iddia edirdilər ki, etnik və irqi mənsubiyyətdən asılı olmayaraq hamı üçün eyni şərtlər mövcud olmalıdır. Ancaq nəzərə alınmalıdır ki, milli azlıqlarla əsas etnosun başlanğıc imkanları bərabər deyil və buna görə də dövlət milli münasibətlərə müdaxilədən imtina etməməlidir. Eyni zamanda bu müdaxilə hansısa etnosu himayə xarakteri daşımamalıdır. Azlıqlara biznes sahəsində, işlə təmin olunmaqda şərait yaradılmalıdır. Bu istiqamətdə konservatizmlə liberalizm arasında bəzi yaxınlaşmaların ortaya çıxdığı da müşahidə olunur.

Konservatorların demokratiyaya baxışları da özünəməxsusdur. Onlar bildirirlər ki, demokratiyanın həddi olmalıdır və bu hədd insanların siyasi cəhətdən aktivləşdiyi zamanlarda müəyyənləşdirilməlidir. Bu görüşlər müasir liberalizmdə də özünü büruzə verir.

Konservatizm və liberalizmin oxşar, fərqli cəhətləri:

*Oxşar cəhətlər:*

- şəxsi mülkiyyət hüququnun qorunması;
- qanunların aliliyinin təmin edilməsi;
- demokratiyanın bərqərar edilməsi və inkişafı;

- dövlətin iqtisadiyyata müdaxiləsinin minimuma endirilməsi;

- xırda və orta sahibkarlığın inkişaf etdirilməsi və s.

*Fərqli cəhətlər:*

- konservatorlar liberallardan adət-ənənələrə sadiqliyi ilə ilə fərqlənir;

- konservatorlar insanların bərabərliyi dedikdə hüquq bərabərliyini nəzərdə tuturlar;

- liberallarla müqayisədə millətçidirlər;

- hökumət aparatının sadələşdirilməsində radikaldırlar;

- ailəni cəmiyyətin təməl daşı hesab edir, onu qorumağa çalışırlar;

- təhsildə milli və tarixi varisliyi mühüm hesab edir, onu qorumağa çalışırlar.

Konservatorlar sosial-demokratların əksinə olaraq fikirləşirlər ki, «dövlətin zəngin olması millətin zəngin olması demək deyil, millətin zənginləşməsi dövlətin zənginləşməsidir».

Totalitar və avtoritar düşüncə daşıyıcılarından fərqli olaraq konservatorlar bu qənaətdədirlər ki, «millət dövlət üçün deyil, dövlət millət üçündür».

Türkiyədəki konservativ partiya sayılan ANAP-ın baş şüarında da həmin fikir daha sadə və anlaşıqlı ifadə olunurdu: «Dövlət millətin əfəndisi deyil, millət dövlətin əfəndisidir».

Konservatorlarda sıralama belədir: millət, vətəndaş, dövlət. Liberallarda: fərd, millət, dövlət.

Dünyanın aparıcı mühafizakar partiyaları aşağıdakılar sayılır: Respublikaçılar (ABŞ), Mühafizəkarlar (İngiltərə), Xristian Demokratlar (Almaniya) Ədalət və Kalkınma Partiyası (Türkiyə) və s.

- **Sosializm və sosial-demokratiya**

Sosialistlərə görə tarixin hərəkətverici qüvvəsi istismar olunan siniflərlə istismar edənlər arasındakı mübarizədir. Bu

ideologiyanın məntiqi deyir ki, kommunist cəmiyyətində insan hüquqları tam mənasını itirir. Belə ki, hər bir fərd ümumi mənafe naminə öz hüquqlarından keçir. 1917-ci ildə V. Lenin tərəfindən bu nəzəriyyə praktikaya tətbiq edildi. Bütün şəxsi mülkiyyət dövlətin əlinə keçdi. 1991-ci ildə isə sosializmin dayağı sayılan Sovetlər Birliyi çökdü və bu ideologiyanın qeyri-praktikiliyi və ciddi yanlışlıqları ortaya çıxdı.

Sosializmə kommunistlərlə sosial-demokratlar fərqli yanaşır.

«Sosializm nədir?» sualına kommunist belə cavab verir: Sosializm tarixin mərhələsidir. Tam ictimailəşdirilmiş və vahid plan əsasında idarə olunan, bütün imtiyazların ləğv edildiyi ictimai-siyasi quruluşdur.

Sosial-demokratın cavabı: Sosializm cəmiyyətin öz təcrübəsi və inkişaf səviyyəsindən asılı olaraq müxtəlif formalarda təzahür edən təşkilatlanma prinsipidir. Yəni insanlar bərabər hüquqlara malikdirlər və həyatın bütün sahələrində iştirak edirlər.

«Dövlət və demokratiya nədir?» sualına kommunistin cavabı: dövlət iqtisadi baxımdan hakim olan sinfin hökmranlıq alətidir.

Sosial-demokratın cavabı: dövlət bütün cəmiyyətin tələblərini ödəməyə borclu olan aparatdır. Demokratiya sosializmə aparan yeganə yoldur, sosializmin üzvü tərkib hisəsidir.

Son dövrlərəd sosial-demokratlar iqtisadi və siyas hadisələrin təhlili üçün yeni yanaşmalar işləyib hazırladılar. Bu yanaşmalar 1989-cu ildə qəbul olunan «Prinsiplərin Berlin proqrammı» adlanan sənəddə öz ifadəsini tapır. Sənədin əsas ideyası sosial-demokratiyanın təkmilləşməsinin tərəfdarlarının daha geniş birliyinə nail olmaqdır. Proqramda təkcə Almaniyanın daxili problemlərinin deyil, bütövlükdə beynəlxalq məsələlərin həlli yollarından söhbət açılır. Bunları aşağıdakı kimi ümumiləşdirmək olar:

- qloballaşan dünyada cəmiyyətin ictimai və ekoloji məsuliyyəti;

- beynəlxalq təhlükəsizlik probleminin həlli;

- üçüncü dünya ölkələrinin inkişafına imkan yaradan ədalətli dünya iqtsadiyyatı;

- sosial bərabərlik (başlıcası qadın və kişi bərabərliyi) probleminin həlli;

- əhalinin həyat şəraitinin yaxşılaşdırılması və s.

Müasir sosial-demokratların əsas devizi azadlıq və insan ləyaqəti, insanlararası münasibətlərdə humanist prinsiplərin daha da inkişafıdır. «Sosial-demokratiyada hər bir insan azadlıq şəraitində öz şəxsiyyətini inkişaf etdirmək imkanlarına malik olmalıdır».

Hazırda dünyada sosial-demokratiya ideologiyasına dayanan xeyli partiya fəaliyyət göstərir və bunların əksəriyyəti Şimali Avropa ölkələrində hakimiyyətdədirlər.

- **Radikal ideologiyalar**

Radikalizm-*radiks* sözündən götürülüb, *əsas, kök,* mənasını verir. Siyasi radikalizm qəti hərəkətlərin və metodların tətbiqinin tərəfdarıdır. Radikallar hər şeyin kökündən, əsasından, eyni zamanda, dərhal dəyişdirilməsinə çalışırlar. Radikalizm ən müxtəlif şəraitlərdə meydana gəlir və mövcud quruluşun sərt üsul və metodlarla dəyişdirilməsini hədəf seçir.

*Sağ radikallar*

*Faşizm*. Latınca *faşio* sözündən götürülüb *dəstə, birlik* deməkdir. Faşistlər 1933-cü ildə Almaniyada hakimiyyətə gəldi. 1936-cı ildə Avropada artıq 20 ölkədə 49 faşist təşkilatı fəaliyyət göstərirdi. Bu radikal millətçiliyin tüğyan etdiyi və bəşəriyyəti ikinci dünya müharibəsinə sürüklədiyi bir dövr idi. Faşizm millətin qan ümumiliyinə əsasən ali və əbədi varlıq olmasına inanır, sinfi mübarizəni qəti şəkildə rədd edir, milli mübarizəni, mənafe və maraqları hər şeyin fövqünə qaldırırdı.

*Nasionalizm.* Bu millətçilik də adlanır. Bir millətin gücləndirilməsinə yönəlik ideoloji sistem kimi düşünülüb. Rus filosofu N. Berdyayev millətçiliyi dağıdıcı, irticaçı, həm də milli tərəqqiyə aparacaq növlərə bölürdü.

*Sol radikallar*

*Anarxizm.* Bu yunan sözüdür, *hakimiyyətsizlik* deməkdir. Siyasi cərəyan kimi XIX əsrin 40-70-ci illərində formalaşmışdır. Anarxistlər dövləti inkar edib («hər şeyi təbii axarına buraxmaq lazımdır») onun yerinə «eqoistlər ittifaqını», kollektiv idarəçiliyi qoymaq istəyir, pulun ləğv olunmasına tərəf çıxıb, əmtəə mübadiləsi əsasında şəxsin dövlətdən asılılığının ortadan qaldırılacağına inanırdılar. Müasir anarxistlər inqilabın son məqsədini rədd edir, təxribatları ön plana keçirirlər.

*Bolşevizm* 1903-cü ildə meydana gəlib. Onun banisi V. İ. Lenin hesab edirdi ki, gerçəkliyi sadə təsəvvür etməklə inqilaba doğru sürətlə irəliləmək mümkündür. Bolşeviklər inqilablar yolu ilə sosializmin dünya sisteminə çevriləcəyinə əmin idilər.

*Maoizm* XX əsrin 50-ci illərində Çində yarandı. Cəmiyyətin zorakı yolla dəyişdirilməsi, kazarma sosializminin yaradılması, Çinin dünya dövlətinə çevrilib dünya üzərində hegemonluq etməsi Maoizmin əsas ideyaları idi.

*Siyasi ekstremizm* Latın sözü olub qatı, ifrat mənasını verir. Separatçılıqla, terrorla qarşıya qoyulan məqsədlərə nail olmaq siyasi ekstremizmin əsas iş metodlarıdır.

- **Siyasi münasibətlərin dində təzahürü**

Din siyasətdə dərin köklər salıb. Bu, ilk növbədə hər iki sahədə hakimiyyətin, məcburiyyətin olması, onun təmin edilməsi mexanizmlərinin mövcuduluğu ilə bağlıdır. Dini münasibətlər özündə hakimlik və tabeçilik ierarxiyasını ehtiva edir: allah külli-kainatın hakimi, insanlar isə ilahi (sakral) hökmə tabe olanlardır. Siyasi, hüquqi münasibətlər dini

təşkilatların strukturlarında həlledici rola malikdir. Dini təşkilatlar xüsusi normalara, ayinlərə əməl olunması ilə, müəyyənləşdirilmiş hüquqlarla, qaydalarla qurulur. Təşkilatın qurulma prinsipləri münasibətləri və subordinasiyanı müəyyənləşdirir. Siyasi təşkilatlar da, demək olar ki, dini təşkilatların qurulduğu prinsiplərə oxşar prinsiplərlə qurulur. Həm dini, həm də siyasi təşkilatlar müəyyən ideyalar, dəyərlər sistemınə söykənir, konkret ideologiyalara əsaslanırlar. Hər iki sahə həm də ona görə bir-birlərinə yaxındır ki, qurumlar qarşılarına konkret məqsədlər qoyur və onların həyata keçirilməsi uğrunda mübarizə aparır, öz təbliğatlarını qururlar.

- **Dinin siyasətə təsiri**

Dinin siyasətə təsiri böyükdür. Bir çox imperiyalar dinin gücü ilə yaranıb və dinin təsiri ilə də dağılıb. Ərəb xilafəti, Osmanlı imperiyası, Əmir Teymurun qurduğu imperiya İslam dininin təsiri ilə yaranıb, Sasanlılar imperiyası, Bizans imperiyası dinin təsiri ilə dağılıb tarix səhnəsindən silinib. Eyni zamanda, din bir sıra xalqların öz varlıqlarını qoruyub saxlamasında həlledici rol oynayıb. Məsələn, məhv olma təhlükəsi ilə üzləşən yəhudilərin bir millət kimi öz mövcudluqlarını qoruyub saxlamasında, sonralar isə müstəqil dövlət qurmalarında İudaizmin rolu əvəzsizdir. Tarixdə dinlərə, onun hakimiyyətlərə, insan cəmiyyətlərinə və fərdlərə göstərdiyi təsirlərə münasibətlər də birmənalı deyil. Alman filosofu F. Nitsşe yazırdı ki, xristianlıq «tövbə» deyilən bir şeyi icad etməklə insanları kölə halına saldı, Avropanın sərt cəngavər ruhunu sındırdı. O, xristianlığı Avropanı sındırmaq üçün yəhudilərin ortaya atdığı ziyanlı bir ideologiya hesab edirdi. Protestantlarda düşüncə bir qədər fərqlidir. Protestant əxlaqına görə insan ona görə var-dövlət əldə etməyə çalışmalıdır ki, Tanrıya məmnuniyyətini və möminliyini ifadə etsin. Bu ibadətin bir formasıdır. Protestant olmayanlar fərqli fikirləşir. Onlar kapital toplamağın əsasında hərisliyin, tamahkarlağın

dayandığını düşünürlər. Bank sistemi maliyyənin şah damarıdır. Lakin İslam aləmində sələmə münasibət neqativdir. İslam ölkələrinin əksəriyyətində fəaliyyət göstərən banklar sələmsiz çalışır. Doğrudan da İslam ölkələrində sələm rəsmən qadağan olunub. Məsələn, Pakistanın şəriət məhkəməsi sələmi islama zidd sayaraq, onu qəti qadağan edib. Bəzi mütəxəssislər fikirləşir ki, İslam dünyasını tərəqiddən saxlayan amillərdən biri də budur.

Din hazırda bir sıra ölkələrin siyasi həyatına ciddi təsir edən əsas amillərdəndir. İnkişaf etmiş xristian ölkələrinin özündə də dinin siyasi hakimiyyətlərə təsiri açıqca hiss olunur. Bir sıra ölkələrdə isə dini ideologiyaya dayanan siyasi partiyalar fəaliyyət göstərir. Bundan əlavə dini zəmində formalaşan beynəlxalq təşkilatlar da var. Məsələn, İslam Konfransı Təşkilatı, İslam liqası, Ümumdünya Kilsə Şurası, Ümumdünya Buddist Qardaşlığı, Ümumdünya Sionist təşkilatı və s. Dünyada çoxsaylı institutlar dinin siyasətə təsirini öyrənməklə məşğuldur.

Din və siyasətin qarşılıqlı təsirinə dəlalət edən əsas amillərdən biri də dini zəmində baş verən münaqişələr, müharibələrdir. Hazırda əsasında dini motivlər dayanan terrorçuluq fəaliyyətləri də dünyanı narahat edən məsələlərdəndir.

Müasir dünyada təhlükəli tendensiyalardan biri də İslamla terrorun eyniləşdirilməsi cəhdləri, intensiv şəkildə «islam terrorizmi» termininin işlənməsidir. Bu İslam dünyası ilə Xristian dünyası arasında soyuqluq yaradır, dinlərarası dialoqu çətinləşdirir, qarşılıqlı inamsızlığı gücləndirir. Dindən siyasi alət kimi, terrorçuluq vasitəsi kimi istifadə etmək cəhdləri də, İslamı terrorçuluqla eyniləşdirmək cəhdləri də eyni dərəcədə ziyanlı və təhlükəlidir. Onu da unutmaq olmaz ki, dini zəmində münaqişələr, terror hərəkətləri Xristian dövlətlərinin özündə də yox deyil. Sadəcə olaraq bu cür neqativ əməlləri də «xristian terrorizmi» kimi qələmə vermək yox, onu

aradan qaldırmaq, kollektiv iradə nümayiş etdirmək tələb olunur.

- **Vicdan, fikir azadlıqlarının funksiyaları**

İnsan haqları barədə ümumi deklarasiya (10 dekabr 1948-ci il), Mülki və Siyasi haqqlar barədə beynəlxalq pakt (16 dekabr 1996-cı il) və b. beynəlxalq sənədlərdə vicdan və fikir azadlıqlarının əsas prinsipləri təsbit edilib.

Fikir azadlığı fərqli fikirləşməyi, danışmağı, istədiyi kimi təhsil almağı, mədəni, siyasi həyatda sərbəst iştirak etməyi özündə ehtiva edir.

Vicdan azadlığı sərbəst dünyagörüşə malik olmaq (dini, yaxud ateist), başqa cür düşünənlərə tolerant münasibət bəsləmək, konsensusa hazır olmaqdır. Müəyyən yaş həddinə qədər insan bu cür azadlıqlara malik ola bilmir. İnsan hansısa görüş sistemini təsir altında qəbul edəndə (hipnoz, psixotron təsir, ideoloji təzyiq və s.) azadlığı məhdudlaşdırılır və bu vicdan azadlığı sayılmır.

Din azadlığı istənilən dini qəbul etmək və ona ibadət etməkdir. Vətəndaşların yuxarıda göstərilən azadlıqları dünya dövlətlərinin əsas qanunlarında təsbit olunmuşdur. Beynəlxalq tələblərdən biri də odur ki, milli konstitusiyalarda təsbit olunan müddəalar ümumdünya sənədlərinə zidd olmasın.

Azərbaycan Konstitusiyasının 47 və 48-ci maddələrində deyilir:

*«Fikir və söz azadlığı*

- Hər kəsin fikir və söz azadlığı var.

- Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.

- İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata, təbliğata yol verilmir.

*Vicdan azadlığı*

- Hər kəsin vicdan azadlığı var.

- Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ var.

- Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

- Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır».

## V. Siyasi hakimiyyət

- *Siyasi hakimiyyət anlayışı*
- *Hakimiyyət bölgüsü*
- *Hakimiyyət formaları*
- *Legitimlik*

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,1995
2. Milli məclisə seçkilərin hüquqi əsasları. Bakı, 2000
3. Siyasi biliklərin əsasları. Bakı,1999
4. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
5. Гаджиев К. С. Введение политическую науку. Москва, 1997
6. Varma. S.P. Modern politikal theories. Dehli 1999
7. Лавриенко В.Н. Политология. Москва, 2006
8. Mümtazer Türküne. Siyaset. Ankara, 2011
9. Fatmagül Bektay. Politikanın Çağrısı. İstanbul Bilgi İniversiteti, 2010
10. Jain M.P. Political theories. Kaveri Printers ltd., New Dehli, 1993


- **Siyasi hakimiyyət anlayışı**

***Hakimiyyət müəyyən sosial şərtlər daxilində bir nəfərin öz radəsini başqalarına qəbul etdirmək bacarığıdır (M. Veber)***

Cəmiyyət təbiətdən sosial təşkilatları, sosial nizamı ilə fərqlənir. Əgər qarşılıqlı münasibətlər şəraitində sosial nizam yaranırsa, deməli hakimiyyət var və həmin nizamı yaradan da odur.

Sosial-siyasi fikir tarixinin qədimliyinə baxmayaraq, hakimiyyət məsələsinə hələ də hamı tərəfindən məqbul sayılan ümumi bir yanaşma yoxdur. Müxtəlif siyasi məktəblər

məsələnin bu və ya digər cəhətlərinə xüsusi diqqət yetirir. Marksizmdə hakimiyyət müəyyən bir sinfin iqtisadi ağalığı hesab edilir. Biheviorizm (Q. Lassuel) hakimiyyət anlayışını subyektiv motivasiyalarla, maddi rifaha yetişmək məqsədiylə ayrı-ayrı fərdələrin ona can atmaları ilə əlaqələndirir. B. Rassel hakimiyyəti qarşıya qoyulan məqsədə çatmaq üçün bir vasitə kimi xarakterizə edir. Sistem yanaşma tərəfdarları hakimiyyəti sosial əhəmiyyətli məqsədlərə çatmaq üçün ictimai resursların səfərbərləiyə alınması qabiliyyəti kimi dəyərləndirir. Z. Freyd və E. Fromm kimi psixoanalitiklərə görə hakimiyyət fərdin natamamalıq kompleksini ya hökmranlıq formasında (sadizm), ya da tabeçilik formasında (mazoxizm) qeyri-şüuri dəf etmə cəhdidir.

Hakimiyyətin politoloji tərifi aşağıdakı kimidir: *hakimiyyət bir insanın, qrupun müxtəlif vasitələrlə (hüquq, nüfuz, iradə, məcburiyyət) başqalarının davranış və fəaliyyətlərinə həlledici təsir göçtərmək hüququ və bacarığıdır.*

Məsələyə bir az konkret yanaşılarsa, hakimiyyət:

- başqalarına təsir göstərməkdir;
- müəyyən məqsədlərə, nəticələrə nail olmaqdır;
- güc də daxil olmaqla mümkün vasitələrdən istifadə etməkdir;
- başqalarının davranışını dəyişən və nizamlayan xüsusi tip fəaliyyətdir;
- idarə edən və idarə olunan arasında münasibətlərin xüsusi növüdür və s.

Sosial mülahizələrə görə hakimiyyətin dörd növü var: sinfi hakimiyyət, zümrə hakimiyyəti, qrup hakimiyyəti, fərdi hakimiyyət. Mahiyyətinə görə isə hakimiyyət-ailə, ruhani, iqtisadi, siyasi, hərbi, informasiya və s. hakimiyyətlər kimi xarakterizə olunur.

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, cəmiyyət olan yerdə mütləq hakimiyyət olur. Eyni zamanda, hakimiyyət tabeçilik olan yerdə meydana gəlir. Tabeçilik olmayan yerdə

hakimiyət yoxdur. Tabeçilik anlayışı isə bir sıra mənalar verir: məcburi, könüllü, şüurlu, fanatik tabeçilik və s.

Siyasətlə siyasi hakimiyyət bir-birinin eyni deyil. Siyasət hakimiyyətə, insan haqlarına və azadlıqlarına, ideyalara, dəyərlərə hər hansı bir münasibətə, siyasi hakimiyyət isə onun daşıyıcılarına və subyektlərinə diqqəti cəlb edir.

Qədim Afina reformatoru Solon hesab edirdi ki, siyasət təkcə «mümkün olanı əldə etmək» sənəti deyil, həm də «bir yerdə yaşamağı bacarmaq» sənətidir. K. Popper isə hesab edirdi ki, siyasi hakimiyyətin tarixi, əsasən beynəlxalq cinayətlər və kütləvi qətllər tarixidir. Bu tarixi orta məktəblərdə öyrədirlər və hökmdarları qəhrəmanlar kimi təqdim edirlər. Beləliklə, siyasi hakimiyyət tarixin nüvəsinə çevrilir.

*Siyasi hakimiyyət- sinfin, qrupun, fərdin siyasətlə, siyasi, hüquqi normalarla öz iradəsini həyata keçirmə vasitəsidir.*

Daha konkret ifadə olunarsa, siyasi hakimiyyət:

- ictimai xarakter daşıyır, böyük qrupların maraqlarını ifadə edir; çünki siyasət milyonlarla insan olan yerdə hərəkətə gəlir;
- siyasi institutların fəaliyyəti ilə ifadə olunur;
- peşəkar idarəçilik əməyi ilə məşğul olan xüsusi qrupların hakimiyyət iddialarında, iradələrində təzahür edir;
- siyasi qərarların hazırlanması, qəbulu və həyata keçirilməsi prosesində təzahür edir;
- insanlara inandırma, nüfuz, ənənə, emosiya, məcburiyyət, güc vasitəsiylə təsir göstərir.

Siyasi hakimiyyət dövlət hakimiyyətindən nə ilə fərqlənir?

*Dövlət hakimiyyəti-xüsusi məcburiyyət aparatına söykənən və cəmiyyətin bütün vətəndaşlarına yayılan ictimai hakimiyyət formasıdır, siyasi hakimiyyətin nüvəsidir.* Siyasi hakimiyyətsiz dövlət hakimiyyəti olmur. Dövlət hakimiyyətini, aparatını yaradan, onu idarə edən, istiqamətləndirən siyasi hakimiyyətdir.

Siyasi hakimiyyətin subyektləri və obyektləri hansılardır? Siyasi hakimiyyətin subyektləri ayrı-ayrı fərdlər, idarəedən oliqarxiya, siyasi partiyalar, millət və s.-dir. Zənginləşmək, rifaha qovuşmaq, əlaqələr yartmaq məqsədilə hakimiyyətə can atmaq siyasi hakimiyyət subyektlərinin xarakterik xüsusiyyətləridir. Subyektlər vaxtı-vaxtında düzgün qərarlar qəbul etməyə və başlanan işi axıra çatdırmağa qadirdirlər. Politologiyada siyasi hakimiyyət subyektləri müxtəlif cür təsnif olunur. Bu təsnifatların içərisində nisbətən populyar olanı siyasi hakimiyyət subyektlərini iki qismə ayırır: kollektivlər, yəni siyasi partiyalar, deputat qrupları və başqa birliklər; fərdlər, yəni siyasi elitlər və onların liderləri, hakimiyyətə sahib olanlar və siyasətdə müəyyən rol oynayanlar.

Siyasi hakimiyyətin obyektləri, həmin hakimiyyətin tətbiq edildiyi şəxslər və sosial qruplardır. Başqa sözlə, siyasi hakimiyyətin subyektləri cəmiyyətin içərisindən çıxır. Cəmiyyətin fəal bir hissəsi siyasi hakimiyyətə sahib oduqdan sonra, bu hakimiyyətin idarə etdiyi digər hissə, yəni tabe olan çoxluq siyasi hakimiyyətin obyekti olur. Necə fəaliyyət göstərməyi öz obyektlərinə hakimiyyət diqtə edir. Siyasi hakimiyyətin subyekt və obyektləri arasındakı fərq nisbidir və konkret siyasi şəraitdən asılıdır. «Siyasətin subyektləri» və «hakimiyyətin subyektləri» anlayışları da bir-birinin eyni deyil. Məsələn, parlamentdəki müxalifət qrupu siyasətin subyektidir, ancaq prezident strukturundan fərqli olaraq bu qrup hakimiyyətin subyekti deyil. Cəmiyyətdəki istənilən sosial qrup, zümrə, fərd siyasi hakimiyyətin potensial subyektidir.

- **Hakimiyyət bölgüsü**

Hakimiyyət bölgüsü ideyası nəzəriyyə şəklində XVII əsrdə formalaşdı. Dövlət hakimiyyətinin bölünməsi və onların qarşılıqlı münasibətləri məsələsi C. Lokkun ictimai müqaviləsində, «qanunverici hakimiyyət alidir, qalanları isə cəmiyyətin hansısa üzvlərinin şəxsində bu hakimiyyətdən

yaranmalı və ona tabe olmalıdır» şəklində ifadə olunur. Sonralar bu ideyanı Ş. Monteskyö bir qədər də təkmilləşdirərək, hakimiyyət qanadlarının bir siyasi orqanda birləşdirilməsinin azadlıq üçün təhlükəli olduğunu və belə vəziyyətin hakimiyyətdən sui-istifadəyə gətirib çıxardığını göstərdi. Ş. Monteskyö bildirirdi ki, hakimiyyət qanunverici, icra və məhkəmə hakimiyyətlərinə bölünməli və biri digərinə nəzarət etməlidir.

Müasir siyasi nəzəriyyələr də məhz bu fikri təsdiqləyir. Yəni demokratik hüquq dövlətində hakimiyyətin üç qanadı bir-birindən asılı olmadan fəaliyyət göstərməli, aralarında qarşılıqlı tarazlıq bərəqərar olmalı, tərəflərdən hansınınsa monopoliyasına imkan verilməməlidir.

Platon ənənələrini müdafiə edən J. J. Russo isə əksinə, respublikanın və birbaşa xalq hakimiyyətinin tərəfdarı idi. Russoya görə «xalqın suverenliyi» şəxsi maraqdan üstündür, səsvermə birbaşa həyata keçirilməli və ayrı-ayrı fərdlər xalqın iradəsinə, başqa sözlə böyük çoxluğun qəbul etdiyi qanunlara tabe olmalıdır. Belə olan şəraitdə konkret fərd qanunverici hakimiyyət qarşısında gücsüz olur ki, bunu praktik olaraq Fransa inqilabı sübut etdi.

Qeyd edək ki, hər iki yanaşma hal-hazırda nümayəndəli və birbaşa demokratiya şəklində siyasi praktikada mövcuddur.

Qərbi Avropa dövlətlərinin siyasi təcrübəsinə əsaslı təsir göstərən hakimiyyət bölgüsü ideyası öz gerçək və qanuni ifadəsini ABŞ və Fransa konstitusiyalarında tapdı.

Müasir siyasi təcrübələr onu da göstərir ki, hakimiyyətlər arasında təkcə üfüqi deyil, şaquli (milli, yaxud mərkəzi, regional, yerli hakimiyyətlər) istiqamətdə də dəqiq bölgü aparılmalıdır. Çünki siyasi-hüquqi qərarların gerçəkləşməsində yerli və yaxud regional hakimiyyətin səlahiyyətinə aid olan məsələlər az deyil.

Konstitusiyaya görə Azərbaycan Respublikasında hakimiyyət bölgüsü aşağıdakı qaydada təsbit olunmuşdur:

1. *İcra hakimiyyəti*

Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur (fəsil-6, maddə-99). Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin təşkili məqsədiylə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır (maddə-114). Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır (maddə-114, bənd - 2).

2. *Qanunverici hakimiyyət*

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir (fəsil-5, maddə-81)

3. *Məhkəmə hakimiyyəti*

Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər (fəsil-7, maddə-125).

4. *Yerli özünüidaretmə*

Yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir (fəsil-9, maddə-142).

Bələdiyyələr seçkilər əsasında yaradılır. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

*Dördüncü hakimiyyət* adlandırılan media hakimiyyəti, bütün yuxarıda təsbit olunan hakimiyyət qanadları üzərində ictimai nəzarətin təmin olunması üçün ən effektli və demokratik vasitə sayılır.

- **Hakimiyyət formaları**

Hakimiyyətlər, başqa sözlə siyasi rejimlər aşağıdakı əlamətlərə görə müəyyənləşdirilir:

- idarəedən qrupun və ya liderin seçilmə prosedurlarına, dövlət orqanlarının fəaliyyət qabiliyyətinə görə;
- hakimiyyətin real bölüşdürülməsinə görə;

- hakimiyyət bölgüsünə əməl olunub-olunmamasına, siyasi hakimiyyətə kimin və necə nəzarət etməsinə görə;

- siyasi hakimiyyətin tətbiqi metodlarına görə (icazəli, yoxsa yasaqlı; inandıran, yoxsa məcbur edən);

- siyasi iştiraka əhalinin münasibətinə, bu münasibətin formalarına görə (aktiv, yoxsa passiv; mütəşəkkil yoxsa stixiyalı);

- cəmiyyətdə hüquq və azadlıqların durumuna görə;

- sosial və siyasi münaqişələrin həlli üsullarına görə;

- siyasi mədəniyyətin siyasi proseslərə təsir gücünə görə;

- cəmiyyətdə siyasi partiyaların mövcudluğuna, onların dövlətlə münasibətlərinin məzmun və xarakterinə, eləcə də müxalifətin statusuna görə;

- ordunun cəmiyyətdə status və roluna görə:

- medianın hüquqi və siyasi statusuna görə müəyyənləşir.

**Siyasi rejimlərin növləri:**

1. *Totalitar siyasi rejim*

Belə rejimlər, adətən inqilablar, hərbi çevrilişlər, cəmiyyətdaxili kəskin qarşıdurmalar, siyasi hakimiyyət böhranları, xarici təsirlər və təcavüzlər əsasında formalaşır. Rejimin əsas xarakterik cizgiləri aşağıdakılardır:

- hakimiyyət bir kütləvi partiyanın monopolyasına keçir və oliqarxiya prinsipi ilə qurulur, idarəçilik bir nəfər tərəfindən aparılır və dövlət institutlarının fəaliyyəti sıx şəkildə ona bağlanır;

- iqtisadiyyat tam mənada dövlətin nəzarətinə keçir, milliləşdirilir, şəxsi mülkiyyət ortadan qalxır;

- cəmiyyətin bütün sferalarına sirayət edən rəsmi dövlət ideologiyası formalaşdırılır;

- daxili siyasətin əsas aləti kimi ardıcıl repressiyalar həyata keçirilir;

- media üzərində texnoloji nəzarət həyata keçirilir;

- silahlı mübarizə imkanları tam nəzarətə götürülür, müxalifətin müqavimət imkanları, hətta onun mövcudluğu faktı ortadan qaldırılır.

Totalitar rejimlərdə insanların şüuruna «biz və onlar», «doğma və yad», «dost və düşmən», «ağ və qırmızı», «bizimlə olmayan bizə düşməndir», «təslim olmayanı məhv etməli», «insan yoxdursa, problem də yoxdur» düşüncələri hakim kəsilir, toplum «parlaq gələcək», «ən yaxşı ölkə» və s. ilğımlarıyla, yalançı illüziyalarla çaşdırılır.

Totalitar rejimlər XX əsrin məhsuludur. Bir çoxları bu qənaətdədir ki, totalitarizmin meydana gəlməsinə industrial inkişaf təkan verdi.

*2. Avtoritar siyasi rejim.*

Bir qayda olaraq avtoritarizm totalitarizmlə demokratiya arasında keçid rolunu oynayır. Ona bəzən totalitarizmin «yüngül» forması kimi də baxılır. Belə rejimlər siyasi hakimiyyətin tək əldə cəmləşdirildiyi, başqa institutların rolunun azaldıldığı, siyasi müxalifətin sıxışdırıldığı rejimlərdir. Ancaq şəxsiyyətin və cəmiyyətin siyasi sferadan kənar avtonomluğu saxlanır. Rejimin əsas xarakterik cizgiləri aşağıdakılardır:

- hakimiyyət bir şəxsin və yaxud qrupun əlində cəmləşir;
- hakimiyyətin bölüşdürülməsi prinsipinə etinasız yanaşılır;
- əsas təsir imkanları dövlətin əlində cəmləşdirilir;
- böyük repressiya apparatı olmur;
- fərdin və toplumun siyasi fəaliyyəti ciddi şəkildə reqlamentləşdirilir, məhdudlaşdırılır;
- vətəndaşlara dövlətin yasaq etmədikləri qaydalara uyğun davranmağa icazə verilmir;
- demokratiyanın bəzi elementləri saxlanılır (seçki, parlament uğrunda mübarizə, kütləvi aksiyalara məhdudiyyət qoyulmaqla icazə və s.);

- media nisbətən azaddır, ancaq senzura dövlətin sosial institutu kimi saxlanıla da bilər;

- vətəndaş davranışının tipik forması konformizmdir, siyasi mühitə biganəlik, bir sıra hallarda isə ikrah formalaşır;

- siyasi elita elektorat tərəfindən deyil, «yuxarı» tərəfindən, onun iradəsinə uyğun formalaşdırılır.

1980-1990-cı illərdə totalitarizmin ən böyük qalası olan SSRİ-nin çökməsi ilə post-sovet məkanında avtokratiyanın, kvazidemokratiyanın tipik nümunələri meydana gəldi.

*3. Demokratik siyasi rejim*

***Demokratiya xalq üçün, xalq tərəfindən formalaşan idarəçilikdir (A. Linkoln)***

Demokratiya mənbəyi xalq olan hakimiyyət formasıdır. Belə rejimlərdə insan geniş hüqüq və azadlıqlara sahibdir, dövlət və cəmiyyət işlərində aktiv iştirak edirlər. Demokratiyanın əsas xarakterik cizgiləri aşağıdakılardır:

- hakimiyyətin bölüşdürülməsi prinsipinə tam əməl olunur;

- seçkili orqanlar birbaşa, bərabər və gizli səsvermələr əsasında formalaşır;

- vətəndaş cəmiyyəti yüksək inkişaf dərəcəsinə malikdir, o dövlətə və bütün siyasi sistemə nəzarət edə bilir;

- dövlətin fəaliyyətində qeyri-siyasi metodlarla davranmaq istisna təşkil edir, kompromisslərlə, konsessusla işləmək prioritetdir, dövlət hüquq dövlətidir;

- çoxpartiyalılıq əsas şərt sayılır;

- leqal müxalifət var və o siyasi prosesin ayrılmaz tərkib hissəsidir;

- media senzuradan tam azaddır, hakimiyyəti tənqid edə bilər, ancaq onu zorla devirməyə çağıra bilməz;

- güc strukturları daxili və xarici təhlükəsizliyə cavabdehdir, siyasətdən kənardadır;

- hüquq və azadlıqlar bütün cəmiyyətə məxsusdur;

- plüralist siyasi mədəniyyət hakimdir;
- ideoloji plüralizm mövcuddur, rəsmi ideologiya yoxdur.

Demokratiyanın mahiyyəti xalqla hakimiyyət, eyni zamanda sosial qruplar və onların siyasi strukturlarının təmsilçiləri arasında daimi dialoqda təzaşür edir. İdealda dialoq cəmiyyətin inteqrasiya formasıdır. Müxtəlif iqtisadi, siyasi, informasiya və b. resurslara malik olduqlarından praktikada isə tərəflərin dialoq imkanları bərabər olmur.

Demokratiya bir siyasi rejim kimi sosiokulturoloji və psixoloji özəlliklərə malik olduğundan bir cəmiyyətdən digərinə mexaniki transformasiya olunmur. Demokratiyanın inzibati üsullarla və mexaniki şəkildə tətbiqi, çox keçmədən həmin siyasi məkanda özünün problemlərini döğurur.

Demokratiya insanların ardıcıl maariflənməsini, onların mədəni səviyyəsinin, siyasi şüurunun inkişafını, cəmiyyətdə birgəyəşayış normaları ilə bağlı mütərəqqi qaydalara və vərdişlərə yiyələnməsini tələb edir. O, həm də müsbət vərdişlərə yiyələnmiş insanın həyat tərzidir. Demokratik cəmiyyətdə insan dinamik və çevik olmalıdır. Bu cəmiyyət tənbəlləri, nadanları, ümummədəni səviyyəsi aşağı olan, yaranmış vəziyyətdən çıxış yolu tapmaqda çətinlik çəkən aciz insanları sevmir.

Kimi demokrat hesab etmək olar?
- polifonik təfəkkür tərzinə malik olan;
- tolerant;
- kompromisə və konsessusa meylli;
- konstruktiv və qurucu;
- öz yolunu dəqiq müəyyənləşdirən;
- hər zaman alternativliyi nəzərə alan;
- özünütəsdiqə tələbat hiss edən insan və s.

- **Legitimlik**

Legitimlik tatınca *«legis»* sözündən götürülüb, *«qanun»* deməkdir**.** *Legitimlik-hər hansı bir hərəkətin, şəxsin, hadisə və*

*faktın, hakimiyyətin ictimaiyyət tərəfindən tanınması, qəbul edilməsi prosedurası, siyasətdə legitimlik hakimiyyətin tanınması, ona bəraət qazandırılmasıdır.*

Legitimlik siyasət və hakimiyyəti təsdiqləyir, siyasi qərarları, siyasi strukturların yaranmasını, dəyişməsini, yeniləşməsini izah və müdafiə edir. Legitimlik razılaşmanı, bu razılaşmaya əməl etməyi, məcburiyyətsiz siyasi iştirakı müəyyənləşdirir, əgər bu alınmırsa mənsub olduğu gücə və digər vasitələrdən istifadəyə bəraət qazandırır. Demokratik proseduralar əsasında formalaşdırılan hakimiyyətlər legitim hakimiyyət sayılır. Güc əsasında formalaşdırılan hakimiyyət legitim deyil. Hakimiyyət aşkar (qanunidirsə) və legitimdirsə- möhkəm hakimiyətdir. Hakimiyyət aşkar, ancaq qeyri-legitimdirsə, deməli möhkəm hakimiyyət deyil. İranda şahın A. Xomeynini ölkədən qovması, sonra isə Xomeyninin qayıdıb şahı qovması deyilənlərə örnəkdir. Xomeyni qanuni şah hakimiyyətini nə üçün hakimiyyətdən devirə bildi? Çünki xalq şahı yox, Xomeynini istəyirdi.

Legitimliyin tipləri:

1. Ənənəvi cəmiyyətin normalarına əsaslanan irsi hakimiyyət tipi. Bəzən fikirləşirlər ki, monarxiya üsul-idarəsinin vaxtı keçib və onu tarixin arxivinə göndərmək lazımdır. Lakin dünyada inkişaf etmiş xeyli monarxiyalar var: İspaniya, Norveç, İsveç, Böyük Britaniya, Yaponiya, Səudiyyə Ərəbistanı və s.

2. Şaxələnmiş bürokratik aparata malik legitimlik. Monarxın mütləq hakimiyyətinin məhdudlaşdırılmasından başlayır, seçkili orqanların timsalında ona qarşı tərəf yaradılır.

3. Harizmalı legitimlik. Harizma yunanca «allah vergisi» deməkdir. Bu cür rejimlər bir şəxsin harizması, yəni istedadı, gücü, qüdrəti və rəhmdilliyi əsasında qurulur. Əhali çox vaxt harizmalı hakimiyyətlərə kor-koranə vurulur. Belə hakimiyyətlərə münasibət rasional olmur, bir çox hallarda hətta

mistik məzmun alır. Harizmalı hakimiyyətlərin ömrü, bir qayda olaraq hakimiyyətin harizmalı daşıyıcısının ömrü qədər olur.

4. Xalq hakimiyyətinin bütün mərkəzi orqanlarının seçilməsi ilə formalaşan liberal-demokratik, yəni konstitusion legitimlik. M. Veber belə hakimiyyətləri rasional-hüquqi legitim hakimiyyətlər adlandırır.

5. Etnik legitimlik. Əski SSRİ bu idarəçilik tipinin örnəyi idi. Belə rejimlərdə hakimiyyətin mərkəzi strukturu milli əlamətlərə görə formalaşır.

Legitim hakimiyyətin çökmə əlamətləri:

- icbariliyin artması;
- hüquq və azadlıqların məhdudlaşdırılması;
- müstəqil mətbuatın və siyasi partiyaların fəaliyyətlərinin qadağan olunması;
- hakimiyyətin korrupsiyalaşması;
- hakimiyyətin iqtisadi effektliliyinin aşağı olması.

Təkcə seçki ilə deyil, bəzi hallarda inqilab və zəbt olunma yolu ilə formalaşan hakimiyyət də legitim hesab oluna bilər. Təbii ki, əgər bu hakimiyyət mürəkkəb situasiyalara nəzarət edə, cəmiyyətdə stabillik yarada, sosial rifahı, iqtisadi tərəqqini təmin edə bilirsə.

## VI. Demokratiya və onun formaları

- *Demokratiya anlayışı, onun əsas əlamətləri*
- *Demokratiyanın formaları*
- *Hüquq dövləti*
- *Demokratiyanın xarakterini müəyyənləşdirən amillər*
- *Dünyada demokratiyanın yayılması*
- *Azərbaycnda siyasi quruluş*

### Ədəbiyyat:


1. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
2. John Schwarzmantel (2011) *Democracy and Political Violence.* Edinburgh: Edinburgh University. 213p.
3. Tokvil. A. Amerikada Demokratiya (1835), Bakı, 2002
4. Siyasi plüralizm və çoxpartiyalı demokratiya. Bakı, 1996
5. Лавриенко В.Н. Политология. Москва, 2006
6. Марченко М. Политология. Москва,1999
7. Политические партии в условиях демокрвтии. Фонд К. Аденауера.
8. Сартори Д. Вертикальная демократия. Полис, 1992 №5
9. Хантигтон С. Третая волна. Демократия в конце XX века. Москва, 2003


- **Demokratiya anlayışı, onun əsas əlamətləri**

***Xalqın bir hissəsini həmişə aldatmaq olar, bütün xalqı bir mddət aldatmaq olar, amma bütün xalqı həmişə aldatmaq olmaz (Linkoln)***

Demokratiya qədim yunan sözü olub, *«xalq hakimiyyəti»* mənasını verir. Demokratiyaya Amerika prezidenti Linkolnun verdiyi qiymət əhatəlidir: *«demokratiya xalq tərəfindən, xalqın*

*özü üçün formalaşdırılan xalq hakimiyyətidir».* O, çox qədim idarəçilik formasıdır. M. ö. V əsrdəki «Perikl epoxasında» hakimiyyət azad vətəndaşlar məclisinə məxsus idi. Bu məclis müntəzəm olaraq şəhər meydanında öz yığıncaqlarını keçirir, ictimai işləri müzakirə edir, qərarlar isə sadə səs çoxluğu ilə qəbul olunurdu. Lakin Afina demokratiyasının ciddi qüsurları da var idi. Belə ki, 400 min əhalisi olan dövlətin ancaq 40 mini tam hüquqlu vətəndaş sayılırdı. Qadınlar, köçkünlər, qullar siyasi hüquqlara malik deyildi. Nisbətən sonrakı dövrlərdə afinalılara demokratiyanın başqa forması məlum oldu. Bu kütlə hakimiyyətinə *(oxlokratiya)* yaxın bir idarəçilik forması idi. Sözügedən hakimiyyət formasının da qüsuru o idi ki, kütlələr əksər hallarda qanunlara əməl etmir və kütlə tiraniyası yaranırdı.

Sonrakı dövrlərdə Avropa ölkələrində demokratiya haqqında daha bitkin təsəvvürlər formalaşdı və yeni-yeni ideyalar meydana gələrək praktikaya tətbiq edildi**.**

*1787-ci ildə ABŞ Konstitusiyası* qəbul edildi. Amerika dövlətinin əsasını qoyanlar xalq idarəçiliyinin demokratik prinsiplərini özündə əks etdirən normalarla, «azadlığın və hər bir fərdin müdafiəsi» kimi liberal dəyərləri bir araya gətirərək onu praktikaya tətbiq etdilər. Sonralar T. Cefferson yazırdı: *«Avropada demokratiya uğrunda çoxlu qan axıdılıbsa, Amerikada çoxlu mürəkkəb axıdılıb».* Amerika demokratiyasını öyrənən Aleksis Tokvil isə bu qənaətə gəlmişdi ki, azadlığın və siyasi bərabərliyin bərqərar edilməsi barədə Amerika təcrübəsi Avropa kontinentində də həlledici əhəmiyyət kəsb etmişdi.

Demokratik rejimin xarakterik xüsusiyyəti cəmiyyətin liberal metodlarla idarə olunması, hamı tərəfindən qəbul edilən insan haqları, azadlıqları və plüralizmdir. Həlledici metod məcburetmə deyil, inandırmadır. Təsiretmə metodları qanunlarla məhdudlaşdırılır və cəmiyyətin nəzarəti altında olur. Demokratik rejimlərin əsas əlamətlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- xalq hakimiyyətin mənbəyidir;
- hakimiyyət orqanları seçki ilə formalaşır və müntəzəm dəyişdirilir;
- çoxpartiyalı, rəqabətli sistem mövcud olur;
- siyasi müxalifət leqal fəaliyyət göstərir;
- gerçək söz azadlığı bərqərar olur;
- vətəndaş və hüquq cəmiyyəti yaratmaq istiqamətində mübarizə gedir.

*Xalq hakimiyətin mənbəyidir.* Demokratik rejimlərdə hakimiyyəti xalq forimalaşdırır, ona müəyyən səlahiyyətlər verir və nəzarət edir. Demokratiya təkcə respublika idarəçiliyi formasında deyil, konstitusiyalı monarxiya şəraitində də tam mümkündür (Böyük Britaniya, Belçika, Hollandiya, İspaniya, Yaponiya və b.).

*Hakimiyyət orqanlarının seçki ilə formalaşması və müntəzəm dəyişdirilməsi.* Hakimiyyətə seçki ilə gələn istənilən dövlət xadimi, məmur konstitusiya ilə müəyyənləşdirilmiş müddətdə vəzifədə olur. Bu rejimdə xalqın mütləq əksəriyyətinin dəstəyini qazananlar belə konstitusiya ilə müəyyən olunmuş vaxtdan artıq vəzifədə qala bilməzlər. Hakimiyyət daim xalqın nəzarəti altında olur.

*Çoxpartiyalı, rəqabətli sistem.* Gerçək tarixi təcrübə göstərir ki, çoxpartiyalılıq olmadan siyasi rəqabət də mümkün deyil. Rəqabətsiz isə cəmiyyətin tərəqqisi qeyri-mümkündür. Müxalifətçiliyin fəlsəfəsi hakimiyyətdə olan siyasi rəqibin idarəçilikdə yol verdiyi qüsurları aşkar edib xalqa çatdırmaqdır. Rəqabət məcbur edir ki, hakimiyyətdə olan partiya öz fəaliyyətinə ciddi nəzarət etsin. Belə rəqabət mühiti son nəticədə bütün cəmiyyətin tərəqqisinə gətirib çıxarır. Demokratik rejimlər siyasi partiyaların meydana gəlməsinə və fəalyyət göstərməsinə maneələr yaratmır. Qərb ölkələrində təxminən eyni gücə malik olan iki, yaxud üç aparıcı partiya siyasi hakimiyyət uğrunda mübarizə aparır. Post-sovet ölkələrində və Şərqi Avropada isə siyasi partiyalar çoxdur və

onların çox vaxt seçki zamanı bir-birlərinin fəaliyyətinə maneələr yaratması da gerçəklikdir.

*Siyasi müxalifət leqal fəaliyyət göstərir.* Gerçək demokratiyanın bərqərar olması üçün müxalifət leqal fəaliyyət göstərməli, hakimiyyəti kəskin tənqid etmək imkanlarına malik olmalıdır. Müxalifət cəmiyyətdə demokratiyanın əsas müdafiəçilərindəndir. O, cəmiyyəti ortaya çıxa biləcək istənilən təhlükədən xəbərdar edir və bu təhlükənin qarşısını almaq üçün mövcud resursları səfərbər etməyə çalışır.

*Gerçək söz azadlığı.* Söz azadlığının gerçəkdən bərqərar edilməsi demokratik rejimlərə xas olan əsas xüsusiyyətlərdəndir. Volter yazırdı: «Mən sizin fikrinizlə razı olmaya bilərəm, ancaq mən həyatımı verməyə hazıram ki, siz onu söyləyə biləsiz». İstənilən tənqid subyektivdir və ünvanlandığı adamın xoşuna gəlmir. Lakin tənqid həkim kimidir. O ağrıyan yeri göstərir. Söz azadlığı ictimai ziddiyyətləri də aşkar etmək gücündədir. Söz azadlığının boğulması cəmiyyəti ümumi inkişafdan saxlayır və ictimai aqressiya yaradır.

*Vətəndaş cəmiyyəti və hüquq dövləti yaratmaq cəhdi.* Vətəndaş cəmiyyətinin formalaşdırılması dövlət hakimiyyətinə aid olan səlahiyyətlərin tədricən vətəndaşlara, onların təsis etdikləri institutlara ötürülməsidir. Bu evolyusiyon prosesə təkan verməyə hakimiyyət özü maraqlı olur. Qeyri-kommersiya təşkilatları, xeyriyyə fondları vətəndaş cəmiyyətlərinin aparıcı institutlarıdır.

Müasir dünyada demokratiyanın inkişaf istiqamətlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Liberalizmdəki təbii-hüquqi təlimə uyğun olaraq dövlətin bütün vətəndaşlarına şamil edilən *azadlıq və bərabərlik* prinsipi. Cəmiyyətin demokratikləşmə dərəcəsinə uyğun olaraq bu prinsiplər get-gedə daha çox praktikiya tətbiq edilir.

2. Demokratiya get-gedə daha çox dövlətlərdə və ərazilərdə yayılır. Bu dövlətlərdə birbaşa demokratiyanın prinsipləri əsasən yerli *özünüidarəetmə səviyyəsində* təzahür edir. Vətəndaşlar dövlət idarəçiliyində birbaşa deyil, seçdikləri *nümayəndələr, təmsilçilər* vasitəsiylə iştirak edirlər.

3. Nümayəndəli demokratiya forması, ilk növbədə, *vətəndaş cəmiyyətinin iqtisadi maraqlarının* çoxsaylı ifadəsinə cavab olaraq meydana gəlir.

4. Müasir liberal demokratik dövlətlər bir-birlərindən fərqlənsələr də *ümumi liberal-demokratik prinsiplər və dəyərlər* üzərində qurulur.

5. Liberal demokratiyaya daim inkişafda və təkmilləşməkdə olan bir proses kimi baxılır.

Böyük Britaniyanın baş naziri U. Çerçill demokratiya haqqında deyirdi: «Demokratiyanın çoxsaylı çatışmazlıqları var. Ancaq onun üstün cəhəti odur ki, hələ heç kim bu idarəçilik formasından yaxşısını icad edə bilməyib».

- **Demokratiyanın formaları**

Demokratiya barədə çoxsaylı düşüncələr və təcrübələr göstərdi ki, bu bir formalı dövlət idarəçiliyi ola bilməz. Yəni demokratiyanın formaları müxtəlifdir.

*Nümayəndəli demokratiya*. Xalq öz seçdikləri nümayəndələr vasitəsiylə siyasi hakimiyyəti formalaşdırır. Müasir dövrdə demokratiyanın ən geniş yayılmış forması nümayəndəli demokratiyadır. Vətəndaşlar siyasi qərarların qəbul edilməsində birbaşa deyil, hakimiyyət orqanlarına seçdikləri nümayəndələr vasitəsiylə (millət vəkilləri, bələdiyyələr, merlər və b.) iştirak edirlər.

*Birbaşa demokratiya* (referendum, plebisit, toplantı və s.). Dövlət və cəmiyyət həyatının əsas məsələləri birbaşa xalq səsverməsi ilə həll edilir. Referendum Qərbdə bir qayda olaraq qlobal problemlərin həlli zamanı tətbiq edilir. İlk referendum 1439-cu ildə İsveçrədə keçirilib. Sonralar referendum dünya

praktikasında geniş yayıldı və bir çox ölkələrin konstitusiyasında özünə yer tapdı. Referendum prinsipial məsələ ilə bağlı seçicilərə müraciətdir və nəticədə konstitusiya, qanunvericilik, yaxud da daxili və xarici siyasətin vacib məsələləri ilə bağlı qərar qəbul olunur. Plebisit-hansısa ərazinin taleyini müəyyənləşdirmək üçün xalqın rəyini öyrənmək və qərar qəbul etmək üçün spesifik referendum formasıdır.

Birbaşa demokratiyanın tətbiqi müəyyən çətinliklər yaratdığından son zamanlar dövlətlər təmsilçi, yəni nümayəndəli demokratiyaya üstünlük verir.

Demokratik idarəçiliyin iki forması var: *prezident və parlament idarəçiliyi***.** Prezident idarəçiliyi formasında prezident və parlament müxtəlif vaxtlarda və ayrı-ayrı seçkilərlə seçilir. Prezident geniş səlahiyyətlərə malik olur.

Parlament idarəçiliyi formasında prezident və parlament eyni seçkilər əsasında seçilir, hökuməti parlament formalaşdırır. Bu cür idarəçilik formasının tətbiq olunduğu bir sıra ölkələrdə prezident də parlament tərəfindən seçilir.

Müasir dövrdə parlament idarəçiliyinin 3 forması var:

1. Hökumət parlamentdə çoxluq əsasında formalaşır (50%-dən çox səs toplayan partiya hökuməti formalaşdırır).

2. Parlament koalisiya əsasında formalaşır (hökumət mütləq çoxluq qazana bilməyən bir neçə partiyanın koalisiyası əsasında formalaşır).

3. Parlament konsensus əsasında formalaşır (etnik, regional prinsiplərlə).

- **Hüquq dövləti**

***Qanun gücsüz olanda, kiminsə iradəsinə tabe olanda dövlət çökür (Platon)***

Hüquq dövləti ideyasının müəllifi C. Lokk sayılır. «Hüquq dövləti» anlayışı hüququn hakimiyyətin fövqündə dayanmasını, hakimiyyətin, cəmiyyətin və onun

vətəndaşlarının qanuna şərtsiz əməl etmələrini özündə ehtiva edir. Belə dövlət aşağıdakı əlamətlərə malik olur:

- dövlət öz fəaliyyətini qanun çərçivəsinə salır, qanunun müəyyənləşdirdiyi sərhədləri keçmir;
- hamı qanun qarşısında bərabərdir;
- hər bir vətəndaş dövlət, dövlət isə hər bir vətəndaş qarşısında məsuliyyət daşıyır, insan azadlıqlarına və haqlarına tam təminat verilir;
- dövlət stabil konstitusiyaya və qanunvericilik sisteminə malik olur.

Stabil qanunvericilik hüququn bərqərar edilməsi, vətəndaşların qanunlara sayğı göstərməsi və onlara əməl etməsi üçün vacib şərtdir. Əgər qanunvericilik tez-tez dəyişdirilirsə ona vətəndaşların da, hakimiyyət strukturlarının da sayğısı zəifləyir. Fundamental, yəni baza hüququ dayanıqlı olmalıdır. Ancaq belə şəraitdə hüquqa etibar və inam formalaşa bilər. Dayanıqlı hüquqi münasibətlər bərqərar olan dövlətlərdə milli kapital «xaricə qaçmağa» meyl göstərmir, beyin axınları baş vermir. Əksinə stabillik erası bərqərar olur və cəmiyyət tərəqqi edir.

- Konstitusiyanın və qanunun başqa huquqi aktlardan aliliyi vacibdir;
- Effektli fəaliyyət göstərən hüquq-mühafizə sistemi mövcuddur (məhkəmə, prokurorluq, istintaq, arbitraj, konstitusiya məhkəməsi və s.);
- Vətəndaş cəmiyyəti inkişaf edib, vətəndaşların hüquq sahəsində maariflənmə səviyyəsi yüksəkdir.

Bu əlamətlərin hamısına bir dövlət daxilində təsadüf etmək, ideal dövlətin mövcud olması deməkdir. Lakin təəssüf ki, hələ ki, tam mənada hüquq dövlətinin tələblərinə cavab verən dövlət yoxdur. Sözügedən istiqamətdə axtarışlar var ki, bu da öz növbəsində cəmiyyətin tərəqqisi və təkmilləşməsi üçün geniş imkanlar yaradır.

Hüquq dövləti hansı yollarla formalaşa bilər?

*Qanunvericiliyin kodlaşma və sistemləşmə yolu ilə təkmilləşdirilməsi.* Bu yol xüsusən hakim ideologiyaların tez-tez dəyişdiyi və bir sistemdən başqasına keçid ərəfəsini yaşayan dövlətlər üçün aktualdır. Sovet qanunvericiliyi hüquqla möhkəmləndirilmiş komanda-inzibati rəhbərlik metodu üzərində qurulmuşdu. Bir hüquqi-normativ akt digərinə uyğun gəlmirdi. Hökumət aktlarının çoxu ruh etibariylə qüvvədə olan qanunlara uyğun deyildi.

Qanunlara əməl etmək üçün onların legitimliyi, bütün cəmiyyət tərəfindən tanınması və qəbul edilməsi də çox vacib şərtdir. Ayrı-ayrı qanunlara cəmiyyətin neqativ münasibəti hakimiyyətə inamsızlığa və etimadsızlığa gətirib çıxarır.

*Qüvvədə olan qanunvericiliyin icrası üçün, onlara əməl etməyin effektli mexanizmini yaratmaq.* Dövlət müntəzəm olaraq hüquq-mühafizə orqanlarının fəaliyyət effektliliyinin, onların nüfuzunun artırılmasına çalışmalıdır. Hüquq dövlətinin yaradılmasında həlledici rolu müstəqil məhkəmələr oynayır. Müasir dünyadakı demokratik rejimlər ən çox məhkəmə müstəqilliyi sahəsində mövcud olan nöqsanlardan əziyyət çəkir. Cəmiyyətdə aqressiya yaradan amillərdən biri də məhkəmələrin ədalətsizliyi və qeyri-müstəqil fəaliyyət göstərmələridir. Məhkəmə ədalətin bərqərar olduğu sonuncu instansiyadır. Vətəndaş burada da ədalətin bərqərar olmadığını gördükdə, özü ədaləti bərqərar etmək haqqında fikirləşir.

*Vətəndaşlarda, vəzifəli şəxslərdə, ümumiyyətlə cəmiyyətdə dayanıqlı hüquqi düşüncənin formalaşması.* Ağıllı və faydalı qanunlar yaratmaq azdır. Əsas məsələ cəmiyyətin bu qanunlara əməl etməsinin effektli yollarını işləyib hazırlamaq, onlara əməl olunması sahsində müsbət vərdişlər formalaşdırmaqdır. Aşağı yaşlardan başlayaraq cəmiyyətin hər bir vətəndaşında hüquqa və qaydalara hörmət, onlara əməl etmək vərdişləri aşılanmalıdır. Müasir dövrdə vətəndaşların hüquqi maarifləndirilməsi imkanları böyükdür. Lakin tarixi təcrübə bu

prosesin uzun və tədrici, eyni zamanda davamlı bir proses olduğunu da göstərir.

- **Demokratiyanın xarakterini müəyyənləşdirən amillər**

Demokratiya çoxşaxəli, mürəkkəb və ziddiyyətli hakimiyyət forması olduğundan, hər bir cəmiyyətdə o fərqli dəyərlərə malikdir.

*Sosial dəyərlər:*

- praktikada insan hüquq və azadlıqları gerçək ifadəsini tapır;

- demokratiya əhalinin böyük əksəriyyətini ictimai-siyasi həyata cəlb etməklə, siyasi sistemin sosial bazasının genişləndirilməsinə təminat yaradır;

- demokratiya təkcə sosial stabilliyin yaradılmasına təminat vermir, eyni zamanda cəmiyyətin sosial-siyasi sahədə inkişafına, təkmilləşməsinə təkan verir;

- demokratiya dövlət və ictimai institutların fəaliyyət sferasını genişləndirməklə, şəxsiyyətin fasiləsiz inkişafına şərait yaradır, ictimai şüurun artmasına təkan verir, kütlələrin ictimai-siyasi fəallığını artırır;

- nəhayət, demokratiyanın sosial əhəmiyyəti özünü onda göstərir ki, bu idarəçilik forması xalq kütlələrinin iradəsinin ifadə olunmasına şərəit yaradan ən effektli və etibarlı formadır. Demokratiya hakimiyyətə ən etibarlı, peşəkar, əxlaqlı adamların gəlməsinə şərait yaratdığı kimi, hakimiyyətdən təsadüfü adamların getməsini də təmin edə bilir. Bu idarəçilik formasının gerçək əlamətlərini iki cür amil şərtləndirir; obyektiv və subyektiv.

*Obyektiv amillər* gerçək həyat şərtlərini ehtiva edir. *Subyektiv amillər* vətəndaşların iradə, arzu və cəhdlərində öz ifadəsini tapır.

Obyektiv amillər içərisində: maddi, sosial, hüquqi, siyasi, ideoloji və b. təminatlar diqqəti çəkir.

*Maddi təminat odur ki,* insanın yaşayış səviyyəsi ona siyasi proseslərdə fəal iştirak etməyə imkan versin. Bu təminat həm dövlətin, həm də vətəndaşların maddi səviyyəsini özündə əks etdirir. Aşağıdakı məşhur fraza maddi amillə bağlı aydın mənzərə yaradır: «Pul, sənsiz demokratiyanın əsas problemlərini həll etmək mümkün olmazdı» (naməlum müəllif).

*Digər vacib təminat hüquqi təminatdır***.** Bu təminat demokratik prinsiplərin, ideyaların, insan azadlıqları və hüquqlarının vəhdətini ehtiva edir. Hüquqi təminat konstitutsiya aktlarında və qanunvericilik aktlarında ifadəsini tapır.

Təminatlardan biri də *andiçmədir.* Buna qədim zamanlarda daha çox önəm verilirdi. İndi isə andiçmə simvolik məna daşıyır. Hətta bəzən dövlət başçıları belə içdikləri andı pozur, həm də cəzasız qalırlar.

- **Dünyada demokratiyanın yayılması**

S. Hantiqton qlobal demokratik prosesin üç «dalğa» ilə yayıldığını göstərir. Onun fikrincə birinci dalğa təxminən 100 ilə qədər davam etdi (1828-1926). Bu dalğanın pik nöqtəsi Birinci Dünya müharibəsinin başa çatması və Avstriya-Macarıstan, Rusiya, Osmanlı imperiyalarının çökdüyü dövrdür. Nəhəng imperiyaların çökməsi nəticəsində onların yerində demokratik rejimlərə iddialı olan yeni dövlətlər yarandı.

İkinci dalğada yeni yaranan bir sıra dövlətlər avtoritarizmə və totalitarizmə meylləndilər. Lakin İkinci Dünya müharibəsi bitəndən sonra demokratiya dalğası gücləndi və öz pik nöqtəsinə çatdı. S. Hantiqtona görə demokratiyanın ən güclü dalğası 1970-ci illərdə başlayan üçüncü dalğadır. Bu dövrdə 40-dan artıq dövlət (Portuqaliya, İspaniya, bəzi latın Amerikası dövlətləri və b.) demokratik siyasi idarəçilik formasına keçdi. Sovetlər Birliyinin çökməsi bu mərhələyə güclü impuls verdi. Bəzi post-sovet ölkələrində demokratiya

əvəzinə avtoritar rejimlərin formalaşması dünya politoloqlarında pessimist ovqat yaratsa da, mütəxəssislərin çoxu bu qənaətdədir ki, yaxın gələcəkdə bu ölkələrdə də demokratik siyasi rejimlər bərqərar olacaq.

2001-ci ilin sentyabrında ABŞ-da baş verən terror hadisəsi Əfqanıstanda hərbi əməliyyatların başlanmasına səbəb oldu və bu ölkədəki Taliban hərbi rejimi devrildi. Az sonra isə İraqda hərbi əməliyyatlar başladı və S. Hüseyn diktaturası çökdü. İndi çoxsaylı mütəxəssislər bu qənaətdədir ki, İrandakı teokratik rejimin də devrilməsindən sonra, demokratiyanın yayılması üçün Orta Doğuda ikinci (birinci məkan post-sosialist düşərgəsi sayılır) böyük bir məkan yaranacaq.

- **Azərbaycnda siyasi quruluş**

Azərbaycan Konstitusiyasına görə dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır (fəsil-1, maddə-1)

Ümumxalq səsverməsi-referendum yolu ilə həll edilən məsələlər:

1. Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendum yolu ilə həll edə bilər.

2. Aşağıdakı məsələlər yalnız referendum yolu ilə həll oluna bilər:

- Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi.

- Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi.

3. Aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz:

- vergilər və dövlət büdcəsi;

- amnistiya və əfv etmə;

- seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi (maddə-3).

Referendum haqqında qanun Azərbaycanda 1991-ci il mart ayının 7-də qəbul edildi.

17 mart 1991-ci il tarixində SSRİ-nin tərkibində qalmaq məsələsi ilə bağlı ölkədə ilk referendum keçirildi və bu referendumun nəticəsi olaraq Azərbaycan SSRİ-nin tərkibində qaldı.

1991-ci ilin oktyabrında SSRİ-nin tərkibindən çıxmaq barədə Azərbaycanda ikinci referendum keçirildi və xalqın əksəriyyəti SSRİ-nin tərkibindən çıxmağa razılıq verdi. Qısa zaman kəsiyində xalqın rəyinin belə kəskinliklə dəyişməsi ziddiyyətli görünə bilər. Lakin real həqiqət odur ki, birinci referendumun nəticələri saxtalaşdırılmışdı. Yəni 17 mart referendumunda da Azərbaycan xalqı SSRİ-nin tərkibində qalmamağa səs vermişdi. Oktyabr referendumunda isə SSRİ-ni saxlamağa çalışan o zamankı siyasi hakimiyyət sadəcə olaraq bu gerçəkliyi etiraf etməyə məcbur oldu.

1993-cü ilin iyulunda prezident Əbülfəz Elçibəyə etimad məsələsi ilə bağlı üçüncü referendum keçirildi və səsverənlərin əksəriyyəti Ə. Elçibəyə etimadsızlıq ifadə etdi.

1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası ilə bağlı referendum keçirildi.

2002-ci il avqustun 24-də Konstitusiyaya əlavə və dəyişmələrlə bağlı beşinci referendum keçirildi və bu referendumun nəticələrinə uyğun olaraq Azərbaycan Konstitusiyasında qarışıq seçki sistemi ləğv edildi və birmandatlı, yəni mojaritar seçki sistemi təsbit olundu.

Konstitusiyaya görə Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır (fəsil-2, maddə-7)

Azərbaycan prezidentli respublikadır. Ölkə prezidenti birbaşa ümumxalq səsverməsi ilə beş il müddətinə seçilir.

## VII. Siyasi proses və siyasi iştirak

- *Siyasi prosesin mahiyyəti*
- *Siyasi maraqlar*
- *Siyasi prosesdə əsas mərhələlər*
- *Siyasi iştirak və onun formaları*
- *Azərbaycanda siyasi iştirakın hüquqi təminatları*

### Ədəbiyyat


1. Гаджиев К. С. Введение политическую науку. Москва, 1997
2. Гаджиев К. С. Политическая культура и стабилность демократии. Полис, 1992, № 4
3. Ирхин Й. В., Зотов В. Д., Зотова Л. В. Политология. Москва, 1999
4. Milli məclisə seçkilərin hüquqi əsasları. Bakı, 2000
5. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi. Bakı, 2000
6. Siyasi biliklərin əsasları. Bakı,1999
7. Siyasi plüralizm və çoxpartiyalı demokratiya. Bakı, 1996
8. Siyasi liderlik. Bakı, 1999
9. Seçki texnologiyaları. Bakı,1998
10. Политические партии в условиях демокрвтии. Фонд К. Аденауера.


- **Siyasi prosesin mahiyyəti**

***İnsan hansı sahilə getdiyini bilmirsə, onun üçün səmt küləyi yoxdur.***

Siyasi proses anlayışı politologiyada çoxdan mövcud olan anlayışlardandır. Bu anlayış, siyasi sistemin formalaşmasında, dəyişməsində, təkamülündə iştirak edən bütün siyasi subyektlərin cəm şəkildə fəaliyyətini özündə ehtiva edir. Siyasi

proses mahiyyət etibarilə iki aspekti özündə birləşdirir. Birinci, siyasi sistemin necə fəaliyyət göstərdiyini, özünü necə müdafiə etdiyini və özünü yenidən qurduğunu, ikinci isə siyasi sistemin təkamüllə dəyişməsini və inkişafını əhatə edir. Siyasi proses, siyasi inkişaf anlamını da verir. Yəni siyasi proses cəmiyyətin inkişafını hədəf seçən bir prosesdir. Bəzən belə inkişaf cəmiyyətin siyasi həyatının pozulub yenidən qurulması şəklində də təzahür edir. Bütövlükdə isə siyasi proses siyasi münasibətləri, siyasət subyektlərini, siyasi hakimiyyətin idarə olunması texnologiyalarını və siyasi institutların bərqərar olmaq və fəaliyyət göstərmək mexanizmlərini özündə birləşdirir. Siyasi prosesin strukturunda dörd vacib komponent diqqəti cəlb edir:

- siyasi proseslərin subyektləri (aktorları);
- həmin subyektlərin siyasi maraqları;
- insanların siyasi fəaliyyəti (peşəkar siyasi fəaliyyət və adi vətəndaşların siyasi iştirakı);
- siyasi proses subyektlərinin fəaliyyəti nəticəsində formalaşan siyasi münasibətlər.

İstənilən siyasi proses öz başlanğıcını *siyasi münasibətlərdən* götürür. Hegel yazırdı ki, istənilən predmetin var olma gerçəkliyi məhz münasibətlərdədir. Tənha, cəmiyyətdən kənarda yaşayan bir insan xeyirxah və yaxud qəddar ola bilməz. Bütün insani (həm də qeyri-insani) keyfiyyətlərin mahiyyəti cəmiyyətdə, başqa sözlə münasibətlərdə özünü büruzə verir. Müxtəlif sosial qruplar arsındakı siyasi münasibətlərin əsasını siyasi hakimiyyət, dövlət hakimiyyəti, siyasi hüquq və azadlıqlar təşkil edir. Dövlət hakimiyyətinə yiyələnmək, onu saxlamaq və idarə etmək siyasi münasibətlərin məzmunudur. Cəmiyyətdə sosial-siyasi institutlar formalaşıb inkişaf edəndə ictimai münasibətlər də stabil və dayanıqlı xarakter alır. Siyasi institutlar deyildikdə bütövlükdə dövlət, qanunverici, icraedici və məhkəmə hakimiyyətləri, siyasi liderlik institutları, lobbiçilik və s.

nəzərdə tutulur. Bu institutların əsas vəzifəsi ictimai həyatı tənzimləmək, ictimai münasibətlərin inkişafına xidmət edən davranış normalarını və qaydalarını möhkəmləndirməkdir.

Siyasi proses, eyni zamanda, siyasi partiyaların yaranma prosesi, onlar arasında rəqabət, əməkdaşlıq, kompromis, mübarizə və münaqişələrdir.

Beləliklə, siyasi prosesin məzmununu müəyyənləşdirən amilləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- qanunverici, icraedici və məhkəmə hakimiyyətinin bölünmə və tarazlıq dərəcəsi;
- siyasi qərarların qəbul edilməsinə (birbaşa və dolayı) partiya və dövlət strukturlarının qarşılıqlı təsiri;
- hakimiyyətin mərkəzləşdirilmə (yaxud əksmərkəzləşdirilmə) dərəcəsi;
- siyasi qərarların tapılması və həyata keçirilməsi üsulları;
- mərkəzi və yerli hakimiyyətin qarşılıqlı münasibətləri;
- siyasi mühit daxilindəki qarşılıqlı münasibətlər, yəni:

a) müxalifət və iqtidar elitləri arsındakı münasibətlər;
b) siyasi rəhbərliklə aparat işçiləri arsındakı münasibətlər;
c) elitanın korrupsiyaya uğrama dərəcəsi.

- **Siyasi maraqlar**

İnsanların siyasi fəallığını şərtləndirən amillərdən biri və əsası həyati tələbatlardır. Buna görə də siyasi tələbatlar ilkin mərhələdə fərdi deyil, ictimai xarakterə malik olur. Bu isə öz növbəsində maddi tələbatları ödəmək üçün insanların birgə fəaliyətini tənzimləyən təşkilatların və siyasi institutların yaranması zəruriyyətini doğurur. Siyasi fəaliyyət sferasının genişlənməsi ilə insanların fərdi siyasi tələbatları (şəxsi mülkiyyətin, hüquq və azadlıqların müdafiəsi və s.) da artır. Tələbatlar öz növbəsində axtarış, onun ödənilməsi istiqamətində fəaliyyət tələb edir. Əgər tələbatların ödənilməsi yolları tapılıbsa, deməli insanda hansısa maraq formalaşıb. *Maraq* - insanları, yaxud sosial qrupları müəyyən məqsədəlri

həyata keçirməyə, hansısa tələbatları ödəməyə istiqamətləndirən gücdür. *Siyasi maraq*-fərdlərin və sosial qrupların siyasi hakimiyyət sistemində lazımlı mövqe tutmaq üçün istiqamətlənməsidir. Belə mövqe tutmağın yolları dövlətin siyasi həyatında, siyasi partiyalarda, ictimai təşkilatlarda və s. iştirakdır. Siyasi maraqların təmin olunması üçün onun mahiyyəti dərk olunmalıdır. Siyasi maraqların mahiyyəti dərk olunmadıqda yürüdülən siyasət qeyri-adekvat və qeyri-parqmatik olur, nəticədə siyasi gözləntilər özünü doğrultmur. Cəmiyyətin siyasi sistemində ideologiyaların, siyasi partiyaların, ictimai təşkilatların çoxluğu bu zaman köməyə gəlir. Başqa sözlə, siyasi rəqabət, axtarışlar, disskusiyalar, tənqid və qarşılıqlı tənqidlər maraqların dəqiq və siyasi proseslərə, cəmiyyətin inkişaf səviyyəsinə adekvat formalaşmasına geniş imkanlar yaradır.

Siyasi proseslər öz təbiətinə görə mürəkkəb və ziddiyyətlidir. Siyasətin bu təbiəti maraqları toqquşan tərəflər arasında harmoniyanın, konsensusun, razılaşma nöqtələrinin tapılmasını tələb edir. Bu zaman razılığa gələn fərdlərin, sosial qruplarn maraqları tükənmir, əksinə yeniləşir, bir çox hallarda isə artıb böyüyür.

Bütövlükdə, siyasi maraqların rolu üç istiqamətdə özünü büruzə verir. Birincisi, cəmiyyətin siyasi tələbatları məhz siyasi maraqlarda özünü büruzə verir. İkincisi, sosial qrupların və fərdlərin siyasi aktivliyinin konkret istiqamətlərini siyasi maraqlar müəyyənləşdirir. Üçüncüsü, siyasi maraqların dərk olunması ideologiyaların, nəzəriyyələrin, dəyərlərin, dünyagörüşlərinin, fikir mübadilələrinin, disskusiyaların canlanmasına gətirib çıxarır. Siyasi maraqlar insanların siyasi fəaliyyəti əsasında reallışır ki, bu da öz növbəsində cəmiyyətin tərəqqisini şərtləndirən əsas amildir. Obrazlı ifadə olunsa, siyasi maraqlar cəmiyyəti irəli aparan lokomotivdir. O, siyasi rəqabətin hərəkətverici qüvvəsi kimi siyasət subyektlərini hərəkətə gətirir.

- **Siyasi prosesdə əsas mərhələlər**

*Birinci mərhələdə,* siyasi qərarlar qəbul edən institutlar öz maraqlarını təqdim edir.

*İkinci mərhələdə,* siyasi qərar qəbul edilir və siyasi iradə ortaya qoyulur:

- konkret problem siyasi kontekstdən ayrılır;
- informasiya toplanır;
- alternativlər nəzərdən keçirilir;
- fəaliyyət planı işlənib hazırlanır.

*Üçüncü mərhələdə,* informasiya rejimi tənzimlənir, (inforasiyaya sahib olan hakimiyyətə də sahibdir).

*Dördüncü mərhələdə,* idaretmə formasında siyasi iradə həyata keçirilir.

Siyasi prosesdə əsas məsələlərdən biri siyasi qərarların qəbul edilməsidir. Siyasi qərarların obyektivliyinə və optimallığına aşağıdakı amillər təsir göstərir:

- insanların siyasi davranışlarının əvvəlcədən müəyyənləşdirilməsinin çətinliyi;
- analiz edilən informasiyanın kəmiyyət və keyfiyyət baxımından yetərli olmaması;
- siyasi situasiyaların dinamizmi;
- qəbul edilən qərarların çox halda qapalı xarakter daşıması (belə hallar hərtərəfliliyə, rasionallığa, hər şeyin əsaslandırılması imkanlarına xələl gətirir);
- siyasi situasiyanın qeyri-adekvat qiymətləndirilməsi, ona etinasız yanaşma və yaxud mütləqləşdirmə.

*Siyasi proseslər öz tipologiyalarına görə də fərqlidir.* Siyasi hakimiyyətlər iki yolla formalaşır:

- inqilab;
- təkamül.

*Siyasi proseslər açıq və gizli gedir*

Açıq siyasi proseslərdə:

- siyasi maraqlar elektorata aydın olur;
- ictimai rəy əsasında siyasi kurs təkmilləşir;

- qəbul edilən siyasi qərarlar ictimaiyyət üçün anlaşıqlı olur.

Gizli siyasi proseslərdə:

- vətəndaşlar onlara məlum olmayan ictimai strukturun, yəni hansısa mafioz klanın olduğunu bilirlər;
- idarəçilikdə ictimai rəyə məhəl qoyulmur:
- idarəedən elita üzərində ictimai nəzarət olmur.

*Siyasi strukturlar stabil və qeyri-stabil olur.*

*Demokratik siyasi proseslərin əsas əlamətləri*:

- siyasi plüralizm;
- hüquq dövləti;
- siyasi mədəniyyət;
- hakimiyyətin, partiyaların, ictimai təşkilatların fəaliyyətində şəffaflıq;
- cəmiyyətdə vətəndaş hüquq və azadlıqlarının bərqərar olması;
- hakimiyyətin düzgün və balanslı bölgüsü.

- **Siyasi iştirak və onun formaları**

*Siyasi iştirak*-vətəndaşların birbaşa və dolayı ilə siyasi qərarların qəbul edilməsində, kursun müəyyənləşdirilməsində, siyasi liderlərin fəaliyyətinə təsir göstərməkdə müəyyən imkanlara sahib olmasıdır. Siyasi iştirakın subyektləri-fərdlər, sosial qruplar, etnoslar, zümrələr, bir sözlə seçki yaşına çatmış bütün insanlardır.

Siyasi iştirak müxtəlif maraqların, tələblərin, ümidlərin təmin olunmasını; idarə edənlərin seçilməsini; insanların siyasi kursun müəyyənləşdirilməsində iştirakını; münaqişələrin həll edilməsini; aşırı bürokratiyanın və insanların siyasi apatiyalarının (pərişanlıqların) aradan qaldırılmasını özündə ehtiva edir.

Siyasi iştirakın əsas formaları seçkilərdə və referendumlarda səsvermə, siyasi mitinqlərdə, nümayişlərdə iştirak, siyasi partiya və hərəkatlara üzv olmaq, seçki

kampaniyalarına könüllü yardım göstərməkdir. Qərb politoloqları siyasi iştirakın müxtəlif formalarını işləyib hazırlayıb. S. Hantiqton fəaliyyət motivasiyalarından asılı olaraq siyasi iştirakın iki növ olduğunu bildirir: fərdi siyasətə bağlayan şüurlu və *avtanom* fəaliyyət; dövlətin təzyiqi altında qorxutma və digər qeyri-siyasi metodlarla müxtəlif siyasi proseslərə *səfərbər* olunma. Birinci növ siyasi iştiraka əsasən Qərb ölkələrində, ikinci növ siyasi iştiraka isə totalitar və avtoritar rejimlərin mövcud olduğu ölkələrdə təsadüf olunur. Dövlətə və qüvvədə olan qanunvericiliyə müvafiq olaraq siyasi iştirak konvensional, yəni leqal və qanuni, eyni zamanda qeyri-konvensional olur. Qeyri-konvensional siyasi iştiraka icazəsiz mitinqlərdə, tətillərdə iştirak etmək, hakimiyyətə itaətsizlik göstərmək, aclıq aksiyaları keçirmək, bəzi hallarda isə daha radikal metodlara əl atmaq aiddir.

Amerika politoloqları S. Verba və İ. Nay amerikalıların siyasi iştirak dərəcəsini aşağıdakı kimi müəyyənləşdirir:

- tam passivlər – 22%;
- ancaq səsvermədə iştirak edənlər – 21%;
- ancaq yerli problemlərlə məşğul olanlar – 20%;
- seçki kampaniyasında fəal iştirak edənlər – 15%;
- bütün siyasi proseslərdə fəal olanlar – 18%;
- öz şəxsi problemlərini həll etmək üçün siyasi fəaliyyətlə məşğul olanlar – 4%.

Kütləvi siyasi iştirak vətəndaşların elektoral (seçki) aktivliyidir. Bir çox demokratik ölkələrdə seçicilərin seçkilərdəki iştirakı, təxminən 70-80% civarında olur. Dövlətlərin əksəriyyətində seçicilər yerli seçkilərə nisbətən ümumxalq seçkilərində daha fəal iştirak edirlər. Təcrübələr onu da göstərir ki, seçkilərdə kişilər qadınlara nisbətən daha fəal olurlar. Fəal seçki yaşı isə 35-55 yaş arasındakı dövr hesab olunur. Gənclər seçkilərdə nisbi radikallıqları ilə fərqlənirlər.

Qərbdəki liberal təcrübə onu da göstərir ki, əhalinin kütləvi şəkildə siyasiləşməsi heç də zərurət deyil. Məsələn,

Şimali Amerika və Qərbi Avropa dövlətlərinin vətəndaşları siyasi cəhətdən o qədər də fəal deyillər. Bu ölkələrin vətəndaşları, bir qayda olaraq seçki vaxtı səsvermə ilə kifayətlənirlər. Bu cür vəziyyət siyasi passivlikdən çox, siyasi biganəlik sayıla bilər. Belə biganəliyin başlıca səbəbi isə ölkədə bərqərar olan davamlı stabilliklə izah oluna bilər. Lakin siyasətə biganəlik də öz problemlərini yaradır. Belə ki, əhali disskusiyyalara, debatlara, fikir və ideya mübadilələrinə maraq göstərməyəndə siyasi mühitin də adekvat olaraq yeni siyasi texnologiyaların tətbiqinə marağı zəifləyir. Sonrakı mərhələdə siyasi-psixoloji yadlaşma başlayır ki, bu da bir qayda olaraq apatiyaya, siyasi süstlüyə, siyasətin mənasızlığı barədə düşüncələrin yaranmasına, siyasi normaların zəifləməsinə, bir sıra hallarda itirilməsinə rəvac verir. Siyasi iştirakda ifrat radikallıq da, ifrat biganəlik də arzu olunan deyil. Bu məsələdə ən yaxşı variant «qızıl orta» dır.

Vətəndaşların aktiv siyasi iştirakı digər amillərlə də bağlıdır: sərbəst vaxt; maddi imkan; təhsil, informasiya, bilik və bacarıqdan səmərəli istifadə etmək; KİV-lə əlaqədə olmaq; siyasi təşkilata üzv olmaq və s.

Vətəndaşların ilk dəfə siyasətdə və dövlətin idarə olunmasında iştirak etməsi məsələsi insan haqqları barədə deklarasiyanın 21-ci maddəsində təsbit olunmuş və BMT Baş Assambleyasının 10 dekabr 1948-ci il tarixli toplantısında yekdilliklə qəbul edilmişdir. Sonralar bu hüquq digər beynəlxalq sənədlərdə təkmil şəkildə öz ifadəsini tapmışdır.

- **Azərbaycanda siyasi iştirakın hüquqi təminatları**

Siyasi iştirak Azərbaycan Konstitusiyasının aşağıdakı maddələrində konkret əksini tapmışdır:

- Azərbaycan xalqı öz suveren hüquqlarını birbaşa ümumxalq səsverməsi-referendum və bərabər, birbaşa, azad, gizli, fərdi səsvermə vasitəsiylə həyata keçirir (fəsil-1, maddə-2);

- Azərbaycan Respublikasının vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ var (fəsil-3, maddə-55);

- Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ var (maddə-56).

- Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir (maddə-58).

Eyni zamanda, Konstitusiyada vətəndaşlara kütləvi aksiyalar (mitinq, piket, yürüş, nümayiş və s.) keçirməyə, öz fikirlərini sərbəst ifadə etməyə icazə verilir ki, bütün bunlar aktiv siyasi iştirak üçün vacib hüquq və azadlıqlar, konstitusiya səviyyəsində təminatlardır.

## VIII. Seçkilər və seçki sistemləri

- *Seçkilərin mahiyyəti və funksiyaları*
- *Seçki senzləri*
- *Seçki sistemləri*
- *Seçici və onun davranışı*
- *Azərbaycanda seçkilər*

**Ədəbiyyat**

1. Гаджиев К. С. Введение политическую науку. Москва, 1997
2. Гаджиев К. С. Политическая культура и стабилность демократии. Полис, 1992, № 4
3. Лавриенко В.Н. Политология. Москва, 2006
4. Milli məclisə seçkilərin hüquqi əsasları. Bakı, 2000
5. Хантигтон С. Политический порядок в меняющихся обшествах. Москва, 2004

- **Seçkilərin mahiyyəti və funksiyaları**

***Sistemin möhkəm olması üçün, onu tez-tez silkələmək lazımdır (Çelomey).***

Demokratiyanı seçkisiz təsəvvür etmək mümkün deyil. *Seçki-səsvermə yolu ilə nümayəndəli siyasi hakimiyyətin formalaşdırılması vasitəsidir.* Müasir dövrdə politoloqlar seçkilərin funksiyalarını aşağıdakı kmi ümumiləşdirir:

*1. İctimai maraqların təqdim olunması.* Müasir dünyada demokratiyanın ən effektli və gerçək forması plüralist, nümayəndəli demokratiya hesab olunur. Cəmiyyətdəki çoxsaylı qruplar, ayrı-ayrı vətəndaşlar öz maraqlarını ifadə edən, ümidlərini doğruldan siyasi partiyalar, ictimai təşkilatlar və şəxsiyyətlər axtarır və onların vasitəsiylə siyasi hakimiyyət formalaşdırmağa çalışır. Doğrudur bir çox hallarda insanlar öz seçdiklərindən gözlədiklərini ala bilmir, seçilənlər seçicilərin

etimadını doğrultmur. Lakin nümayəndəli demokratiyanın maraqlı cəhətlərindən biri də məhz budur. Yəni seçicilərdən seçkiyə diqqətli və həssas yanaşma tələb olunur. Seçkilər ərəfəsində seçici daim axtarışda olur, yaxşıların-yaxşısını tapmağa çalışır. Bu isə öz növbəsində aktiv siyasi fəaliyyət, vətəndaş mövqeyi, demokratik vərdişlərə yiyələnmə, siyasi cəhətdən maariflənmə deməkdir.

*2. Hakimiyyətin legitimliyi.* Xalqın formalaşdırdığı hakimiyyət legitim, yəni qanuni hakimiyyətdir. Buna görə də legitimlik seçkilərlə sıx bağlıdır. Əgər seçkilərin nəticələri əhalini qane etmirsə, vətəndaşlar seçkilərin azad, bərabər və ədalətli olduğuna inanmırsa, bu zaman hakimiyyətin legitimliyi şübhə altına düşür. Belə hakimiyyətlər qanunsuz sayılır və cəmiyyət tərəfindən tanınmır.

*3. Siyasi həyatın sosial barometri.* Vətəndaşların siyasi institutlara, bütövlükdə mövcud siyasi rejimə münasibətini formalaşdaran da seçkilərdir. Siyasi hakimiyyətlərin yürütdükləri sosial siyasət onların nüfuzuna ciddi təsir göstərən amllərdəndir. Son dövrlər Avropanın bir sıra partiyaları iqtisadiyyatın qloballaşması istiqamətində yürütdükləri siyasətə görə xeyli seçici itirdilər. Belçika, Norveç, İsveçrə, Almaniya, Danimarka, Avstriya kimi ölkələrdə insanların bir qismi, məhz iqtisadiyyatın qloballaşması nəticəsində müəyyən sosial problemlərin yarandığı qənatindədirlər. Türkiyədə Ədalət və Kalkınma Partiyası (AKP) isə iqtidar dönəmlərindəki sosial siyasətə görə yenidən iqtadarda qala bildi.

*4. Siyasi elitanın formalaşması.* Seçki siyasi elitanı formalaşdıran, onu yeniləşdirən əsas mexanizmdir. Siyasi elita yeniləşməyəndə, inkişaf etməyəndə siyasi hakimiyyətin formalaşması prosesində də durğunluq yaranır və bu vəziyyət bütövlükdə cəmiyyətin inkişafına neqativ təsir göstərir.

*5. Vətəndaşların siyasi iştirakının institualllaşması.* Siyasətin subyektləri siyasi proseslər çərçivəsində öz maraqlarını həyat keçirmək üçün çeşidli səylər göstərir.

Onların siyasi davranış formaları müxtəlif olur. Ölkədə stabilliyə nail olmaq üçün, ilk növbədə, vətəndaşların öz iradələrini seçki vasitəsiylə həyata keçirmələrinə təminat və şərait yaradılmalıdır. Demokratiyada siyasi iştirakın vacib institusional forması-seçkidə iştirakdır.

*6. Siyasi sosiallaşma.* Cəmiyyətdə vətəndaşların siyasətə cəlb olunma dərəcəsi o qədər də böyük deyil. Amma buna baxmayaraq hər bir vətəndaşın siyasi sistemə adaptasiyası vacib şərtlərdəndir. Seçki kampaniyaları zamanı siyasi partiyalar insanlarda müxtəlif dəyərlər və əminliklər formalaşdırmağa çalışır. Adi vətəndaşlarda isə seçkilər dövlətə, dövlətçiliyə saygı, onun qarşısında məsuliyyət hissləri yaradır.

Hansı seçkiləri gerçək demokratik seçkilər hesab etmək olar?

Gerçək demokratik seçki bir sıra tələblərə cavab verməlidir. Bunlardan biri seçkilərin *zəruri və dövri olmasıdır.* Seçkilərin zəruriliyi tələbi siyasi hakimiyyətin formalaşmasının başqa yolunu qəbul etmir. Dövrilik isə siyasi hakimiyyətlərin fəaliyyət dövrlərinin qanunla çərçivələnməsidir. Siyasi hakimiyyətlər əbədi ola bilməz. O müəyyən zaman çərçivəsində fəaliyyət göstərməlidir.

Digər bir tələb seçkilərin *şəffaflığıdır*. Bu tələbə görə seçici, seçkili orqanlara namizədlər haqqında məlumatlar almaq imkanına malik olmalıdır. Eyni zamanda, seçkilərin və səsvermənin nəticələri təhrifsiz bütün vətəndaşlara elan edilməlidir. Gerçək demokratik seçkilər üçün vacib tələblərdən biri də, onun *azad* olmasıdır. Vətəndaş seçkidə iştirak etməyə, kimə səs vermək məsələsinə ozü qərar verməlidir. İnsanları hansısa namizədə, partiyaya səs verməyə məcbur etmək, onları inzibati qaydalarla səfərbərliyə almaq seçki azadlığının ortadan qaldırılması deməkdir.

Seçkilərdə *alternativlik* olmalıdır. Rəqib və rəqabət olmadan demokratik seçki keçirmək mümkün deyil. Müqayisə etmək, paralellər aparmaq üçün seçkidə alternativlər olmalı,

vətəndaşlar ideyaları, dəyərləri, çeşidli proqramları seçmək imkanı qazanmalıdır.

Demokratik seçki üçün vacib tələblərdən biri də seçkilərin *ədalətliliyidir*. Ədalətli seçkilər, əsasən, seçkilərin saxtalaşdırılmamasını özündə ehtiva edir. Bu prinsipə görə seçki kampaniyası zamanı tərəflərin hamısına bərabər imkan, şərait yaradılmalı, hamı eyni şərtlərlə maliyyələşdirilməli, hamıya eyni təbliğat vaxtı ayrılmalı, şikayətlərə operativ və obyektiv baxılmalıdır.

- **Seçki senzləri**

Seçki müəyyən olunmuş siyasi prosedurdur. Bu prosedurda bir tərəfdə seçənlər, digər tərəfdə seçilənlər (siyasətçilər) iştirak edirlər. Seçilənlər seçici maraqlarından çıxış edərək öz siyasi platformalarını, proqramlarını tərtib edir və hakimiyyət uğrunda mübarizə aparır. BMT insan haqlarına dair Ümumi Deklarasiyanın 21-ci maddəsinə görə: «hər bir insanın öz ölkəsinin idarə olunmasında birbaşa, yaxud azad surətdə seçilmiş nümayəndələr vasitəsiylə iştirak eimək hüququ var».

İnsanlar üçün geniş seçki hüquqları mövcud olduğu kimi, müəyyən yasaqlar da mövcuddur ki, buna seçki senzi deyilir. Senz seçkilər üçün tətbiq olunan bəzi məhdudiyyətlərdir və onlar konkret qanunlarda öz ifadəsini tapır.

*a) Vətəndaşlıq senzi*. Bu senzin tələbinə görə seçmək və seçilmək hüququ vətəndaşlıq məsələsi ilə bağlı olur. Məsələn, ABŞ-da seçki hüququna malik olmaq, yəni nümayəndələr palatasına seçilmək üçün 7 il, Senata seçilmək üçün 9 il, prezident olmaq üçün 14 il bu ölkənin vətəndaşı olmaq lazımdır. Finlandiya, Belarus, Qazağıstan kimi ölkələrdə isə həmin ölkələrdə doğulmuş vətəndaşlar prezident seçilə bilər.

*b) Daimi yaşayış yeri senzi*. Bu senz hər hansı bir dövlətin ərazisində qanunla müəyyənləşdirilmiş daimi yaşayış müddəti ilə bağlıdır. Məsələn, Yaponiyada seçkidə iştirak etmək üçün bu ölkədə 3 ay yaşamaq kifayət edir.

*c) Yaş senzi.* Müəyyən yaş həddinə çatmaqla seçkidə iştirak hüququnu nəzərdə tutur. Dünya ölkələrinin əksəriyyətində 18 yaşına çatmış vətəndaşlar seçkilərdə seçici qismində iştirak hüququ qazanır. Braziliya, İran, Kuba kimi ölkələrdə seçmək hüququnu təsbit edən yaş, 16 yaşdır. Seçilmək üçün də senzlər mövcuddur. Məsələn, Azərbaycanda 25 yaşına çatmış vətəndaşlar millət vəkili, 35 yaşına çatmış vətəndaşlar isə prezident ola bilər.

*d) Əmlak senzi.* Bu senz seçkidə iştirak etmək üçün müəyyən ölçüdə əmlaka sahib olmaq və müəyyən vergini ödəmək imkanını özündə ehtiva edir. XX əsrin əvvəllərində bu senz praktik olaraq hər yerdə ləğv olundu.

*e) Cins senzi,* ancaq kişilərə seçki hüququ tanıyan məhdudiyyət idi. Bu senz dünyada ilk dəfə 1893-cü ildə Yeni Zelandiyada, Avropada isə ilk dəfə 1906-cı ildə Finlandiyada, 1945-ci ildə İtaliya və Fransada, 1971-ci ildə İsveçrədə ləğv olunub. ABŞ-da 1920-ci ildə Konstitusiyaya düzəliş edildi və cins senzi ortadan qaldırıldı.

Seçki senzlərinin mövcudluğu seçkilərin demokratik keçirilməsinə təsir göstərmir, yaxud bu siyasi aksiyanın qeyri-demokratik olmasına dəlalət etmir. Əksinə, demokratik seçkilər üçün hansısa məhdudiyyətlərin olması zəruridir. Məsələn, yaşla bağlı senz müəyyən həyat təcrübəsinə malik olan, vətəndaşlıqla bağlı senz isə ölkəni yaxşı tanıyan şəxslərin yüksək vəzifələrə seçilməsinə imkan yaradır. Seçkidə cins, irq, etnos, dinlə bağlı məhdudiyyətlər azadlığın və demokratiyanın məhdudlaşdırılması demək olardı.

- **Seçki sistemləri**

Seçki sistemləri seçkili dövlət orqanlarının formalaşması qaydaları, bu qaydaların cəmidir. Onların əsasında elektoratla hökumət və parlament arasında münasibətlər formalaşır. Seçki sisteminin bir neçə əsas tipi var: *majoritar, proporsional və qarışıq*. M*ajoritar (çoxluq) seçki sistemi* çox qədim sistemdir.

Bu seçki sistemində seçicilər ayrı-ayrı namizədlərə səs verir. Majoritar seçki sitemi çoxluğun iradəsinə əsaslanır. Yəni seçicilərin çoxu-50+1 nəfəri hansı namizədi dəstəkləyirsə, o da seçilir. Nisbi çoxluq prinsipinin məntiqinə görə qalib olmaq üçün rəqibdən çox səs toplamaq lazım gəlir. Majoritar seçki sisteminin özünəxas çatışmayan cəhətləri var. Məsələn, namizədlər çoxaldıqca tələb olan səslərin sayı da azalır. Əgər konkret bir seçki dairəsində 10 nəfər namizəd yarışırsa, onlardan biri seçicilərin 10%-nin səsi ilə seçilmək imkanı qazanır. Deməli bu zaman qalan 90%-in, yəni mütləq çoxluğun səsi təsir gücünü itirir. Majoritar seçki sisteminin başqa qüsurları da var: seçicilərin faizinin aşağı olması; bir sıra hallarda ikinci turun keçirilməsi (digər ölkələrdən fərqli olaraq Fransa parlamentinə seçkilərdə ikinci tura 12, 5% səs toplayan bütün namizədlər keçir); siyasi partiyaların hakimiyyət strukturlarında təmsilçilik dərəcəsinin aşağı düşməsi; partiyalardan, bloklardan mandat alanlarla, onlara səs verənlər arasında disproporsiyanın yaranması (ayrı-ayrı seçki dairələrində bir seçki blokunun, siyasi partiyanın namizədlərindən 90%-i ikinci, 10 %-i birinci yerə çıxırsa, həmin seçki bloku, yaxud partiya bütövlükdə ölkə ərazisi üzrə çoxsaylı seçici səsi itirir) və s.

Hazırda bu sistemdən Böyük Britaniya, ABŞ, Kanada, Hindistan və b. ölkələrdə uğurla istifadə olunur.

*Proporsional sistemə* görə deputat mandatları seçkidə iştirak etmiş partiyalar və seçki blokları arasında toplanan səslərə mütənasib qaydada bölünür. Partiya və Blokların siyahısı əvvəlcədən tərtib olunur və MSK-ya təqdim edilir. Proporsional seçki sistemi də dünyada geniş yayılmış sistemlərdəndir. Hazırda Avstriya, Danimarka, Belçika, Braziliya, İsrail, Portuqaliya, İsveçrə, Hollandiya kimi ölkələrdə bu seçki sistemi tətbiq olunur. Səslərin həddən artıq bölünməsinin qarşısını almaq üçün bir çox ölkələrin seçki qanunvericiliyi zəruri minimum hədd müəyyənləşdirir. Seçki

barajı adlandırılan bu minimum hədd, müxtəlif ölkələrdə müxtəlif cürdür. Məsələn, bu baraj Misirdə 8%, İsveçdə 4%, Argentinada 3%, Türkiyədə 10%-dir. Bu barajı aşa bilməyən partiyalar parlamentdə heç bir yer ala bilmir.

Toplanan səslərin nəticələrinə mütənasib olaraq partiyalar parlamentdə təmsilçilik üçün mandat qazanırlar. Partiya siyahılarından namizədlərin mandat qazanması iki əsas prinsip əsasında müəyyənləşdirilir:

1. Növbəlilik, yəni deputat mandatı partiya siyahısındakı birinci namizəddən başlanaraq ardıcıllıqla qazanılır.

2. Preferensiallıq (rəğbət), yəni seçicilər rəğbətdən asılı olaraq namizədlərin siyahıdakı yerini dəyişə bilirlər. Bu prinsipin üstün cəhəti odur ki, majoritar seçki sistemində olduğu kimi seçicilərin siyasi rəyi və istəyi nəzərə alınır.

Lakin proporsional seçki sistemi də ideal deyil, onun da çatışmayan cəhətləri var. Bu seçki sisteminin tətbiq olunduğu ölkələrdə bir çox hallarda cəmiyyətin siyasi həyatında ciddi rol oynaya bilməyən xırda partiyalar da böyük partiyalar kimi parlamentdə təmsil oluna bilir və siyasi hakimiyyətin fəaliyyətinə təsir göstərmək imkanı qazanırlar. Məsələn, 1990-cı ildə Polşa Seyminə seçkilər zamanı ölkədə elə də nüfuzu olmayan pivəsevərlər partiyası 3% seçici (sonra Polşada barajı aşma faizi dəyişdirildi) səsi qazandı və parlamentdəki 460 mandatdan 16 mandata sahib oldu. Bu seçki sistemi parlamentli və yarıprezidentli idarəçilik forması olan dövlətlərdə də problemlər yaradır. Belə ki, hökumət formalaşdırmaq üçün zəruri səs toplaya bilməyən partiyalar koalisiyalı hökumət qurmağa məcbur olur. Belə hökumətlər isə tez-tez böhranlarla üzləşir. Məsələn, Türkiyədə son beş ilə qədər qurulan hökumətlər koalisiyalı hökumətlər idi və bu üzdən də onların fəaliyyəti siyasi böhranlarla müşaiyət olunurdu. 1990-cı illərə qədər İtaliyada da eyni siyasi vəziyyət mövcud idi. Formalaşan koalisiyalı hökumətlərin ömrü bir ildən artıq olmurdu. Proporsional seçki sisteminin çatışmayan

cəhətlərindən biri də seçicilərin konkret namizədə deyil partiyaya, siyasi bloka səs verməsidir. Bu, eyni zamanda deputatların partiyalardan asılılığını artırır. Çünki siyahıdakı ardıcıllığı partiya müəyyənləşdirir.

*Qarışıq sistemin* mahiyyəti odur ki, parlamentin bir hissəsi konkret, yəni təkmandatlı dairələrdə qələbə çalmış namizədlərdən, digər hissəsi isə partiya və blokların siyahısı üzrə müəyyənləşdirilimiş namizədlərdən formalaşdırılır. Yəni bu sistem proporsional və majoritar seçi sistemlərinin sintezindən, qarışığından ibarət bir sistemdir. Belə seçkilərdə hər bir seçici 2 səsə malik olur. Başqa sözlə, bir seçici həm majoritardan olan namizədə, həm də partiyanın və yaxud seçki blokunun namizədinə səs verir. Majoritar seçki sistemində seçici konkret bir dairənin namizədinə səs verirsə, proporsional sistemə əsasən seçici bütün ölkə üzrə hansısa partiya və seçki blokuna səs verir. Qarışıq seçki sistemi hazırda Almaniya, Litva, Yaponiya, Türkiyə, Meksika və b. ölkələrdə tətbiq edilir.

- **Seçici və onun davranışı**

  Seçicilərin davranışına aşağıdakı amillər təsir göstərir:

  - seçkilərin azad və ədalətli olması;
  - əvvəllər keçirilən seçkilərlə bağlı yaranmış ictimai rəy;
  - seçilənin kimliyi, proqramı və mənsub olduğu dəyərlər;
  - əhalinin sosial tərkibi;
  - əhalinin adət, vərdiş və stereotipləri, maraqları;
  - seçki keçirilən ölkədə yaranan konkret şərait;
  - seçki keçirilən ölkədə siyasi partiyaların sayı, durumu;
  - əhalinin etnik tərkibi;
  - əhalinin maddi vəziyyəti;
  - siyasi maarifçiliyin, siyasi şüurun, siyasi mədəniyyətin inkişaf səviyyəsi;
  - namizədlərin müasir seçki texnologiyalarından istifadə qabiliyyəti;

- seçicilərin siyasi reklamdan və mediadan istifadə imkanları və bacarıqları və s.

Seçicilərin özü isə aşağıdakı kateqoriyalara bölünür:

- radikallar;
- mötədillər (konservatorlar);
- marginallar (tez dəyişən və proqnozlaşdırılmayan);
- passivlər.

Post-sovet məkanında elektorat çox vaxt siyasi həyata biganə olur, seçkilərdən qaçmağa çalışır. Buna politologiyada absenteizm deyilir. Absenteizmn səbəbləri aşağıdakılardır:

- qeyri-siyasiləşmə (apolitiklik);
- seçicilərin maraqlarını təmin edən namizədin olmaması;
- yaranmış siyasi şəraitə seçkilərin təsir göstərəcəyinə əminliyin ortadan qalxması;
- namizədlər və partiyalar haqqında məlumat qıtlığı;
- «məişət absenteizmi», yəni seçki keçirilən vaxt həmin ərazidə olmamaq, xəstələnmək, pis hava və s.;
- mövcud siyasi sitemdən yüksək həddə və kütləvi razılığın olması, vətəndaşların siyasi hakimiyyətin dəyişdirilməsinə heç bir lüzum görməməsi.

Türkiyə, Belçika, Braziliya, Yunanıstan, Avstraliya kimi ölkələrdə seçkilərdə iştirak təkcə vətəndaşların hüququ deyil, həm də vəzifəsi sayılır. Bu ölkələrdə seçkidə iştirakdan yayınanlar cərimələnir, dövlət işlərində çalışmağa müəyyən müddətə məhdudiyyətlər qoyulur, bəzən isə həbs qəti imkan tədbiri tətbiq edilir.

- **Azərbaycanda seçkilər**

Azərbaycanda seçkilər məcburi deyil. Seçkidən yayınmaya görə qanunvericilikdə cəza nəzərdə tutulmur. Konstitusiyaya görə dövlət unitardır və seçkilər Milli Məclisin (MM) qəbul etdiyi qanunlar əsasında keçirilir. Azərbaycan Respublikasının Konstitusiyasına görə (fəsil-1, maddə-100) prezidentliyə iddiaçı 35, parlamentə iddiaçı 25 yaşına çatmalı, ölkə ərazisində ən

azı 10 il yaşamalı, ağır cinayətlərə məhkum edilmiş şəxs olmamalıdır. Ölkə Konstitusiyası ikili vətəndaşlığı, özgə dövlətlər qarşısında öhdəliyi olanların, icraedici və məhkəmə hakimiyyəti sistemində işləyənlərin, din xadimlərinin, fəaliyyət qabiliyyəti olmayanların, qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə cəzaçəkmə yerlərində olanların, azadlıqdan məhrum edilmiş şəxslərin parlamentə seçilməsini qadağan edir (fəsil-5, maddə-85). Konstitusiyaya görə həm parlament, həm prezident seçkiləri 5 ildən bir keçirilir. Seçkilərin vaxtını Mərkəzi Seçki Komissiyası müəyyən edir.

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə 4 dəfə (1995, 2000, 2005, 2010) parlament seçkiləri keçirilib. Bu seçkilərin əvvəlki ikisi qarışıq sistem əsasında aparılıb. Sonuncu 2005-ci il seçkisi birmandatlı, yəni mojaritar sistem əsasında keçirilib. Çünki 2002-ci il avqustun 24-də Konstitusiyaya əlavə və dəyişmələrlə bağlı referendum keçirildi və bu referendumun nəticələrinə uyğun olaraq Azərbaycan Konstitusiyasında birmandatlı, yəni mojaritar seçki sistemi təsbit olundu. Milli Məclis 125 deputatdan ibarətdir.

Azərbaycanda ilk prezident seçkiləri 1991-ci ildə, 1992-ci ilin iyununda növbədənkənar, 1993-cü ilin oktyabrında yenə növbədənkənar prezident seçkiləri keçirildi. Dördüncü prezident seçkiləri 1998-ci ildə, beşinci prezident seçkiləri 2003-cü ildə, sonuncu prezident seçkiləri isə 2008-ci ildə keçirilib.

## IX. Seçki texnologiyaları

- *Siyasi idarəetmə*
- *Siyasi qərarlar*
- *Seçki siyasi sistemi yeniləşdirən əsas siyasi texnologiya kimi*
- *Cəmiyyətlə əlaqə texnologiyaları*
- *Seçki kampaniyasının strategiyası*
- *Siyasətdə informasiya texnologiyaları*
- *Lobbiçilik*

### Ədəbiyyat


1. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
2. Varma. S.P. Modern politikal theories. Dehli 1999
3. Гаджиев К. С. Политическая культура и стабилность демократии. Полис, 1992, № 4
4. Лавриенко В.Н. Политология. Москва, 2006
5. Богомолов О. О неолиберализме. Междурародный жизнь, 1999, № 2
6. İbrahimli H. Azerbaycan Diasporası: mövcud durumu ve geleceği konusunda bazi notlar. Avrasiya Dosyesi jurnalı (Ankara) 2001, N1.
7. İskəndərzadə E. Lobbiləşdirmənin əsasları. Bakı. 2001
8. Siyasi biliklərin əsasları. Bakı,1999
9. Siyasi plüralizm və çoxpartiyalı demokratiya. Bakı, 1996
10. Siyasi liderlik. Bakı, 1999
11. Seçki texnologiyaları. Bakı,1998
12. Fatmagül Bektay. Politikanın Çağrısı. İstanbul Bilgi İniversiteti, 2010

- **Siyasi idarəetmə**

***Görmək asandır, öncədən görmək çətindir (Franklin)***

Siyasi həyatda önəmli olan təkcə nəzəriyyələr və konsepsiyalar deyil, həm də siyasətin hansı üsul, metod və texnologiyalarla gerçəkləşməsidir. Bu suallara konkret siyasi situasiyaları öyrənən, proqnozlaşdıran tətbiqi politologiya cavablar axtarır.

*Siyasi idarətemə*-başqa sözlə siyasi menecment son vaxtlar politologiyada əsaslı şəkildə özünə möhkəm yer tutmuş kateqoriyadır. Uzun illər politoloqlar bu terminə ehtiyatla yanaşıb. Çünki bu termin insanların siyasi baxımdan manipulyasiyası ilə assosiasiya yaradır. Hazırda siyasi idarətməyə daha çox vətəndaşın bu prosesdə aktiv iştirakı kimi baxılır. Doğrudan da demokratik cəmiyyətlərdə get-gedə daha çox insan siyasi kursun formalaşmasında, dövlət əhəmiyyətli ciddi qərarların qəbul edilməsində iştirak edir. Bununla bağlı idarəetmənin texnikası, prosedurları, üsulları formalaşır ki, bu da özlüyündə siyasi texnologiyaların məcmusunu təşkil edir. Siyasi idarəetmə mexanizmlərinin bərqərar olmasında əsas rolu vətəndaş cəmiyyətinin yaranması, media və siyasi partiyalar oynayır.

Siyasi məqsədə nail olma üç mərhələdən keçir:

- metodoloji-tədqiqatın nəzəri və konseptual yöndə formalaşdırılması;
- metodik-ilkin informasiya toplanması metodunun müəyyənləşməsi;
- texnoloji-siyasi həyatda birbaşa iştirak.

*Siyasi texnologiya*-hakimiyyətə yiyələnmə texnologiyasıdır. Bu mənada, hakimiyyətin çoxşaxəli olması siyasi texnologiyaların çoxvariantlı olması zəruriliyini ortaya qoyur.

Siyasi texnologiya-siyasi proseslərin effektliliyinin yüksəldilməsinə yönəldilmiş və siyasi sferada uğur qazanmağa hesablanmış üsulların, metodların məcmusudur. Totalitar cəmiyyətlərdə əsas siyasi texnologiya qorxutma, məcburiyyət

və zor tətbiq etmədir. Seçki texnologiyaları əsasən ictimai inkişafın xarakteri və səviyyəsi, rejimin mahiyyəti ilə müəyyənləşdirilir.

Müasir dövrdə daha çox tətbiq olunan seçki texnologiyaları-seçici texnologiyaları, informasiya-analiz texnologiyası, reklam-imic texnologiyası, siyasi marketinq texnologiyası, lobbiçilik və siyasi məsləhətləşmə texnologiyası sayılır.

Seçici texnologiyası adlanan texnologiya təşkilat, təbliğat, reklam-informasiya və digər tədbirlərin kompleksini nəzərdə tutur. Onun praktiki icrası «komanda» və seçki qərərgahının yaradılmasından başlayır. Bu kampaniyanın vacib tərkib hissələrindən biri namizədin imicinin formalaşdırılmasıdır. Bir çox ekspertlər hesab edirlər ki, seçiciyə namizədin imici, yəni emosional-hissi amil daha çox təsir edir. Populyar texnologiyalardan biri də lobbiçilikdir. Lobbiçilik XX əsrin ikinci yarısından sonra praktikada tətbiq olunmağa başlasa da, hal-hazırda dünyanın bir çox ölkələrində xüsusi diqqət mərkəzindədir.

- **Siyasi qərarlar**

***Hər bir tapşırılan iş üçün bir insan-ancaq bir insan cavab verməlidir (Bismark)***

Siyasi fəaliyyətin əsas sahəsi siyasi qərarların hazırlanması, qəbul edilməsi və həyata keçirilməsidir. Qərar qəbul etmək insan fəaliyyətinin bir növüdür. Politologiyada siyasi qərarların hazırlanması məsələsinə iki cür yanaşma mövcuddur:

*Normativ nəzəriyyə*. Bu nəzəriyyəyə görə qərarların hazırlanması və qəbulu standart sxemlərə, modellərə əsaslanır.

*Davranış nəzəriyyəsi*. Bu nəzəriyyəyəyə görə insan fəaliyyətinin, davranışının spesifik xüsusiyyətləri əsas götürülür.

Qərar-hər zaman seçim aktıdır, alternativin müəyyənləşdirilməsidir. Siyasi qərar, ən azı mümkün iki siyasi addımdan birinin atılmasıdır. Siyasi qərar siyasi sferada müəyyən nəticə əldə etmək üçün həyata keçirilən siyasi tədbirdir. Siyasi və hüquqi qərarlar arasında bağlayıcılıq rolunu siyasi qərar yerinə yetirir. İstənilən siyasi sistemdə siyasi subyekt var və o qərarları qəbul edir (elita, fərd, təşkilat və s.).

Qərarların formalaşması texnologiyası:

- problemin öyrənilməsi;
- ilkin informasiyanın analizi;
- alternativin dəyərləndirilməsi və optimal variantın seçilməsi;
- qərarın qəbulu;
- onun yerinə yetirilməsi;
- yerinə yetirilməyə nəzarət;
- nəticələrin dəyərləndirilməsi.

Qərarların qəbul edilməsinə yanaşmanın növləri aşağıdakılardır:

*İntuitiv qərar*. Belə qərarlar intuisiyaya söykənir. P. Şodorberk hesab edir ki, belə məqamlarda informasiyaların çoxluğu qərar qəbul edənə təsir göstərir.

*Mühakiməyə əsaslanan qərar*. Belə qərarlar da bəzən intuitiv təsir bağışlayır. Eyni zamanda, mühakiməyə əsaslanan qərarlar, bir qayda olaraq, təcrübədən və bilikdən qaynaqlanır.

*Rasional qərar*. Mühakimə və rasionallığa əsaslanan qərarlar bir-birindən əski təcrübəyə istinad edilməməsi ilə fərqlənir. Rasional qərarlar proseslərin obyektiv analizi əsasında qəbul edilir.

Qərarların qəbulu metodları:

- *Əhatəlilik*. Qərarı qəbul edən subyekt bütün tərəfləri nəzərdən keçirir, sonra yaxşı variantların ən yaxşısını seçir.
- «*Budaqlı metod*». Bu zaman müqayisələr məhdudlaşdırılır. Belə metod bəzən qeyri-elmi və sistemsiz metod kimi dəyərləndirilir.

- *Qarışıq metod.* Bu daha geniş çaplı fəaliyyəti və qərar qəbul ediləndən sonra da onun üzərində təkmilləşdilmə işlərinin aparılmasını özündə ehtiva edir.

Qərarların qəbul edilməsi qaydası ikidir:

- kompromiss, konsensus;
- səsvermə.

Siyasi qərarların yerinə yetirilməsi:

- populizm, yəni kütləvi ovqata arxalanmaqla qərarların yerinə yetirilməsi;
- elitizm, yəni siyasi prosesdə nümayəndəli orqan və strukturlara arxalanmaq. Bu zaman hakimiyyət aparatının fəaliyyətinə və pərdəarxası olaylara üstünlük verilir;
- radikalizm isə vətəndaşlara ən az sülh vəd edən metoddur.

Bütün bunlardan başqa hər bir siyasətçinin öz qərar qəbul etmə stili var. Siyasi liderlər öz xarakterlərinə, davranış tərzlərinə görə bir-birlərindən fərqləndiklərinə görə, onların hər biri yaranmış şəraitə müvafiq olaraq qərarlar qəbul edir.

- **Seçki siyasi sistemi yeniləşdirən əsas siyasi texnologiya kimi**

XX əsrdə siyasi sahə daha çox peşəkarlıq tələb edən bir sahəyə çevrildi. Siyasi partiyalar və ayrı-ayrı syasətçilər standart qaydalar və taktiki üsullarla yanaşı, hər seçkidə yeniliklər tətbiq etməyə və özlərinə daha çox tərəfdarlar toplamağa çalışır.

Cəmiyyətdək siyasi institutlar da daim yeniləşir. Yeni siyasi partiyalar yaranır, konstitusiyalara dəyişmələr edilir, qanunvericiliklər dəyişdirilir, təkmilləşdirilir, referendumlar keçirilir, müqavilələr bağlanır və s. Seçki bu yeniləşmələrin texnoloji baxımdan əsas təminatçısıdır. Ona görə də seçkilərin azad, ədalətli, şəffaf keçirilməsi çox əhəmiyətlidir.

Seçki:

- insanlara öz konstitusion hüquqlarını gerçəkləşdirmək imkanı verir;

- vətəndaşlarda qanunlara əməl etməyə vərdiş və hörmət aşılayır;

- partiyaların real gücünü müəyyənləşdirir;

- siyasi elitanın yeniləşməsinə, kadrların hazırlanmasına, formalaşdırılmasına pozitiv təsir göstərir;

- qanunverici orqanın legitimliyini gücləndirir;

- partiyaları möhkəmləndirir, təcrübələndirir;

-partiya sisteminin strukturlaşmasına və onların cəmiyyətin tələblərinə uyğunlaşdırılmasına təkan verir;

- siyasi mədəniyyətin, siyasi şüurun inkişafına pozitiv təsir göstərir və s.

- **Seçki kampaniyasının strategiyası**

Siyasi mübarizənin hər bir subyekti həm hakimiyyətə yol tapmağın real təminatı üçün, həm də seçicilər və digər siyasi subyektlərə özlərinin mövcudluqlarını xatırlatmaq üçün imkan dairəsində bütün səviyyə və miqyasda seçkilərdə iştirak etməlidir. Seçki kampaniyası aparılmasının üsul və metodlarının hazırlanması, həmçinin müəyyən partiya, yaxud siyasətçinin imicinin formalaşması eyni vaxtda həyata keçirilir. Seçki kampaniyasının konkret strategiyası əsasən real situasiyaya uyğun əldə olunan resurslarla, kampaniyanın özünün miqyası və bundan doğan müəyyən şərtlərlə müəyyənləşir.

Miqyasına görə seçkiləri ümummilli və yerli seçkilərə bölmək olar. Ümummilli seçkilərə parlament və prezident seçkiləri aiddir. Yerli seçkilər isə inzibati ərazi başçılarına (əgər qanunda bu strukturlar seçki yolu ilə formalaşırsa), və bələdiyyə seçkilərinə aiddir. Həmçinin, yerli hakimiyyət orqanlarına keçirilən seçkilər yerli seçkilər hesab olunur (məsələn, Naxçıvan MR-də keçirilən seçkilər).

Seçki kampaniyasının strategiyasını müəyyənləşdirərkən bəzi qaydalara əməl olunmalıdır. Bunlar aşağıdakılardır:

- məqsəd dəqiq, aydın və real olmalıdır;
- əldə olan bütün resursların və potensial ehtiyatların maksimum səfərbərliyi təmin edilməlidir;
- partiya və yaxud namizəd üçün müəyyən olunmuş konyuktura və ümumilikdə şərait, həmçinin, seçki kampaniyasının gedişində onların dyişməsi ehtimalı real qiymətləndirilməlidir.

Məqsədin müəyyənləşməsi seçki kampaniyası strategiyasının müəyyən olunması üçün başlıca əhəmiyyətə malikdir.

Çox vaxt kifayət qədər təsir gücünə malik olmayan siyasi partiyalar və siyasətçilər üçün məqsəd məhz seçki kampaniyasında iştirak etmək ola bilər. Bu və ya digər ölkələrdə mövcud olan qanunvericilik məhdudiyyətləri nəzərə alındıqda, qarşıya qoyulan məqsədin gerçəkləşməsinin çətin olduğu aşkara çıxır. Ona görə hər bir seçki subyekti üçün bu iştirakın formasını müəyyənləşdirmək vacibdir. Bunlar hansılardır?

- seçkidə müstəqil şəkildə iştirak etmək;
- digər partiyalarla paritet əsaslarla formalaşdırılmış blokda iştirak etmək;
- digər partiyalarla blokda kiçik tərəf müqabili kimi iştirak etmək;
- perspektiv siyasi karyera naminə digər partiyaları, yaxud seçki bloklarını dəstəkləməklə seçkidə iştirak etmək;
- müstəqil, ya da başqa partiyalarla birlikdə seçkini boykot etmək.

Beləliklə, seçki kampaniyasının strategiyası siyasi mübarizənin bu və ya başqa iştirakçılarının malik olduqları real şərait və imkanlarla müəyyənləşən parametrlərdən, qələbəni təmin edən amillərdən ibarətdir.

- **Cəmiyyətlə əlaqə texnologiyaları**

Dövlət strukturlarının cəmiyyətlə əlaqələr qurmaqda əsas qayğısı vətəndaşlarla anlaşmaya nail olmaqdır. Tarixdə elə bir rejim olmayıb ki, xalq, yaxud onun müəyyən hissəsi tərəfindən dəstəklənməsin. Lakin bu dəstəyi qazanmağın yolları müxtəlifdir. Politoloqlar ictimaiyyətlə əlaqələrin aşağıdakı növlərini göstərir:

- birtərəfli (balanslaşdırılmamış);
- ikitərəfli (balanslaşdırılmış);
- ikitərəfli (balanslaşdırılmamış).

Müasir demokratik cəmiyyətlərə daha çox üçüncü uyğun gəlir. Bu növün prinsiplərinə görə hakimiyyət orqanları vətəndaşları öz planları ilə tanış edir, seçki proqramlarının hazırlanması zamanı vətəndaş maraqları nəzərə alınır.

Cəmiyyətlə əlaqələrin qurulmasında medianın da rolu böyükdür. Media vasitəsiylə informasiya iki istiqamətdə axır: yuxarıdan aşağıya, yəni hakimiyyətin yürütdüyü siyasət, qəbul olunan qərarlar vətəndaşlara çatdırılır; aşağıdan yuxarıya istiqamət isə qəbul olunan qərarlara vətəndaşların reaksiyasını özündə əks etdirir. Bu baxımdan media 4-cü hakimiyyət adlandırılır.

Cəmiyyətlə əlaqələrin effektli qurulmasında vacib məsələlərdən biri də hakimiyyətin vətəndaşlarla qeyri-formal görüşləridir. Bunun formaları müxtəlifdir. Ünsiyyət insanlar arasında qarşılıqlı münasibətlər yaradan universal mexanizmdir. Ünsiyyət özü də iki növə bölünür: işgüzar və qeyri-rəsmi. Cəmiyyət-hakimiyyət əlaqələrində bu ünsiyyət növlərinin hər ikisi iştirak edir. Totalitar cəmiyyətlərdə bir qayda olaraq rəsmi ünsiyyətə üstünlük verilir. Demokratik cəmiyyətlər isə qeyri-rəsmi ünsiyyətə geniş meydan verilir, insanlarla əlaəqələrin müxtəlif vasitələrindən istifadə olunur. Qeyri-rəsmi ünsiyyətdə insanlar daha səmimi olduqlarından, bu forma cəmiyyəti narahat edən problemləri öyrənmək baxımından da diqqəti cəlb edir.

- **Siyasətdə informasiya texnologiyaları**

Seçki kampaniyasının uğuru onun informasiya təminatından çox asılıdır. Seçkilərin taktiki və strateji planlaşdırılması zamanı siyasi qüvvələr balansı ilə yanaşı, daxili və xarici siyasətdəki durum da obyektiv təhlil olunmalıdır. Bundan başqa seçicilərin etnik tərkibi, əhvali-ruhiyyəsi, davranışları, bu davranışların motivasiyaları, arzu və ümidləri haqqında informasiyaların toplanması, təhlili ciddi praktiki əhəmiyyətə malikdir. Bu informasiyalar partiyaların müvafiq strukturlarında toplanır-daha doğrusu informasiya bankı yaradılır. Belə bankların təşkili üçün sistemləşdirilmiş sxem aşağıdakı kimi ola bilər:

a) Ümumi statistik məlumatlar, faktlar:

- iqtisadi göstəricilər;
- sosial göstəricilər;
- xarici siyasətdə vəziyyət;
- mədəniyyət-təhsil sahəsində vəziyyət;

b) Seçicilər və seçici dairələri haqqında məlumat:

- əhalinin ümumi sayı və ərazilərə paylanması;
- demoqrafik və cinsi tərkib;
- sosial və peşə tərkibi;
- şəxsi əmlaka görə bölünmə;
- etnik və dini mənsubiyyət;
- qeyri-adi hallar

c) Seçki kampaniyasının gedişi və rəqabət aparanlar haqqında məlumat

- namizədlər haqqında məlumat;
- mətbuatdakı fikirlər;
- rəqibləri gözdən sala biləcək məlumatlar («qara PR»);
- rəqibin komandası haqqında məlumat;
- seçki məntəqələri və dairələrində ötən seçkilər haqqında məlumatların analizi;
- dairə və seçki komissiyalarının tərkibi.

d) Sosioloji informasiyalar:

- əvvəlki sosioloji sorğuların analizi;
- seçkidə iştirak edənlərin reytinqlərinin öyrənilməsi;
- əhalinin istəklərinin, əhval-ruhiyyəsinin öyrənilməsi.

Əhalinin narahatçılığını öyrənməyin ən effektli yollarından biri də «Foks qrup»-larla işləməkdir. Bu qrupların köməyi ilə əhalinin aktiv hissəsindən bir qrupla disskusiyalar, görüşlər, dialoqlar keçirilir və insanların maraqları öyrənilir. Belə metod bəzən sosioloji sorğuları da əvəz edir.

Müasir dünyada seçki kampaniyalarına könüllülər çox cəlb edilir. Təcrübə göstərir ki, könüllülərin işə cəlb olunması effektli nəticələr verir. Bu səbəbdən də, indi siyasi texnoloqlar könüllülərin təşkili və onların işə cəlb olunması üsulları və vasitələri barədə ciddi düşünürlər.

Onu da unutmaq olmaz ki, indi seçki texnologiyasının əsas aləti kompüterdir.

- **Lobbiçilik**

Seçki kampaniyalarının uğurla həyata keçirilməsinə təsir göstərən amillərdən biri də lobbiçilik fəaliyyətidir. Lobiçilik (ingiliscə lobbi-dəhliz, kuluar deməkdir) leqal qaydada, qanun çərçivəsində müəyyən dövlət, hökumət qərarlarının qəbul olunmasına, ayrı-ayrı dövlət qurumlarına, vəzifəli şəxslərə təsir göstərmək məqsədiylə aparılan məqsədyönlü fəaliyyətdir. Əvvəllər lobbiçilik kölgə, kuluar siyasəti kimi başa düşülürdü və korrupsiya kimi o da pozitiv qarşılanmırdı. Sonralar bu fəaliyyət növü leqallaşdı və tam qanuni şəkil aldı. Lakin yenə də lobbiçilik fəaliyyəti anlayışı ilə bağlı bir sıra dəqiqləşdirmələr aparmaq lazım gəlir.

Birincisi, lobbiçiliyin subyekti kimi qurum deyildikdə, adətən, hansısa qərarın qəbulunun ondan asılı olduğu konkret vəzifəli şəxs nəzərdə tutulur. Qurum deyildikdə bir neçə şəxs də nəzərdə tutulur. Məsələn, deputatlar qrupu.

İkincisi, lobbiləşdirilmiş qərar həm müsbət, həm də mənfi xarakter daşıya bilər. Məsələn, ABŞ-dakı erməni lobbisi

vaxtilə Konqres tərəfindən məlum 907-ci düzəlişin qəbul edilməsinə nail olmuş, hazırda isə Azərbaycana qarşı ədalətsiz və diskriminasiya xarakterli bu qərarın aradan qaldırılmaması üçün palata üzvlərinə bütün istiqamətlərdə təzyiq göstərir. Yəni lobbiçilik eyni dərəcədə həm müsbət, həm də mənfi istiqamətə yönəldilə bilər.

Üçüncüsü, lobbiçilik fəaliyyəti vəzifəli şəxslərin yalnız maddi stimullaşdırma prinsiplərinə əsaslanmır. Bu fəaliyyət növü hazırda geniş yayılmış və təsirli amil hesab olunur. Qanunla təhdid olunan rüşvətvermə əvəzinə, hazırda başqa metodlardan istifadə edilir: seçki fondlarına birdəfəlik, yaxud mütəmadi yardım göstərilməsi, pulsuz xarici səfərlərin təşkili, sərfəli mühazirə turları, vəzifəli şəxslərin qohumlarının, köməkçilərinin, bəzən də hökumət qurumlarındakı yerlərini itirdikdə onların özlərinin də «yağlı yerlərlə» təmin olunması.

Nəhayət, lobbiçiliyi dövlət strukturları üzərində mafioz, klan, yaxud mason nəzarəti ilə qarışdırmaq düzgün olmazdı. Bu cür hallar ciddi və qanuna zidd mahiyyət daşıdıqları üçün lobbiçilikdən tamamilə fərqlənir. Beləliklə, geniş mənada lobbiçilik hökumət nümayəndələrinə, onların qərarlarına təsir göstərmək məqsədiylə iş görülməsi, xəbərlər göndərilməsidir.

Lobbiçiliyin dünyada ən geniş yayıldığı ABŞ-da bu fəaliyyət sahəsi «pablik rileyşenz», yəni «ictimaiyyətlə əlaqələr» adlanır. ABŞ-da lobbiçiliklə məşğul olan xüsusi şirkətlər mövcuddur və orada çalışanların böyük əksəriyyəti yüksək ixtisaslı hüquqşünaslardır. Bu ölkədə minlərlə hüquq şirkətləri «PR», yəni ictimaiyyətlə əlaqələr müqaviləsi bağlayır. Lobbiçi şirkətlər həm xarici dövlətlərin, həm də öz ölkələrinin vətəndaşlarının maraq və mənafelərinin müdafiəsi ilə məşğul olurlar. «PR» xətti ilə bağlanan bütün müqavilələr ABŞ Ədliyyə Nazirliyində qeydiyyatdan keçməlidir. Xarici hökumətlərin maraqlarını müdafiə edən ABŞ lobbiçi şirkətlərinin işini tənzimləyən əsas qanunvericilik aktı 1938-ci ildə qüvvəyə minmiş və 1942-ci ildə «Əcnəbi agentlərin

qeydiyyatı haqqında akt» kimi yenidən nəzərdən keçirilib, xeyli təkmilləşdirilmişdi. Bu qanun o zaman ölkədə faşist və kommunist təbliğatının qarşısını almaq məqsədiylə qəbul edilsə də, sonrakı dövrlərdə lobbiçilik fəaliyyətinin hüquqi baxımdan tənzimlənməsində əsas sənədə çevrilmişdi. 1946-cı ildə lobbiçilik fəaliyyəti ABŞ-da açıq şəkil aldı, 1995-ci ildə isə onun aşkarlanması barədə qanun qəbul edildi. Mövcud aktların qəbul edilməsində başlıca məqsəd ABŞ milli maraqlarının müdafiəsi və xarici dövlətlərin təmsilçilərinin ölkə ərazisində fəaliyyətinin aşkar edilməsi idi. ABŞ qanunlarının lobbiçi şirkətlər qarşısında qoyduğu başlıca tələblərdən biri, onların fəaliyyətinin Amerikanın dövlət maraqları ilə ziddiyyət təşkil etməməsidir. ABŞ-la münasibətləri yaxşılaşdırmaq istəyən dövlətlər, bir qayda olaraq çalışırlar ki, öz maraq və mənafelərinin müdafiəsi üçün lobbiçi şirkətlərlə əməkdaşlıq etsin. Hazırda ABŞ-da onlarla lobbiçi şirkət əski Sovetlər Birliyindən olan dövlətlərin maraqlarının müdafiəsi ilə məşğul olur. Azərbaycanın maraqlarını müdafiə edən lobbiçi şirkət, uzun illərdir ki, Türkiyənin maraq və mənafelərini müdafiə edən «Kapitalayn»-dır. Ermənistanın maraqlarını isə nüfuzlu, həm də güclü «Amerika Erməni Milli Komitəsi» və «Devid Kin ənd Assoşieyts» lobbiçi şirkəti müdafiə edir. Birinci şirkət adından da məlum olduğu kimi ermənilərin öz şirkətidir və uzun illərdir Amerikada fəaliyyət göstərir. İkinci şirkətlə isə ermənilər hələ sovet dönəmlərindən müqavilə bağlamışdır. Ayrí-ayrí ölkələr və böyük kompanìyalarla yanışı, şəhərlər də ABŞ-dakı lobbiçi şirkətlərlə müqavilə bağlaya bilər. Lobbiçilik fəaliyyətinə geniş meydan verən Amerika bu fəaliyyətdən böyük kapital qazanır. Bəzən mütəxəssislər lobbiçilik fəaliyyətini Amerikanın rəğbətini qazanmaq uğrunda dünya dövlətlərinin rəqabəti də adlandırırlar və bu mülahizələrdə həqiqət yox deyil. Təbii ki, lobbiçiliyin təzahür etdiyi əsas sahələrdən biri siyasi sahə, konkret olaraq seçkilər, seçki kampaniyalarıdır.

Almaniyada da lobbiçilik fəaliyyəti qanunvericiliklə tənzimlənir. Bu qanunvericiliyə görə parlamentdə təmsil olunmaq istəyən hər hansı şəxs, yaxud partiya «lobbi siyahısında» özü barədə məlumat dərc etməlidir. Bundestaqın deputatları isə lobbiçi şirkətlərlə keçmiş və indiki əlaqələri barədə məlumatları qeydiyyatdan keçirməlidir. Məsələyə bu cür yanaşma lobbiçilik fəaliyyətinə şəffaflıq gətirir.

Lobbiçilik sistemində medianın xüsusi yeri var. Media təkcə ölkə ictimai rəyinə, beynəlxalq rəyə deyil, BMT kimi böyük təşkilatların fəaliyyətinə də təsir göstərir.

## X. Siyasi partiyalar

- *Siyasi partiyaların formalaşma tarixi*
- *Siyasi partiyaların əsas əlamətləri*
- *Siyasi partiyaların struktur və funksiyaları*
- *Siyasi partiyaların tipologiyaları*
- *Çoxpartiyalılıq*
- *Azərbaycanda siyasi partiyalar*

### Ədəbiyyat

1. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
2. Varma. S.P. Modern politikal theories. Dehli 1999
3. Лавриенко В.Н. Политология. Москва, 2006
4. Tokvil. A. Amerikada Demokratiya (1835), Bakı, 2002
5. Siyasi plüralizm və çoxpartiyalı demokratiya. Bakı, 1996
6. Siyasi plüralizm və çoxpartiyalı demokratiya. Bakı, 1996
7. Siyasi liderlik. Bakı, 1999
8. Seçki texnologiyaları. Bakı,1998
9. Политические партии в условиях демокрвтии. Фонд К. Аденауера.

- **Siyasi partiyaların formalaşma tarixi**

Partiya latınca «partis» sözündən götürülüb hissə, qrup deməkdir. *Siyasi partiya-xalqın müəyyən bir hisəsinin maraqlarını ifadə edən və hakimiyyətə yiyələnməklə onun gerçəkləşməsini özünün əsas məqsədi sayan həmfikirlərin, eyni dəyərləri, ideyaları bölüşənlərin təşkilatıdır*. Elmi ədəbiyyatda siyasi partiyaların təsnifatı müxtəlifdir. Məsələn, C. Sartori partiyanı «seçkilərdə fəal iştirak edən və öz namizədlərini dövlət idarələrinə keçirmək imkanına malik olan siyasi qrup kimi xarakterizə edir. M. Viner və C. Lapalambayer siyasi partiyanın belə bir əlamətini qeyd edir: «partiya-zamanca

fasiləsiz fəaliyyət göstərən təşkilat olub, xalqın köməyi ilə hakimiyyəti ələ keçirmək və saxlamaq üçün tədbirlər görən funksionerlər qrupudur». S. Noyman siyasi partiyanı xalqın dəstəyi üçün yarışanların təşkilatı hesab edir. Beləliklə, siyasi partiya qanunla müəyyən edilən sərhəd daxilində, partiya üzvlərinin böyük əksəriyyətinin və onu dəstəkləyənlərin qəbul etdikləri ümumi prinsip və məqsədlərə müvafiq olaraq, siyasi hakimiyyətin əldə edilməsinə, onun icrasına nəzarətə yönələn, öz fəaliyyətini açıq bəyan edən və həyata keçirən vətəndaş birliyinin müəyyən tipidir.

Siyasi partiyalar hələ Aristotel dövründə stixiya ilə ayrı-ayrı qruplar şəklində formalaşırdı. Onlar ayrı-ayrı şəxsləri müdafiə etmək üçün hansısa siyasi liderin ətrafında müvəqqəti birləşir, konkret məqsədə nail olmaq üçün insanların fəaliyyətini koordinasiya edirdilər.

Siyasi partiyaların formalaşma tarixini, təxminən aşağıdakı mərhələlərə bölmək olar:

Birinci mərhələ, XVI-XVII əsrləri əhatə edir. Bu mərhələdə partiyalar azsaylı elitadan formalaşır və aristokratik qrup şəklində fəaliyyət göstərirdi. Qərbi Avropanın və Amerikanın ilkin burjua dövlətlərinin siyasi sistemləri, aristokratiya ilə burjuaziya arasında mübarizə dövrünün xarakterik xüsusiyyətlərini müəyənləşdirir.

İkinci mərhələ, XVIII-XIX əsrləri əhatə edir. Bu dövrdə partiyalar təkcə siyasi mühitə təsir etməklə kifayətlənməyərək, cəmiyyət həyatının başqa vacib sferalarına da diqqət yetirməklə insanları aktiv siyasi fəaliyyətə cəlb edən siyasi klublar şəklində fəaliyyət göstərir.

Üçüncü mərhələ, XIX-XXI əsrləri əhatə edir. Müasir siyasi partiyalar-ideoloji doktrinlərə və inkişaf etmiş təşkilat strukturlarına malikdir. Birinci belə siyasi partiya 1877-ci ildə İngiltərədə yaranan liberal partiya hesab olunur.

- **Siyasi partiyaların əsas əlamətləri**

Siyasi partiyaların əsas əlamətləri aşağıdakılardır:
- sosial bazanın mövcudluğu;
- sənədləşdirilmiş üzvlər;
- partiya orqanlarını və təşkilatlarını birləşdirən daxili struktur;
- üzvlərin və ona rəğbət bəsləyənlərin öz hərəkət və tələblərinin müdafiəsinə səfərbər etmək imkanlarının mövcudluğu;
- partiyanı milli, regional və yerli səviyyədə təmsil edən siyasi liderlər, dövlət xadimləri qrupu;
- proqram sənədlərində və seçkiqabağı platformalarda partiya ideologiyasının və siyasi xəttin əks olunması;
- nizamnamə ilə tənzimlənən daxili intizam normaları;
- xüsusi maliyyə və material bazası.

Siyasi partiyalar vətəndaşların çoxsaylı ictimai birliklərindən onunla fərqlənir ki, onlar bilavasitə siyasi maraqları ifadə edir və fəaliyyətləri hakimiyyətin əldə edilməsinə, idarə olunmasına və ona nəzarətə yönəldilib. Deməli, siyasi partiyalar digər birliklərdən, əsasən, hakimiyyət iddiasını açıq şəkildə ortaya qoyması ilə fərqlənir, aşkar fəaliyyət göstərir. Siyasi partiyaların məqsədləri, prinsipləri, liderləri məlum olur, onların üzərində ictimai nəzarət var və fəaliyyətləri şəffafdır. Siyasi partiyaların böyük əksəriyyəti siyasi hakimiyyəti ələ almağın qeyri-qanuni yolunu məqbul hesab etmir, siyasi mübarizənin açıq və demokratik üsulları ilə davranmağa üstünlük verirlər. Lakin fərqli düşüncədə olan və qeyri-qanuni üsullarla davranma yolunu seçən partiyalar da yox deyil.

Siyasi partiyaların fəaliyyəti hüquqla tənzimlənir. Onların statuslarını, qeydiyyatlarını, funksiyalarını, maliyyələşdirilmələrini müəyyənləşdirən, eləcə də seçkiləri, parlament fəaliyyətini tənzimləyən qanunlar mövcuddur. İngiltərə və Avstiriyada siyasi partiyaların yaradılması reqlamentləşdirilməyib. Onlar özlərini yaranmış elan edir və buraxırlar. Türkiyədə siyasi partiyalar iki seçkidə ardıcıl iştirakını təmin edə bilmirlərsə, buraxılırlar. Bəzi ölkələrdə siyasi partiya üzvlərinin sayı ilə

bağlı normalar var. Siyasi partiyaların seçkilərdə iştirakı məsələsi də müxtəlif ölkələrdə müxtəlif qaydalarla tənzimlənir. Ümumiyyətlə, siyasi partiyaların yaranması, fəaliyyəti, maliyyələşməsi müxtəlif ölkələrdə müxtəlif cür ola bilər. Belə hal demokratiyanın məhdudlaşdırılmasına deyil, əksinə demokratiyanın rəqabət üçün daha geniş imkanlar yaratmasına dəlalət edir.

- **Siyasi partiyaların struktur və funksiyaları**

Siyasi partiyaların funksiyalarını aşağıdakı kimi ümumiləşdirmək olar:

- cəmiyyətdəki müəyyən sosial qrupun siyasi maraq və mənafelərinin ifadə olunması;
- siyasi hakimiyyət uğrunda mübarizə, onun idarə olunması və nəzarət;
- böyük sosial qrupların aktivləşməsi və inteqrasiyası;
- partiya ideologiyasının işlənməsi, təbliğatın qurulması və aparılması, ictimai rəyin formalaşması, yönləndirilməsi;
- vətəndaşların siyasi maarifləndirilməsi;
- siyasi elitanın hazırlanması və partiya, cəmiyyət, dövlət işlərinə səfərbər olunması;
- partiyaya yeni üzvlərin cəlb olunması;
- partiyalırın özünümaliyyələşdirmə işinin təşkili, maliyyə vəsaitlərinin və mənbələrinin tapılması;
- informasiya və kommunikasiya işinin təşkili.

Siyasi partiyaların strukturu:

1. Partiya aparatı
2. Partiya fəalları
3. Partiyanın sıravi üzvləri
4. Partiya tərəfdarları və təəssübkeşləri

- **Siyasi partiyaların tipologiyaları**

Siyasi partiyalar aşağıdakı xüsusiyyətlərnə görə müxtəlif tipologiyalara bölünür:

*1. Sosial dəyişmələrə münasibətin xarakterinə görə*

a) inqilabi
b) radikal
c) mütərəqqi
d) islahatçı
e) mötədil
i) reaksion

*2. İdeoloji platformaya görə*

a) sosial-demokrat
b) liberal
c) millətçi
d) faşist
e) kommunist
i) mühafizəkar
m) monarxist
n) neofaşist

*3. Siyasi hakimiyyətdə iştirakına görə*

a) idarəedən
b) leqal
c) liderlər partiyası
d) müxalifət partiyası
e) qeyri-leqal
i) autsayder
m) koalisiyada idarəedən partiya

*4. Sosial bazaya görə*

a) fəhlə
b) kəndli
c) ziyalı və s.

*5. Spesifik xüsusiyyətlərinə görə*

a) yaşıllar
b) pivəsevərlər

c) idmançılar partiyası və s.
ABŞ politoloqu Stiv Kouen isə siyasi partiyaları sadə şəkildə aşağıdakı kimi təsnif edir:
- totalitar partiyalar;
- parlament partiyaları;
- seçki kampaniyası partiyaları (ancaq seçki kampaniyaları ilə məşğul olurlar);
- hərəkat partiyaları (yaşıllar, qadınlar, gənclər, qlobalistlər, antiqlobalistlər və s.).

Fransız sosioloq Moris Dyuverje də partiyaları iki qismə bölür: kadrlar partiyası, kütləvi partiya. M. Dyuverjeyə görə kadrlar partiyası öz üzvlərinin sayını genişləndirməyə, yəni kəmiyyətə can atmır. Belə təşkilatlar daha çox izahat, maarifləndirmə işi aparmağa və hakimiyyət üçün öz komandasını formalaşdırmağa çalışır. Təşkilatdaxili azadlığın bol olduğu kadrlar partiyasının fəaliyyəti əsasən seçki kampaniyaları zamanı canlanır.

Kütləvi partiyalar isə üzvlük, üzvlük haqqı kimi məsələlərə ciddi diqqət yetirir. Bu təşkilatlar müntəzəm təbliğat, təşviqat işləri aparır, ciddi nizam əsasında fəaliyyət göstərirlər. Belə partiyaların parlamentdəki üzvləri təşkilatın rəhbərliyindən daha çox asılı olur.

- **Çoxpartiyalılıq**

Cəmiyyətdə partiyalaşmanın üç növü mövcuddur: təkpartiyalılıq, ikipartiyalılıq, çoxpartiyalılıq.

*Təkpartiyalılıq*, adətən, totalitar cəmiyyətlərdə mövcud olur. Hazırda Kuba və Çində təkpartiyalı sistem qalır. Bu sistemlərdə hakimiyyət tək əldə cəmləşir, bütün sahələrdə monopoliya yaranır. İstənilən monopoliya isə rəqabəti zəiflədir, cəmiyyət həyatının əksər sahələrində əyriliklərin yaranmasına gətirib çıxarır. Lakin müasir Çinin təcrübəsi klassik təkpartiyalılıq barədə politoloji düşüncələrin yenidən sərf-nəzər olunmasınıı tələb edir.

*İkipartiyalılıq* eyni cür sosial, mədəni həyatın, ənənəvi dəyərlərin bərqərar olduğu və insanların əksər hissəsinin bu dəyərləri bölüşdüyü cəmiyyətlərdə mövcuddur. Hazırda dünyanın iki böyük ölkəsində – İngiltərə və ABŞ-da iki partiyalı dayanıqlı sistem var. Avropada ikipartiyalılığın yaranmasına liberal dəyərlər və sosial demokratiya görüşləri rəvac verir.

*Çoxpartiyalılığın* obyektiv əsasları var. Cəmiyyətin sosial differensiasiyası, siniflərin, etnosların, müxtəlif səpkili birliklərin və başqa sosial ümumilik, maraq əsasında qruplaşmaların mövcudluğu, onların siyasi hakimiyyət uğrunda mübarizələri çoxpartiyalılıq üçün obyektiv təminat yaradır. Bütün hadisələr, proseslər daxilində ziddiyyətlər yaşayır. Siyasi partiyalar da belə dialektik qanunauyğunluqdan xali deyil.

Çoxpartiyalılığın müsbət tərəfləri ilə yanaşı, mənfi tərəfləri də yox deyil. Çoxpartiyalılığın pozitiv və neqativ cəhətlərini aşağıdakı kimi təsnif etmək olar:

*Müsbət:*

- siyasi məsələ bütün təfərrüatı ilə ortalığa çıxır, gizli məqamlar maksimum azalır, məsələlərin həllində alternativlik, yəni çoxvariantlılıq təmin olunur, hər cür ictimai tələbat öz müdafiəçilərini və tənqidçilərini tapır;
- müxalif siyasi partiyaların mövcudluğu bürokratiyanı tormozlayır, hakimiyyəti effektli işləməyə məcbur edir, şəxsiyyətə pərəstiş imkanlarını kəskin şəkildə məhdudlaşdırır, diktatorluq cəhdləri nəticə vermir;
- rəqib üzərində qələbənin əsas təminatçısı olan partiyadaxili nizam-intizam formalaşır;
- partiya rəhbərliyinin, aktiv üzvlərin siyasi mədəniyyəti, təcrübəsi daha da artır;
- siyasi mübarizədə istedadlı adamların üzə çıxmasına şərait yaranır;
- partiya funksionerlərinin üstünlükləri məhdudlaşdırılır, sıravilərlə onların arasındakı məsafə maksimum azalır;

- siyasi partiyalar arasındakı rəqabət cəmiyyətin də siyasi maariflənməsinə pozitiv təsir göstərir və s.

*Mənfi:*

- siyasi partiya mənsubluğu müəyyən mənada çərçivə yaradır, bir çox məsələlərə partiya prinsiplərindən yanaşma tələb olunur, rəqib partiya üzvünün fəaliyyəti rəğbət yaratmır, bir çox hallarda dövlət mənafeyi deyil, partiya mənafeyi ön plana çəkilir;

- partiyalararası fasiləsiz mübarizələr hakimiyyəti zəiflədir, enerji siyasi mübarizəyə sərf olunur;

- siyasi mübarizədə ehtiraslar qızışır və arzuolunmaz mübarizə formaları, üsulları ortaya çıxır (qara PR), bu proseslər cəmiyyətin mənəvi dəyərlərini zədələyir;

- iqtidar dövrünün zaman baxımından məhdudluğu bir çox hallarda fürsətdən sui-istifadə həvəsinin yaranmasına səbəb olur və s.

Postsovet məkanında çoxpartiyalılığın spesifik halları mövcuddur. Mülki cəmiyyətin zəif formalaşması, sosial təbəqə və qrupların strukturlaşmaması, vətəndaş cəmiyyətinin zəif inkişafı çoxpartiyalılğa tələbat yaratsa da, cəmiyyətdə siyasi partiyanı xoşlamamaq, onlardan şübhələnmək, konfrantasiyalara meyllər qalır. Seçicilər partiyalara deyil, daha çox şəxsiyyətlərə üstünlük verirlər. Belə cəmiyyətlərdə elektoratın ovqatı tez-tez dəyişir. Siyasi partiyalar və onların liderləri özlərindən asılı olmayaraq kommunistləri və onların vərdişlərini təkrarlayırlar. Tez-tez koalisiyalar yaranır və bir qayda olaraq bu birliklər uzunömürlü olmur. Seçkilərdə uduzan partiyalar hakimiyyət strukturlarında təmsilçilikdən imtina edir, onu legitim saymırlar. Şərqi Avropanın postsovet ölkələrində vəziyyət bir qədər fərqlidir. Lakin bu ölkələrdə də kommunistlər demokratların təcrübəsizliynindən yararlanaraq hakimiyyətə qayıda da bildlər.

- **Azərbaycanda siyasi partiyalar**

1995-ci il parlament seçkilərində 8 partiya, 2000-ci il parlament seçkilərində 5 partiya seçkilərdə iştirak etdi. 2005-ci il parlament seçkilərində partiyalar seçki blokları şəklində seçkilərə getdilər («Azadlıq», «Yeni siyasət», Yeni Azərbaycan Partiyası və s.). Hazırda Azərbaycanda aktivliyi ilə seçilən partiyalar aşağıdakılardır:

- Yeni Azərbaycan Partiyası
- Müsavat Partiyası
- Azərbaycan Xalq Cəbhəsi Partiyası
- Milli İstiqlal Partiyası
- Azərbaycan Demokrat Partiyası
- Azərbaycan Liberal Partiyası
- Sosial Demokratlar Partiyası
- Ədalət Partiyası
- Vətəndaş Həmrəyliyi Partiyası
- Demokratik İslahatlar Partiyası
- Ana Vətən Partiyası və s.

1992-ci ildə siyasi partiyalar haqqında Azərbaycan qanunu qəbul ediləndə mədum oldu ki, ölkdə 60-dan artıq siyasi partiya mövcuddur. Bu partiyalardan 48-i Ədliyyə Nazirliyində qeydiyyatdan keçdi. Hazırda 52 partiyanın hüquqi statusu var. Keçid dövrünün bütün nöqsanlarına baxmayaraq Azərbaycanda çoxpartiyalı sistem mövcuddur. Azərbaycan Konstitusiyasında siyasi partiyalar barədə bənd var. Bundan əlavə Milli Məclis siyasi partiyaların fəaliyyətini tənzimləyən bir sıra qanunlar qəbul edib və müəyyən qanunlara əlavə və düzəlişlərin edilməsi istiqamətində iş aparır.

## XI. Millət və milli siyasət

- *Millət anlayışı*
- *Milli ideya və ideologiya*
- *Milli müqədəratı təyin etmə məsələsi*
- *Milli dövlət quruluşunun əsas formaları*

### Ədəbiyyat


1. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,1995
3. Azərbaycanın türkçülük və azərbaycançılıq problemləri. Bakı, 1998
4. Varma. S.P. Modern politikal theories. Dehli 1999
5. İbrahimli X.C. Yeni Avrasiya Qafqazı. Bakı, 2001
6. Лавриенко В.Н. Политология. Москва, 2006
7. Марченко М. Политология. Москва,1999
8. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992


- **Millət anlayışı**

***Yaranan tələbat milləti daha çox inkişaf etdirir, nəinki iyirmi universitet (F. Engels)***

Hazırda yer kürəsində 3 minə yaxın xalq yaşayır. Etnik qrupların ümumi sayı 10 min həndəvərindədir. Dövlətlərin sayı isə 200-dən çox deyil. Beynəlxalq münasibətlər sistemində millətlərarası münasibətlər dövlətlərarası münasibətlər kimi başa düşülür və siyasi xarakter daşıyır.

Politologiyada millət anlayışına üç əsas yanaşma var: siyasi-hüquqi yanaşma; sosiokulturaloji yanaşma; bioloji yanaşma.

*Siyasi-hüquqi* anlayış bu və ya digər dövlətin vətəndaşlarının cəmini özündə ehtiva edir. Bu, millət anlayışına etatist (dövlət) yanaşmadır. Yəni millət deyildikdə dövlət nəzərdə

tutulur, millət dövlətlə assosiasiya olunur. Siyasi-hüquqi yanaşmaya görə etnik mənsubiyyətindən asılı olmayaraq dövlətin bütün vətəndaşları eyni milləti təmsil edirlər. Beynəlxalq hüquqda millət vətəndaşların birliyi, yaxud siyasi anlam kəsb edən bir toplumdur. Siyasi anlamda millət beynəlxalq arenada, öz milli maraqlarından, milli sərhədlərindən və digər milli atributlarından çıxış edən milli dövlətdir. BMT-nin üzvləri də məhz siyasi mahiyyət kəsb edən millət-dövlətlərdir. (Buna görə də BMT «millətlər» təşkilatı adlanır).

İngilis dilində «nation» anlayışı təkcə xalqı, etnosları deyil, bütöv ölkəni, dövləti, başqa sözlə siyasi birliyi özündə ehtiva edir. «The Amercan Nation» termini isə «amerikan milləti», «amerikan xalqı», «amerikan dövləti» anlamlarını verir.

*Sosiokulturaloji yanaşmada* dil, mədəniyyət, din, adət-ənənə ətrafında birləşən hər-hansı bir toplum millət sayılır. Bu yanaşma imkan verir ki, millətə mənəvi mədəniyyətə, tarixi inkişafa, davranış stereotiplərinə, həyat tərzinə və məişətinə görə bir-birlərindən fərqlənən insanların birliyi kimi yanaşılsın. Lakin burada həssas məsələ millətin təkcə dini birlik əsasında formamalaşmamasıdır. Ola bilər ki, müxtəlif dövlətlərin millətləri eyni dinə sahib olsun. Ancaq bu o demək deyil ki, dini birlik «müsəlman milləti», «xristian milləti» anlamını verir.

Milli şüur və milli özünüdərk olmadan millət yaranmır. E. Qellnerin dediyi kimi «milləti insan yaradır, başqa sözlə millət insanların inamlarının, maraqlarının və adətlərinin məhsuludur».

Bu yanaşmaya görə millətin formalaşmasında əhəmiyyətli rol oynayn amil dildir. XIX əsrdə Azərbaycanda başlanan kültür hərəkatının da başlıca hədəfi milləti ancaq dini birlik ideyaları ətrafında deyil, dil amili ətrafında bir araya gətirmək idi. Bu dövrün bütün mütəfəkkirlərinin gəldiyi qənaət belə idi ki, dil olmadan milli özünüdərk, milli şüur formalaşmır, milli özünüdərk, şüur formalaşmadan da millət yaran-

mır və öz müstəqilliyini qazanmağı bacarmır. Eyni zamanda öz ana dilini itirən millət tədricən varlığını da itirməyə başlayır və son nəticədə hansısa millətin içərisində əriyib itir. Tarixdə belə nümunələr az deyil. Bu gün elə millətlər var ki, onların ancaq adı qalıb.

Dünyanın əksər ölkələri (ABŞ, İngiltərə, Fransa, İspaniya, İtaliya, Skandinaviya ölkələri, Latın Amerikası ölkələri və s.) millət anlamına yuxarıdakı iki aspektdən yanaşır. Bəzi məsələlərdə bu iki əsasdan çıxış edənlərin arasında fikir ayrılığı olsa da, elə məsələlər var ki, onlar eyni mövqedə dayanırlar. Məsələn, birinci və ikinci əsası qəbul edənlərin mütləq əksəriyyət millətin üçüncü nöqtədə-qan qohumluğu əsasında formalaşmadığıı fikrinin tərəfdarıdır.

Üçüncü, *bioloji yanaşma* tərəfdarlarını birinci və ikinci yanaşma tərəfdarlarından ayıran da, məhz, millətin qan qohumluğu əsasında formalaşması məsələsidir. Almanlar və yaponlar millət dedikdə təkcə Almaniyanın, Yaponiyanın sərhədləri daxilində deyil, onun hüdudlarından kənarda yaşayan bütün almanları, yaponları nəzərdə tutur. Bu ölkələrin konstitusiyalarına görə damarından alman və yapon qanı axanlar alman və yapon millətinin nümayəndələridir. İsrail milləti də məhz bu prinsipə üstünlük verir. Lakin alman və yaponlardan fərqli olaraq yəhudilər üçün təkcə yəhudi olmaq azdır, eyni zamanda hakim dinin, iudaizmin daşıyıcısı olmaq vacibdir. Deməli İsrail milləti həm qan qohumluğu əsasında, həm də vahid bir din ətrafında formalaşmış millətdir.

Yapon, alman və yəhudi yanaşmalarını qəbul etməyənlər çoxluqdadır. Onların məntiqinə görə insan sosial varlıqdır və şəxsiyyət kimi doğulmur, şəxsiyyət kimi formalaşır. Digər tərəfdən isə müasir qloballaşma şəraitində «təmiz qanı» qoruyub saxlamaq müşkül məsələdir. İndi dünyada qarışıq nigahdan yan keçən ölkələr, demək olar ki, yoxdur. Əsasən də Avropada qarışıq nikahların sayı günbəgün artır, necə deyərlər Qərb toplumlarının «rəngi» sürətlə dəyişir.

*Beləliklə, millət anlayışının universal tərifi aşağıdakıdır: millət- insanların tarixən formalaşmış birliyidir. Hər hansı bir dövlətin vətəndaşlarına xas olan ümumi xüsusiyyətlər bunlardır: dil birliyi, iqtisadi həyat birliyi, mədəniyyət və adət-ənənə birliyi, eyni zamanda, başqa millətdən fərqli xüsusiyyətlərin qavranılmasına kömək edən fərdi və kollektiv şüur, özünüdərk.*

- **Milli ideya və ideologiya**

Hər bir millətin öz mili ideyası var. Bu ideyalar bəzilərində zəif, bəzilərində qabarıq şəkildə özünü büruzə verir. «Milli ideya» anlayışı ilk dəfə alman filosofları İ. Herder və Q. Hegel tərəfindən işlənsə də o, tarixin əvvəlki dönəmlərində də mövcud olub.

«İspanizm» mili ideyasının mahiyyəti ispan milləti ilə onun konfessional (katolik) icmalarının vəhdətidir. Katolik dini «ispan qəlbinin» mahiyyəti hesab olunur.

Amerikanlar hesab edirlər ki, Amerikanı güclü və qüdrətli edən əsas amil protestant ruhu və etikasıdır. Protestantlar başqalarından fərqli olaraq «Əmək insan üçündür!» prinsipi ilə deyil «İnsan əmək üçündür!» prinsipi ilə yaşayır və çalışırlar və məhz bu prinsip Amkrikanı dünyada hegemon dövlətə çevirdi, Amerika patriotizmini, vətnəsevərliyini, «amerikançılıq» düşüncəsini formalaşdırdı.

«Rus ideyası» avrasiyaçılığı, sivill Avrasiya toplumu olmanı özündə ehtiva edir. Rus filosofları N. Berdyayev və D. Andreyevə görə isə «rus messianizminin» mahiyyətini «xilaskarlıq» təşkil edir. Yəni rusların missiyası Avrasiyada yaşayan bütün xalqları üç mədəniyyət-din ocağına (Qüds, Məkkə, Hindistana-Xristanlığa, İslama, Buddaçılığa və Krişnaçılığa) qovuşdurmaq, onları cahillikdən xilas etməkdir. Bu məntiqə əsasən Rusiyanın əraziləri Şərqdə Hind okeanına, Cənubda isə Məkkə və Qüdsə qədər uzanıb getməlidir ki, bu

böyük məkanda məskun olan xalqlar arası bağlar, əlaqələr üçün ərazi əngəlləri, sərhəd maneələri qalmasın.

Türk dünyası üçün mili ideya bir neçə mərhələdən keçib. XIX əsrin sonlarında «panislamçılıq» meydana gəldi. Lakin Osmanlını dini birlik ideyası ilə saxlamağın mümkün olmayacağı tezliklə ortaya çıxdı və bu ideyanı «panturançılıq», «pantürkçülük» əvəz etdi. Türkiyə elmi ədəbiyyatında «türkçülük» aşağıdakı kimi təqdim edilir: «Türkçülük-ətrafı düşmanlıqlarla dolu bir məkanda türk kimi qalmaq əzmi və iradəsidir». Bu özünümüdafiə ideologiyasıdır.

*Milli ideologiya*-insanların sosial, siyasi, iqtisadi, fəlsəfi, dini, mənəvi, estetik və digər baxışlarının cəmidir. Millətin mənəvi inkişafının mahiyyətini, səviyyəsini və başqa özəlliklərini xarakterizə edir. O millətin tarixi inkişaf prosesini, mənsub olduğu toplumun dəyərləri barədə təsəvvürləri, eyni zamanda başqa dəyərlərə və millətlərə münasibətləri özündə əks etdirir. Milli ideologiyadan *millətçilik* ideologiyası fərqləndirilməlidir. Millətçilik mili ideologiyanın mütləqləşdirilməsi, yaxşıların yaxşısı elan edilməsidir. Millət ancaq öz ideyasının qayğısına qalanda, başqalarını inkar edəndə və yaxud onlara yuxarıdan aşağı bağanda millətçilik ortaya çıxır. Bu cür təzahürlər özünün əks tərəflərini yaradır. Zor zor doğurur, aqressiya aqressiya yaradır. Tarixdə bunun nümunələri çoxdur. XX əsrin ən acı dərsi isə bəşəriyyətə böyük bəlalar gətirən faşizmdir

- **Milli müqəddəratı təyin etmə məsələsi**

Milli müqəddəratı təyinetmə beynəlxalq hüququn əsas prinsiplərindən sayılır. Bu məsələ BMT əsasnaməsində və digər beynəlxalq hüquq sənədlərində öz ifadəsini tapıb. 1970-ci il Deklarasiyasında deyilir: «Suveren və bağımsız dövlətin yaranması, suveren dövlətə birləşmə və ya qoşulma, yaxud istənilən siyasi statusun bərqərar edilməsi xalqların öz müqəddəratını təyinetmə hüququdur». Buna əlavə olaraq o da göstərilir ki, çoxmillətli dövlət çərçivəsində xalqlara milli-

siyasi, inzibati və mədəni muxtariyyət verilməsi də öz müqəddəratını təyin etmənin başqa formalarıdır.

Lakin yuxarıda qeyd olunduğu kimi dünyada 3 minə yaxın xalq, 10 minə yaxın etnik qrup (subetnos) yaşayır. Əgər bütün bu xalqlar və etnik qruplar öz müqəddəratını təyinetmə prinsipi ilə hərəkət edərək, ona nail olsalar dünyada 10 min, ən azı isə 3 min dövlət yaranmalıdır. Bu isə beynəlxalq münasibətlərdə xaosun yaranması, tənzimlənmənin idarəolunmaz hala gəlməsi demək olardı.

Bu zaman beynəlxalq hüququn başqa prinsipi-dövlətlərin ərazi bütövlüyünün pozulmaması münasibətlərin əsas tənzimləyicisi kimi çıxış edir. Bu prnsip də BMT əsasnaməsində öz ifadəsini tapıb. Eyni zamanda, Avropada təhlükəsizlik və əməkdaşlıq barədə Yekun Aktında (1975) dövlətlərin ərazi bütövlüyünün pozulmazlığı əsas prinsip kimi xüsusi vurğulanır. Bu iki prinsip, yəni milli müqəddəratı təyin etmə və dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı çox hallarda, ələlxüsus da Sovetlər Birliyinin çökməsindən sonra baş-başa gəlir. Belə hallarda beynəlxalq hüququn hansı prinsipi əsas götürülməlidir? Yuxarıdakı mülahizələrin məntiqinə əsasən, heç şübhəsiz, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipi.

Dağlıq Qarabağ münaqişəsinin nümunəsində də ərazi bütövlüyünün pozulmazlığı prinsipinin əsas və vacib olduğu aydın görünür. Təsəvvür edək ki, Qafqazda millətlərin öz müqəddəratını təyinetmə prinsipi önə çəkilir və gerçəkləşir. Bu zaman təkcə bu etnopolifonik bölgədə, təxminən 150 dövlət yaranmalıdır (təkcə Dağıstanda sayı, təxminən 15 min civarında olan yüzə yaxın etnos yaşayır). Belə vəziyyət isə ərazi mübahisələri, çoxsaylı münaqişələr, hamının hamı ilə savaşması demək olardı. Milli müqəddəratın təyin olunması prinsipi, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipindən öndə dayansa kiçik Gürcüstan da parça-parça olar və özünün mövcudlğunu qoruyub saxlaya bilməz.

Etnik baxımdan dünyanın ən polifonik bölgəsi olan Cənub Qafqazı ermənilər, məhz bu cür xaosa sürükləmək və hansısa xarici dövləti, himayədarı arbitr rolunda bölgəyə gətirmək məqsədi güdür. Paradoksal və araxayik təsir bağışlasa da, Sovetlər dönəmindəki mili siyasət və siyasi-inzibati ərazi bölgüsü Cənub Qafqaz üçün hələ ki, ən optimal bölgü sayıla bilər.

BMT-nin sabiq baş katibi Butros-Butros-Qalinin fikri bu məsələ ilə bağlı maraqlı bir örnəkdir: «Mütləq və müstəsna suverenliyin zamanı keçdi, onun nəzəri konsepsiyaları gerçəklikdə özünü heç zaman doğrultmadı… Əgər hər etnik, dini və dil qrupu öz dövlətini qurmaq iddiası ilə çıxış etsə, parçalanmanın həddi-hüdudu olmayacaq və bu zaman sülh, təhlükəsizlik və iqtisadi rifaha çatmaq çox çətin olacaq».

Milli dövlətin yaranması asan məsələ deyil. Milli dövlət mili mədəniyyətdən yaranır. Onun formalaşması üçün bir sıra vacib şərtlər var: mili mədəniyyətin gücü, enerjisi; müstəqil iqtisadiyyatın yaradılması imkanlarının mövcudluğu; əhalinin sayı, onun sosial rifahının, təhlükəsizliyinin təmin olunması üçün yetərli güc; təbii resursların mövcudluğu və s.

Hazırda dünyada qloballaşma prosesi gedir. Bu prosesin fəlsəfəsi «vahid dünya dövlətinin» yaranması, başqa sözlə mili dövlətlərin, sərhədlərin, gömrüyün zəifləməsi, vahid iqtisadiyyatın, valyutanın, dünya proseslərini idarə edən siyasi təşkilatların meydana gəlməsidir (Bu məsələ «Qloballaşma» mövzusunda ayrıca şərh ediləcək).

- **Milli dövlət quruluşunun əsas formaları**

Tarixdə mili dövlət quruluşunun üç forması var: unitar dövlət, konfederativ dövlət, federativ dövlət.

*Unitar dövlət.* «Unitas»-latınca birlik deməkdir. Unitar dövlət vahid, bütöv dövlət quruluşu formasıdır. Bir qayda olaraq unitar dövlətdə bir konstitusiya, bir vətəndaşlıq, bir ali hakimiyyət orqanı sistemi mövcuddur. Unitar dövlət inzibati-

ərazi vahidlərinə bölünür, suverenliyin hər-hansı əlamətlərini tanımır. Unitar dövlətin tərkib hissələri (vilayət, rayon və s.) mərkəzi orqanlar tərəfindən qəbul edilən qərarlar əsasında idarə olunur. Onun ərazisi yerli əhalinin və yerli orqanların icazəsi olmadan ümumdövlət qanunları ilə dəyişdirilə bilər.

Unitar dövlət ərazisində məhdud suverenliyə malik mili muxtar qurumlar varsa, bu zaman müəyyən istisnalar mümkündür.

Unitar dövlət quruluşunun iki növü var: mərkəzləşmiş və əksmərkəzləşmiş. Mərkəzləşmiş unitar dövlətlərdə bölgə rəhbərləri mərkəzi hakimiyyətin iradəsi ilə formalaşır (məsələn, Hollandiya, Qazağıstan, Özbəgistan və s.). İkinci formada bölgə orqanları mərkəzi hakimiyyətlərdən asılı olmadan formalaşır, ancaq ümumdövlət qanunları əsasında fəaliyyət göstərir (məsələn, Fransa, İspaniya, İtaliya, Yaponiya, Yeni Zelandiya və s.).

Unitarlıq müasir dünyada daha geniş yayılmış dövlət forması hesab olunur.

*Konfederativ dövlət.* «Confoederatio» - latınca ittifaq, birləşmə mənasını verir. Konfederativ dövlətin üzvləri tam mənada öz suverenliklərini saxlayır. Onun əsas məqsədi üzv dövlətlərin təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək üçün xarici siyasətdə və hərbi-müdafiə sahəsində uğur qazanmaqdır. Daxili problemlərə gəldikdə isə konfederativ dövlətlər, adətən, gömrük tarifinin, vahid rabitənin və başqa ikinci dərəcəli strukturların bərqərar olunması ilə kifayətlənir. Konfederativ dövlətlərdə ümumi qanunverici və icraedici orqan olmur. Doğrudur razılaşdırılmış xarici siyasət yürütmək üçün, bir qayda olaraq müəyyən orqanlar, institutlar, vəzifələr təsis edilir. Amma onların konfederasiyanın subyektləri üzərində hakimiyyətləri yoxdur. Konfederativ orqanların razılaşma və konsensus əsasında qəbul etdikləri qərarlar, konfederasiya subyektlərinin mərkəzi hakimiyyət orqanlarının təsdiqindən

sonra qüvvəyə minir. Konfederasiya subyektləri belə qərarları ləğv etmək, qəbul etməmək hüququnu özündə saxlayır.

Yuxarıda deyilənlər yaxın tarixin təcrübələridir. ABŞ (1781-1789), İsveçrə (1815-1848), İsveç və Norveç (1905-ci ilə qədər), Avstriya-Macarıstan (1918-ci ilə qədər), Misir və Suriya-Birləşmiş Ərəb Respublikaları (1958-1961), Qambiya və Seneqal (1982-1989) vaxtiylə konfederativ dövlətlər idi. Lakin bu dövlətlərin daxilindəki ziddiyyətlər onların get-gedə unitar, yaxud federativ qurumlarla əvəzlənməsinə gətirib çıxardı. Hazırda ancaq bir konfederasiya mövcuddur: Avropa Birliyi. Bəzən MDB-ni də konfederasiya hesab edirlər. Lakin bu nə hüquqi, nə siyasi baxımdan konfederasiya sayıla bilməz və perspektivdə də onun konfederativ bir qurum şəklini alması imkansız görünür.

*Federativ dövlət.* «Federatio»-birlik, ittifaq deməkdir. Federasiya, müəyyən hüquqi və siyasi müstəqilliyə malik olan dövlətlərin ittifaqıdır. Milli (linqvistik) amillərdən asılı olaraq federasiya strukturlarının müəyyənləşməsi bir-birindən fərqlənir: a) əraziyə görə formalaşan federasiya (ABŞ, Avstraliya, Avstiriya, Almaniya, Argentina, Venesuella, Braziliya, Meksika); b) mili əsaslara görə formalaşan federasiya (Hindistan, Belçika, Pakistan, Nigeriya); c) mili və ərazi qarışığı əsasında formalaşan federasiya (Rusiya, Kanada, İsveçrə). Hazırda dünyada 20 federativ dövlət var.

Bütün federativ dövlətlərin əsaslandığı baza prinsipləri, təxminən, beşdir: 1) federal qanunvericiliyin aliliyi; 2) dövlət quruluşunun əsaslarının vahidliyi; 3) insanların, əmtəənin və s. bütün federasiya ərazisində maneəsiz hərəkəti, federasiyadaxili subyektlərin sərhədlərinin dövlət sərhəddi hesab olunmaması; 4) federasiya subyektlərinin statuslarının birtərəfli qaydada dəyişdirilməsinə qoyulan qadağa; 5) dövlətin ərazi bütövlüyünün pozulmaması, yəni federasiyanın bir subyektinin federasiyadan ayrılmasının qadağan olması.
Bunlardan əlavə:

- federasiya daxili sərhədlər, ancaq onun subyektlərinin razılığı ilə dəyişdirilə bilər;
- federasiya subyektləri məhdud siyasi müstəqilliyə malikdir;
- ali qanunverici orqan iki palatadan ibarət olur-biri subyekti, digəri ümummilli təmsilçiliyi həyata keçirir;
- federasiya konstitusiyası ilə, subyektin konstitusiyası bir-biri ilə ziddiyyət təşkil etməməlidir;
- federasiya subyektləri beynəlxalq hüququn subyekti deyil, amma xaricdə elmi-mədəni nümayəndəlik hüququna malikdir. Bütün bunlara baxmayaraq federasiyaların siyasi və hüquqi mənzərələri dəyişməz deyil. O zaman-zaman təkmilləşir, inkişaf edir.

Respublika Konstitusiyasına görə Azərbaycan unitar dövlətdir. Konstitusiyanın 1-ci maddəsində deyilir: «Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir». Maddə 5-də deyilir: «Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir»

Hazırda Azərbaycan üçün əsas milli ideya «Azərbaycançılıq» ideyasıdır. Dünyada azərbaycanlıların ümumi sayı 50 milyona yaxındır. Lakin bu böyük toplumdan cəmi 9 milyona yaxını müstəqil dövlətin vətəndaşıdır. «Azərbaycançılığın» fəlsəfəsi dünya azərbaycanlılarının enerjisini, potensialını Azərbaycanın inkişafının və təhlükəsizliyinin təmin olunmasına səfərbər etməkdir.

Milli ideya böyük siyasi gücə malikdir. Onun köməyi ilə millət öz müstəqilliyni qazanır, suverenliyinə nail olur, tərəqqisini və təhlükəsizliyini təmin edir.

## XII. Xalq və şəxsiyyət siyasətin subyekti kimi

- *Xalq siyasətin subyekti kimi*
- *Fərd siyasətin subyekti kimi*
- *Şəxsiyyətin siyasi sosiallaşması*
- *Siyasi davranış*

### Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,1995
2. Demokratiya: gediləsi uzun yol. Antologiya. Bakı, 2002
3. Modern Political theories, S. P. Varma, Vires Publish House, Dehli, 1993
4. Лавриенко В.Н. Политология. Москва, 2006
5. Марченко М. Политология. Москва,1999
6. Siyasi plüralizm və çoxpartiyalı demokratiya. Bakı, 1996
7. Siyasi liderlik. Bakı, 1999
8. Сартори Д. Вертикальная демократия. Полис, 1992 №5
9. Санистебан И. Политические системы и легитимность. Диалог, 1993, № 4
10. Хантигтон С. Третая волна. Демократия в конце XX века. Москва, 2003
11. Хантигтон С. Политический порядок в меняющихся обшествах. Москва, 2004


- **Xalq siyasətin subyekti kimi**

***Xalq dövlətdə birincidir, ikinci torpaqdır, sonra hökmdar gəlir (Konfutsi)***

Totalitar rejimlərdə bir qayda olaraq xalq siyasətin obyekti sayılır, yəni manipulyasiya olunur. Eyni zamnda, paralel olaraq xalqın əsas hərəkətverici qüvvə olduğu, hakimiyyətin mənbəyi sayıldığı bəyan edilir. Demokratik cəmiyyətlərdə siyasi elitanın siyasətin subyekti olduğu bildirilir, «elektorat» haqqında mülahizələrə üstünlük verilir, eyni zamanda xalq da

siyasətin subyekti sayılır. Deməli totalitar rejimlərdə xalq siyasətin obyektidir, yəni passivdir, siyasi prosesdən kənardadır, manipulyasiya olunur, demokratik rejimlərdə isə o siyasətin subyektidir, yəni aktivdir, prosesin əsas iştirakçısıdır.

Xalqın siyasi aktivliyi onun maariflənmə və siyasi şüur səviyyəsindən çox asılıdır. Maariflənmə və siyasi şüur səviyyəsi aşağı olan cəmiyyətlərdə siyasi aktivliyin yüksək olması bir çox hallarda radikal hərəkatların və kəskin dəyişmələrin meydana çıxmasına səbəb olur. Həm siyasi şüurun və siyasi mədəniyyətin inkişaf etdiyi, həm də sosial təminatları normal olan cəmiyyətlərin vətəndaşları tolerant, əksinə siyasi mədəniyyətin inkişaf etmədiyi və kütləvi yoxsulluğun, işsizliyin hökm sürdüyü cəmiyyətlərin vətəndaşları aqressiv və intolerant olurlar. O da həqiqətdir ki, kasıb cəmiyyətlərə çox zaman siyasi apatiya hakim kəsildiyindən siyasi maariflənmənin səviyyəsini qaldırmaq çətin olur.

Xalqın siyasi aktivliyinə təminat verən əsas amillərdən biri də hüquq dövlətinin mövcudluğudur. Hüquq dövlətlərində ictimai münasibətlər hüquqla, konkret qanunlala tənzimlənir. İctimai münasibətlərin qanunlarla tənzimləndiyi, eyni zamanda qanunlara riayətin vərdişə çevrildiyi cəmiyyətlərdə, bir qayda olaraq fərdlər, qruplar, zümrələrarası, o cümlədən siyasi hakimiyyətlə toplumarası münasibətlər nəzərəçarpacaq dərəcədə rəvan olur, münaqişələrə az yer qalır. Münaqişələr baş verəndə isə onların həlli üçün hüquq qaydaları və normalar işə düşür.

Təşkilatın, çoxluğun hakimiyyətə təsir gücü bir fərdin təsir gücündən artıqdır. Bu baxımdan təsisatlaşmış cəmiyyətlərdə, yəni vətəndaş cəmiyyətlərində xalqın hakimiyyətə və siyasi proseslərə təsir gücü yüksək olur. Əslində vətəndaş cəmiyyətinin gücü məhz bu amilə bağlıdır. Vətəndaş cəmiyyətlərində gerçək demokratiya bərqərar olur.

Bütün bunlarla yanaşı onu da qeyd etmək lazımdır ki, konkret fərd də siyasətin subyektidir. Yəni bu amili inkar etmək mümkün deyil.

- **Fərd siyasətin subyekti kimi**

Normal cəmiyyətlərdə siyasət insanlar vasitəsiylə və insanlar üçün həyata keçirilir. Siyasətin subyektləri üçün xarakterik olan ümumi xüsusiyyət, onların hamısının siyasi cəhətdən fəallığıdır. Eyni zamanda, siyasi təşkilatlar nə qədər güclü və əhəmiyyətli olsalar da, son nəticədə siyasətin subyekti kimi şəxsiyyət çıxış edir. Çünki bütün təşkilatlar şəxsiyyətlərdən ibarətdir. Nəticə etibariylə, məhz şəxsiyyət siyasətin əsas iştirakçsı və yaradıcısı olur. Siyasət də öz növbəsində şəxsiyyəti formalaşdırır, onu yetişdirir. Şəxsiyyət eyni zamanda həm siyasətin subyekti, həm də obyektidir. Siyasətin subyekti kimi fərdlərin sayının azalması, onların siyasətin obyektinə çevrilməsinə və bu sahədə kəmiyyətin artmasına gətirib çıxarır, deməli tərs proses gedir. Nəticə etibariylə, bütöv cəmiyyətə passivlik ovqatı hakim kəsilir. Deməli, cəmiyyətdə siyasətin subyekti kimi fərdlərin sayı çoxaldıqca, ictimai fəallıq da artır. Şəxsiyyətin fəallığını, siyasi proseslərə yaradıcı yanaşmasını demokratiyadan kənarda təsəvvür etmək çətindir. Qeyri-demokratik rejimlər siyasi proseslərə, hakimiyyət və dövlət idarəçiliyi məsələlərinə apatiya, biganəlik formalaşdırdığından, cəmiyyətə siyasi süstlük hakim olur. Demokratik cəmiyyətlərdə isə insanlar öz siyasi tələbatlarını ödəmək üçün kifayət qədər geniş imkanlara malikdir. İnkişaf etmiş, yetkin şəxs hər şeydən öncə vətəndaş, yəni ictimaiyyətçi olmalıdır.

Ümumi mənada siyasətdə şəxsiyyətlər fəal və passiv tiplərə bölünür. Polşa politoloqu E. Vyatrda isə yanaşma daha konkretdir. O şəxsiyyətləri fəallar, peşəkar müşahidəçilər, peşəkar tənqidçilər, passiv vətəndaşlar və apolitik vətəndaşlar qisminə bölür. Siyasi davranış motivlərinə əsasən M. Veber siyasətçiləri aşağıdakı qaydada təsnif edir: 1. siyasət üçün yaşayanlar; 2. siyasətin hesabına yaşayanlar. Birincilər hakimiyyətə xalqın rifahını yaxşılaşdırmaq, ikincilər şəxsi problemlərini həll etmək üçün can atır. Bu məntiqlə siyasətçilərin bir qrupu altruistlər, digər qismi isə eqoistlərdir. Amerika

politoloqu Q. Lassuel isə hesab edir ki, şəxslərin liderliyə canatmaları, onların özlərini zəif dəyərləndirmələri ilə bağlıdır. Yəni belə adamlar hakimiyyət vasitəsiylə öz zəif tərəflərini kompensasiya etməyə çalışır.

- **Şəxsiyyətin siyasi sosiallaşması**

Diqqəti cəlb edən məsələlərdən biri də fərdin siyasi sosiallaşmasıdır.

Politoloqlar Ç Kuli və C. Mid təliminə görə şəxsiyyətin siyasi sosiallaşması 3 mərhələdən keçir:

Birinci mərhələ, 3-13 yaşı əhətə edir. Bu imitasiya mərhələsində siyasi hakimiyyətlə bağlı şüur formalaşır və onun valideyn hakimiyətindən daha vacib və ciddi olduğu təəssüratı yaranır. Hakimiyyət konkret fiqur kimi qəbul edilir («Prezident Buş», «sahə rəisi Vəli» və s.).

İkinci mərhələ, 14-18 yaşı əhətə edir. Bu yaşda siyasi «mən» formalaşır. Siyasi institutlara emosianal baxış konkret biliklərlə və təsəvvürlərlə əvəzlənməyə başlayır.

Üçüncü mərəhələ, 18 yaşdan sonra başlayır. Bu aktiv siaysi fəaliyyət dövrüdür. İnsanlar siyasi partiyalara və hərəkatlara qoşulur, yaxud onun yaradıcılarına çevrilirlər. Üçüncü mərhələdə fərdlər seçmək və seçilmək hüququ qazanır ki, bu da aktiv siyasi fəaliyyəti şərtləndirən çox vacib amillərdəndir.

Sosioloq E. Eriksonun təliminə görə insanın bütün həyatı boyu siyasi sosiallaşması səkkiz mərhələdən keçir və hər bir mərhələ fərdi inkişaf böhranlarının dəf edilməsi ilə bağlıdır. J. Piajenin koqnitiv inkişaf təliminə görə siyasi sosiallaşmanın dörd mərhələsi var və hər bir mərhələdə insanlarda yeni vərdişlər formalaşır.

T. Parsonsun təlimində isə göstərilir ki, siyasi sosiallaşma prosesi insanların sosial rol haqqında təlim almasından keçir. Fərdlər bu təlimlə sosial sistemə qoşulur.

Amerika politoloqları D. İston və C. Dennisin məsələ ilə bağlı araşdırmaları da maraq doğurur. Onlar şəxsiyyətin siyasi sosiallaşmasının dörd mərhələsini göstərirlər: a) siyasiləşmə; b) personallaşma; c) ideallaşma; d) instituallaşma.

Göründüyü kimi şəxsiyyətin siyasi sosiallaşması barədə təlimlər çox, həm də rəngarəngdir. Gerçəklik isə ondan ibarətdir ki, siyasi sosiallaşma zamanı şəxsiyyət həm prosesə uyğunlaşır, həm də öz sahib olduğu dəyərlərə, normalara və maraqlara müvafiq olaraq bu prosesi dəyişdrməyə, ona yön verməyə çalışır.

Siyasi sosiallaşmanın tipləri aşağıdakılardır:

*Harmonik tip.*

Bu tiplər üçün hakimiyyət, şəxsiyyət ideallar, normalar və dəyərlər vasitəsiylə bir-birlərinə bağlıdır. Şəxs dövlətə, siyasi sistemə sayğı ilə yanaşır. Şəxsiyyət siyasi həyatın aktiv, yetkin və könüllü subyektidir. Hakimiyyət və şəxsiyyət arasında harmoniya var, vəzifələrə, öhdəliklərə, qanun və qaydalara qarşılıqlı şəkildə əməl olunur. Belə tiplərin var olması demokratk rejimlərdə, hüquq və vətəndaş cəmiyyətlərində mümkündür. Siyasi sosiallaşmanın bu ideal tipi mahiyyət etibariylə siyasi sistemin  və siyasətin subyekti kimi şəxsiyyətin münaqişəsiz, stabil inkişafını təmin edir.

*Plüralist tip.*

Bu tiplərə liberal ideallar hakimlik edir (azadlıq, şəxsi mülkiyyət, insan haqları, demokratiya, plüralizm). Plüralist tiplərin başqa insanların dünyagörüşlərinə, dəyərlərinə münasibəti tolerantdır. Belə insanlar şəxsi mülkiyyət və başqa demokratik haqlara dayanan liberal ideologiyaların bərqərar olduğu ölkələrdə formalaşır. Plüralist şəxsiyyətlər suveren, eynihüquqlu və müstəqil insanlardır. Siyasi sosiallaşmanın belə tiplərinin fəaliyyəti üçün əsas şərt qanun qarşısında hamının bərabər hüquqlu olmasıdır. Bu amil plüralizmin anarxiyaya, hegemonluğa çevrilməməsiniə təminat yaradır.

*Münaqişəli tip.*

Fərd qisas hissi ilə hansısa klana, tayfaya bağlı olur. Başqa siyasi dəyər daşıyıcılarına fərqli fikirləşənlərə qarşı amansızlığı ilə seçilir. Münaqişəli tiplər cəmiyyətin müxtəlif siyasi qrupları arasında gedən mübarizə ilə xarakterizə olunur. Bu mübarizədə ortada olan maraqlar müxtəlif olsa da, bir-birləri ilə qarşılıqlı şəkildə əlaqəlidir. Belə şəraitdə şəxsiyyət özünü siyasətin subyekti kimi təqdim etmək üçün hansısa qrupa, klana, sinfə kastaya qoşulmağa məcbur olur. Onlar üçün, demək olar ki, başqa yol qalmır. Siyasi sosiallaşmanın belə modeli iqtisadiyyatı zəif, iqtisadi, sosial, mədəni həyatı defferensial olan ölkələrdə formalaşır. «Kim bizimlə deyilsə, bizə qarşıdır!» şüarı münaqişəli tiplər üçün əsas devizdir. İndi bu cür şəxsiyyətlər aqressiv dini birliklərin, klan və kastaların var olduğu cəmiyyətlərdə fəaliyyət göstərir.

*Hegemon tip.*

Fərd siyasətə sinfi ideologiya, dini təlimlərlə gəlir. Hegemon tiplər qapalı cəmyyətlərdə formalaşır. Bu şəxsiyyətlər başqa siyasi sistemlərin və başqa təşkilatların nümayəndələrinə neqativ münasibətləri ilə fərqlənir. Siyasi sosiallaşma həmin şəxsiyyətlərin mənsub olduqları qrup, sinif və toplumun dəyər və normaları əsasında reallaşır. «Paritya, millət, dövlət hər şeydən üstündür!» devizi fərdin siyasi davranışı üçün fəaliyyət prinsipinə çevrilir.

Siyasi sistemlərdə azadlıq nisbi anlayışdır. Siyasi partiyalarda fəaliyyət isə, ümumiyyətlə, azadlıqların müəyyən mənada məhdudlaşdırılmasını tələb edir. Bu məntiqlə müstəqil fərdlər siyasətin subyekti kimi daha aktiv olmaq imkanlarına malikdir.

Digər tərəfdən isə vətəndaşların aktivliyini, onların siyasətin subyekti kimi fəaliyyətini təmin edən insan haqları və azadlıqlarıdır.

İnsan haqlarının təməl daşı yaşamaq, həm də təhlükəsiz yaşamaq haqqıdır. Bunsuz digər haqlar öz mənasını itirir. Yəni insanın özü yoxdursa artıq başqa azadlıqlar da yoxdur.

Seçmək, seçilmək, mitinq, yürüş, nümayiş, etiraz etmə, dövlət işlərində iştirak etmək azadlığı-siyasi azadlıqlar, haqlardır. Siyasi haqların fəlsəfəsi siyasi proseslərə cəlb olunub, bu proseslərdə iştirak etmək, ictimai-siyasi proseslərdə yetkinləşmək, inkişaf etmək, nəhayət cəmiyyətin inkişafını təmin etməkdir.

Şəxsi hüquqlar-yazışmaların, telefon danışıqların, ailə sirrlərinin məxfiliyinin təmin olunması, informasiya vermək və verməmək azadlığı, mülki hüquq anlayışında ehtiva olunan azadlıqlardır.

Cəmiyyət demokratikləşdikcə sözügedən bu azadlıqlara təminat da artır, siyasi iştirakın növləri və rəngarəngliyi, şəxsiyyətin siyasətçi kimi yetişməsi imkanları çoxalır.

- **Siyasi davranış**

***Xalqın sevgisini qazansan hakimiyyəti əldə edirsən, bu sevgini itirəndə hakimiyyəti də itirirsən (Konfutsi)***

Siyasi hakimiyyətin formalaşdırılmasında iştirak formaları müxtəlifdir. Siyasi iştirak-mitinqlərdə, referendumlarda, nümayişlərdə, seçkilərdə, siyasi təşkilatlarda fəallıqda, hakimiyyət strukturları ilə sıx təmas qurmaq prosesində özünü büruzə verir. Siyasi aktivliyin dərəcələri müxtəlifdir: siyasi institutların fəaliyyətinə reaksiya vermək; elektoratın davranışları, yəni seçkilərdə iştirakın dərəcələri; siyasi təşkilatlarda iştirak; birbaşa fəaliyyət (mitinq, piket, yürüş və s.)

Siyasi davranışın növləri:

*Mübarizə.* Bu davranış növü mövqe barışmazlığına əsaslanır. Siyasi rəqib düşməndir, cəmiyyət parçalanıb, kütlə iki yerə bölünüb. Mübarizənin məqsədi qarşı duran tərəfi məhv etməkdir. Əsas resurslar qorxu və gücdür. Mübarizə zamanı iki ideologiya döyüşür və bunlar əksər hallarda antoqonist olur.

*Müharibə.* Müharibə siyasətin başqa üsullarla davamıdır. O böyük insan toplularının qoşulduğu silahlı toqquşmadır. «Kim – kimi» məsələsi silahla həll edilir.

*Üsyan.* İdarəedənlərlə, idarəolunanlar arasındakı münaqişənin aşağıdan başlanan stixiyasıdır. Dağıntı, yanğın, kütləvi nizamsızlıq, insan tələfatları üsyanın təzahür formalarıdır.

*Qiyam.* Hərbi hissənin silahlı və təşkil olunmuş çıxışıdır. Qiyamçılar qeyri-leqal iş təcrübəsinə malik olduqlarından belə hadisələr gözlənilmədən və qəfil baş verir.

*İnqilab.* Üsyan və qiyam birləşəndə inqilab baş verir. İnqilab cəmiyyətin həyatında köklü və radikal dəyişmələr edən siyasi hadisədir. O bəzən böyük xoşbəxtltklər, bəzən isə böyük bədbəxtliklər gətirir. «İnqilab tarixin lokomotividir» fikri təsadüfü yaranmayıb. İnqilablar uzunmüddət toplanıb qalan narazılıqlar əsasında meydana gəlir.

*Siyasi oyun.* Siyasi intriqaların, səhnəarxası danışıqların, sövdələşmələrin, siyasi manevrlərin metaforik adıdır. Siyasi oyunlarda iki və ya çox tərəf iştirak edir. Tərəflər gizli sövdələşmələr əldə edir, bir-birlərini çaşdırmağa, aldatmağa, çətin vəziyyətlərə salmağa çalışırlar.

Bütün bunlarla yanaşı siyasi davranışın demokratik forması da var ki, bu normal siyasi rəqabətə, dialoqa, konsensusa əsaslanır, açıq debatlarda, elektoratın rəğbətini qazanmaq üçün çeşidli siyasi texnolojiyaların tətbiqində özünü büruzə verir. Ayrı-ayrı fərdlər, qruplar, partiyalar, seçki blokları siyasi hakimiyyətə yiyələnmək üçün rəqabətə girirlər. Siyasi rəqabət, başqa sözlə, siyasi yarış iki və yaxud daha çox tərəfin iştirakını tələb edir ki, bunun da əsas təminatçısı çoxpartiyalılıqdır. Plüralizmin, söz və fikir azadlığının bərqərar olduğu cəmiyyətlərdə siyasi rəqabətin düşmənçiliyə çevrilməsi imkanları çox məhdudur.

Siyasətdə iştirakın xarakterinə görə şəxsiyyətlər bir neçə yerə bölünür:

1. Siyasi həyatın sıravi suveren subyektləri, yəni məxsusi siyasətlə məşğul olmayanlar, siyasi təşkilatlarda hansısa bir vəzifə tutmayanlar.

2. Hansısa siyasi qrupun nümayəndələri. Bu şəxslər mənsub olduqları təşkilatlarda tutduqları vəzifəyə müvafiq olaraq öhdələrinə düşən işləri yerinə yetirməlidir.

3. Hakimiyyət funksiyasını yerinə yetirənlər və siyasi maraqların gerçəkləşməsinə təsir göstərmək iqtidarında olanlar. M. Veberə görə belə şəxslər üçün siyasi fəaliyyət, ilk növbədə həyati məna kəsb edir.

Şəxsiyyətlərin siyasi davranışına bir neçə amil təsir göstərir. Bunlardan ən əsası insanların həyat və fəaliyyətlərinin obyektiv sosial-iqtisadi şərti, başqa sözlə, iqtisadi maraqlar və tələbatlardır. Məhz buna görə cəmiyyətdə siyasi mübarizə son nəticədə mülkiyyət üzərində hökmranlıq hüququna gətirib çıxarır. Lakin, iqtisadi tələbatlar və maraqlar siyasi davranışın yeganə səbəbi deyil. İnsanların hakimiyyətə can atmaları, eyni zamanda özünütəsdiq, mükafat, şöhrət, üstünlüklər kimi istəklərlə də bağlıdır.

Siyasi davranışa ictimai-siyasi quruluş da ciddi təsir göstərir. Demokratik rejimlərdə siyasi fəallıq üçün əlverişli mühit yaranır.

Şəxsiyyətin siyasi davranışı siyasi mədəniyyətin inkişaf səviyyəsindən də çox asılıdır. İdeologiyalar, dəyərlər, siyasi ənənələr, adətlər şəxsiyyətin siyasi aktivliyinə pozitiv təsir də göstərə, onu ləngidə də bilər.

Bunlardan başqa, şəxsiyyətin siyasi fəaliyyətinə beynəlxalq şərait, ölkədaxili siyasi vəziyyət, fərdin psixoloji özəlliyi, onun konkret məqsədi, amalı və s. təsir göstərir.

Beləliklə, şəxsiyyətin siyasi fəallığı obyektiv və subyektiv xarakter daşıyır. Obyektiv şərtlər fərdin siyasi iradəsinin, özünütəsdiqin ortaya çıxması üçün gerçək imkanlar yaradır.

## XIII. Siyasi liderlik və siyasi elita

- *Siyasi lider və liderlik*
- *Siyasi liderliyin təbiəti, xarakterik cizgiləri*
- *Siyasi liderlərin təsnifatı*
- *Siyasi liderlərin funksiyaları*
- *Siyasi elita*

### Ədəbiyyat


1. Вйатр Е. Сосиология политических отношений. Москва, 1999
2. İskəndərzadə E. Lobbiləşdirmənin əsasları. Bakı. 2001
3. İbrahimli X.C. Diaspor və lobbiçilik. "Ayna"10.06.2001
4. Лавриенко В.Н. Политология. Москва, 2006
5. Марченко М. Политология. Москва,1999
6. Siyasi plüralizm və çoxpartiyalı demokratiya. Bakı, 1996
7. Siyasi elita. Bakı, 1996
8. Siyasi lider. Bakı, 1996
9. Siyasi liderlik. Bakı, 1999
10. Fatmagül Bektay. Politikanın Çağrısı. İstanbul Bilgi İniversiteti, 2010


- **Siyasi lider və liderlik**

Politoloji lüğətdə *lider (aparıcı)* başqasına təsir göstərmək, müştərək fəaliyyəti təşkil etmək qabiliyyətinə malik olan və toplum maraqlarını istiqamətləndirməyi bacaran şəxs hesab olunur. İstənilən cəmiyyətin inkişafı liderin yetişməsinə gətirib çıxarır. Buna görə də liderlik də siyasət qədər qədimdir. Lider təşkilatın, qrupun, bütövlükdə cəmiyyətin nüfuzlu, həm də sosial proseslərdə mühüm rol oynayan üzvüdür. Lider anlayışı *liderlik* anlayışı ilə sıx bağlıdır, başqa sözlə biri digərinin yaradıcısıdır. Liderlik nüfuz, hakimiyyət və başqaları üzərində nəzarət demək olsa da, istənilən təsir və ya nüfuz liderliyi

təmin etmir. Belə nüfuz və təsirə sahibi olmaq üçün lider, ən azı üç xüsusiyyətə malik olmalıdır. Birinci, təsir ardıcıl və daimi olmalıdır. Birdəfəlik təsir göstərən adam, təkcə bu əlamətə görə lider hesab oluna bilməz. İkinci, liderin rəhbərlik təsiri bütün qrupa, təşkilata, cəmiyyətə sirayət etməlidir. Siyasi liderliyin mühüm xüsusiyyəti onun təsirinin irimiqyaslı və əhatəli olması ilə bağlıdır. Üçüncüsü, siyasi lider nüfuz üstünlüyü ilə fərqlənməlidir. Lider və onun arxasınca gedənlər arasındakı münasibətlərə qeyri-bərabərlik, liderin qrup üzvlərinə təsirinin bir istiqamətliliyi xasdır.

Dünyada siyasi liderlərin əksəriyyəti kişilərdir. Statistik məlumatlara görə dünya parlamentlərində qadınların təmsilçiliyi, təxminən 13%-dir.

- **Siyasi liderliyin təbiəti**

***Şübhə yoxdur ki, şərait Napoleon üçün,***
***Napoleon da şərait üçün yetişmişdi (Cenniqs)***

Liderlik insanın çox vacib keyfiyyətidir. 1940-cı illərdə Amerika psixoloqu K. Bird belə keyfiyyətlərin 79-nun siyahısını tutdu. Onun təsnifatında təşəbbüskarlıq, yumor hissi, özünə inam, dostluq, həmkarlıq və s. xüsusiyyətlər mühüm yer tuturdu. Digər bir psixoloq - R. Stoqdill bu əlamətlərin sayını bir qədər də artıraraq, belə qənaətə gəldi ki, xüsusiyyətlərin sayı artdıqca onlar arasında ziddiyyətlər də çoxalır. Siyasi parktika göstərir ki, lider bəzən, bir-iki vacib keyfiyyətlə də lider ola bilir. Məsələn, prezident D. Eyzenhaueri lider edən iki əsas keyfiyyət var idi: mərdlik və cəsarət.

Siyasi lider təşkilatın, qrupun, cəmiyyətin ən nüfuzlu üzvüdür. O, siyasi proseslərə və situasiyalara xüsusi təsir göstərmək qabiliyyətinə malikdir. Siyasi liderin əsas xarakterik cizgiləri aşağıdakılardır:

- kəskin ağıl, siyasi intuisiya;
- təşkilatçılıq istedadı;
- natiqlik qabiliyyəti;

- siyasi iradə, məsuliyyəti öz üzərinə götürmək bacarığı;
- populyarlıq, insanların rəğbətini qazanmaq bacarığı;
- siyasi qrupların əksəriyyətinin xoşuna gələn aydın siyasi proqramın olması;
-münaqişələrdən qaçmaq, onu idarə və həll etmək bacarıbğı və s.

Liderliyi yer, vaxt, şərait də müəyyənləşdirir. Şəxsiyyət bu amillərə adekvat davrananda lider ola bilir. Cenniqs yazırdı: «Şübhə yoxdur ki, şərait Napoleon üçün, Napoleon da şərait üçün yetişmişdi».

Siyasi liderliyin mahiyyətində insanın psixoloji təbiəti də dayanır. Bəzən insanda ayrı-ayrı natamamaqlıq kompleksləri özünü büruzə verir və fərd bu kompleksləri, başqa sözlə zəif cəhətlərini tamamlamaq, əlavə güc qazanmaq üçün siyasi hakimiyyətə can atır. Psixoanalitiklərin mülahizələrinə görə liderliyin mənşəyində şüuraltı seksual aludəçilik dayanır. Sublimasiya (transformasiyaya bənzəyir, lakin onun eyni deyil) prosesində o yaradıcılığa və liderliyə çevrilir, daha dəqiq ifadə olunsa liderliyin və yaradıcılığın hərəkətverici qüvvəsi, motivasiyası rolunu oynayır.

Liderlik seçicilər, tərəfdarlar, fəallar və liderlər arasında münasibətlərin xüsusi növüdür.

- **Siyasi liderlərin təsnifatı**

Maks Veber siyasi liderləri aşağıdakı kimi təsnif edir:

1. *Ənənəvi liderlər*. Belə liderlər tarixdən gələn irsi imkanlara görə lider olurlar.
2. *Rasional-leqal liderlər.* Belə liderlər açıq mübarizədə öz qabiliyyətləri, şəxsi keyfiyyətləri ilə, demokratik seçkilərlə ortaya çıxır.
3. *Harizmalı liderlər.* Belə liderlər insanların inamı əsasında ortaya çıxırlar. Bu inama görə lider fövqəladə qabiliyyətlərə və imkanlara malikdir, hətta möcüzələr belə törədə bilər. Harizmalı liderlərə aşağıdakı əlamətlər xasdır:

- imic-insanlar ya liderin fövqəladə qabiliyyətlərinə inanır, ya da ki, həmin qabiliyyətlər konkret mədəni dəyərlər baxımından yüksək qiymətləndirilir;

- razılıq-insanlar liderin bəyanatlarına, ideyalarına inanır (ən azı ona görə ki, bunların müəllifi liderdir);

- mütəşəkillik-lider məhz belə istədiyinə, yaxud belə «komanda» verdiyinə görə insanlar mütəşəkilldir;

- emosiyalar-çox halda lider-tərəfdar münasibətlərinə emosiyalar hakimlik edir, tərəfdarlar öz liderlərinə kortəbii inamları, sədaqətləri ilə bağlı olurlar.

Harizmalı liderlər çox vaxt ekstremal situasiyalarda yetişir. İ. Stalin, Mao Tsze Dun, Şarl de Qoll harizmalı liderlər idi.Amerika politoloqu R. Taker liderləri üç qrupa bölür: konservatorlar, islahatçılar, inqilabçılar. Konservatorlar ictimai həyatın mövcud formasını saxlamağa çalışır. Konsevativ liderə yaxşı örnək U. Çörçilldir. 1936-cı ildə Almaniya ilə ittifaq bağlamağın məqsədəuyğun olmadığını o, məhz konservativ mülahizələrlə əsaslandırırdı: «400 il ərzində İngiltərənin xarici siyasəti kontinentdə ən güclü, təsirli və aqressiv dövlətə qarşı dayanmağa yönəlib».

İslahatçılar, ilk növbədə, hakimiyyət strukturlarında geniş islahatlar aparmaqla mövcud sosial-siyasi şəraiti dəyişdirməyə can atırlar. Çin lideri Den Syaopin belələrindəndir.

İnqilabçılar isə islahatlarla şəraiti dəyişdirməyin qeyri-mümkünlüyü qənaətində olur və hər şeyi fundamental olaraq yenidən qurmağa çalışır. Bu cür liderə örnək Kuba Respublikasının başçısı Fidel Kastrodur.

Hermann liderliyi stilinə görə də dörd yerə bölür:

- «yanğınsöndürənlər» ən aktual, «yanan», qaynar problemlərin həlli ilə məşğul olmağa üstünlük verirlər;

- «bayraqdarlar» kütlələri cəlb etməyə, onları arzu və ideallarla silahlandırmağa meyl göstərirlər;

- «tacirlər» kütlələri öz planlarının cəlbedici olduğuna inandırmağı bacarırlar;

- «xidmətçilər» öz silahdaşlarının, tərəfdarlarının maraqlarını müdafiə etməyə üstünlük verirlər.

Liderlər öz miqyaslarına görə dörd qrupa bölünürlər: ümumilli lider; hər hansı bir sinfin, zümrənin lideri; ayrıca bir etnosun lideri; təşkilatın, hərəkatın lideri.

- **Siyasi liderlərin funksiyaları**

Müasir politoloqlar siyasi liderlərin 6 vacib funksiyasını göstərir.

1. *Analitik funksiya.* Lider yaranmış şəraiti dərindən və hərtərəfli analiz etməli, obyektiv və subyektiv amilləri nəzərə almalı və bunlara müvafiq olaraq gerçək fəaliyyət proqramı hazırlayıb, onu həyata keçirməlidir.

*2. Təşkilatçılıq funksiyası.* Lider qarşıya qoyulan məqsədə nail olmaq üçün öz tərəfdarlarını, kütləri səfərbər etməyi, xalqın müxtəlif təbəqələrini birləşdirməyi, komandasını formalaşdırmağı, siyasi fəaliyyəti planlaşdırmağı və işin icasına nəzarət etməyi bacarmalıdır.

3. *İnteqrativ funksiya.* Lider ümummili maraqlar, dəyərlər və ideallar ətrafında müxtəlif siyasi qüvvələrin, qrupların, təbəqələrin konsolidasiyasına nail olmalıdır. Bu mənada Amerika prezidenti F. D. Ruzvelt cəmiyyətin müxtəlif təbəqələrini və siyasi qüvvəlləri xüsusi bacarıqla ümummilli maraq ətrafında birələşdirən, koalisiya yaradan hakimiyyət ustası idi.

*4. Yenilikçilik (novatorluq) funksiyası.* Lider yeniliyin təşəbbüskarı olmalıdır. Bu mənada böyük innovasiyalar konsepsiyasının müəllifi kimi F. D. Ruzvelti, «ümumavropa evi» ideyasının müəllifi kimi Ş. de Qollu, «xalq kapitalizmi» konsepsiyasının müəllifi kimi M. Tetçeri, «Yurdda sülh, cahanda sülh!» konsepsiyasının müəllifi kimi M. K. Atatürkü örnək göstərmək olar.

*5. Kommunikativ funksiya.* Lider hakimiyyətlə cəmiyyətin müxtəlif təbəqələri arasında dayanıqlı əlaqələr qurmağı bacarmalıdır. Bu mənada yenə də F. D. Ruzvelt örnək

liderlərdəndir. 1930-cu illərdə o «Yeni kurs» adlanan siyasətlə cəmiyyətin bütün təbəqələri arasında bağlar yaratdı və Amerikanı dəhşətli iqtisadi böhranın caynağından qurtardı.

6. *Ədalətin, qanunun, nizamın təminatçısı olmaq funksiyası*. Ədaləti, qanunun aliliyini və nizam-intizamı təmin edə bilməyən lider insanların rəğbətini qazana və nəticə etibariylə lider ola bilməz.

- **Siyasi elita**

Elitlər haqqında ilk nəzəriyyələr XIX əsrin sonu, XX əsrin əvvəllərində meydana gəldi. «Elita» latınca *seçmək* mənasını verir. Ümumilikdə isə bu termin cəmiyyətdə yüksək mənsəb, nüfuz, sərvət sahibi olanlara şamil edilir. Elita insan fəaliyyətinin bütün sferalarında, o cümlədən siyasətdə mövcuddur.

*Siyasi elitanın mövcud olma səbəbləri:*

- insanların psixoloji və sosioloji qeyri-bərabərliyi, onların qeyri-bərabər imkan və qabiliyyətləri, siyasətdə fərqli iştirak arzuları;
- əmək bölgüsü qanununun mövcudluğu;
- kütlələrin siyasi passivliyi, əsasən siyasətdən kənar olan maraqlar;
- əmək fəaliyyətinin müəyyən sosial üstünlüklər əldə etmək üçün geniş imkanlar açması.

*Siyasi elitanın tipologiyası:*

- idarəedən elita - birbaşa dövlət hakimiyyətinə sahib olur;
- yüksək elita - dövlət əhəmiyyətli qərarlar qəbul edir;
- orta elita - ictimai fikrin barometri rolunu oynayır;
- inzibatçı, xidmətçi elita, yaxud bürokratlar.

*Tarixən evolyusiya olunan elita tipləri:*

- industrialaqədərki cəmiyyət;
- industrial cəmiyyət (maliyyə oliqarxları);
- postindustrial cəmiyyət (intellektual elita-meritokratiya).

Elitlər haqqında mövcud olan konsepsiyalar aşağıdakılardır:

1. Makiavelli nəzəriyyəsi

Bu nəzəriyyəyə görə elita cəmiyyəti idarə edir. Onlar «aslanlara» və «tülkülərə» bölünürlər. Aslanlar sərt qərarlar qəbul etməyi xoşlayır, siyasətdə zora, inzibati üsullara, tülkülər isə hiylələrə və manevrlərə üstünlük verir.

2. Q. Moska, V. Pareto, R. Mixels konsepsiyaları.

«İdarəedən elita» konsepsiyasının müəllifi Q. Moska qeyd edirdi ki, idarəedən elita əvvəlcə hakimiyyətə sahib olur, sonra isə bütün siyasi funksiyaları yerinə yetirmək üçün siyasi monopoliya yaradır. Bu zaman onlar hakimiyyətin verdiyi bütün imkan və səlahiyyətlərdən istifadə edirlər. Q. Moska idarəedən elitanı «mütəşəkkil azlığın qeyri-mütəşəkkil çoxluq» üzərində hökmranlıq edən qrup hesab edir. Bu mənada siyasət elmlərinin vəzifəsi idarəedən elitanın hakimiyyətə gəldiyi şəraiti, üsulları və onu əldə saxlama qaydalarını öyrənməkdir. Q. Moskanın qənaətinə görə heç bir mədəni cəmiyyətdə idarəedən elita öz hakimiyyətini faktiki hökmranlıq şəklində təsdiq etmir. Elita öz hakimiyyətini əxlaqi və hüquqi prinsiplərlə möhkəmləndirir.

V. Paretonun idarəedən elita, yəni «aristokratiya» konsepsiyası bir qədər psixoloji xarakteri ilə seçilir. O, aristokratiyanın xarakterik xüsusiyyəti kimi psixoloji keyfiyyət və qabiliyyət məsələlrinə diqqəti cəlb edir. Məhz bu keyfiyyətlərin hesabına hakimiyyətdə enerjili, qabiliyyətli, güclü insanlar qalır. V. Paretoya görə bütün müasir cəmiyyətlər idarəedən elitlərin təbiətinə görə fərqlənirlər. Çoxluğu idarə edən azlıq hiylə və gücə əl atır. Bu mənada V. Pareto N. Makiavelli nəzəriyyəsini və onun «tülkülər», «aslanlar» bölgüsünü təqdir edir.

Alman mütəfəkkiri R. Mixels cəmiyyətin elitar differensiasiyası kimi «oliqarxiyanın dəmir qanunu» konsepsiyasını irəli sürdü. Bu qanuna görə istənilən təşkilat (hətta ən radikal təşkilat da) labüdən idarəedən azlığa və idarə olunan çoxluğa

bölünür. Beləliklə, idarəetmə strukturunun bürokratlaşması, idarəedən elitanın, çoxluqda qalan təşkilat üzvlərinə nisbətən böyük üstünlüklərə malik olan liderlərin formalaşması prosesi gedir.

Q. Moska, V. Pareto, R. Mixels konsepsiyaları ümumiləşdiriləndə belə nəticə çıxır ki:

- cəmiyyət idarə edən azlığa və idarə olunan çoxluğa bölünür;
- elita başqaları üzərində hakimlik edən mütəşəkkil qrupdur;
- istənilən cəmiyyətin siyasi inkişafı siyasi elitadan asılıdır;
- siyasi elitanın əsas təyinatı vacib siyasi qərarlar qəbul etməkdir;
- elitlər «günəş altında isti yer» uğrunda mübarizə aparır və bir-birlərini əvəz edirlər.

Q. Moska, V. Pareto, R. Mixels konsepsiyaları elitlər haqqında müasir konsepsiyaların meydana gəlməsinə təkan verdi.

3. Müasir konsepsiyalar elitlərin sahib oduqlar dəyərlərə önəm verir ki, bu məktəbin görkəmli nümayəndələrindən biri İspaniya filosofu Xose Orteqa Qasseta sayılır. X.O. Qassetaya görə elitlər «daxili imperiativlərə» qulaq asaraq yaxşı, özünə qarşı tələbkar insan olmağa çalışır, kamilliyə can atır. Onlar cəmiyyətin yaradıcı, məhsuldar və faydalı hissəsidir, başqalarından, yəni çoxluqdan yüksək intellektual qabiliyyətləri, əxlaqi keyfiyətləri ilə seçilir.

Rus dindar filosofu N. Berdyayev də mənəvi-ruhani dəyərlərə önəm verən məktəbin nümayəndələrindəndir. N. Berdyayevə görə tarixdə «mənəvi qanun» yaşayır və bu qanun «ruhun seçilmiş şəxsiyyətlərdə təzahürünü təmin edir». Bu şəxsiyyətlərdən, ruhani və fiziki üstünlüyə, xeyirxahlıq, səxavətlilik, insana və bəşəriyyətə xidmət etmək, ləyaqətlilik kimi keyfiyyətlərə malik olan qrup - aristokratiya formalaşır. Aritok-

ratiya bir neçə pilləli olur. Ən yüksək pillədə dayananlar isə «gerçək aristokratiyadır». Onlar da iki növə bölünür: zahiri-tarixi planda fəaliyyət göstərən aristokratiya (ekzoteristlər); daxili planda fəaliyyət göstərən ruhani aristokratiya (ezoteristlər). N. Berdyayev nəzəriyyəsinə görə, elitlərin çəkisi cəmiyyətdə 6%-dən aşağı düşəndə, həmin cəmiyyətdə tənəzzül başlayır. (1917-ci ildə Azərbaycanda 2000 universitet təhsili alan mütəxəssis var idi. 1920-ci il bolşevik işğalından sonra ölkədə cəmi 25 nəfər ali təhsilli mütəxəssis qalmışdı və bu sonrakı onilliklər üçün böyük fəsadlır yaratdı.)

4. Struktur-funksional yanaşma. Bu yanaşmanın tərəfdarları ilk dəfə hakimiyyət strukturu sistemindəki sosial statusu elitlərin əsas keyfiyyəti kimi təqdim etdilər. Bu baxışların tərəfdarları Amerika politoloqları Harold Lassuel və Seymur Lipset elitlərə, yüksək sosial mənsəbə sahib olan və vacib institutlarda, təşkilatlarda həlledici komanda mövqeyi tutan insanları daxil edirlər. Onlar cəmiyyətdə vacib idarəçilik funksiyalarını yerinə yetirir, inkişafa əsaslı təsir göstərirlər. Q. Lassuelə görə siyasi qərarların hazırlanmasında və qəbul edilməsində intellektual biliklər həlledici rol oynayır. Buna görə də o, siyasi elitaya yüksək intellektual biliklərə sahib olan insanları aid edirdi.

5. Liberal yanaşma. Bu yanaşmanın müəllifi Avstriya sosioloqu Yozef Alois Şumpeter və Amerika politoloqu Çarlz Rayt Mills sayılır. Liberallar öz demokratikliyi ilə seçilir və elitlər barədə klassik sərt nəzəriyyələri qəbul etmirlər. Onlara görə elitlər sərt rəqabət şəraitində formalaşır. Bu məntiqlə demokratiya rəqabəti sevdiyindən, elitlər də liberal demokratiyanın müdafiəçiləri rolunda çıxış edir. Y. A. Şumpeterin rəqabət elitarizmi konsepsiyasına görə elitlərin seçkilərdəki yarışı özünəməxsus siyasi bazar yaradır. Bu bazarda hakimiyyət əldə etməyə can atan siyasətçi sahibkar, seçicilər isə alıcı qismində çıxış edir. Ç. R. Mills liberal konsepsiyanı müdafiə edir, idarəedən elita konsepsiyasına tənqidi yanaşırdı.

Onun fikrincə müasir elitlər ağıllı komandaya malik olan insanlar qrupudur. Mills elitanın əsas əlaməti kimi *mənsəb* məsələsinə xüsusi diqqət yetirir. O yazırdı: «Nə qədər çox mənsəbə sahibisinizsə, onu o qədər də çox əldə edə bilərsiz».

6. Plüralist elitlər konsepsiyasına görə:

- rəhbərlikdə təmsil olunma yüksək sosial statusla yanaşı, fərdi qabiliyyətləri, bacarıqları da inkişaf etdirir;
- cəmiyyətin elitlərə və kütlələrə bölünməsi şərti və müvəqqətidir;
- demokratik cəmiyyətlərdə elitlər hakimlik etmir, idarə edirlər;
- elitlər çoxdur və onların çoxluğu əməyin ictimai bölgüsü ilə müəyyənləşdirilir.

7. Sol liberal konsepsiyalara görə:

- elitlər mütəşəkkil və tərkibi müxtəlif qruplardır;
- onlar fərdi keyfiyyətlə deyil, komanda keyfiyyəti ilə seçilir;
- öz şəxsi hakimiyyətlərini təmin etməyi bacarırlar;
- elitlər yaxın əhatə dairəsindən formalaşır.

Deyilənləri yekunlaşdıraraq belə qənaətə gəlmək olar ki, elitlər haqqında bütün konsepsiyalarda vahid cəhətlər, fərqli cəhətlərdən çoxdur. Mütəxəssislərin, demək olar ki, mütləq əksəriyyəti bu qənətdədir ki, cəmiyyətdə daim azlıqda olan elitlər: siyasətin özü qədər qədimdir, eyni zamanda, ictimai-siyasi münasibətlər qaldıqca bu bölgü də qalacaq; onlar üstün intellektual imkanları, mənəvi-əxlaqi dəyərləri, qabiliyyətləri ilə mütləq çoxluqdan seçilir, onu yönəldir, idarə edirlər; elitlər cəmiyyətdə nüfuzları, sosial-siyasi və maddi mövqelərinə görə başaqalarından fərqlənirlər; ictimai münasibətlərin, siyasi şəraitin tələblərinə uyğun olaraq davamlı şəkildə yeniləşir və cəmiyyətin inkişafına yenilik gətirir, bu inkişafa təkan verirlər.

## XIV. Siyasi münaqişə və siyasi mədəniyyət

- *Siyasi münaqişənin funksiyaları, strukturu, xüsusiyyətləri və tipologiyası*
- *Dövlətlər və sisvilizasiyalararası münaqişələr*
- *Totalitar və demokratik rejimlərdə siyasi münaqişələr*
- *Etnosiyasi münaqişələr*
- *Siyasi münaqişənin mərhələləri*
- *Siyasi münaqişələrin tənzimlənməsi və danışıqların aparılması texnologiyası*
- *Siyasi mədəniyyətin mahiyyəti*
- *Siyasi mədəniyyətin funksiyaları*
- *Siyasi mədəniyyətin təçnifatı*
- *Siyasi mədəniyyətin baza dəyərləri*
- *Siyasi mədəniyyətin tipologiyaları*

### Ədəbiyyat


1. Глухова А.В. Политические конфликты. Москва, 2000
2. Конфликтология. Под ред. Ратникова В. П. Москва, 2005
3. Кудрявцев В. Н. Основы конфликтологии. Москва, 1997
4. Ken Booth (ed) (2011) *Realism and World Politics.* Oxford: Routledge. 342p.
5. Meltem Ünal Erzen. Tarihi, Kültürel ve Sosyal Paradiqmaları. Ankara, 2011
6. Хейвуд В.Н. Политология. Перевод с англ. Москва, 2005
7. Сиделникова Т.Т., Теминков Д.А., Шарагин И.А. Политология. Москва,1999
8. Tokvil. A. Amerikada Demokratiya (1835), Bakı, 2002
9. Hantiqton S. Medeniyyetler çatışması. İstanbul, 2002
10. Siyasi plüralizm və çoxpartiyalı demokratiya. Bakı, 1996
11. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi. Bakı, 2000

## • Siyasi münaqişənin funksiyaları, strukturu, xüsusiyyətləri və tipologiyası

*Münaqişə və müharibələr onların,*
*nəticələrini bilməməkdən törəyir.*

Müasir dövrdə konfliktolojiya müstəqi elm sahəsinə çevrilib. Onun fəlsəfi və sosioloji əsaslarını M. Veber, R. Darendorf, T. Parsons və başqalarının konsepsiyaları təşkil edir. Konflikt (münaqişə) nəzəriyyəsi isə ayrıca L. Kozer, K. Boldinq, M. Doyç, L. Krisberq və başqaları tərəfindən işlənmişdir. Sahə ilə məşğul olanların, demək olar ki, hamısı bu qənaətdədirlər ki, fərdlər, qruplararası (sinfi, milli, dini və s.) münaqişələr sosial qanunauyğunluqdur. Münaqişə deyildikdə, çox hallarda hərəkət və məqsədin bir-birinə uyğun gəlməmsi başa düşülür. Münaqişə siyasi həyatın ayrılmaz tərkib hissəsidir. O, adətən siyasi subyektlərin maraqları üst-üstə düşməyəndə, toqquşanda təzahür edir. Konfliktoloq K. Boldinq münaqişəyə tərəflərin bir-birləri ilə razılığa gələ bilmədiyi vəziyyət kimi baxır. L. Kozer isə hesab edir ki, münaqişə rəqibi zərərsizləşdirməyə yönəlmiş mübarizədir. Münaqişə ictimai hadisə kimi müxtəlif sahələrdə təzahür etsə də, onun əsas meydanı siyasətdir.

*Siyasi münaqişə*-hakimiyyət səlahiyyətlərinin və resurslarının bölünməsi ilə bağlı bir-birləri ilə mübahisə edən fərdlərin, qrupların, tərəflərin məsələlərə fərqli baxışları, fərqli nəticə çıxarmaları, öz aralarında rəqabətidir. Siyasi münaqişənin mühüm cəhəti budur ki, onun iştirakçılarının maraqları və məqsədləri siyasi sahə ilə sıx bağlı olur. Qərb konfliktoloqları hakimiyyət və onunla bağlı münaqişələrin mahiyyətinə və xarakterinə xüsusi önəm verir. Fransız filosofu Emil Şartye yazır ki, hakimiyyəti izah etmək olmur, elə onun gücü də məhz bundadır. Münaqişələr fərdlər, qruplar, cəmiyyətdəki yarımsistemlər arasında və regional, qlobal səviyyədə baş verir. Münaqişələrin funksiyalarını iki qismə bölmək olar: pozitiv və neqativ.

Pozitiv funksiyalar:

- cəmiyyəti və hakimiyyəti ziddiyyətlərin və fikir ayrılıqlarının olmasından xəbərdar edir, stabilliyin, inteqrasiyanın bərqərar olmasına rəvac verir, fəaliyyəti stimullaşdırır, situasiyanın nəzarətə götürülməsinə imkan yaradır;
- cəmiyyətin yeniləşməsinə, ziddiyyətlərin həllinə şərait yaradır, dəyərlərin yenidən qiymətləndirilməsini stimullaşdırır;
- yeni strukturların yaradılmasını sürətləndirir;
- münaqişə edən tərəflər üçün problemin hərtərəfli öyrənilməsinə şərait yaranır və s.

Neqativ funksiyalar:

- münaqişələr cəmiyyətin dezinteqrasiyasına, parçalanmasına səbəb olur;
- sosial partlayışa, hətta insan tələfatına səbəb olan hadisələrin törənməsinə gətirib çıxara bilər;
- dövlətlərarası münaqişələrə, beynəlxalq münasibətlərin korlanmasına gətirib çıxara bilər;
- nəhayət, hər hansı bir məsələnin hərbi yolla həll olunması ilə nəticələnər.

Siyasi münaqişənin obyekti spesifik sosial resurs sayılan dövlət hakimiyyəti, sosial qrupların statusu (cəmiyyət üçün vacib qərarların qəbuluna təsir gücü) və siyasi dəyərlərdir (patriotizm, vətəndaş təəssübkeşliyi, azadlıq və s.).

Subyekt isə ya sosial qruplar, ya da onları təmsil edən siyasi institutlardır. Sual olunur bunlardan hansı real, hansı nominal subyektdir? Şübhəsiz ki, fəaliyyət göstərən siyasi institutların (hökumət, parlament, məhkəmə hakimiyyəti) arxasında sosial qrupların maraqları dayanır. Ancaq həlledici siyasi qərarları qəbul edən siyasi təsisatlardır. Çünki qrup maraqlarından başqa, suverenlik, təhlükəsizlik, stabillik, iri miqyaslı iqtisadi layihələrin həyata keçirilməsi kimi ümummilli maraqlar da var. Buna görə də dövlət təsisatları toqquşan, rəqabətdə olan qrup maraqlarının tənzimləyicisi, münaqişə situasiya-

larının arbitrajı kimi də çıxış edir. Nəzərə almaq lazımdır ki, bəzən dövlət strukturlarının daxilində də ziddiyyətlər, münaqişələr baş qaldırır. Bütün bunlar onu deməyə əsas verir ki, siyasi münaqişənin real subyekti siyasi institutlardır.
Siyasi münaqişələr hansı xüsusiyyətləri ilə seçilir?

Birincisi, maraqların toqquşması açıq və qabarıq şəkildə özünü büruzə verir. Bu zaman sosial gərginliyin azaldılması, cəmiyyətdaxili münasibətlərin tənzimlənməsi üçün siyasətə ehtiyac yaranır.

İkincisi, siyasət ictimailəşmiş hadisədir. Cəmiyyətdəki istənilən münaqişənin həlli üçün ictimai rəyə, ictimaiyyətin köməyinə istinad olunmalıdır.

Üçüncüsü, siyasət sahəsində olan münaqişələrin, başqa sahələrə nisbətən çoxluğudur. Çünki cəmiyyət həyatının digər sahələrində öz həllini tapmayan münaqişələr də çox zaman siyasi müstəviyə transformasiya olunur.

Dördüncüçü, siyasi münaqişənin ümumiliyi, yəni bütün cəmiyyət üçün əhəmiyyət kəsb etməsi, hər bir vətəndaşa toxunmasıdır. Siyasi münaqişə nə qədər lokal xarakter daşısa da o, nəticədə dövlət səviyyəsində qəbul olunan qərarla öz həllini tapır.

Beşincisi, «hökmranlıq və tabeçiliyin» mövcudluğudur. Siyasi hakimiyyətin əsas məqsədi öz hökmranlığını bərqərar etməkdir. Müasir politologiyda hökmranlıq istismar, zülm etmək deyil, sadəcə müəyyən nizamın yaradılması, göstəriş verən və ona əməl edən tərəflərin mövcudluğudur. Bu tərəflər arasındakı münasibətlər mahiyyət etibariylə münaqişə situasiyasının var olması deməkdir.

Altıncısı, siyasi münaqişənin həllində gücdən istifadə imkanlarının mövcudluğudur. Cəmiyyətdəki hakimiyyətlərdən ancaq dövlət hakimiyyəti leqal güc tətbiq etmək hüququna malikdir. Dövlətin siyasi institut kimi bütün siyasi münaqişələrin iştirakçısı olmasına baxmayaraq, o güc tətbiq etməyə meyllidir və bunun üçün həmişə qanuni əsaslar tapa bilir. Lakin

o da bir həqiqətdir ki, belə vəziyyət münaqişəni daha təhlükəli və dağıdıcı həddə çatdıra bilir.

Siyasi münaqişələrin tipologiyaları aşağıdakılardır:

- münaqişələr yayılma sferalarına görə bir-birlərindən fərqlənir (dövlətlərarası, sivilizasiyalararası münaqişələr);
- siyasi sistemlərin (totalitar, demokratik, avtoritar və s.) xarakterinə görə bir-birlərindən fərqlənir;
- münaqişələr predmetinin xarakterinə (maraqların münaqişəsi, dəyərlərin, ideologiyaların, identifikasiyaların münaqişəsi, status-rollu münaqişələrvə s.) görə bir-birlərindən fərqlənirlər.

Bir çox hallarda bu münaqişə növləri bir-birləri ilə sıx əlaqədə olur. Məsələn, rejimlərin və yaxud da dəyərlərin, ideologiyaların arasındakı fərqlər, ziddiyyətlər dövlətlər, sivilizasiyalararası ziddiyyətlərə, münaqişələrə rəvac verir.

- **Dövlətlər və sisvilizasiyalararası münaqişələr**

***Rəqibə qalib gələ bilmirsənsə, onunla barış***

Dövlətlər arasında bitib-tükənməyən rəqabət var. Bu rəqabəti yaradan dövlət maraqları, milli maraqlardır ki, mövcud maraqlar münaqişələrin yaranması üçün təbii əsas sayılır. Müasir dövrdə dünya bazarının qloballaşması, ekoloji fəsadların artması tendensiyası, texnologiyanın, əlaqələrin inkişafı, informasiya axınlarının güclənməsi milli maraqların sərhədlərini laxladıb. Bəzən bir dövlətin «həyati maraqlar» adlandırdığı sərhəd, həmin dövlətin milli sərhəddindən min km.-lərlə uzaqda yerləşir. Əlbəttə, belə vəziyyət özü də münaqişələrin yeni formalarını, yeni xarakterini meydana gətirir və qloballaşmanın məntiqinə uyğun daha mükəmməl beynəlxalq nizamın yaranmasını tələb edir.

Müasir dünyada beynəlxalq nizamın formalaşmasına aşağıdakı amillər pozitiv təsir göstərir:

- iqtisadiyyatın inteqrasiyası və onun tədricən siyasi müstəviyə keçməsi, siyasi inteqrasiya prosesinə pozitiv təsir göstərməsi;

- BMT, ATƏT, Avropa Birliy, Avropa Şurası, NATO, Amerika Dövlətlərinin Liqası, Afrika Birliyi Təşkilatı, İslam Konfransı Təşkilatı, GUAM və s. kimi beynəlxalq və regional təşkilatların sülhyaradıcı rolunun artması;

- qarşılıqlı nəzarət şəraitində hərbi qarşıdurmaların zəifləməsi;

- beynəlxalq hüquqa hörmət vərdişlərinin artması;

- xalqlar arasında ünsiyyətin get-gedə artması;

- milli dövlətlərdə demokratikləşmə tempinin yüksəlməsi və s.

Dövlətlərarası iqitsadi, siyasi münaqişələrlə yanaşı XX – XXI yüzilliklərdə yeni, yəni mədəniyyətlər-sivilizasiyalar arası münaqişə forması da gündəmə gəlib. Sovetlər Birliyinin çökməsindən sonra kapitalizm və sosializm sistemləri arasındakı münaqişə ortadan qalxdı, «soyuq müharibə» başa çatdı. Lakin dünyada qlobal münaqişə bitmədi. Bu S. Hantiqtonun 1996-cı ildə nəşr olunan «Mədəniyyətlərin çaışması» kitabı ilə aktuallaşan sivilizasiyalarası münaqişədir. S. Hantiqtona görə sivilizasiyaların qarşılıqlı əlaqəsi sayəsində müasir dünyada qlobal siyasət birinci dəfədir ki, çoxqütblü xarakter kəsb edir. İndi dünya siyasətində əsas hərəkətverici qüvvə milli dövlətlər və dövlətlərarası qruplardır. Üç böyük hərbi blok arasında qarşıdurma bitəndən sonra, yeddi-səkkiz sivilizasiya arasında rəqabət yaranıb (ABŞ, Avropa, Çin, Yaponiya, Rusiya, Hindistan, Yaxın Şərq ölkələri). XX əsrdə dünyanın iki supergücünün rəqabətinin arxasında Yaxın Şərq və Şərqi Asiyanın bir sıra dövlətləri öz iqtisadi qüdrətini artıra bildi. S. Haqntiqton yazır ki, bütün bunların nəticəsində müasir dünyada regional siyasət etnik münasibətlər, qlobal siyasət isə sivilizasiyalararası münasibət zəminində həyata keçirilir, supergüclərin rəqabəti öz meydanını sivilizasiyaların toqquşmasına

verir. Bu zaman münaqişələr siniflər, dövlətlər arasında deyil, müxtəlif mədəniyyət daşıyıcıları olan mədəniyyətlər arasında baş verir.

ABŞ-dakı 2001-ci il 11 sentyabr terror hadisələrindən sonra Əfqanıstanda və İraqda başlanan hərb əməliyyatlar, İran və ABŞ arasında ziddiyyətlərin böhran həddinə çatması bir sıra mütəxəssisləri bu qənaətə gətirdi ki, S. Hantiqton öz mülahizələrində və proqnozlaprında yanılmayıb. Gerçəkdən də bu gün İslam və Xristian dünyası arasında münasibətlər ürəkaçın deyil.

- **Totalitar və demokratik rejimlərdə siyasi münaqişələr**

Siyasi münaqişələrin mahiyyətini müəyyənləşdirən əsas amil siyasi rejimin xarakteridir. İqtisadi inkişafda tarazlığın pozulduğu, siyasi-mədəni sahələrdə problemlərin mövcud olduğu totalitar sistemlərdə siyasi münaqişələr aşağıdakı xarakterik xüsusiyyətləri ilə fərqlənir:

1. Siyasi hakimiyyətə yaxınlıq və uzaqlıq məsələsi ilə əlaqəli olan *status-rollu* münaqişələr.

2. Münaqişələrin *gizlədilməsi və boğulması*. Məhz bu səbəbdən totalitar regimlər çox vaxt vətəndaş müharibələri, inqilablar, vasitəsiylə, zor tətbiq olunmaqla dağılır.

3. Totalitar rejimlərdə siyasi münaqişələr aşırı dərəcədə *ideologiyalaşır*. İdeologiya tənqiddən uzaq, toxunulması yasaq olan bir sahəyə çevrilir. Fərqli düşüncə daşıyıcıları düşmən kimi qarşılanır. Totalitar rejimlər elm, mədəniyyət, ilahiyyat sahələrini də çərçivəyə salmaqla münaqişə üçün əlavə qaynaqlar yaradır.

4. Məişət səviyyəsində olan ən xırda münaqişələr belə *siyasiləşdirilir*, hər şeyə siyasi rəng verilir. Hətta qadağan olunmuş ədəbiyyatın saxlanması və oxunması belə dövlətlə vətəndaş arasında münaqişəyə səbəb olur.

5. Münaqişələrin əksəriyyəti *sünii və sırınma* xarakteri daşıyır. «Qaranlıq otaqda, olmayan qara pişik axtarılır».

Kimlərsə «xalq düşmənləri», «millət, vətən xainləri» elan olunur və dövlət aparatı onlarla mübarizəyə səfərbər edilir.

6. Totalitar rejimlər münaqişələrin beynəlmilləşməsində, sahib olduqları ideologiya ilə fərqli ideologiyaların toqquşmasında maraqlıdır. İnqilab ixracı fikri də buradan doğur və nitəcədə daxili münaqişələr beynəlxalq münaqişələrə çevrilir.

Demokratik rejimlərdəki siyasi münaqişələrin xarkterik xüsusiyyətləri isə aşağıdakılardır:

1. Demokratik rejimlərdəki münaqişələr *açıq, cəmiyyətə məlum* olan münaqişələrdir. Onlar cəmiyyət həyatının əksər sahələrində bərqərar olan rəqabətlilik prinsipindən qaynaqlanır.

2. Siyasi münaqişələr özünün siyasi sferası ilə *çərçivələnir*. O vətəndaşların şəxsi həyatına yayılmır, iqtisadi inkişafa təsir göstərmir.

3. Vətəndaşların siyasi hakimiyyətə təsir göstərmək imkanlarına malik olmasına baxmayaraq, demokratik cəmiyyətlərdəki siyasi münaqişələr *gərginlik* yaratmır. Onların partlayışla nəticələnməsi və zorla həlli ehtimalı azdır.

4. Demokratiya fikir, ideya plüralizmi əsasında formalaşdığına görə, münaqişələrin həlli üçün daha çox *siyasi vasitələrin* tapılmasına şərait və imkan yaradır.

5. Demokratik rejimlərdə status-rollu siyasi münaqişələr, *maraqların və dəyərlərin* münaqişəsinə nisbətən az əhəmiyyət kəsb edir.

6. Hakimiyyət bölgüsü prinsipi imkan verir ki, hər bir sosial qrup öz maraqlarını müdafiə edə bilsin. Münaqişələrin rəngarəng və müxtəlif miqyaslı olması demokratiyanın gücüdür. Elə buna görə də rəqabətdə olan sosial qruplar və onların maraqları arasında tarazlıq yaratmaq, uzlaşma nöqtələri tapmaq asanlaşır.

7. Demokratiyanın güclü tərəflərindən biri də, münaqişələrin həlli üçün dəqiq prosedurlar, qaydalar, tənzimləyici vasitələrin işlənib hazırlanmasıdır.

Lakin bu deyilənlərə baxmayaraq, demokratiyanın da problemləri yox deyil.

- **Etnosiyasi münaqişələr**

Etnosiyasi münaqişə zamanı qarşıdurmanın sərhəddi etnik xətt üzrə müəyyənləşir. Onların əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Bütün etnosiyasi münaqişələr tərkib *mürəkkəbliyi* ilə seçilir. Belə münaqişələrin mahiyyəti etnosun öz dövlətçiliyini yaratmağa cəhd göstərməsi ilə bağlıdır. Məhz bu səbəbdən də münaqişə siyasi xarakter kəsb edir. Münaqişənin yaranması üçün konkret bir dövlət tərkibindəki etnosun iqtisadi, sosial, siyasi, kulturaloji, dini planda ayrıseçkiliyə məruz qalması əsas şərtdir. Münaqişənin mürəkkəbliyi deyiləndə də məhz bu amil, yəni sözügedən istiqamətlərin münaqişəyə ya kompleks şəkildə, ya da onlardan bir neçəsinin sintezdə rəvac verməsi nəzərdə tutulur.
2. Belə münaqişələr yüksək *emosianal* gərginliklə müşaiyət olunur.
3. Etnosiyasi münaqişələrin əksəriyyəti dərin *tarixi* köklərə malik olur. Əgər onlar olmasa belə münaqişə yaratmaq istəyən tərəf tarixdən hansısa faktları, dəlilləri «tapa» bilir. Buna görə də etnosiyasi münaqişələrdə bir qayda olaraq ərazi iddiaları məsələsi ortaya çıxır.
4. Etnosiyasi münaqişələr yüksək *səfərbərliklə* müşaiyət olunur. Öz haqları uğrunda mübarizə aparan etnosun bütün üzvləri prosesə qoşulur və onu kütləviləşdirir.
5. Bu münaqişələr əksər hallarda *xroniki* xarakter daşıyır. Etnosiyasi münasibətlər özü münaqişəli münasibətlərdir.
6. Etnosiyasi münasibətlər kövrək və həssas olduğuna görə belə münaqişələr bir çox hallarda *maraqlı xarici qüvvələrin* təsiri və gizli dəstəyi ilə baş verir və münaqişəyə girən tərəf iddialarını yuxarıda göstərilən amllərlə əsaslandırmağa çalışır.

Məsələn, Sovetlər Birliyinin çökməsi ilə Azərbaycanda erməni separatçılığı baş qaldırdı. Bu münaqişədə yüksək emosianal gərginlik özünü büruzə versə də, «tarixi dəlillərin» və onun nəticəsi kimi ortaya çıxan torpaq, sosial-siyasi, kulturaloji disskriminasiya iddialarının heç bir əsası yox idi. Ermənilərin XIX əsrdə Azərbaycana kütləvi köçürülmələri və sovet dönəmlərində muxtar hüquq əldə etmələri, yaşadıqları muxtar qurum tərkibində heç bir ayrı-seçkiliyə məruz qalmamaları, əksinə Dağlıq Qarabağ Muxtar Vilayətində həyat səviyyəsinin Azərbaycanın digər bölgələrinə nisbətən yüksək olması tarixi gerçəklik olsa da, xarici qüvvələr bu həssas məsələdən sui-istifadə edərək, sonralar qaynar hərbi əməliyyatlara çevrilən münaqişə törədə bildi.

- **Siyasi münaqişənin mərhələləri**

  Birinci mərhələ, münaqişələrin yaranmasıdır.

Bu mərəhələ üçün xas olan xüsusiyyətlər aşağıdakılardır:

- mübahisə və münaqişə üçün əsas meydana gəlir;
- müxalif tərəflər formalaşır;
- siyasi maraqlar aktuallaşır;
- prioritet dəyərlər seçilib ayrılır;
- münaqişədə qalib gəlmək üçün strategiya və taktika işlənib hazırlanır;
- müttəfiq axtarışlarına başlanır.

İkinci mərhələ, münaqişənin inkişafıdır.

Bu mərhələyə xas olan xüsusiyyətlər aşağıdakılardır:

- koalisaya yaradılır;
- KİV vasitəsiylə siyasi rəqibə təzyiq kampaniyası aparılır;
- güc tətbiqi ilə bağlı hədələr səsləndirilir;
- güc tətbiq edilir.

Üçüncü mərhələ, münaqişənin başa çatmasıdır.

Bu mərhələ üçün xas olan xüsusiyyətlər aşağıdakılardır:

- münaqişə həll olunur;

- tərəflər arasında kompromiss yaranır;
- tərəflər barışmır, münaqişə həll olunmamış qalır.

- **Siyasi münaqişələrin tənzimlənməsi və danışıqların aparılması texnologiyası**

✓ *Başa düşmək-kompromisin girişidir (Spinoza)*
✓ *Dava-dalaşların səbəbi, nəticəni bilməmək, hər şeyin uğurla qurtaracağını düşünməkdir.*
✓ *Çoxdan bəllidir ki, qalib məğlub düşmənini təqlid edir.*
✓ *Nəyinsə sənin olmasını istəyirsənsə, verməyi bacarmalısan.*

Münaqişələrin tənzimlənməsi deyildikdə, onun yayılmasının məhdudlaşdırılmasına yönəldilmiş tədbirlər sisteminin işlənib hazırlanması və tətbiqi başa düşülür. Müxtəlif xarakterli münaqişələrin tənzimlənməsi üçün çoxsaylı texnologiyalardan istifadə edilir. BMT praktikasında münaqişələr Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə tənzimlənir. Dünyada böyük münaqişələrin baş verməməsi üçün dövlətlər və beynəlxalq təşkilatlar preventiv (önləyici) diplomatiyadan istifadə edirlər. Siyasi texnologiyalar da münaqişələrin tənzimlənməsində vasitələrdən biridir. Siyasi münaqişənin həllində münaqişənin idarə olunması önəmli məsələdir. Münaqişənin idarə olunması aşağıdakı vəzifələrin yerinə yetirilməsini tələb edir:

- proseslərin idarə olunmasını asanlaşdırmaq, qəfil hadisələrdən qaçmaq üçün kölgədə, xəlvətdə olan latent (yatmış, çökmüş) məsələləri aşkara çıxarmaq;
- daha böyük hadisələrin törənməsindən qaçmaq üçün sosial-siyasi gərginlikləri minimuma endirmək;
- münaqişənin daha çox zəhmət və enerji sərfi tələb edən gərgin fazaya daxil olmasını əngəlləmək.

Siyasi münaqişəyə və onun tənzimlənməsinə təsir göstərən amillər:
- siyasi sitemin açıqlıq dərəcəsi;

- münaqişə edən qrupların mütəşəkilliyinin və daxili qarşılıqlı əlaqələrinin keyfiyyət dərəcəsi;
- mübahisə edən tərəflərə qoşulmuş sosial təbəqələrin kəmiyyət və keyfiyyəti, qrupların emosional davranış dərəcəsi.

Münaqişəni tənzimləyən amillərdən biri də cəmiyyətdə demokratiyanın mövcudluğudur. Demokratik cəmiyyətlər azad, açıq və şəffaf, eyni zamanda rəqabət üçün hərtərəfli şərait yaratdığından münaqişələrə meydan verən cəmiyyətlər hesab olunur. Bununla yanaşı, müasir demokratik dövlətlər hüquq dövlətləri olduğuna görə münaqişələrin hüquq normaları ilə tənzimlənməsinə imkan yaranır və rəqabətin məcrasını dəyişməklə, onun düşmənçiliyə çevrilməsinin qarşısı alınır.

Danışıqların aparılması zamanı tələb olunan əsas şərtlərdən biri odur ki, problem mübahisədə iştirak edən maraqlı subyektlərdən ayrılsın. Əks təqdirdə hansısa uğurun qazanılması çətinləşəcək.

Digər bir məsələ, münaqişə edən tərəflərin prinsiplərinə deyil, real ziddiyyətlərə diqqət yetirilməsi, onun önə çəkilməsidir.

Münaqişənin həlli üçün bir neçə variantın hazırlanması da vacib məsələdir. Təcrübə göstərir ki, bir variant, adətən, münaqişənin həllinə kömək etmir və alternativ variantların ortaya qoyulmasına zərurət yaranır.

Qüvvələr nisbətinin obyektiv qiymətləndirlməsi də əhəmiyyətli məsələlərdəndir. Bəzən danışıqları aparanlar, tərəflərin subyektiv mülahizələrinə üstünlük verir və münaqişənin həllini düyünə salırlar.

Münaqişənin həllində vacib məsələlərdən biri də güzəştə getməyi bacarmaqdır. Güzəşt qarşı tərəfin maraqlarını nəzərə almaq və ona diqqət yetirmək deməkdir.

- **Siyasi mədəniyyətin mahiyyəti**

***Ən yaxşı hökmdar odur ki, xalq onu hiss etmir (Lao-tszı)***

Mədəniyyət insanların maddi və mənəvi sahələrdə qazandığı nailiyyətlərin məcmusudur. O üç yolla formalaşır:

1. Filogenetik yol, yəni insan anadangəlmə mədəniyyət daşıyıcıları ilə doğulur, mədəni olmağa genetik baxımdan hazır olur (məsələn, başqa canlılardan fərqli olaraq şüura, dilə, danışıq qabiliyyətinə və s. malik olur).
2. Mədəniyyətin formalaşmasında iştirak edən əsas yollardan biri sivilizasiyadır. Sivilizasiya insanların tərbiyəsində, mədəni səviyyəsinin qalxmasında, mədəniyyət yaddaşının daha da zənginləşməsində önəmli rol oynayır.
3. Ünsiyyət insanların mədəniyyətinə təsir edən başlıca amildir. Ünsiyyət olmadan insanların mədəni səviyyəsinin inkişafını təsəvvür etmək çətindir. İnsan sosial varlıqdır, bir-birindən daha çox öyrənir. Məşhur kəlamda ifadə ounduğu kimi - «insanları valideynlərindən çox yaşadıqları zəmanə tərbiyə edir».

Siyasi mədəniyyət termini elmdə ilk dəfə ABŞ polito-loqları Q. Almond, S. Verba tərəfindən işlənmişdir (1963). Bu mütəxəssislər aparılan araşdırmaların və sorğuların yekunu kimi belə qənaətə gəldilər ki, demokratik rejim hər şeydən öncə yüksək siyasi mədəniyyət tələb edir. Siyasi mədəniyyət anlayışı bir sıra hallarda siyasi etika anlayışı kimi işlənir. Kant siyasi etikanın yaranma səbəblərini ictimai, kütləvi və şəxsi həyat arasında sərhədlərin müəyyənləşməsində görürdü. İnkişafın, rəqabətli siyasi mədəniyyətin məhsulu hüquq dövləti, vətəndaş cəmiyyətidir.

Yeni dövrdə vətəndaş cəmiyyətinin və demokratiyanın formalaşması prosesində siyasi etika - siyasətçilərin, daha geniş mənada siyasət aləminə qoşulmuş şəxsiyyətlərin fəaliyyətini tənzimləyən normalar və dəyərlərin cəmidir.

Siyasi sistem mövcud siyasi rejimə uyğun gələ də, gəlməyə də bilər. O siyasi sistemə uyğun gəlməyəndə siyasi sistemdə

laxlama baş verir. Siyasi strukturlar siyasi mədəniyyətin formalaşdırılmasına təkan verir, eyni zamanda, siyasi mədəniyyət siyasi strukturlarda öz ifadəsini tapır.

Mədəniyyətin növləri də çoxdur. Bunlardan ən mühümü siyasi münasibətlər sferasında özünü büruzə verən mədəniyyətdir

*Siyasi mədəniyyət* – insanların fəaliyyətində, davranışında təzahür edən, zaman-zaman formalaşan dəyərlər, təsəvvürlər, vərdişlər, inanclar sistemidir, cəmiyyətin siyasi həyatının ənənəviliyini təmin edir.

Siyasi mədəniyyət:

- kütlələrin siyasi şüurunu və siyasi davranışını müəyyənləşdirir;
- cəmiyyətin təbii-tarixi inkişafının məhsuludur, kollektiv siyasi yaradıcılığın nəticəsidir;
- möhkəm, həm də təkrar olunan əlaqələrə malikdir, siyasi təcrübəni möhkəmləndirir.

Siyasi mədəniyyətin ən azı üç komponenti var: siyasi düşüncə mədəniyyəti (biliklər, təsəvvürlər, ideologiyalar, dəyərlər və s); siyasi davranış mədəniyyəti (adət-ənənələr, normalar peşəkar siyasi fəaliyyət standartları, vərdişlər və s.); siyasi institutların fəaliyyət mədəniyyəti (seçki, partiya, dövlət sisteminin effektliliyi və stabilliyi, siyasi münaqişələrin həlli vasitələri və yolları, vacib siyasi qərarların qəbul edilməsi praktikası və s.).

- **Siyasi mədəniyyətin funksiyaları**

Siyasi mədəniyyətin əsas təyinatı siyasi norma və dəyərlərin yeni nəsillərə ötürülməsini, onların daha da təkmilləşdirilməsini, yayılmasını təmin etməkdir. Bu əsas vəzifənin həyata keçməsi üçün siyasi mədəniyyət bir sıra funksiyaları yerinə yetirir.

*1. İnteqrasiya* funksiyasını yerinə yetirən siyasi mədəniyyət cəmiyyəti bütövləşdirir, vətəndaş birliy və

həmrəyliyi yaradır. Bu proses siyasi davranış normalarının standartlaşması, çoxluğun bəyəndiyi konsalidasiya yaradan siyasi dəyərlərin qəbul edilməsi yolu ilə baş verir.

*2. Sosiallaşma, f*ərd tərəfindən siyasi mədəniyyət dəyərlərinin və normalarının mənimsənilməsi prosesidir. Bunun nəticəsində insan siyasi həyata adaptasiya olur, siyasi sistem çərçivəsində öz maraqlarını və məqsədlərini həyata keçirmək imkanı qazanır, bu sistemin müəyyənləşdirdiyi qaydalar və örnəklər əsasında fəaliyyət göstərir.

*3. İdentifikasiya,* fərdin hər hansı bir siyasi topluma mənsub olduğunu, maraqların, məqsədlərin və qaydaların ümumiliyi əsasında həmin toplumun digər üzvləri ilə özünün vəhdətini dərk etməsidir. Siyasi sistemdə öz yerini müəyyən etmək bacarığı, insana siyasi imkanlarını düzgün dəyərlindərməyə kömək edir.

*4. Kommunikasiya,* xüsusi rəmzlərdən, ayinlərdən və digər ünsiyyət vasitələrdən istifadə etməklə siyasi mədəniyyət kanalları vasitəsiylə məlumatların yayılması, dövriyyəsidir. Siyasi kommunikasiya kanallarının və vasitələrinin inkişafı siyasi mədəniyyətə daha əlverişli inkişaf imkanı yaradır. Bu zaman əsas kommunikasiya vasitələri və növləri kimi KİV, ictimai-siyasi hərəkatlar, siyasi liderlərin xalqla görüşü, səsvermə, məktublaşmalar və s. çıxış edir.

*5. Siyasi yön seçmə (orientasiya),* siyasi institutların mövcudluğunun, siyasi liderlərin fəaliyyətinin mənasını, fərdin siyasi iştirakının və siyasi iştirakdan kənarda qalmasının nəticələrini izah etməklə vətəndaşlara düzgün istiqamətlənməyi, yön seçməyi öyrədir.

Siyasi mədəniyyətin bu funksiyalarının effektliliyi bir-birindən asılıdır. Yəni siyasi kommunikasiya vasitələri inkişaf etməyibsə, deməli inteqrasiya da zəif olacaq. Yaxud inteqrasiya zəif inkişaf edibsə, deməli fərdin özünü identifikasiyası da zəifdir.

Beləliklə, siyasi mədəniyyət:

- siyasi proseslərin mahiyyətinin düzgün qavranılmasına, konkret siyasi sistemdə hüquq və azadlıqların gerçəkləşdirilməsinə kömək edir;

- insana hansı siyasi qrupa mənsub olduğunu dəyərləndirməyə kömək edir, ona öz maraqlarını müdafiə etməyi öyrədir;

- insana dəyişən siyasi mühitə adaptasiya olmağı öyrədir;

- insana öz hüquq və azadlıqlarının müdafiəsi üçün gərək olan bilik və bacarıqları öyrədir;

- ünsiyyət vasitələrinin bazası əsasında hakimiyyətin bütün subyekt və institutlarının qarşılıqlı əlaqəsini həyata keçirir;

- müəyyənləşdirilmiş siyasi sistem çərçivəsində müxtəlif qruplara fəaliyyət imkanları verir, dövlət bütövlüyünün mühafizəsinə təminat yaradır.

- **Siyasi mədəniyyətin təsnifatı**

Siyasi mədəniyyəti təsnifatına görə iki qrupa bölmək olar:

1. Ümumi – dominantlıq edən siyasi mədəniyyət
2. Submədəniyyət (subkultura)

Ümumi siyasi mədəniyyət daha möhkəm və davamlıdır, əhalinin böyük əksəriyyətinin siyasi şüur və davranışlarında dominantlıq edir. Submədəniyyət - siyasi davranışın müəyyən bir qrupda, regionda qabarıq təzahür edən formasıdır və bütöv cəmiyyətdə dominantlıq edən ümumi mədəniyyətdən fərqlənir. Belə submədəniyyətlər aşağıdakılardır:

- sosial – sinfi,
- milli – etnik,
- dini – konfessional,
- cinsi və yaş, nəsil,
- regional

Siyasi mədəniyyətin strukturu:

1. Siyasi şüur mədəniyyəti:

- siyasi inanma və inandırma mədəniyyəti;

- siyasi dəyərlər, adət – ənənələr, normalar;
- siyasi ustanovka;

2. Siyasi davranış mədəniyyəti:
- siyasi iştirak mədəniyyəti;
- siyasi fəaliyyət mədəniyyəti.

3. Siyasi institutların fəaliyyət mədəniyyəti:
- siyasi qərarların hazırlanması və qəbul edilməsi mədəniyyəti;
- siyasi təşkilatların bir-birləri ilə qarşılıqlı münasibət mədəniyyəti;
- sosial-siyasi münaqişələrin tənzimlənməsi və dərk olunması mədəniyyəti.

Dialoq mədəniyyəti, konsensus mədəniyyəti, kompromisslərə gəlmək bacarığı, nitq mədəniyyəti, takt mədəniyyəti siyasi mədəniyyətin əsas atributlarıdır. Siyasi mədəniyyət siyasi rəqabəti tənzimləyir, onun düşmənçilik müstəvisinə keçməsinin qarşısını alır, qütbləşməni zəiflədir, yaxud onun yaranmasına imkan vermir.

- **Siyasi mədəniyyətin baza dəyərləri**

***Ədaləti ədalətsizliklə bərpa etmək* olmaz (H. Əliyev)**

İstənilən mədəniyyətin, o cümlədən də siyasi mədəniyyətin əsasında müəyyən dəyərlər sistemi dayanır və insanlar bu dəyərlərdən çıxış edərək fəaliyyət istiaqamətlərini müəyyənləşdirir.

Cəmiyyət inkişaf etdikcə insanlararası münasibətlər də təkmilləşir. Çünki hər bir yeni dövrdə əvvəlki münasibətlər sisteminin köhnəldiyi və islahatlara eyhtiyacı olduğu fikri yaranır. Nəsillər, başqa sözlə mədəniyyətlər arasında qarşudurmalara rəvac verən bu amildir. Lakin insan ünsiyyəti cilalayan mədəniyyəti nə qədər təkmilləşdirməyə çalışsa da, yenə tarixdən, əski nəsillərdən ona miras qalan adət-ənənələri, normaları unutmur. İnsan yeniliyə meylli olduğu qədər də ənənələrə meyllidir, konservatordur. Bu baxımdan cəmiyyət həmişə yeniliklə, ənənviliyn arasında axtarışda, düşüncədə, iki

qütbün uzlaşma nöqtələrinin tapılması istiqamətində fəaliyyətdədir.

Siyasi dəyərlər hər zaman dövlət tərəfindən müəyyənləşdirilən və müdafiə olunan sosial nizamla əlaqəli olur. Müasir dünyada baza siyasi dəyərləri aşağıdakılardır: siyasi azadlıqlar, bərabərlik, ədalət, insan haqları, demokratiya, siyasi plüralizm, tolerantlıq, patriotizm və s.

*Siyasi azadlıqlar*-söz, fikir, mətbuat, yığışmaq, yürüş, mitinq, birliklər yaratmaq, seçmək, seçilmək, sərbəst yaşayış yeri seçmək, dini inanc azadlıqlardır. Burada ilk görünüşdən qeyri-siyasi azadlıqlar da nəzərə çarpır. Lakin sözügedən azadlıqlara müdaxilə etməmək istəyi və tələbi dövlətə ünvanlandığından, bunlar istisnasız olaraq siyasi azadlıqlardır. İnsanlar minillərdir ki, siyasi azadlıqlar uğrunda mübarizə aparır. O da həqiqətdir ki, belə azadlıqların ideal şəkildə təntənəsi hələ heç yerdə yoxdur. Digər tərəfdən, dünyada totalitar, despotik rejimlərin qalması sözügedən istiqamətdə inkişafı ləngidir. Müasir dünyada siyasi azadlıqların mürəkkəbliyi, onun başqa bir siyasi dəyərlə-bərabərliklə qarşılıqlı əlaqədə olması ilə də bağlıdır.

*Siyasi bərabərlik,* insanların tarix boyu arzuladıqları və praktikada görmək istədikləri dəyərdir. Siyasi azadlıq o vaxt ideal şəkil alır ki, cəmiyyətin bütün üzvləri eyni dərəcədə azad olur, yəni siyasi bərabərlik bərqərar olur. Məsələnin çətinliyi də məhz bu, bütün insanların azadlıqlarının bərabərliyni təmin etməkdir. Digər bir problem ondadır ki, siyasi azadlıq bir tərəfdən bərabərlik prinsipinə əməl olunmasını tələb edirsə, digər tərəfdən onu pozur. Azad bazar rəqabəti iqtisadi bərabərliyi pozan kimi, siyasi azadlıqlar da vətəndaşlar arasında liderlər-autsayderlər, aktivlər-passivlər, idarəedənlər-idarəolunanlar bölgüsü yaradır. Rus filosofu N. Berdyayev yazırdı: «Azadlıq və bərabərlik bir yerdə ola bilməz. Azadlıq – hər şeydən öncə qeyri-bərabərlik hüququdur». Başqa sözlə, azadlıq bərabərliyə mane olan, onu məhdudlaşdıran bir dəyərdir.

Sosial-siyasi qeyri-bərabərliyi Platon və A. Tokvil də təqdir edirdi. Ümumiyyətlə, mütəfəkkirlərin böyük əksəriyyəti insanın təbii baxımdan, yəni allah qarşısında bərabər olması fikrini müdafiə edir. Cəmiyyətdəki bütün azadlıqların, o cümlədən siyasi azadlığın bünövrəsində də məhz bu prinsip dayanır. Hamı doğal oaraq eyni dərəcədə azaddır, buna görə də bərabər qaydada azadlıq haqqına malikdir. Lakin insanlar əqli, fiziki, maddi, psixi baxımdan bərabər imkanlara malik olmadıqlarından, bərabər azadlıq haqlarının özü təbii olaraq sosial, siyasi həyatda qeyri-bərabər vəziyyət yaradır.

Müasir dünyada siyasi azadlıq üç əsas prinsipə dayanır:
- bütün vətəndaşların qanun qarşısında bərabərliyi (siyasi-hüquqi azadlıq);
- fərd üçün tanınan hüquq və azadlıqların bərabər ölçülü olması;
- dövlətin idarə olunmasında iştirak hüuqna görə bütün vətəndaşların bərabərliyi.

*Siyasi ədalət, d*övlətin vətəndaşlara düzgün rifah təmin etməsidir. Hələ qədim zamanlarda Platon bildirirdi ki, dövlət ədalətli olmalıdır. Nizami əsərlərində ədalətli hökmdar obrazı yaradır, gerçək həyatda onun bərqərar olmasını arzulayırdı. Aradan uzun zaman keçməsinə baxmayaraq, yenə də insanlar dövlətdən, onu idarə edənlərdən daim ədalət gözləyir.

Dövlətin vətəndaşlar üçün düzgün rifah təmin etməsi məsələsi siyasi ədalətlə bağlı ziddiyyətli fikirlərin meydana gəlməsinə rəvac verir. Belə ki, dövlət kasıbların xeyrinə mütərəqqi vergi sistemi müəyyən edəndə, öz əməkləri və ağılları ilə sərvət sahib olan zəngin zümrə buna sosial-siyasi ədalətin pozulması kimi baxır. Zəngin zümrə hesab edir ki, dövlət vətəndaşların bir qisminin hesabına digər qismini təmin etməkdə haqlı deyil. Bu baxımdan Qərbdəki sosial-demokratik cəmiyyətlərdə son dövrlərdə yaranan problemlər bir örnəkdir.

Ədalət haqqındakı müasir konsepsiyaların hamısı müqaviləlik prinsipinin bərqərar olmasını ön plana çəkir. Yəni,

ədalət ictimai münasibətlərin hansısa mütləq halı deyil, o qarşıduran tərəflərin razılığa gəlməsidir.

Bütün bu deyilənlərə baxmayaraq ədalət mücərrəd bir kateqoriyadır. Məhz bu həqiqət cəmiyyətin qanunlarla, fəqət ədalətə dayanan qanunlarla idarə olunması ideyasını ortaya çıxardı.

*İnsan haqları.* T. Hobbs və C. Lokk insan haqlarını dövlətin ətası, bəxşişi deyil, allahdan gələn təbii vergi sayırdı. Dövlət insanlara bu haqları vermək, onun müdafiəsinə təminat yaratmaq üçündür, onu kiminsə əlindən almaq üçün deyil. Bu dövrün mütəfəkkirləri insan haqqları dedikdə vətəndaşın dövlət özbaşınalığından, zorakılıqdan müdafiəsini nəzərdə tuturdu. Müasir dünyada insan haqları daha geniş, eyni zamanda daha konkretdir, yəni beynəlxalq və milli qanunlarla tənzimlənir. İnsan haqları adlanan baza siyasi siyasi dəyəri indi milli sərhəd tanımır. Bu hamının ümumi qayğısına, onun qorunm ası hər bir dövlətin vəzifəsinə çevrilib.

*Patriotizm* bəzən millətçiliklə, yəni özünü başqa millətdən üstün saymaq, başqa millətə yuxarıdan aşağı baxmaq kimi əlamətlərlə qarışıq salınır. Lakin patriotizm, başqa sözlə, vətənsevərlik, millətsevərlik bəşəri bir duyğudur, onsuz demokratiyanın inkişafını təsəvvür etmək çətindir. Ən böyük patriotlar demokratik cəmiyyətlərdə yetişir.

Fikir *plüralizmi* əsas siyasi dəyər kimi cəmiyyətdə müxtəlif fikirliliyin və bunun əlaməti kimi debatların, disskusiyaların, rəqabətin var olmasına rəvac verir. Bu dəyər bərqərar olmadan cəmiyyətin inkişaf etməsi mümkün deyil.

Demokratiya, tolerantlıq kimi baza siyasi dəyərləri haqqında isə ayrı-ayrı fəsillrdə daha müfəssəl məlumat verirlir.

- **Siyasi mədəniyyətin tipologiyaları**

Müasir politologiyada siyasi mədəniyyətin tipologiyalarına münasibət fərqlidir. Lakin əksər mütəxəssislərəin qənaətinə görə məsələyə ən populyar və elmi yanaşma Amerika

politoqları Q. Almond və S. Verbanın yanaşmasıdır. 1960-cı illərdə onlar «Vətəndaş mədəniyyəti» kitabında İngiltərə, ABŞ, AFR, İtaliya və Meksikadakı siyasi sistemlərin təhlili əsasında siyasi mədəniyyətlərin üç tipologiyasının təsnifatını işlədilər: patiriarxal, tabeçilik, partisipativ, yəni fəal siyasi iştirak mədəniyyəti.

1. *Patriarxal (ənənəvi) mədəniyyət,* siyasi cəhətdən inkişaf etməmiş cəmiyyətlərə xasdır. Burada müxtəlif subyektlər arsında sosial rol (siyasi, iqtisadi, dini) ixtisaslaşması və bölgüsü yoxdur. İnsanlar dəqiq siyasi yön seçməkdə çətinlik çəkdiklərinə görə, onların siyasi həyat haqqındakı təsəvvürləri dumanlıdır. Patriarxal mədəniyyət daşıyıcıları lokal dəyərlərə (tayfa, klan) üstünlük verir. Fərd qlobal siyasi mədəniyyət üçün o qədər də hazır deyil. O siyasi cəhətdən passivdir, siyasətə maraq göstərmir.

2. *Tabeçilik, yaxud tabe olma mədəniyyəti*, ierarxiya, «aşağılar» və «yuxarılar» prinsipi, yəni feodal cəmiyyətinin şərtləri əsasında formalaşır. Vətəndaşların siyasi sistemə münasibətdə passiv olduqları və nəyisə dəyişdirməyə, proseslərə təsir göstərməyə cəhd etmədikləri belə siyasi mədəniyyət tipləri avtoritar rejimlərdə meydana gəlir.

3. *Partisipativ mədəniyyət,* siyasi sistemi inkişaf etmiş cəmiyyətlərdə formalaşır. Vətəndaşlar fəallığı, rasionallığı, siyasi proseslərdə aktivliyi ilə fərqlənir, qanunun imkan verdiyi forma və vasitələrdən istifadə edərək hakimiyyətə aktiv təsir göstərir. Almond və Verba qərblilər üçün qarışıq siyasi mədəniyyətin olduğunu da iddia edirlər. Bu siyasi vətəndaşlıqdır.

Siyasi vətəndaşlığın daşıyıcıları aşağıdakı keyfiyyətlərə malikdir:

- hakimiyyətin fəaliyyətinə kəskin maraq göstərmək, bu barədə yaxşı biliklərə malik olmaq;
- milli siyasi institutlardan qürur duymaq;
- rəsmi adamlardan gözlənilən diqqət və qayğı görmək;
- ümummilli siyasi kampaniyalardan razılıq hissi;

- demokratiyanın dövlət idarəçiliyi üçün zəruriliyinə əminlik.

Siyasi mədəniyyət mahiyyət etibariylə Qərb və Şərq mədəniyyətlərinə bölünür.

*Qərb mədəniyyətinin xarakterik cizgiləri:*

1. Fərd siyasətin, dövlətin əsas subyektidir.
2. Fərd tərəfindən siyasi həyatın rəngarəngliyinə üstünlük verilir.
3. Öz işini yerinə yetirən siyasi elitaya, liderə rasional münasibət mövcuddur, eyni zamanda onlar üzərində nəzarətin zəruriliyi başa düşülür.
4. Özəl normalara nəzərən ümumdövlət qanunlarının prioritet olduğu aydın təzahür edir.
5. Vətəndaşların siyasi mövqelərinin ideolojiyalaşdırılması hiss olunur.
6. Əminlik var ki, hakimiyyət fiziki, mənəvi və b. üstünlüklərlə bir şəxsin digəri üzərində üstünlüyüdür.
7. Fərdin müstəqilliyi və özfəaliyyəti tanınır.
8. Dövlətə münasibət vətəndaş cəmiyyətinin prinsiplərinə, konsensusa əsaslanır.
9. Oturuşmuş «orta təbəqə» mövcuddur.
10. Şərq siyasi dəyərlərinə münasibət pozitv deyil, lakin ona, bütövlükdə maraq var.

*Şərq mədəniyyətinin xarakterik cizgiləri:*

1. Hakimiyyətin ilahi başlanğıca malik olmasına inam var.
2. Siyasətə konsensus və harmoniyaya nail olma vasitəsi kimi baxılır.
3. Ədalət idealı prioritetdir, hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsində şəxsiyyət özfəaliyyətinə yer verilmir.
4. Siyasi elita və dövlətin aparıcı rolu tanınır, dövlətin vətəndaş üzərində ağalığı aydın təzahür edir.
5. Dövlət xadimləri mütləqləşdirilir.
6. Milli-etnik amilin rolu birinci dərəcəlidir.

7. Siyasi mentalitetə uyğun olaraq elitlər və kütlələr arasında kəskin məsafə fərqi mövcuddur.

8. Yerli adət-ənənələrin, qaydaların üstünlüyü mövcuddur.

9. Mövqelər az ideologiyalaşdırılıb.

10. Özəlliyi saxlamaq üçün Qərb siyasi mədəniyyətinə münasibət Şərq ənənələri ilə qırılır.

## XV. Xarici siyasət və qloballaşma

- *Xarici siyasətin xarakterik cizgiləri*
- *Xarici siyasətin metod və vasitələri*
- *Dünyadakı siyasi proseslər*
- *Beynəlxalq siyasi münasibətlər*
- *Beynəlxalq münasibətlərin tipologiyası*
- *Azərbaycanın xarici siyasəti*
- *Qloballaşma nədir?*
- *Qloballaşma: mədəniyyətin toqquşması, yoxsa dialoqu?*
- *İqtisadi inteqrasiya qloballaşmanın əsas təminatçısıdır*
- *Qloballaşma ilə bağlı narahatçılıqlar*

### Ədəbiyyat


1. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
2. Ашрафи Х Придат глобализации человеческое лицо. Ф. Науман фонд. Потсдам-Бабелсберг, 2001
3. Богомолов О. О неолиберализме. Международный жизнь, 1999, № 2
4. Кристиан Нюрнберг. Диктатура инвестеров. Ф. Науман фонд. Потсдам-Бабелсберг, 2001
5. Лавриенко В.Н. Политология. Москва, 2006
6. Махбубани К. Остальной Запад. Ф. Науман фонд. Потсдам-Бабелсберг, 2001
7. Мазруи А. Претендент на универсализм: западная култура в эпоху глобализации. Ф. Науман фонд. Потсдам-Бабелсберг, 2001
8. Meltem Ünal Erzen. Tarihi, Kültürel ve Sosyal Paradiqmaları. Ankara, 2011
9. Хантигтон С. Третая волна. Демократия в конце XX века. Москва, 2003

- **Xarici siyasətin xarakterik cizgiləri**

***Xarici siyasət də hakimiyyət uğrunda mübarizədir. Onun məqsədi «milli maraqlar» termini ilə müəyyənləşir və münasib gücdə ifadəsini tapır (H. Morgentau)***

Xarici siyasət dövlətin beynəlxalq arenada başqa subyektlərlə, dövlətlərlə, təşkilatlarla, hərəkatlarla münasibətlərinin tənzimlənməsi istiqamətində fəaliyyətidir. Xarici siyasətdə minimum iki tərəf iştirak edir. Əsas subyektlər-xalqlar, dövlətlər, ictimai hərəkatlardır. Xarici siyasət beynəlxalq hüquq və normalarla, dəyərlərlə sıx bağlıdır. Xarici siyasətin əsas məqsədi:
- daxili siyasi kursun təminatı üçün xarici siyasət vasitəsiylə əlverişli mühit və təminatlar formalaşdırmaq;
- beynəlxalq hüququn və münasibətlər sisteminin müəyyənləşdirdiyi xarici siyasət vəzifələrini yerinə yetirmək.

Xarici siyasət dövlətlər arasında diplomatik münasibətlərin bərqərar olması ilə həyata keçirilir. Eyni zamanda, dövlətlər beynəlxalq təşkilatlarda öz nümayəndəliklərini açır, müxtəlif birliklərdə təmsil olunurlar. Hazırda dünyada 200-dən artıq dövlət mövcuddur və onların əksəriyyətinin arasında müxtəlif səviyyəli diplomatik münasibətlər mövcuddur. Münaqişə vəziyyətində olan dövlətlər arasında isə belə münasibətlər, bir qayda olaraq münaqişələr tənzimlənəndən sonra qurulur. Məsələn, Türkiyə-Ermənistan, Azərbaycan-Ermənistan, İran-ABŞ, İran-İraq və s.

- **Xarici siyasətin metod və vasitələri**

Xarici siyasət aşağıdakı metod və vasitələrlə həyata keçirilir:
- ikitərəfli və çoxtərəfli müqavilə və razılaşmaların hazırlanması, bağlanması;
- dövlətin xarici və daxili siyasətinin inkişaf imkanlarına yardım göstərmək;

- başqa dövlətlərlə əlaqələrin güclənməsi naminə, hər hansı bir dövlətin tam və qismən blokadasına hazırlaşmaq, onu həyata keçirmək;
- müharibəyə hazırlaşmaq, hərbi əməliyyatların həyata keçirilməsi üçün əlverişli beynəlxalq şəraitin təmin olunmasına çalışmaq.

- **Dünyadakı siyasi proseslər**

Dünyanın siyasi prosesləri-institutların, sosial toplumların, təşkilatların, qrupların, ayrı-ayrı fərdlərin bu və ya digər siyasi məqsədləri həyata keçirmək üçün göstərdikləri fəaliyyətlərin məcmuyudur. Proseslər bir ölkədə, regionda, qlobal masştabda gedə bilər.

Dünyadakı siyasi proseslərin xarakterik cizgiləri:
- tarixi zərurətin təzahürü olan inqilabi və evalyusion başlanğıclar sintezdə çıxış edir;
- proseslər ziddiyyətli, çətin proqnozlaşdırılan, spontan, düşünülmüş, planlaşdırılmış və kortəbii olur;
- istər proqress, istərsə də reqress alternativli olur;
- xarici amillər daxildəki proseslərə təsir göstərir;
- sosial bazanın genişlənməsi, siyasətin forma, mexanizm və vasitələrinin, strukturunun dəyişilməsi;
- hadisələrin ziddiyyətliliyi.

Dünya birliyi çərçivəsində siyasi proseslərin episentri kimi beynəlxalq münasibətlər sistemi çıxış edir.

- **Beynəlxalq siyasi münasibətlər**

Beynəlxalq münasibətlər dünya birliyinin əsas subyektləri arasında siyasi, iqtisadi, sosial, diplomatik, hüquqi, hərbi və humanitar münasibətlərin məcmusudur. Beynəlxalq siyasi münasibətlər iqtisadi münasibətlər ilə sıx şəkildə bağlıdır.

Son zamanlar beynəlxalq münasibətlər sürətlə inkişaf edir. Bu ilk növbədə elmi-texniki tərəqqidə özünü büruzə verir. Məhsuldar qüvvələr gün -gündən beynəlmilləlşir, elm və istehsalat

arasında əlaqələr sıxlaşır, resursların mühafizəsinə diqqət artır, iqtisadiyyat qənaət prinsipinə dayanır, ekologiyaya diqqət artır, dövlətlər arasında münasibətlər inkişaf etdikcə elm, mədəniyyət və texnika sahəsində yeni-yeni kəşflər ortaya çıxır. Beynəlxalq münasibətlərin təkmilləşməsi insanların siyasi təcrübəsinin də təkmilləşməsinə imkan yaradır. Münaqişələrin və ziddiyyətlərin həllində siyasi vasitələrin rolu daha da artır.

- **Beynəlxalq münasibətlərin tipologiyası**

Beynəlxalq münasibətlər öz tipologiyasına görə üç yerə bölünür:

1. F. Martensin xronoloji bölgüsü-bu bölgüyə görə beynəlxalq münasibətlərin inkişafı üç mərhələyə bölünür:

- antik dövr və orta əsrlər, 1649-cu il Vestval sülhünə qədərki dövr. Bu dövr xalqların dağınıqlığı və fiziki güclərin hökmranlığı dövrü idi;
- Vestval sülhündən Vyana konqresinə (1815) qədərki dövr. Bu dövr nisbi siyasi tarazlıq dövrü sayılır;
- 1815-ci ildən bu günə qədərki dövr. Bu dövr hüququn hakimliyi, millətləşmə və milli dövlətlərin yaranması dövrü sayılır.

2. İkinci yanaşma Marks və Leninin formasiyalar və siniflərə görə bölgüsünə əsaslanır. Bu bölgüyə görə beynəlxalq münasibətlər 5 formasiyada (ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm, sosializm) öz məzmun və xarakterini dəyişmişdir.

3. Üçüncü yanaşma «Dünya dövlətlərinin» dominant təsiri adlanır (XV əsrin sonu, XX-XXİ əsrlər). Bu mərhələ üçün üç dövlət göstərilir: Portuqaliya, Niderland, ABŞ.

- **Azərbaycanın xarici siyasəti**

H. Morgentaunun siyasi reallıq konsepsiyasına görə dövlətin xarici siyasəti aşağıdakı milli maraqlara dayanar:
Milli təhlükəsizlik marağı – ölkənin müdafiəsi.
Milli iqtisadi maraq – xarici iqtisadi əlaqə.

Dünya sistemində möhkəmlənmə marağı-dövlətin mövqeyinin və nüfuzunun beynəlxalq aləmdə möhkəmlənməsi.

Beynəlxalq aləmdə əsas amillərdən biri güc amilidir. Bu amilə aşağıdakılar daxildir: coğrafi mövqe; təbii resurs; sənaye potensialı; hərbi hazırlıq; əhalinin sayı; milli xarakter; mentalitet; milli əxlaq (əhalinin hökumətin siyasətinə münasibəti); milli tarix; diplomatiyanın keyfiyyəti.

Azərbaycanda Xarici İşlər Nazirliyi 1918-ci il mayın 28-də yaradıldı. 1921-ci ildən 1944-cü ilə qədər ölkənin müstəqil xarici işlər nazirliyi olmayıb. Bu funksiyanı SSRİ XİN həyata keçirib. İndiyə qədər Azərbaycanda 15 xarici işlər naziri olub, hazırkı nazir 16-cıdır. Azərbaycanda 29 xarici dövlətin, Azərbaycanın isə 51 xarici dövlətdə, beynəlxalq təşkilatda səfirliyi və konsulluğu fəaliyyət göstərir.

Ölkənin xarici siyasəti ikitərəflilik və çoxtərəflilik prinsipləri üzərində qurulub.

Azərbaycanın xarici siyasətinin üstün istiqamətləri:

- Azərbaycanın türk dünyasını inteqrasiyası (çünki ölkə əhalisinin 90%-ə yaxını türkdür);
- Azərbaycanın İslam dünyasına inteqrasiyası (çünki ölkə əhalisinin mütləq əksəriyyəti müsəlmandır);
- Azərbaycanın Qərbə inteqrasiyası, milli təhlükəsizliyin təmin olunması, beynəlxalq terrorizmə qarşı mübarizədə iştirak etmək üçün NATO ilə sıx əməkdaşlığa nail olmaq (çünki ölkənin siyasi yapısı demokratiyadır və beynəlxalq terrorizmdən Azərbaycan da əziyyət çəkir);
- Dünya azərbaycanlıları ilə əlaqələrin və inteqrasiyanın artması (çünki 50 milyonluq dünya azərbaycnlıların cəmi 8 milyonu müstəqil dövlətdə yaşayır);
- Regional əməkdaşlıq (çünki regionda təhlükəsizlik və stabillik region ölkələri üçün həyati əhəmiyyətə malikdir);
- Azərbaycanla aqressiv davranan dövlətlərin aqressiyasının ortadan qaldırılması, bu məqsədlə münasib beynəlxalq mühitin formalaşdırılması;

- Azərbaycanın trnzit imkanlarından maksimum yararlanmaq;
- Xəzər hövzəsinə yönəlik siyasət (Xəzərin hüquqi statusunun həlli, hövzənin sülh, təhlükəsizlik hövzəsinə çevrilməsi, Transxəzər enerji dəhlizinin yaranması və təhlükəsizliyi və s.);
- Beynəlxalq təşkilatlarla əməkdaşlığı maksimum intensivləşdirmək.

- **Qloballaşma nədir?**

Tarixdə qloballaşma ilə bağlı nümunələr çoxdur. Böyük imperiyalar, coğrafi kəşflər qloballaşmanın təməlini qoydu. Sivilizasiyalar arası tanışlıq və əlaqələr yarandı. Bir sıra sivilizasiyaların məhv olub getməsinə isə səbəb olan əsas amil məhz qloballaşmanın əksi olan qapalılıq idi (məsələn, Finikiya sivilizasiyası). Tarixin sonrakı dönəmlərində buxar mühərrikləri kəşf olundu, qatarlar, sularda motorların gücü ilə hərəkət sürəti güclənən gəmilər düzəldildi, radio kəşf olundu və qloballaşma tempinin artması üçün instrumental imkanlar meydana gəldi. Başqa sözlə, məkan amili ilə yanaşı qloballaşma üçün vacib olan zaman, yəni sürət amili də meydana gəldi. İnsanlar, toplumlar, dövlətlər arası əlaqələr daha sürətləndi. Qloballaşmanın tarixi hərəkverici qüvvələri – din, texnika, iqtisadiyyat və imperiyalar sayılır.

Uydu, internet, televiziya, telefon əlaqələrinin son sürət tempi isə dünyanı kiçik bir «kəndə» çevirdi. Bu gün bütün insan cəmiyyətləri və dövlətlər arasında əlaqələri təmin edən hər cür imkan mövcuddur. Belə sürətli inteqrasiya imkanları bəşəriyyətə nələr vəd edir? Mütəxəssislərin fikrincə qloballaşma XXİ əsrin yeni dünya nizamını yarada biləcək ən etibarlı ideyalar sistemidir. Qloballaşma tərəfdarlarının fikrincə proses insanların azadlığını və sosial məsuliyyətlərini daha da artıracaq. Daha konkret ifadə olunarsa:

1. Qloballaşma əmək məhsuldarlığının artmasını, dünya miqyasında əmək bölgüsünün düzgün aparılmasını, kapital dövriyyəsinin çevikliyini, yeni texnologiyaların köməyi ilə coğrafi maneələrin dəf olunmasını təmin etmək gücündədir.

2. Qloballaşma mass-medianın rolunun maksimum artırılmasını, bundan bütün bəşəriyyətin faydalanmasını təmin edir.
3. Qloballaşma milli dövlətlərin və parlamentlərin rolunun azaldılmasını və yeni dünya qaydalarının, institutlarının yaradılmasını zərurətə çevirir.
4. Qloballaşma qlobal iqtisadi və siyasi sistemin yaradılmasını zərurətə çevirir.
5. Qloballaşma «vahid dünya konsepsiyası» əsasında davranan yeni dünya vətəndaşının formalaşmasını tələb edir.
6. Qloballaşma regionalizmi qəbul etmir, ona qarşıdır.
7. Qloballaşma tibb, ekologiya, iqtisadiyyat, siyasət və sosial sahələrdə bütün dünyanı narahat edən bir sıra həlli vacib problemlərin həlli üçün effektli mühit yaradır.

Doğrudan da müasir dünyada kütləvi yayılan epidemiyalara (SPİD, «quş qripi» və s.), qlobal istiləşməyə, kütləvi yoxsulluğa, miqrant axınlarına, terrorçuluğa qarşı təkbaşına mübarizə aparmaq mümkün deyil.

Qloballaşma Qərbdə ortaya atılsa da, onun ilkin dəyərləndirmələri göstərir ki, bu prosesdən kasıb dövlətlərin daha çox qazanmaq imkanları var. Zəngin dövlətlər kasıb dövlətlərlə inteqrasiyaya ehtyatla yanaşır. Norveç, üzv dövlətlərin həyat səviyyəsinin nisbətən aşağı olduğuna görə Avropa Birliyinə belə qoşulmaq istəmir. Bu səbəbdən qloballaşma kimi, antiqloballaşma hərəkatı da Qərbin özündə başlayıb. Antiqlobalistləri nələr narahat edir:

- zəngin ölkələrin iqtisadi cəhətdən nisbi zəifləmə ehtimalı;
- milli dövlətlərin zəifləməsi;
- emiqrant axınları nəticəsində işsizliyin artması, sosial güzəranın pisləşməsi ehtimalı, milli mədəniyyətlərin zədələnməsi təhlükəsi və s.

- **Qloballaşma: mədəniyyətlərin toqquşması, yoxsa dialoqu?**

Bir çox mütəxəssislər hesab edirlər ki, qloballaşma milli əlamətlərin, mədəniyyətlərin sıxışdırılmasına, tənəzzülünə gətirib çıxaracaq. Mühafizəkar İngiltərə bu prosesə empirik (seyrçi) yanaşmağa üstünlük verir, Norveç ölkə daxilində iqtisadiyyatın zəifləməsindən, sosial problemlərin yaranmasından ehtiyatlanır, Fransa dilini, mədəniyyitəni yad təsirlərdən qorumaq üçün get-gedə aktivləşir, gizli emiqrant axınlarına qarşı mübarizəni sərtləşdirir. Bütün bunlara baxmayaraq qloballaşmaya Avropadakı qədər meyl edən başqa bir qütb də yoxdur. Amerikanlar qloballaşmaya «amerikanlaşma» prizmasından yanaşır. Normativizm prinsipləri ilə çıxış edən amerikanlar belə düşünürlər ki, qloballaşma demokratik dəyərlərin bütün dünyaya yayılmasıdır. Demokratiyanın normaları isə ABŞ-dadır. ABŞ son iki yüz ildə dünyada yeni dövlət, yeni cəmiyyət, yeni insan, yeni mədəniyyətin yarandığını iddia edir ki, amerikaçılıq da əslində bundan başqa bir şey deyil.

SSRİ-nin çökməsindən sonra İslam amili daha çox diqqət çəkməyə başladı. Kapitalizmlə sosializm arasındakı münasibətlər, bir növ İslam və Qərb münasibətlərində təzahür etməyə başladı. 11 Sentyabr terror aktlarından, ABŞ-ın Əfqanıstana, İraqa hərbi müdaxiləsindən sonra bu gərginlik daha da artdı. İran ətrafında yaranan böhran da İslam və Qərb münasibətlərinin gərginləşməsinə az təsir etmir.

Qərbdə narahatçılıq doğuran digər bir məsələ də 2,5 milyard civarında əhalinin məskun olduğu Çin və Hindistan amilidir. Artıq dünyada Çin dilində danışanların sayı ingilis dilində danışanların ümumi sayını ötüb və bu nisbət get-gedə artır.

Belə görünür ki, qlobalaşmanın yolu üzərində dörd əsas maneə var:

1. Avropanın öz daxilindəki fikir ayrılıqları

2. ABŞ və Avropa arasındakı fikir ayrılıqları, bir sıra hallarda isə ziddiyyətlərin mövcudluğu

3. Qərb və Şərq, yəni İslam və Xristian dinləri arasındakı ziddiyyətlər

4. Əsasən öz dəyərlərini yaymağa çalışan və başqa dəyərlərə qapalı olan Çin amili

Qloballaşmanın taleyi altı böyük dinin (İslam, Xristianlıq, İudaizm, Krişnaizm, Buddizm, Lamaizm) yarandığı və dünyaya yayıldığı Avrasiyadakı proseslərdən çox asılıdır. Bütün qalan materiklərin əhalisi kulturaloji genotipinə görə Avrasiya mədəniyyətlərinin meyvəsidir. Başq sahələrdə inteqrasiya ilə yanaşı, qloballaşmanın təminatı üçün sözügedən dinlər və onların daşıyıcıları arasında dialoqun, qarşılıqlı əlaqələrin, ortaq maraqların yaranması və güclənməsi tələb olunur.

- **İqtisadi inteqrasiya qloballaşmanın əsas təminatçısıdır**

Harvard universitetinin iqisadçısı Ceffri Saks araşdırmışdır ki, 1970-90-cı illərdə inkişaf etməkdə olan açıq sistemli ölkələrin iqtisadi inkişaf göstəriciləri, orta hesabla 4,5%, nisbətən qapalı ölkələrin inkişafı isə 1%-dən aşağı olmuşdur. Dünyada iqtisadi inkişafın mənzərəsi bu gün dəyişib. Çin və Hindistanın göstəricilər təəccüb doğurur. ABŞ analitiklərinin hesablamalarına görə Çin və Hindistan yaxın 30 ilə iqtisadi inkişaf göstəricilərinə görə dünyanın lider dövlətlərinə çevriləcəklər. Den Syao Pinin «modernləşmənin dörd dalğası» islahatı olmasaydı Çin, çətin ki, indiki nailiyyətlərə çata bilərdi. Hindistanın 2008-ci ildə kompüter islahatından 85 milyard dollar gəlir götürəcəyi gözlənilir.

İqtsadi inteqrasiya qloballaşmaya hansı istiqamətlərdə təkan verə bilər:

- Böyük böhranların idarə olunması üçün Beynəlxalq Valyuta Fondunun (BVF) rolunu artırmaq tələb olunur. BVF ilə Dünya Bankı arasında səlahiyyətlərlə bağlı ziddiyyətlər, uyğunsuzluqlar aradan qaldırılmalıdır.

- Liberal iqtisadi siyasətin əsas məqsədi azad ticarətin təmin olunmasıdır. Qlobal ticarət rejiminin bərqərar olması bu sahədə irəliləyişlərə təkan verə bilər. Bununla bağlı dünya ticarətinin yeni rejiminin formalaşdırılması tövsiyyə olunur.
- Aqrar və tekstil bazarlarının liberallaşması prosesi ən kasıb ölkələrin maraqları nəzərə alınmaqla davam etməlidir.
- Sosial standartların hazırlanması və razılaşdırılması məsələsinin Beynəlxalq Əmək Təşkilatının sərəncamına verilməsi məqsədəuyğun hesab edilir. Bu məsələ ilə ÜTT-in məşğul olması mübahisələr və qarşılıqlı inamsızlıq yaradır və s.

- **Qloballaşma ilə bağlı fikir və mülahizələr, narahatçılıqlar**

İstər Şərqdə, istərsə də Qərbdə qloballaşmanın taleyi ilə bağlı ciddi narahatçılıqlar yaşanır. Bu narahtçılıqları aşağıdakı kimi ümumiləşdirmək olar:
- insanlar daha çox qərarların qəbulunda iştiraka cəlb edilməlidir;
- yeni qlobal elita formalaşdırılmalıır;
- dünyadakı rejimlər legitimləşməlidir;
- BMT strukturlarında dəyişmələr edilməlidir;
-Mass-media əsasən Qərbin nəzarətindədir, təbliğatda birqütblülük qloballaşmaya neqativ təsir göstərir (İngiltərə şahzadəsi öləndə bütün dünya xəbər tutur, Asiyada, Afrikada analoji hadisə baş verəndə bunu dünyada çox az adam bilir);
- Qərb kulturaloji mərkəz, mədəniyyətlərə qiymət verən, arbitr rolunda çıxış edir. Bütün mükafatlar (Nobel, Oskar və s.) Qərbdə, Qərb dövlətləri və təşkilatları tərəfindən verilir;
- internet saytlarının 90%-i ingilis dilindədir, kino, musiqi istehsalı ilə ABŞ bütün dünya bazarını zəbt edib;
- 1950-ci ildə dünyanın əhali sayına görə 12 böyük dövlətindən 6-sı Qərb dövləti idi. 2050-ci ildə bunlardan ancaq biri, yəni ABŞ böyük dövlət statusunu qoruyub saxlayacaq;

- ABŞ çoxlu mühacir qəbul edir, “qocalan” Avropa da demoqrafik bəladan qorunmaq üçün analoji addım atır. Lakin bu proses özünün problemlərini doğurur: gizli emiqrantlar sürətlə artır; Avropada məscidlərin, hicablı insanların sayı artır və bunlar avropalılarda təşviş doğurur;
- Avropa əhalisinin Kanada, ABŞ, Avstraliya, Latın Amerikasına yayılması qlobalaşmanın sürətlənməsinə müsbət təsir göstərir və s.

## Ədəbiyyat


***I. Azərbaycan dilində***

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,1995
2. Azərbaycanın türkçülük və azərbaycançılıq problemləri. Bakı, 1998
3. Çəmənzəminli Y.V. Xarici siyasətimiz. Bakı, 1993
4. Demokratiya: gediləsi uzun yol. Antologiya. Bakı, 2002
5. Elitalar və hakimiyyət. B, 1999
6. Həsənov C. Azərbaycan beynalxalq münasibətlər sistemində.Bakı,1993
7. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005
8. Hüseynzadə Ə. Siyasəti fürusət. Bakı, 1994
9. Xəlilov S. Fəlsəfə, tarix və müasirlik. Bakı, 2006
10. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002
11. Xəlilov. S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Bakı, 2006
12. İbrahimli H. Deyişen Avrasiyada Kafkasiya. Ankara: ASAM, 2001, 96 səh
13. İbrahimli X. C. Azərbaycan siyasi mühacirəti. Bakı,1996
14. İbrahimli X. C. Diaspor və lobbiçilik. "Ayna" 10.06.2001
15. İskəndərzadə E. Lobbiləşdirmənin əsasları. Bakı. 2001
16. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı, 1996
17. Mehdiyev R. İnkişafın Azərbaycan modeli. Bakı, 2011
18. Milli məclisə seçkilərin hüquqi əsasları. Bakı, 2000
19. Nizamülmülk. Siyasətnamə. B,1989
20. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992
21. Məmmədov X. XİX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatı. Bakı, 1997

22. Nəsibli N. Azərbaycanın xarici siyasəti.Bakı,1996
23. Rəsulzadə M.Ə. Milli təsanüd. «Azərbaycan» (Ankara), 1953, N 12
24. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi. Bakı, 2000
25. Siyasi biliklərin əsasları. Bakı,1999
26. Siyasi plüralizm və çoxpartiyalı demokratiya. Bakı, 1996
27. Siyasi liderlik. Bakı, 1999
28. Siyasi elita. Bakı, 1996
29. Seçki texnologiyaları. Bakı,1998
30. Şirəliyev H.İ. Politologiya. Bakı,1993
31. Tokvil. A. Amerikada Demokratiya (1835), Bakı, 2002
32. Zərdabi H. B. Seçilmiş əsərləri. Bakı, 1960

***II. Türk dilində***

33. Ahu Tunçel. Bir siyaset felsefesi. İstanbul Bilgi İniversiteti, 2010
34. Fatmagül Bektay. Politikanın Çağrısı. İstanbul Bilgi İniversiteti, 2010
35. İbrahimli H. Deyişen Avrasiyada Kafkasiya. Ankara: ASAM, 2001, 96 səh.
36. İbrahimli H. Azerbaycan Diasporası: mövcud durumu ve geleceği konusunda bazi notlar. Avrasiya Dosyesi jurnalı (Ankara) 2001, N1.
37. İbrahimli H. Azerbaycan siyasi mühaciretinin Cümhuriyyetin çöküşü olğusuna bakışı. Böyük Dövlətlər Kıskacında Azerbaycan Meselesi (1918-1920). Meqaleler toplusu. İstanbul, Kültür Sanat Yayıcılık-2010
38. İbrahimli H. Rusiyanın Kafkaslara yönəlik yeni politikası. Azerbaycan dergisi (Ankara) Say: 337, 2001
39. Meltem Ünal Erzen. Tarihi, Kültürel ve Sosyal Paradiqmaları. Ankara, 2011
40. Mümtazer Türküne. Siyaset. Ankara, 2011
41. Hantiqton S. Medeniyyetler çatışması. İstanbul, 2002

42. Soysal İ. Tarihçileri ve açıklamaları ile birlikde Türkiyenin siyasal anlaşmaları, I cilt (1920-1945), Ankara, 1983.

***III. Ingilis dilində***

43. Approaches to the study of Politics, North Western University Press, Illinois, 1958
44. An introduction to modern political philosophy, Lesley A.Jacobs, Prentice-Hall Inc., 1997
45. Bryan T. McGraw (2010) *Faith in Politics: Religion and Liberal Democracy.* Cambridge: Cambridge University Press. 320p.
46. Copmarative Politics, J. C. Johari, Sterling Publishers Private limited, New Dehli, 1982
47. Heather Savigny and Lee Marsden (2011) *Doing Political Science and International Relations.* Basingstoke: Palgrave Macmillan. 321p.
48. Introduction to politics, Harold Laski, S Chand & Company Ltd., New dehli, 1961
49. Jain M.P. Political theories. Kaveri Printers ltd., New Dehli, 1993
50. John Schwarzmantel (2011) *Democracy and Political Violence.* Edinburgh: Edinburgh University. 213p.
51. Ken Booth (ed) (2011) *Realism and World Politics.* Oxford: Routledge. 342p.
52. Lesley A. Jacobs. An introduction to modern political philosophy, Prentice-Hall Inc.,1997
53. Modern Political theories, S. P. Varma, Vires Publish House, Dehli, 1993
54. Political theories, M. P. Jain, Kaveri Printers ltd., New Dehli, 1993
55. Political thories today, David Held, Standford University Press, California, 1991

56. Political theory, R. C. Vermani, Gitanjali Publishing house, Dehi, 1989
57. Politics and government, A. Dragnich, L. Graham, J. Rasmussa,
58. Tsurutani T. Chotham House Publisher, Inc., New Jersey, 1982
59. Theories of state, P. Durleary, B. O'Leary, Macmillan Press ltd, 1987, London
60. Varma. S.P. Modern politikal theories. Dehli 1999

***IV. Rus dilində***

61. Алийев И. Г. Каспийская нефт Азербайджана. Москва, 2003
62. Аристотел. Политика. Москва, 1911
63. Ашрафи Х Придат глобализации человеческое лицо. Ф. Науман фонд. Потсдам-Бабелсберг, 2001
64. Балайев А. Азарбайджанское национальное движение. Баку, 1998
65. Богомолов О. О неолиберализме. Междурародный жизнь, 1999, № 2
66. Вйатр Е. Сосиология политических отношений. Москва, 1999
67. Вебер М. Избранное произведение. Москва, 1990
68. Гаджиев К. С. Введение политическую науку. Москва, 1997
69. Гаджиев К. С. Политическая культура и стабилность демократии. Полис, 1992, № 4
70. Гундлах Ерих, Нунненкамп Питер. Глобализация или регионализация. Ф. Науман фонд. Потсдам-Бабелсберг, 2001
71. Глухова А.В. Политические конфликты. Москва, 2000
72. Конфликтология. Под ред. Ратникова В. П. Москва, 2005

73. Кудрявцев В. Н. Основы конфликтологии. Москва, 1997
74. Кристиан Нюрнберг. Диктатура инвестеров. Ф. Науман фонд. Потсдам-Бабелсберг, 2001
75. Кныш А. Мусулманский мистицизм. Москва, 2004
76. Лавриенко В.Н. Политология. Москва, 2006
77. Локк С. О государственном правлении. И.Ф.П.;2. Москва, 1960
78. Марченко М. Политология. Москва,1999
79. Макиавелли Н. Избранное сочинение. Москва,1982
80. Махбубани К. Остальной Запад. Ф. Науман фонд. Потсдам-Бабелсберг, 2001
81. Мазруи А. Претендент на универсализм: западная култура в эпоху глобализации. Ф. Науман фонд. Потсдам-Бабелсберг, 2001
82. Ирхин Й. В., Зотов В. Д., Зотова Л. В. Политология. Москва, 1999
83. Политические партии в условиях демокрвтии. Фонд К. Аденауера.
84. Платон. Госудорство. Сочинения в 3-х томах. Москва, 1971
85. Поппер К. Открытое общество и его враги. Том 2. Москва, 1992
86. Рассел Б. Практика теория болшевизма. Москва, 1991
87. Сафонов В.Н. Политические взгляды Платона. Сос.-политический журнал. 1998, N3. s.194-207.
88. Сартори Д. Вертикальная демократия. Полис, 1992 №5
89. Санистебан И. Политические системы и легитимность. Диалог, 1993, № 4
90. Сиделникова Т.Т., Теминков Д.А., Шарагин И.А. Политология. Москва,1999
91. Фромм Е. Бегство от свободы. Москва, 1990

92. Хантигтон С. Третая волна. Демократия в конце XX века. Москва, 2003
93. Хантигтон С. Политический порядок в меняющихся обществах. Москва, 2004
94. Хейвуд В.Н. Политология. Перевод с англ. Москва, 2005
95. Чиркин В. Е. Президентская власть. Государство и право. 1997, № 5

**S i l l a b u s**
***PolS 1200 Politologiya (4 kredit)***

**Fənnin təsviri**

Siyasi elmin predmeti. Siyasi hakimiyyət və onun daşıyıcıları. Siyasi sistem nəzəriyyəsi. Dünyada və Azərbaycanda siyasi fikir. Dövlət başlıca siyasi təsisatdır. Siyasi rejimlər. Siyasi partiyalar və partiya sistemləri. Demokratiya: əsas təsisatlar. Siyasi şüur və siyasi ideologiya. Beynəlxalq münasibətlərin politologiyası. Siyasi münaqişələr və siyasi mədəniyyət. Müasir qlobal siyasi problemlər, onların həlli yolları və vasitələri.

**Fənnin metodologiyası:**

Bu fənn üzrə başlıca təlim vasitələri mühazirələr, məşğələlər, təqdimatların nümayişi, sinif müzakirələri, mütəxəssis məruzələri, komanda şəkilində yerinə yetirilən layihələr, rollu oyunlar, müxtəlif siyasi əsərlərin, o cümlədən jurnallardan, internet səhifələrindən götürülmüş məqalələrin təhlili və tənqididir. Hər bir dərsdən əvvəl tələbə müəyyən olunmuş mətnləri və tapşırılmış bütün digər qiraət materiallarını oxumalıdır.

**Dərs siyasəti:**

**Akademik vicdansızlıq.** Mənbəni göstərmədən internet saytlarından və digər elektron sənədlərdən kəsib yapışdırma plagiatızm, aldatma forması və akademik ədalətin pozulması sayılır. Bunun ardınca nizam-intizam bərpasını tələb edən qaydalar tətbiq edilir.

**Fənnin və müəllimin dəyərləndirilməsi.** Tələbələr anonim sorğular və tələbə-pool vasitəsilə semestrin sonunda fənnin və müəllimin dəyərləndirməsini aparır. Bu zəruri və şəffaflığı təmin edən bir proseduradır.

**Sinif etiketi (ədəb qaydaları):**

**Dərsdə mövzudan kənar söhbətlər:** dərsdə kənar söhbətlər tələbələrin fəal dinləmə və qavramasını çətinləşdirir. Başqa-

larına qarşı diqqətli olun, onların hüquqlarına hörmətlə yanaşın.

**Diqqətsizlik:** Dərs vaxtı başqa kitablar, qəzetlər oxumaq, nə də kompüterdə işləmək olmaz. Dərsə qeyd dəftəri ilə gəlin. Qeydlər əllə aparılmalıdır. Hər an qrup müzakirələrinə qoşulma gözlənildiyinə görə diqqətli olmaq tələb edilir. Bu tələbəyə materialı mənimsəməkdə kömək edir. Bütün mobil telefonlar dərs vaxtı söndürülməlidir. Əks təqdirdə bu gün ərzində bütün dərslərdən məhrumiyyətə və dəyərli balların itirilməsinə gətirib çıxarar.

**Tapşırıqlar siyasəti:**

**Gecikdirilmiş iş.** Gecikdirilmiş iş (təqdimat, esse) qəbul edilməyəcək. Bununla bağlı heç bir xahiş eşidilməyəcək.

**Təqdimatlar:** Təqdimatlar baş tutmadıqda onların əvəzinə təqdimat keçirmək yolverilməzdir.

**Tələbələrin tərcümeyi-hal blankı:**

Bütün tələbələrdən ikinci dərsə kimi tərcümeyi-hal blankını doldurub müəllimə təqdim etmələri tələb olunur. Blanka bir fotoşəkil yapışdırılmalıdır. Əgər blankı doldurmasanız "Semestr ərzində fəallıq" başlığı altındakı ballarınızdan 2 bal çıxılacaq.

**Fənnin əsas tələbləri:**

**1. İmtahan:**

Fənn üzrə semestr ərzində iki dəfə imtahan keçirilir:

- aralıq imtahanı 20 %
- yekun imtahanı 40%

İmtahan açıq suallarla aparılır. Aralıq imtahanında hər bir variantda 0-5 balla qiymətləndirilən 4 sual, final imtahanında 0-8 balla qiymətləndirilən 5 sual olur. İmtahana 1,5-2 saat vaxt ayrılır.

**2. Cari qiymətləndirmə - 20%:**

- **Kuizlər** - tapmaca xarakterli qısa testlər, yaxud açıq cavab tələb edən suallar. Kuizi ötürənlərə onları yenidən təşkil etmək

mümkün deyil. Ötürülmüş bu cür testlər (0)-la qiymətləndirilir. Belə testlər dərs saatının istənilən vaxtında verilə bilər.

- **Keyslər** – kiçik həcmli tələbə araşdırmalarıdır; tələbələrin bu araşdırmaları daha çox müqayisə xarakteri daşıyır.
- **Başqa dərs və ev tapşırıqları.** Müəllim dərsə hazırlıqda və dərslərdə aktiv iştirakda sizə yardımçı olacaq digər dərs (rollu oyunlar, debatlar, diskusiyalar, kitab müzakirələri, təqdimatlar və s.) və ev tapşırıqları da verə bilər.

Tələbənin auditoriyada hər bir cavabı, yerinə yetirdiyi tapşırıq 0-10 ballıq sistem üzrə qiymətləndirilir. Semestrin sonunda fəallıq zamanı toplanan balların cəmi tapılır, cəmdən alınan rəqəm cavabların sayına bölünür, bölünmədən alınan rəqəm dərslərdə fəallıq 20 olduğundan ikiyə vurulur.

**3. Esse üzrə təqdimat, müzakirə və müdafiə - 10%:**

Semestr ərzində tələbəyə müzakirə və təqdimat üçün esse üzərində işləmək tapşırılır. Esselər kiçik araşdırma və yaxud kiçik dissertasiyalardır və tələbələrin araşdırma, təhlil etmə, tənqidi mühakimə və yaradıcılıq bacarıqlarının formalaşdırılmasına xidmət edir. Yazılı tapşırıq iki intervalla, 14 şriftlə yazılmış, 3-4 səhifəlik araşdırma ilə məhdudlaşdırılır (titul səhifəsi istisna olmaqla). Esse final imtahanına qədər təqdim edilməlidir. Təqdimat zamanı qrupdakı iştirakçılara müzakirə açmaq tapşırıla bilər və ya onlar passiv şəkildə əyləşə bilərlər. Essenin keyfiyyəti dəlillərin çoxluğu və təqdimatın anlaşıqlı, rəvan olması, eyni zamanda işə tənqidi və yaradıcı yanaşma ilə bağlıdır.

**4. Davamiyyət - 10%:**

Müəllimlər tədris etdikləri fənlər üzrə tələbələrin dərslərə davamiyyətinin düzgün qeydiyyatına cavabdehdirlər. Bütün hallarda tələbə hər bir fənn üzrə auditoriya dərslərinin 30%-dən çoxunda iştirak etmədiyi halda o, həmin fəndən imtahana buraxılmır. Qayıblara görə ballar 10% - (**bs**-buraxılan saatlar; **üas**-ümumauditoriya saatları) düsturuna əsasən aşağıdakı kimi müəyyənləşdirilir:

**(Fənnin krediti – 4 kr.)**

0 saat – 10 bal
4 saat – 8 bal
8 saat – 6 bal
12 saat – 4 bal
16 saat – 2 bal
18 saat – 0 bal

**Fənn üzrə ümumi qiymətləndirmə**

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq imtahanı | 20 | 20% |
| Yekun imtahanı | 40 | 40% |
| Cari fəallıq (kuiz, keys, təqdimat və s. tapşırıqlar) | 20 | 20 % |
| Esse | 10 | 10 % |
| Davamiyyət | 10 | 10 % |
| **Cəmi:** | **100** | **100 %** |

**AKTS qiymətləndirməsi**.

Konkret fənn üzrə semestr ərzində toplanmış balın yekun miqdarına görə təhsil alanların biliyi aşağıdakı kimi qiymətləndirilir:

| N | ballar | qiymət | kateqoriya | G.P.A. |
|---|---|---|---|---|
| 1 | 0-50 | qeyri-kafi | F | 0 |
| 2 | 51-60 | qənaətbəxş | E | 0,5 |
| **3** | **61-70** | **Kafi** | **D** | **1** |
| 4 | 71-80 | Yaxşı | C | 2 |
| 5 | 81-90 | çox yaxşı | B | 3 |
| 6 | 91-100 | əla | A | 4 |

***Politologiya fənninin normal mənimsənilməsi üçün minimum qiymət "D"-dir.***

**TƏQVİM – TEMATİK PLAN**
**CƏMİ: 60 saat; mühazirə 30 saat; məşğələ 30 saat**

| N | Mühazirə mövzuları | *Saat* |
|---|---|---|
| 1. | Politologiyanın predmeti, strukturu və əhəmiyyəti | 2s |
| 2. | Siyasi fikir tarixi | 2s |
| 3. | Azərbaycanda siyasi fikir tarixi | 2s |
| 4. | Siyasi ideologiya və din | 2s |
| 5. | Siyasi hakimiyyət | 2s |
| 6. | Demokratiya və onun formaları | 2s |
| 7. | Siyasi proses və siyasi iştirak | 2s |
| 8. | Seçkilər və seçki sistemləri | 2s |
| 9. | Seçki texnologiyaları | 2s |
| 10. | Siyasi partiyalar | 2s |
| 11. | Millət və milli siyasət | 2s |
| 12. | Xalq və şəxsiyyət siyasətin subyekti kimi | 2s |
| 13. | Siyasi liderlik, siyasi elita | 2s |
| 14. | Siyasi münaqişə və siyasi mədəniyyət | 2s |
| 15. | Xarici siyasət və qloballaşma | 2s |
| **N** | **Məşğələ mövzuları** | ***Saat*** |
| 1. | Qərbdə və Şərqdə siyasi təlimlər və konsepsiyalar | 2s |
| 2. | Azərbaycanda siyasi fikir tarixi | 2s |
| 3. | Siyasi sistemlərin tipologiyası. | 2s |
| 4. | ***I təqdimat*** | 2s |
| 5. | Siyasi hakimiyyət | 2s |
| 6. | Demokratiya və onun formaları | 2s |
| 7. | Siyasi proses və siyasi iştirak | 2s |
| 8. | ***Aralıq imtahanı*** | 2s |
| 9. | Millət və milli siyasət | 2s |

| | | |
|---|---|---|
| 10. | Xalq və şəxsiyyət siyasətin subyekti kimi | 2s |
| 11 | Siyasi liderlik. Siyasi elita | 2s |
| 12. | ***II təqdimat*** | 2s |
| 13. | Siyasi münaqişə | 2s |
| 14. | Siyasi mədəniyyət | 2s |
| 15. | Xarici siyasət və qloballaşma | 2s |
| | ***Yekun imtahan*** | |

**Esse mövzuları**

1. Afinalı demokratlar
2. Aristotel-ilk politoloq
3. Azərbaycan eposunda və folklorunda sosial – siyasi fikirlər
4. İngiltərədə özünümüdafiə azadlığı və seçki hüquqları uğrunda mübarizə (XVII əsr)
5. Fransa inqilabının hüquqlar haqqında bəyannaməsi, onun tarixi əhəmiyyəti
6. İctimai müqavilə nədir?
7. İlk Amerika demokratları
8. Kommunizm kabusundan bolşevizmə doğru
9. Ş. Cəmaləddin Əfqani - Şərqin böyük fikir adamı
10. M. F. Axundovun siyasi görüşləri
11. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan maarifçiləri – yeni cəmiyyət arzuları
12. Azərbaycançılıq nədir?
13. M. Ə. Rəsulzadə və Azərbaycan Xalq Cümhuriyyəti
14. Azərbaycan Xalq Cümhuriyyəti şərqin ilk parlamentli respublikası idi
15. Dünya insanları üçün hüquqlar (BMT Ümumdünya İnsan Hüquuqları Bəyannaməsi -1948)
16. 1980-ci illərin ilk siyasi birlikləri, ilk siyasi dərnəklər
17. Azərbaycan Xalq Cəbhsi ictimai-siyasi hərəkat kimi (1989-1992)
18. Azərbaycanda ilk siyasi partiyalar

19. Azərbaycanda siyasi liderlər-onların xarakterik cizgiləri
20. Azərbaycanda 1995-ci il parlament seçkiləri
21. Azərbaycanda 2000-2005-ci il parlament seçkiləri
22. Azərbaycanda ilk bələdiyyə seçkiləri
23. 1998-ci il prezident seçkiləri
24. H. Əliyev və Azərbaycanda yeni dövlət quruculuğu prosesi
25. Azərbaycanda seçki qanunu və normativ sənədlər: neqativ və pozitiv cəhətlər
26. Azərbaycanda çağdaş siyasi proseslər
27. Çağdaş Azərbaycanda ideoloji durum
28. Çağdaş Azərbaycanda siyasi təlimlər və partiyalar, onların tipologiyaları
29. ABŞ-da seçkilər
30. Mütərəqqi seçki texnologiyaları
31. Azərbaycan xarici siyasətinin prioritetləri
32. Qarabağ münaqişəsinin siyasi aspektləri
33. Qarabağ münaqişəsinin həllinə dair ATƏT - MQ-un təklif etdiyi sülh variantları
34. Müasir dövrdə insan haqları problemi
35. Çağdaş Azərbaycan siyasi mühitində siyasi münaqişələr və onların xarakteri
36. Azərbaycan medyası senzuranın ləğvindən əvvəl və sonra
37. İslam və demokratiya
38. Azərbaycanın ideoloji təhlükəsizlik problemləri
39. Azərbaycanda milli şüur məsələsi
40. Əxlaqlı siyasət nədir?
41. Siyasi mədəniyyət post-sovet məkanında əsas problemlərdən biridir
42. Yaxın dövr üçün siyasi proqnozlar (Azərbaycan təcrübəsi)
43. Qloballaşma və antiqloballaşma
44. Sivilizasiyaların toqquşması, yoxsa dialoqu
45. Çağdaş dünyanı narahat edən problemlər

**İmtahan sualları**

**I BLOK**

1. Politologiyanın yaranması
2. Politologiyanın predmeti, subyekti və obyekti
3. Siyasi elmlərin funksiyaları, strukturu və əhatə dairəsi
4. Politologiyanın tədqiqat metodları
5. Politologiyanın əhəmiyyəti
6. Qədim Şərqin siyasi fikir tarixi
7. Qədim Yunanıstanda və Romada siyasi fikir
8. İntibah dövrünün siyasi konsepsiyaları
9. Çağdaş siyasi təlimlər
10. Qədim dövrün siyasi fikirləri
11. İntibah dövründə siyasi fikir
12. Azərbaycan siyasi fikri XİX əsrdə və XX əsrin əvvəllərində
13. Çağdaş Azərbaycanda siyasi fikir
14. İdeologiya və siyasət
15. Liberalizm

**II BLOK**

16. Konservatizm
17. Sosializm və sosial-demokraiya
18. Radikal ideologiyalar
19. Siyasi münasibətlərin dində təzahürü
20. Siyasi hakimiyyət anlayışı
21. Hakimiyyət bölgüsü
22. Hakimiyyət formaları
23. Legitimlik
24. Demokratiya anlayışı, onun əsas əlamətləri
25. Demokratiyanın formaları
26. Hüquq dövləti
27. Dünyada demokratiyanın yayılması
28. Azərbaycnda siyasi quruluş

29. Siyasi prosesin mahiyyəti
30. Siyasi maraqlar

**III BLOK**

31. Siyasi prosesdə əsas mərhələlər
32. Siyasi iştirak və onun formaları
33. Azərbaycanda siyasi iştirakın hüquqi təminatları
34. Seçkilərin mahiyyəti və funksiyaları
35. Seçki senzləri
36. Seçki sistemləri
37. Seçici və onun davranışı
38. Azərbaycanda seçkilər
39. Siyasi idarəetmə
40. Siyasi qərarlar
41. Seçki siyasi sistemi yeniləşdirən əsas siyasi texnologiya kimi
42. Cəmiyyətlə əlaqə texnologiyaları
43. Seçki kampaniyasının strategiyası
44. Siyasətdə informasiya texnologiyaları
45. Lobbiçilik

**IV BLOK**

46. Siyasi partiyaların formalaşma tarixi
47. Siyasi partiyaların əsas əlamətləri
48. Siyasi partiyaların struktur və funksiyaları
49. Siyasi partiyaların tipologiyaları
50. Çoxpartiyalılıq
51. Azərbaycanda siyasi partiyalar
52. Millət anlayışı
53. Milli ideya və ideologiya
54. Milli müqədəratı təyin etmə məsələsi
55. Milli dövlət quruluşunun əsas formaları
56. Xalq siyasətin subyekti kimi
57. Fərd siyasətin subyekti kimi

58. Şəxsiyyətin siyasi sosiallaşması
59. Siyasi davranış
60. Siyasi lider və liderlik

**V BLOK**

61. Siyasi liderliyin təbiəti, xarakterik cizgiləri
62. Siyasi liderlərin funksiyaları
63. Siyasi elita
64. Siyasi münaqişənin funksiyaları, strukturu, xüsusiyyətləri və tipologiyası
65. Dövlətlər və sisvilizasiyalararası münaqişələr
66. Totalitar və demokratik rejimlərdə siyasi münaqişələr
67. Etnosiyasi münaqişələr
68. Siyasi mədəniyyətin mahiyyəti və funksiyaları
69. Siyasi mədəniyyətin tipologiyaları
70. Xarici siyasətin xarakterik cizgiləri
71. Dünyadakı siyasi proseslər
72. Beynəlxalq siyasi münasibətlər
73. Azərbaycanın xarici siyasəti
74. Qloballaşma nədir?
75. Qloballaşma: mədəniyyətin toqquşması, yoxsa dialoqu?

# Mündəricat

1. Ön söz...........................................................................3
2. Politologiyanın predmeti, strukturu və əhəmiyyəti............5
3. Siyasi  fikir tarixi............................................................18
4. Azərbaycanda siyasi fikir.................................... ...........34
5. Siyasi ideologiya və din..................................................52
6. Siyasi hakimiyyət............................................................69
7. Demokratiya və onun formaları........................................81
8. Siyasi proses və siyasi iştirak...........................................93
9. Seçkilər və seçki sistemləri............................................102
10. Seçki texnologiyaları.....................................................112
11. Siyasi partiyalar.............................................................125
12. Millət və milli siyasət....................................................134
13. Xalq və şəxsiyyət siyasətin subyekti kimi......................144
14. Siyasi liderlik, siyasi elita..............................................153
15. Siyasi münaqişə və siyasi mədəniyyət...........................163
16. Xarici siyasət və qloballaşma.........................................186
17. Ədəbiyyat.......................................................................197
18. Sillabus...........................................................................203

# Qeydlər